# “AZƏRBAYCAN SƏNAYE KORPORASİYASI” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartları əsasında Hazırlanmış Konsolidasiya edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi**
31 dekabr 2022-ci il il tarixində başa çatmış il üzrə

# “AZƏRBAYCAN SƏNAYE KORPORASİYASI” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## MÜNDƏRİCAT

**Səhifə**


| | |
|---|---|
| KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ | 1 |
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 2-4 |
| 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARI: | |
| Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat | 5 |
| Konsolidasiya edilmiş məcmu gəlir haqqında hesabat | 6 |
| Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat | 7 |
| Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 8-9 |
| Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə qeydlər | 10-59 |

## KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Bu bəyannamə "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") və onun törəmə müəssisələrinin (birlikdə "Qrup") Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") əsasında hazırlanmış konsolidasiya edilmiş maliyyə hesabatları ilə bağlı rəhbərliyin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik 31 dekabr 2022-ci il tarixinə Qrupun maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə əməliyyat nəticələrini, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini əks etdirən konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun şəkildə hazırlanması üçün məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-yə müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa, onun konsolidasiya edilmiş maliyyə hesabatlarında bəyan edilməsi və izahı; və
- Yaxın gələcəkdə Qrup işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə konsolidasiya edilmiş maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Qrup daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq düzgün hazırlanması və Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarını istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin Qrupun fəaliyyət göstərdiyi ölkələrin qanunvericilik və mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Qrupun aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Fırıldaqçılıq, xətalar və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə konsolidasiya edilmiş maliyyə hesabatları 26 sentyabr 2023-cü il tarixində Qrupun rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**İdarə Heyəti adından:**

AZƏRBAYCAN RESPUBLİKASI AÇIQ SƏHMDAR CƏMİYYƏTİ AZƏRBAYCAN SƏNAYE KORPORASİYASI • AZERBAIJAN INDUSTRIAL CORPORATION OPEN JOINT STOCK COMPANY AZERBAIJAN REPUBLIC

**Kamran Nəbizadə**
**Baş direktor**

26 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Rövşən Məmmədov**
**Maliyyə direktoru**

26 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

# MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarı və Rəhbərliyinə:

## *Şərti Müsbət Rəy*

Biz "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") və onun törəmə müəssisələrinin (birlikdə "Qrup") 31 dekabr 2022-ci il tarixinə təqdim edilən konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə konsolidasiya edilmiş məcmu gəlir haqqında hesabatdan, konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabatdan və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatlarına edilən qeydlərdən ibarət konsolidasiya edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, Şərti Müsbət Rəy üçün Əsaslar paraqrafında təsvir edilən məsələlər istisna olmaqla, əlavə edilmiş konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun 31 dekabr 2022-ci il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

## *Şərti Müsbət Rəy üçün Əsaslar*

31 dekabr 2022 və 31 dekabr 2021-ci il tarixlərinə Qrupun investisiya mülkiyyətinin balans dəyərinə 489,287 min AZN məbləğində tikilməkdə olan "Yeni Şəhər" kompleksinin əmlakları daxildir. Həmçinin 31 dekabr 2022 və 31 dekabr 2021-ci il tarixlərinə Qrupun investisiya mülkiyyətinin balans dəyərinə müvafiq olaraq 113,191 min AZN və 113,239 min AZN məbləğlərində Azərbaycan Respublikası hökuməti tərəfindən Qrupa səhmdar kapitalı olaraq köçürülmüş "CIDC Baku"nun aktivləri daxildir. 31 dekabr 2021-ci il tarixində başa çatmış il ərzində "CIDC Baku"-nun 20,736 min AZN məbləğində müəyyən əmlakları bu aktivlərdən istifadə üzrə rəhbərliyin fikrinin dəyişməsi əsasında investisiya mülkiyyətindən əmlak, tikili və avadanlıqlar kateqoriyasına keçirilmişdir. "Yeni Şəhər" kompleksinin tikilməkdə olan əmlaklarının və "CIDC Baku"nun əmlaklarının dəyərləri Qrupun təhvil-təslim komissiyası tərəfindən müvafiq olaraq 10 aprel 2019-cu il tarixli 21 nömrəli protokolla 489,287 min AZN və 6 may 2020-ci il tarixli 01-2020-037 saylı əmrlə 133,975 min AZN olaraq müəyyən edilmişdir. Əgər belə bir əməliyyat rəhbərlik tərəfindən həyata keçirilərsə, bu əmlakın dəyəri kapital qoyuluşu tarixindəki ədalətli dəyərindən fərqli ola bilər. Müvafiq olaraq, investisiya mülkiyyəti kateqoriyasına daxil olan "Yeni Şəhər" Kompleksi və "CIDC Baku"nun əmlaklarının ilkin tanınması və sonrakı ölçülməsi və onun kapital və mənfəət və zərər hesablarına təsiri barədə əminlik təqdim edə bilmirik. Həmçinin, biz "CIDC Baku"nun 31 dekabr 2022 və 31 dekabr 2021-ci il tarixlərinə investisiya mülkiyyətindən əmlak, tikili və avadanlıqlar kateqoriyasına ötürülmüş müvafiq olaraq 18,070 min AZN və 19,579 min AZN məbləğlərində əmlaklarının balans dəyəri və 31 dekabr 2022 və 31 dekabr 2021-ci il tarixlərində başa çatmış illər üzrə müvafiq olaraq 1,140 min AZN və 1,157 min AZN məbləğlərində əlaqədar köhnəlmə xərcləri və vergilərin təsiri barədə əminlik təqdim edə bilmirik.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

“Azərpambıq Aqrar-Sənaye Kompleksi” MMC və “Azəralüminium” MMC 31 dekabr 2022-ci il tarixinə dəyərsizləşmə testi modelində istifadə edilən giriş məlumatlarındakı əhəmiyyətli dəyişikliklər səbəbindən əmlak, tikili və avadanlıqların dəyərsizləşmə testini həyata keçirə bilməmişdir. Rəhbərlik, belə dəyərsizləşmə testinin nəticəsinin müəssisələrin real vəziyyətini əks etdirməyəcəyini hesab edir. Nəticə etibarı ilə, 31 dekabr 2022-ci il tarixinə “Azərpambıq Aqrar-Sənaye Kompleksi” MMC və “Azəralüminium” MMC-nin konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda müvafiq olaraq 101,575 min AZN və 201,282 min AZN məbləğlərində əks etdirilmiş əmlak, tikili və avadanlıqlar ilə bağlı hər hansı düzəlişlərin zəruri olub-olmadığını müəyyən edə bilməmişik.

31 dekabr 2022-ci il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda “ASK Şüşə” MMC törəmə müəssisəsinin əmlak, tikili və avadanlıq kateqoriyası 24,455 min AZN (2021-ci il: 29,528 min AZN) dəyərində əks etdirilmiş və həmin ildə başa çatmış il üzrə məcmu gəlir haqqında hesabatda dəyərsizləşmə hesablanmamışdır.

Uçot qaydalarında açıqlandığı kimi, Qrup aktivin dəyərsizləşməsinə dair hər hansı əlamətin olub-olmadığını müəyyən etmək üçün hər bir hesabat tarixində öz əmlak, tikili və avadanlıqlarının balans dəyərini nəzərdən keçirir. Əgər hər hansı belə göstəricilər mövcud olarsa, aktivin bərpa edilə bilən məbləği gələcək pul vəsaitlərinin hərəkəti proqnozuna və satış xərcləri çıxılmaqla ədalətli dəyərə istinad edilməklə, qiymətləndirilməlidir. Aktivin bərpa edilə bilən dəyəri onun balans dəyərindən azdırsa, aktivin balans dəyəri azaldılmalı və dəyərsizləşmə xərcləri tanınmalıdır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarına 1 saylı Qeyddə açıqlandığı kimi, Azərbaycan Respublikası Prezidentinin 29 oktyabr 2021-ci il tarixli fərmanı ilə “ASK Şüşə” MMC özəlləşdirməyə açıq elan edildiyi üçün Qrupun törəmə müəssisə ilə bağlı gələcək əməliyyat planları dəyişmişdir və Qrup 31 dekabr 2022 və 31 dekabr 2021-ci il tarixlərinə “ASK Şüşə” MMC-nin əmlak, tikili və avadanlıqları üzrə dəyərsizləşmə testi təhlili aparmamışdır. Qrup bu aktivlərin gələcək istifadə planlarında dəyişiklik səbəbindən müvafiq aktivlərin bərpa edilə bilən məbləğini müəyyən etmədiyinə görə, biz bu aktivlərin balans dəyərinin azaldılmalı olub-olmadığını və müvafiq dəyərsizləşmə xərclərinin tanınmasının vacibliyini müəyyən edə bilməmişik.

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın “Konsolidasiya edilmiş Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti” bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının “Etika məcəlləsinin” (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Qrupdan asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları şərti müsbət rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Konsolidasiya edilmiş Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olmadığı konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Qrupu ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud alternativi olmadığı halda, Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Qrupun maliyyə hesabatlarının hazırlanma prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

*Konsolidasiya edilmiş Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti*

Bizim məqsədimiz konsolidasiya edilmiş maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış konsolidasiya edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Konsolidasiya edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Qrupun daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Qrupun fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda konsolidasiya edilmiş maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Qrupun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin konsolidasiya edilmiş maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

Baker Tilly Azerbaijan

26 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

## KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNƏ

*(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər:** | | | |
| Əmlak, tikili və avadanlıqlar | 7 | 386,204 | 407,482 |
| Qeyri-maddi aktivlər | 7 | 2,076 | 872 |
| İnvestisiya mülkiyyəti | 8 | 730,577 | 753,570 |
| Əlaqəli təşkilata qoyulan investisiya | | 231 | - |
| Əmlak, tikili və avadanlıqlar üzrə avans ödənişləri | 9 | 821 | 1,077 |
| Təxirə salınmış vergi aktivi | 10 | 547 | 113 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **1,120,456** | **1,163,114** |
| **Cari aktivlər:** | | | |
| Mal-material ehtiyatları | 11 | 221,033 | 175,994 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 12 | 37,100 | 31,452 |
| Banklarda olan depozitlər | 13 | 3,623 | - |
| Pul vəsaitləri və onların ekvivalentləri | 14 | 85,034 | 104,051 |
| Digər cari aktivlər | 15 | 33,773 | 32,517 |
| **Cəmi cari aktivlər** | | **380,563** | **344,014** |
| **CƏMİ AKTİVLƏR** | | **1,501,019** | **1,507,128** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| **Uzunmüddətli öhdəliklər:** | | | |
| Təxirə salınmış gəlir | 16 | 6,257 | 5,525 |
| İcarə öhdəlikləri | 17 | 9,419 | 12,193 |
| Təxirə salınmış vergi öhdəliyi | 10 | 10,391 | 8,434 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **26,067** | **26,152** |
| **Cari öhdəliklər:** | | | |
| Təxirə salınmış gəlir | 16 | 396 | 354 |
| İcarə öhdəlikləri | 17 | 3,507 | 3,668 |
| Borc öhdəlikləri | 18 | 204 | 1,495 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 19 | 40,508 | 57,785 |
| **Cəmi cari öhdəliklər** | | **44,615** | **63,302** |
| **Cəmi öhdəliklər** | | **70,682** | **89,454** |
| KAPİTAL: | | | |
| Nizamnamə kapitalı | 20 | 500,000 | 500,000 |
| Digər kapital | 21 | 856,318 | 889,987 |
| Bölüşdürülməmiş mənfəət | | 74,012 | 27,680 |
| Qeyri-nəzarət payı | | 7 | 7 |
| **Cəmi kapital** | | **1,430,337** | **1,417,674** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **1,501,019** | **1,507,128** |

**İdarə Heyəti adından:**

AZƏRBAYCAN RESPUBLİKASI AÇIQ SƏHMDAR CƏMİYYƏTİ "AZƏRBAYCAN SƏNAYE KORPORASİYASI" AZERBAIJAN INDUSTRIAL CORPORATION OPEN JOINT STOCK COMPANY AZERBAIJAN REPUBLIC

**Kamran Nəbizadə**
**Baş direktor**

26 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Rövşən Məmmədov**
**Maliyyə direktoru**

26 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

10-59-cu səhifələrdə təqdim edilmiş qeydlər konsolidasiya edilmiş maliyyə hesabatının ayrılmaz tərkib hissəsini təşkil edir.

## KONSOLİDASİYA EDİLMİŞ MƏCMU GƏLİR HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Gəlir | 22 | 434,197 | 429,156 |
| Satışın maya dəyəri | 23 | (340,342) | (330,934) |
| **Ümumi mənfəət** | | **93,855** | **98,222** |
| Ümumi və inzibati xərclər | 24 | (20,747) | (16,981) |
| Satış və paylanma xərcləri | 25 | (13,650) | (17,060) |
| Mal-material ehtiyatları üzrə yaradılmış ehtiyat | 11 | (1,704) | (133) |
| Debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri | 12 | (4,196) | (3,201) |
| **Əməliyyat mənfəəti** | | **53,558** | **60,847** |
| Maliyyə xərcləri | 26 | (1,102) | (2,300) |
| Digər gəlirlər/(xərclər), xalis | 27 | 2,448 | (620) |
| **Mənfəət vergisi xərcindən əvvəlki mənfəət** | | **54,904** | **57,927** |
| Mənfəət vergisi xərci | 10 | (8,702) | (13,828) |
| **İl üzrə xalis mənfəət** | | **46,202** | **44,099** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | | **46,202** | **44,099** |
| **Aşağıdakılara aiddir:** | | | |
| Ana müəssisənin səhmdarı | | 46,202 | 44,098 |
| Qeyri-nəzarət payı | | - | 1 |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | | **46,202** | **44,099** |

**İdarə Heyəti adından:**

**Kamran Nəbizadə**
**Baş direktor**

26 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Rövşən Məmmədov**
**Maliyyə direktoru**

26 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

10-59-cu səhifələrdə təqdim edilmiş qeydlər konsolidasiya edilmiş maliyyə hesabatının ayrılmaz tərkib hissəsini təşkil edir.

# "AZƏRBAYCAN SƏNAYE KORPORASİYASI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## KONSOLİDASİYA EDİLMİŞ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Digər kapital | Bölüşdürülməmiş mənfəət/ (yığılmış zərərlər) | Qeyri-nəzarət payı | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2021-ci il** | **500,000** | **876,698** | **(17,196)** | **6** | **1,359,508** |
| Təsisçi tərəfindən kapital qoyuluşu | - | 37,065 | - | - | 37,065 |
| Təsisçi tərəfindən qoyulmuş kapitalın geri çəkilməsi | - | (23,776) | 778 | - | (22,998) |
| İl üzrə cəmi məcmu gəlir | - | - | 44,098 | 1 | 44,099 |
| **31 dekabr 2021-ci il** | **500,000** | **889,987** | **27,680** | **7** | **1,417,674** |
| Təsisçi tərəfindən kapital qoyuluşu | - | 1,098 | - | - | 1,098 |
| Təsisçi tərəfindən qoyulmuş kapitalın geri çəkilməsi | - | (34,767) | 130 | - | (34,637) |
| İl üzrə cəmi məcmu gəlir | - | - | 46,202 | - | 46,202 |
| **31 dekabr 2022-ci il** | **500,000** | **856,318** | **74,012** | **7** | **1,430,337** |

**İdarə Heyəti adından:**

**Kamran Nəbizadə**
**Baş direktor**

26 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Rövşən Məmmədov**
**Maliyyə direktoru**

26 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

10-59-cu səhifələrdə təqdim edilmiş qeydlər konsolidasiya edilmiş maliyyə hesabatının ayrılmaz tərkib hissəsini təşkil edir.

## KONSOLİDASİYA EDİLMİŞ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | | |
| Mənfəət vergisi xərcindən əvvəlki mənfəət | | 54,904 | 57,927 |
| Mənfəət vergisi xərcindən əvvəlki mənfəətin xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirilməsi üzrə düzəlişlər: | | | |
| Köhnəlmə və amortizasiya xərcləri | 7 | 23,990 | 23,808 |
| Əmlak, tikili və avadanlıqların silinməsi üzrə zərər | 27 | 482 | - |
| Qeyri-maddi aktivlərin silinməsi üzrə zərər | 27 | 134 | - |
| İnvestisiya mülkiyyətinin silinməsi üzrə zərər | 27 | 309 | - |
| Maliyyə alətlərinin dəyişməsi üzrə silinmə | 27 | 37 | - |
| Mal-material ehtiyatları üzrə yaradılmış ehtiyat | 11 | 1,704 | 133 |
| Debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri | 12 | 4,196 | 3,201 |
| Müddətli depozit üzrə faiz gəliri | 27 | (96) | (10) |
| Aktivlərin əldə edilməsi ilə bağlı hökumət qrantları üzrə gəlir | 27 | (771) | (354) |
| Öhdəliklərin silinməsi üzrə gəlir | 27 | (1,368) | (483) |
| Maliyyə xərcləri | 26 | 1,102 | 2,300 |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəlki əməliyyat fəaliyyətləri üzrə daxil olan pul vəsaitləri** | | **84,623** | **86,522** |
| Əməliyyat aktivləri və öhdəlikləri üzrə dəyişikliklər: | | | |
| Mal-material ehtiyatlarında dəyişiklik | | (48,375) | 3,655 |
| Debitor borcları və digər alınacaq vəsaitlərdə dəyişiklik | | (9,880) | (6,353) |
| Digər cari aktivlərdə dəyişiklik | | (3,784) | (14,278) |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlərdə dəyişiklik | | (16,774) | (1,463) |
| **Əməliyyat fəaliyyətlərindən daxil olan pul vəsaitləri** | | **5,810** | **68,083** |
| Ödənilmiş mənfəət vergisi | | (4,810) | (1,890) |
| **Əməliyyat fəaliyyətlərindən yaranan xalis pul vəsaitləri** | | **1,000** | **66,193** |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | | |
| Əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin satın alınması | | (10,223) | (6,181) |
| Əlaqəli təşkilata qoyulan investisiya | | (231) | - |
| Bank depozitinin yerləşdirilməsi | | (18,623) | (1,800) |
| Bank depozitindən daxilolmalar | | 15,000 | 1,800 |
| Bank depoziti üzrə alınmış faiz | | 96 | 10 |
| **İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | | **(13,981)** | **(6,171)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTLƏRİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | | |
| İcarə ödənişləri | 17 | (4,687) | (1,117) |
| Ödənilmiş maliyyə xərcləri | 18 | (58) | (1,083) |
| Borc alınmış vəsaitlərin qaytarılması | 18 | (1,291) | (20,836) |
| Təsisçi tərəfindən kapital qoyuluşu | | - | 37,000 |
| **Maliyyələşdirmə fəaliyyətlərində (istifadə olunan)/yaranan xalis pul vəsaitləri** | | **(6,036)** | **13,964** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS (AZALMA)/ARTIM | | (19,017) | 73,986 |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə*** | 14 | **104,051** | **30,065** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna*** | 14 | **85,034** | **104,051** |

*Nağdsız əməliyyatlar*

31 dekabr 2022-ci il tarixində başa çatmış il ərzində pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan çıxarılan və pul vəsaitlərinin və onların ekvivalentlərinin istifadəsini tələb etməyən əməliyyat və investisiya fəaliyyətinə 708 min AZN məbləğində istifadə hüququ olan nəqliyyat vasitələri və Hökumət tərəfindən Qrupa, müvafiq olaraq, 329 min AZN, 725 min AZN və 44 min AZN məbləğlərində əmlak, tikili və avadanlıqların, investisiya mülkiyyətinin və mal-material mülkiyyətinin digər kapitala ötürülməsi, müvafiq olaraq 10,896 min AZN, 10 min AZN, 23,403 min AZN və 458 min AZN məbləğlərində törəmə müəssisənin, əmlak, tikili və avadanlıqların, investisiya mülkiyyətinin və mal-material mülkiyyətinin digər kapitaldan silinməsi daxildir. Bundan əlavə, 2022-ci il ərzində Hökumət tərəfindən maşın, avadanlıq və nəqliyyat vasitələrinin əldə olunması ilə bağlı 1,546 min AZN məbləğində qrantlar verilmişdir.

31 dekabr 2021-ci il tarixində başa çatmış il ərzində pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan çıxarılan, pul vəsaitləri və onların ekvivalentlərinin istifadəsini tələb etməyən investisiya və maliyyələşdirmə fəaliyyətlərinə digər kapitala 65 min AZN məbləğində Hökumət tərəfindən mal-material mülkiyyətinin Qrupa təhvil verilməsi və müvafiq olaraq, 21,276 min AZN və 2,500 min AZN məbləğlərində törəmə müəssisələrin və investisiya mülkiyyətinin digər kapitaldan silinməsi daxildir.

**İdarə Heyəti adından:**

| | |
|---|---|
| **Kamran Nəbizadə** | **Rövşən Məmmədov** |
| **Baş direktor** | **Maliyyə direktoru** |
| 26 sentyabr 2023-cü il | 26 sentyabr 2023-cü il |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |

10-59-cu səhifələrdə təqdim edilmiş qeydlər konsolidasiya edilmiş maliyyə hesabatının ayrılmaz tərkib hissəsini təşkil edir.

## 1. GİRİŞ

"Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyəti ("Cəmiyyət") Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 2017-ci il tarixli Fərmanına uyğun olaraq təsis edilmişdir. Cəmiyyət 8 dekabr 2017-ci il tarixində 1305305281 saylı vergi eyniləşdirmə nömrəsi ilə açıq səhmdar cəmiyyəti kimi qeydiyyata alınmışdır.

Cəmiyyət 100% Azərbaycan Respublikasına ("Hökumət") məxsusdur.

Azərbaycan Respublikasının Prezidenti 16 aprel 2021-ci il tarixində "Azərtütün Aqrar-Sənaye Kompleksi" MMC-nin özəlləşdirilməsi haqqında fərman imzalamışdır.

Azərbaycan Respublikasının Prezidenti 29 oktyabr 2021-ci il tarixində həmin dövlət müəssisələrinin fəaliyyətinin səmərəliliyini artırmaq və inkişaf etdirmək məqsədilə Qrupun idarə etdiyi və nəzarət etdiyi bəzi qurumların və aktivlərin özəlləşdirilməsi haqqında fərman imzalamışdır. Fərmana əsasən, aşağıdakı müəssisələr özəlləşdirməyə açıq elan edilmişdir:

"ASK Şüşə" MMC
"Azəripək" MMC
"ASK Ayaqqabı Fabriki" MMC
"ASK Şəki Şərab" MMC
"ASK İzolit" MMC
"ASK Tekstil" MMC
"ASK Şəki SES" MMC

Həmçinin Qrup tərəfindən idarə olunan və nəzarət edilən bəzi aktivlər, o cümlədən "CIDC Baku"nun aktivləri də özəlləşdirməyə açıq elan edilmişdir. Qrupun rəhbərliyi özəlləşdirməyə qədər bu müəssisələrin əməliyyatlarına və aktivlərinin mühafizəsinə cavabdeh olacaq. 31 dekabr 2022-ci il tarixinə "ASK Ayaqqabı Fabriki" MMC fərmana əsasən özəlləşdirilən yeganə şirkət olmuşdur (31 dekabr 2021-ci il: "Azərtütün Aqrar-Sənaye Kompleksi" MMC və "ASK Şəki Şərab" MMC). Alıcının yerləşdirilməsi üçün aktiv proqram mövcud olmadığından və özəlləşdirmənin ehtimal olunan başlama və tamamlanma tarixi 31 dekabr 2022-ci il tarixinə müəyyən edilmədiyindən, qalan müəssisələr və aktivlər Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarında silinmə məqsədilə saxlanılan aktivlər kateqoriyasına aid edilməmişdir.

31 dekabr 2022-ci il tarixinə Cəmiyyətin aşağıdakı törəmə və əlaqəli müəssisələri olmuşdur:

| **Törəmə müəssisənin adı** | **Əsas fəaliyyət** | **Müəssisənin kapitalında pay nisbəti** |
|---|---|---|
| "Azəralüminium" MMC | Alüminium məhsullarının istehsalı və satışı | 100% |
| "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC | Pambıq məhsullarının istehsalı və satışı | 100% |
| "ASK Şüşə" MMC | Şüşə və banka məhsullarının istehsalı və satışı | 100% |
| "ASK Tütün" MMC | Xam tütün satışı | 100% |
| "Azəripək" MMC | İpək və ipək məhsullarının istehsalı və satışı | 100% |
| "ASK Aqro" MMC | Südçülük və heyvandarlıq | 100% |
| "ASK İzolit" MMC | İzolyasiya məhsullarının istehsalı və satışı | 100% |
| "ASK Tekstil" MMC | Tekstil məhsullarının istehsalı və satışı | 100% |
| "ASK Xidmət" MMC | Daşınmaz əmlakın idarə edilməsi | 100% |
| "ASK Security" MMC | Qrup şirkətlərinə təhlükəsizlik xidmətlərinin göstərilməsi | 100% |
| "ASK Əmlak" MMC | İdman fəaliyyətləri | 100% |
| "ASK Şəki SES" MMC | Su elektrik enerjisi istehsalı | 100% |
| "Göyəzən" ASC | İcarə xidmətləri | 96% |
| "ASK Rusiya" MMC | Maliyyə xidmətlərinin göstərilməsi | 90% |
| "İnterAL" MMC | Lövhələrin və lentlərin istehsalı və satışı | 29% |

Müşahidə Şurasının 29 aprel 2022-ci il tarixli qərarına əsasən "ASK Poliqrafiya" MMC, "ASK İnşaat" MMC, "ASK Turizm" MMC və "ASK Şəki Kərpic" MMC daxil olmaqla, törəmə müəssisələr "ASK Xidmət" MMC-yə birləşdirilmişdir.

31 dekabr 2021-ci il tarixinə Cəmiyyətin aşağıdakı törəmə müəssisələri olmuşdur:

| **Törəmə müəssisənin adı** | **Əsas fəaliyyət** | **Müəssisənin kapitalında pay nisbəti** |
|---|---|---|
| "Azəralüminium" MMC | Alüminium məhsullarının istehsalı və satışı | 100% |
| "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC | Pambıq məhsullarının istehsalı və satışı | 100% |
| "ASK Şüşə" MMC | Şüşə və banka məhsullarının istehsalı və | 100% |
| "ASK Tütün" MMC | Xam tütün satışı | 100% |
| "Azəripək" MMC | İpək və ipək məhsullarının istehsalı və satışı | 100% |
| "ASK Ayaqqabı Fabriki" MMC | Ayaqqabı və çəkmələrin istehsalı və satışı | 100% |
| "ASK Aqro" MMC | Südçülük və heyvandarlıq | 100% |
| "ASK İzolit" MMC | İzolyasiya məhsullarının istehsalı və satışı | 100% |
| "ASK Tekstil" MMC | Tekstil məhsullarının istehsalı və satışı | 100% |
| "ASK Poliqrafiya" MMC | Daşınmaz əmlakın idarə edilməsi | 100% |
| "ASK İnşaat" MMC | Tikinti işləri | 100% |
| "ASK Xidmət" MMC | Daşınmaz əmlakın idarə edilməsi | 100% |
| "ASK Turizm" MMC | Turizm xidmətləri | 100% |
| "ASK Şəki Kərpic" MMC | Kərpic məhsullarının istehsalı və satışı | 100% |
| "ASK Security" MMC | Qrup şirkətlərinə təhlükəsizlik xidmətlərinin göstərilməsi | 100% |
| "ASK Əmlak" MMC | İdman fəaliyyətləri | 100% |
| "ASK Şəki SES" MMC | Su elektrik enerjisi istehsalı | 100% |
| "Göyəzən" ASC | İcarə xidmətləri | 96% |
| "ASK Rusiya" MMC | Maliyyə xidmətlərinin göstərilməsi | 90% |

***“İnterAL” MMC-nin yaradılması***

Qrup 22 sentyabr 2022-ci il tarixində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq alüminium lövhə və lentlərin istehsalı və satışı ilə məşğul olan “İnterAL” MMC-ni təsis etmişdir.

Bu şirkətin ilkin nizamnamə kapitalı hər birinin nominal dəyəri 0.1 min Avro olan bərabər 100 səhmə bölünmüş 10 min Avrodur. Tərəflərin payları və səhmlərinin ilkin sayı aşağıdakı kimidir:

- “Azərbaycan Sənaye Korporasiyası” ASC nizamnamə kapitalının 25%-nə, yəni ümumi nominal dəyəri 2,5 min Avro (4,53 min AZN) olan 25 səhmə sahibdir;
- “Azəralüminium” MMC nizamnamə kapitalının 4%-nə, yəni ümumi nominal dəyəri 0,4 min Avro (0,73 min AZN) olan 4 səhmə sahibdir;
- “Achnbach Alpha GMBH” nizamnamə kapitalının 71%-nə, yəni ümumi nominal dəyəri 7,1 min Avro (12,86 min AZN) olan 71 səhmə sahibdir.

***Ümumi nəzarət altında olan birgə müəssisələr***

2020-ci il ərzində Azərbaycan Respublikası Hökuməti “Göyəzən” ASC-nin (“Alıcı”) 96% sahiblik hüququnu “Aqrarkredit” QSC-dən Qrupa ötürülmüşdür. Bu əmrə uyğun olaraq, Alıcının bütün aktiv və öhdəlikləri Qrupun balanslarına birləşdirilmişdir.

Alıcının köçürmə tarixinə ümumiləşdirilmiş maliyyə məlumatları aşağıda verilmişdir. Bu məlumat, şirkətlərarası ləğv etmədən əvvəl bu konsolidasiya edilmiş maliyyə hesabatlarında konsolidasiya məqsədləri üçün düzəliş edilmiş MHBS-yə uyğun olaraq hazırlanmış Alıcının maliyyə hesabatlarında təqdim edilmiş məbləğlərə əsaslanır və buna görə də Alıcının MHBS əsasında hazırlanmış maliyyə hesabatlarında təqdim olunan məlumatlardan fərqlənir.

| | **Köçürmə tarixinə** |
|---|---|
| Uzunmüddətli aktivlər | 135 |
| Cari aktivlər | 8 |
| Cari öhdəliklər | (10) |
| Qeyri-nəzarət payı | (5) |
| **Cəmi xalis aktivlər** | **128** |

Cəmi xalis aktivlər 128 min AZN məbləğində digər kapitalda əks etdirilmişdir.

**Əsas məqsədlər və fəaliyyət istiqamətləri**

Cəmiyyətin əsas məqsədləri və fəaliyyət istiqamətləri dövlət əmlakının idarəedilməsində səmərəliliyin artırılması, törəmə müəssisələr arasında faydalı əməkdaşlıq əlaqələrinin qurulması, dəyər zəncirlərində istehsal potensialının artmasına nail olunması, sənaye istehsalının həcminin və qeyri-neft sektorunun artım sürətinin gücləndirilməsi daxildir.

**Qeydiyyat ünvanı və fəaliyyət yeri:**

Cəmiyyət Azərbaycan Respublikasında təsis edilmişdir. Cəmiyyətin qeydə alınmış hüquqi və əsas ünvanı Azərbaycan Respublikası, Bakı şəhəri, Yasamal rayonu, İzmir küçəsi, mənzil 14-dür.

**Qrupun əməliyyat mühiti**

Qrupun fəaliyyəti Azərbaycan Respublikasında həyata keçirilir. Qrup inkişaf etməkdə olan bazarın xüsusiyyətlərini əks etdirən Azərbaycanın iqtisadi və maliyyə bazarları ilə qarşılıqlı fəaliyyət göstərir. Hüquq, vergi və tənzimləyici strukturlar daimi inkişafdadır, bununla belə mütəmadi olaraq yeni şərhlərə, dəyişikliklərə məruz qalırlar, bu isə öz növbəsində digər hüquqi və maliyyə çətinlikləri ilə birlikdə Azərbaycanda fəaliyyət göstərən müəssisələrin üzləşdiyi problemləri daha da gücləndirir.

Azərbaycan iqtisadiyyatı həmçinin beynəlxalq enerji qiymətləri səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Xam neftin qiyməti ilin birinci yarısında təchizat ilə bağlı çətinliklər səbəbindən artmış, lakin ilin ikinci yarısından etibarən mümkün iqtisadi tənəzzüllə bağlı çətinliklər tələbi azaltdığından neft qiymətləri ümumilikdə azalmışdır. "Brent" markalı neftin spot qiyməti 2022-ci ildə 1 barel üçün orta hesabla 100 ABŞ dolları təşkil etmişdir. Yüksək neft qiymətləri ölkənin iqtisadi inkişafını dəstəkləmişdir.

2015-2016-cı illərdə Azərbaycan manatının dəyərdən düşməsi biznes mühitində ciddi qeyri-müəyyənliklərə səbəb olmuşdur. Bu səbəbdən hökumət son 5 ildə sabit məzənnəni qorumaq üçün bütün lazımi tədbirləri həyata keçirmişdir. Nəticədə, neftin dünya bazarındakı qeyri-sabit qiyməti yerli valyutaya təsir göstərməmiş, eləcə də biznes mühitində qeyri-müəyyənlik artmamışdır.

COVİD-19 koronavirus pandemiyası 2020-ci ildə müəssisələrə əhəmiyyətli dərəcədə təsir göstərmişdir, lakin hökumətin uğurlu peyvənd kampaniyasından sonra müəssisələrin əksəriyyəti 2021-ci ildə və 2022-ci ilin birinci yarısında davamlı olaraq öz normal fəaliyyətinə qayıtmışdır. Qarabağ regionunda atəşkəs razılaşmasının davam etməsi biznes mühitinə də müsbət təsir göstərir, çünki investisiyaların cəlb edilməsi və işğaldan azad edilmiş ərazilərin inkişafı üçün hökumət tərəfindən həyata keçirilən bir sıra layihələr mövcuddur.

ÜDM 2022-ci ildə 2021-ci illə müqayisədə 4.6% artaraq 133.8 milyard AZN məbləğinə (78.7 milyard ABŞ dolları) çatmışdır. Dövlət Gömrük Komitəsinin statistikasına əsasən 2022-ci il ərzində Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi təqribən 52.69 milyard ABŞ dollarına çatmışdır. Bu məbləğin 38.15 milyard ABŞ dolları ixrac olunan məhsulların, 14.54 milyard ABŞ dolları isə idxal olunan məhsulların payına düşmüşdür.

Beynəlxalq kredit reytinq agentlikləri mütəmadi olaraq Azərbaycan Respublikasının kredit reytinqini qiymətləndirirlər. "Fitch" və "S&P" Azərbaycan Respublikasının reytinqini "BB+" olaraq qiymətləndirmişdir. "Moody's Investors Service", ölkə üçün "Ba1" kredit reytinqini təyin etmişdir.

Qrupun əməliyyatları qlobal alüminium və alüminium oksidinin qiymətlərindən çox asılıdır. Alüminiumun qiyməti 2022-ci il ərzində bir ton üçün təxminən 3,800 ABŞ dolları məbləğinə yüksəlmiş və sonra ilin sonuna qədər 2,400 ABŞ dolları məbləğinə enmişdir.

2022-ci il ərzində xam pambığın bir tonunun qiyməti 2,910 ABŞ dollarından 2,210 ABŞ dollarına düşmüşdür. Dünya bazarında ipəyin qiyməti 2022-ci il ərzində bir ton üçün 70.2 ABŞ dollarından 61.1 ABŞ dollarına qədər azalmışdır.

## 2. ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTİNİN XÜLASƏSİ

### Təqdimatın əsasları

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (“MHBS”) və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi (“MHBSŞK”) tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

### Konsolidasiyanın prinsipləri

Konsolidasiya edilmiş maliyyə hesabatları Cəmiyyətin və onun nəzarəti altında olan müəssisələrinin (onun törəmə müəssisələri) maliyyə hesabatlarını birləşdirir. Cəmiyyətin, fəaliyyətlərindən mənfəət əldə etmək məqsədilə sərmayə qoyulan müəssisənin maliyyə və əməliyyat siyasətini idarə etmək gücü olduqda nəzarət əldə edilir.

Törəmə müəssisələrin il ərzində əldə etdiyi gəlir və xərclər müvafiq olaraq əldə etmənin qüvvəyə minmə tarixindən silinmənin qüvvəyə minmə tarixinə qədər məcmu gəlir haqqında konsolidasiya edilmiş maliyyə hesabatına daxil edilir. Hətta qeyri-nəzarət payı üzrə nəticələr mənfi saldo ilə yekunlaşdığı hallarda belə törəmə müəssisələrin cəmi məcmu gəliri Qrupun əsas səhmdarlarına və qeyri-nəzarət payına aid edilir.

Müvafiq olduqda, Cəmiyyətin digər üzvləri tərəfindən istifadə olunmuş uçot siyasətinin Qrup tərəfindən qəbul edilmiş qaydalara uyğunlaşdırılması üçün törəmə müəssisələrin və filialların maliyyə hesabatlarına düzəlişlər olunur.

Qrup üzvləri arasında əməliyyatlarla əlaqəli bütün qrupdaxili aktiv və öhdəliklər, kapital, gəlirlər, xərclər və pul vəsaitlərinin hərəkəti tam konsolidasiya zamanı silinir.

### Müəssisələrin birləşməsi və qeyri-nəzarət payının satın alınması

Müəssisələrin birləşməsi satınalma metodundan istifadə etmək üçün hesablanır. Satın alınmanın dəyəri, alış tarixində ədalətli dəyərlə ölçülmüş köçürülən ümumi məbləğ və əldə edilmiş müəssisədə qeyri-nəzarət payının miqdarı kimi ölçülür. Hər bir müəssisə birləşməsi üçün, Qrup əldə edilmiş müəssisənin qeyri-nəzarət paylarını ədalətli dəyərdə və ya əldə edilmiş müəssisənin müəyyən edilə bilən xalis aktivlərinin mütənasib payı ilə ölçməyi seçir. Satın alınma ilə bağlı xərclər baş verdiyi an tanınır və inzibati xərclərə daxildir.

Qrup yeni müəssisə əldə etdikdə, müqavilə şərtlərinə, iqtisadi şəraitə və alış tarixindəki müvafiq şərtlərə uyğun olaraq müvafiq təsnifat və təyinat üçün qəbul edilmiş maliyyə aktivlərini və öhdəliklərini qiymətləndirir. Buraya əsas müqavilə üzrə alıcı tərəfindən əlaqəli törəmələrin ayrılması daxildir.

Müəssisə birləşmələri nəticəsində yaranan şərti öhdəlik, müəssisə birləşməsinin bir hissəsi kimi, alış tarixində ədalətli dəyərlə qiymətləndirilir. Maliyyə aləti olan və “Maliyyə alətləri: Tanınma və ölçülmə” adlı 39 saylı MUBS-da tətbiq olunan, aktiv və ya öhdəlik kimi təsnifləşdirilən şərti öhdəlik dəyəri ədalətli dəyərlə ölçülür və 39 saylı MUBS-a uyğun olaraq ədalətli dəyərdə dəyişikliklər mənfəət və zərər hesabatında əks etdirilir.

Qudvil, ilkin olaraq, alış qiyməti ilə ölçülür (köçürülən ümumi məbləğdəki artıq məbləğ və tanınmış qeyri-nəzarət payı və əldə edilmiş xalis müəyyən edilə bilən aktivlər və qəbul edilmiş öhdəliklər üzrə tutulan hər hansı əvvəlki faiz). Alınmış xalis aktivlərin ədalətli dəyəri köçürülmüş ümumi məbləğdən artıq olduqda, Qrup alınmış bütün aktivləri və qəbul edilmiş öhdəliklərin hər birinin düzgünlüyünü müəyyən edir və alış tarixində tanınacaq məbləğləri ölçmək üçün istifadə olunan prosedurları nəzərdən keçirir. Yenidən qiymətləndirmə yenə də xalis aktivlərin ədalətli dəyəri köçürülmüş ümumi məbləğdən artıq olduqda, gəlir mənfəət və ya zərər hesabatında tanınır.

İlkin tanınmadan sonra qudvil yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə ölçülür. Dəyərsizləşmə testi məqsədilə, müəssisələrin birləşməsindən əldə edilmiş qudvil, əldə edilmiş tarixdən etibarən, əldə edilən müəssisənin digər aktiv və ya öhdəliklərinin olub-olmamasından asılı olmayaraq, birləşmədən faydalanması gözlənilən Qrupun pul yaradan vahidlərinin hər birinə bölünür.

**Ümumi nəzarət altında olan müəssisələrin birləşməsi**

“Müəssisələrin Birləşməsi” adlı 3 saylı MHBS ümumi nəzarət altında olan müəssisələrə və ya müəssisələrin birləşməsinə tətbiq edilmir. Ümumi nəzarət altında olan qurumlar və ya müəssisələrin cəlb olunduğu müəssisələrin birləşməsi müəssisələrin birləşməsindən əvvəl və sonra eyni tərəf və ya tərəflərin nəticə etibarı ilə nəzarət etdiyi və bu nəzarətin ötürülmədiyi bütün birgə qurumlar və ya müəssisələrin birləşməsidir. “Uçot siyasətləri, uçot qiymətləndirmələrində dəyişikliklər və səhvlər” adlı MUBS 8 standartına müvafiq olaraq daha etibarlı və münasib məlumatlarla təmin etdiyi üçün rəhbərlik bu növ əməliyyatların uçota alınması üçün “tarixi dəyər metodu”ndan istifadə etmişdir. “Tarixi dəyər metodu”na mövcud balans dəyərlərindən istifadə etməklə əldə edilmiş müəssisənin aktiv və öhədliklərinin uçota alınması daxildir. Müəssisəni alan şəxsin investisiya xərci və satan şəxsin kapitalı arasında fərq konsolidasiya üzrə kapital çərçivəsində ayrıca ehtiyat olaraq təqdim edilir.

**Fasiləsizlik prinsipi**

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun fasiləsizlik prinsipi əsasında yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik hesab edir ki, Qrup yaxın gələcəkdə fəaliyyətini davam etdirəcək və Qrupun ləğvinə nə istək, nə də ehtiyac olacaq, eləcə də fəaliyyəti dayandırmaq və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlardan qorunmaq üçün müdafiə axtarmaq üzrə nə niyyət, nə də zərurət mövcuddur.

Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyət gedişində Qrupun aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olması fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi konsolidasiya edilmiş maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Qrupun fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Rəhbərliyin fəaliyyətinin fasiləsizliyi fərziyyəsini qiymətləndirməsi mahiyyət etibarilə qeyri-müəyyən olan hadisələrin və ya şərtlərin gələcək inkişafı ilə əlaqədar müəyyən bir zamanda mühakimə yürütməyi əhatə edir.

**Cari və uzunmüddətli təsnifləşdirmələr**

Qrup aktiv və öhdəlikləri cari/uzunmüddətli təsnifləşdirmələr əsasında konsolidasiya edilmiş maliyyə hesabatlarında təqdim edir. Aktiv aşağıdakı hallarda cari aktiv sayılır:

- Adi əməliyyat dövründə satılması və ya istehlak edilməsi nəzərdə tutulduqda və ya satılması ehtimal edildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı on iki ay ərzində satılması ehtimal edildikdə; və ya
- Pul vəsaitləri və onların ekvivalentlərinin hesabat tarixindən sonra ən azı on iki ay müddətində mübadilə edilməsi və ya öhdəliyin ödənilməsi üzrə istifadə edilməsi məhdudlaşdırılmadıqda.

Digər bütün aktivlər uzunmüddətli aktivlər sayılır.

Öhdəlik aşağıdakı hallarda cari öhdəlik sayılır:

- Adi əməliyyat dövrü ərzində ödənilməsi gözlənildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı on iki ay ərzində ödənilməsi ehtimal edildikdə; və ya
- Hesabat dövründən sonra ən azı on iki ay müddətində öhdəliyin ödənilməsini təxirə salmaq üzrə qeyri-şərtsiz hüquq mövcud olmadıqda.

Qrup bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər olaraq təsnif edir.

Təxirə salınmış vergi aktiv və öhdəlikləri uzunmüddətli aktiv və öhdəliklər kimi təsnif edilir.

**Təqdimatın digər əsasları**

Konsolidasiya edilmiş maliyyə hesabatları, başqa cür qeyd edilmədiyi hallarda, Azərbaycan Manatı ("AZN") ilə ifadə edilir. Konsolidasiya edilmiş maliyyə hesabatları şərti dəyər kimi ədalətli dəyərdə qeydə alınan əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər və investisiya mülkiyyəti istisna olmaqla tarixi dəyər əsasında tərtib edilmişdir.

MHBS-nin qəbul edilməsi Qrupun mühasibat uçotu siyasətində dəyişikliklərə səbəb olmuşdur. Düzəliş edilmiş mühasibat prinsipləri aşağıda göstərilmişdir:

**Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər**

Əmlak, tikili və avadanlıqlar peşəkar müstəqil qiymətləndiricilərin apardığı qiymətləndirmə ilə bazara əsaslanan sübutlardan formalaşmış yenidən qiymətləndirmə tarixindəki ədalətli dəyərdən sonradan yığılmış köhnəlmə və dəyərsizləşmə zərərləri çıxılmaqla, konsolidasiya edilmiş maliyyə hesabatlarında şərti dəyər olaraq ədalətli dəyərdə qeydə alınır.

| | |
|---|---|
| Maşın və avadanlıqlar | 3-20 il |
| Binalar və bənzər tikililər | 5-70 il |
| Elektrolizatorlar | 5-15 il |
| Nəqliyyat vasitələri | 5-20 il |
| Digər | 5-20 il |
| Qeyri-maddi aktivlər | 2-10 il |
| İstifadə hüququ olan aktivlər | icarə müddətindən asılıdır |

Aktivin amortizasiyası istifadəyə yararlı olduqda, yəni rəhbərliyin nəzərdə tutduğu qaydada işləyə bilməsi üçün lazım olduğu yerdə və şəraitdə olduqda başlayır. Aktivin amortizasiyası, satış üçün saxlanılan aktiv kimi təsnifləşdirildiyi (və ya satış üçün saxlanılan kimi təsnifləşdirilən silinmə qrupuna daxil edildiyi) tarixdən əvvəl, 5 saylı MHBS və aktivin tanınmasının dayandırıldığı tarixinə uyğun olaraq dayandırılır. Buna görə, aktiv gözlədikdə və ya aktiv tamamilə amortizasiya edilmədikdə, aktiv istifadədən çıxdıqda amortizasiya dayandırılmır.

Faydalı istifadə müddəti və amortizasiya metodu hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv əsasda tətbiq edilir.

Aktivin qalıq dəyəri dedikdə, aktivin artıq istifadə edilmiş olması və istifadə müddətinin sonunda olacağı vəziyyətində olması fərziyyəsi ilə, satışın təxmini xərcləri çıxılmaqla Qrupun həmin aktivin satışından əldə edə biləcəyi vəsaitlərin məbləği nəzərdə tutulur.

Aktivin qalıq dəyəri aktivin balans dəyərinə bərabər və ya ondan daha çox olan məbləğə qədər arta bilər. Belə olduğu halda, qalıq dəyəri sonradan aktivin balans dəyərindən aşağı məbləğə qədər azalanadək aktivin amortizasiya haqqı sıfırdır.

Qrup hər bir hesabat tarixinin sonunda əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlərinin balans dəyərlərinin dəyərsizləşməsinə dair ehtimalın olmasını qiymətləndirir. Əgər hər hansı belə ehtimal mövcuddursa dəyərsizləşmə zərərinin (əgər varsa) dərəcəsini müəyyən etmək üçün aktivin bərpa edilə bilən məbləği təxmin edilir. Fərdi aktivin bərpa edilə bilən məbləğini qiymətləndirmək mümkün olmadıqda, Qrup aktivin aid olduğu pul vəsaitlərini yaradan vahidin bərpa edilə bilən məbləğini təxmin edir.

Əgər aktivin (və ya nağd pul yaradan vahidin) bərpa edilə bilən məbləği onun balans dəyərindən azdırsa, aktivin (və ya nağd pul yaradan vahidin) balans dəyəri onun bərpa edilə bilən məbləğinə qədər azaldılmalıdır. Aktiv yenidən qiymətləndirilmiş məbləğdə uçota alınıbsa, aktivin dəyərsizləşməsi yenidən qiymətləndirmə rezervinin azalması kimi tanınır, əks halda dəyərsizləşmə zərəri dərhal gəlir və ya zərər hesabatlarında tanınır.

Qrup hər bir hesabat tarixinə aktivlərin dəyərsizləşməsinə dair ehtimalın olmasını qiymətləndirir. Əgər hər hansı belə ehtimal mövcuddursa, Qrup aktivin bərpa edilə bilən məbləğini təxmin edir. Aktivin bərpa edilə bilən məbləği onun digər aktivlərdən müstəqil şəkildə pul vəsaitləri yaratmaq qabiliyyətinin olduğu hallar istisna olmaqla, aktivin və ya pul vəsaiti yaradan vahidin ən yüksək ədalətli dəyərindən satış xərcləri və istifadə dəyəri çıxılması nəticəsində yaranan dəyərə bərabərdir. Aktivin balans dəyəri onun bərpa edilə bilən məbləğindən artıq olduqda aktiv dəyərsizləşmiş hesab edilir və onun balans dəyəri müvafiq olaraq azaldılır. İstifadə dəyərini qiymətləndirərkən, pulun zaman dəyəri və aktivə xas olan risklərin cari bazar qiymətləndirməsini əks etdirən vergidən öncə diskont dərəcəsi istifadə edilərək ehtimal olunan gələcək pul axınları mövcud dəyərinə diskontlaşdırılır. Satış xərcləri çıxılmaqla ədalətli dəyəri müəyyən edərkən, cari bazar əməliyyatları (mövcud olduqda) nəzərə alınır. Bu cür əməliyyatlar müəyyən edilə bilmədikdə, müvafiq qiymətləndirmə modeli istifadə olunur.

Qrup dəyərsizləşmə üzrə hesablamanı, fərdi aktivin ayrıldığı Qrupun hər bir nağd pul yaradan vahidi (CGU) üçün ayrı-ayrılıqda hazırlanan ətraflı büdcələrə və proqnoz hesablamalarına əsaslanır. Bu büdcələr və proqnoz hesablamaları, ümumilikdə, 5 illik dövrü əhatə edir. Daha uzun dövrlər üçün, uzunmüddətli artım sürəti müəyyənləşdirilir və beşinci ildən sonra gələcək pul vəsaitlərinin hərəkəti üçün tətbiq olunur. Rəhbərlik bazara indeksləşdirilən qiymətlərin gələcək artımları ilə biznesin gedişində dəyişən qiyməti nəzərdə tutan əmtəə qiymətləri ehtimalı üçün artırılmış qiymət vəziyyətindən istifadə edir.

Qrup 31 dekabr 2022 və 2021-ci il tarixlərinə əmlak, tikili və avadanlıqlar, qeyri-maddi aktivlər üzrə investisiya mülkiyyəti və digər qeyri-maliyyə aktivləri üzrə dəyərsizləşmə zərərini tanımamışdır. Qrup "ASK Şüşə" MMC-nin özəlləşdirməyə açıq olması səbəbindən gələcək əməliyyat planlarında baş verən dəyişikliklərlə əlaqədar onun mülkiyyətləri üçün dəyərsizləşmə testi təhlili apara bilməmişdir. 31 dekabr 2022-ci il tarixinə, dəyərsizləşmə testi modelində istifadə edilən giriş məlumatlarında əhəmiyyətli dalğalanmalar səbəbindən Qrup "Azəralüminium" MMC və "Azərpambıq Aqrar-Sənaye Kompleksi" MMC-nin mülkiyyətləri üzrə dəyərsizləşmə hesablamasını apara bilməmişdir.

**Əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin və investisiya mülkiyyətinin ədalətli dəyəri**

*İlkin tanınma*

Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər və investisiya mülkiyyəti, bu aktivlərin Qrupa təhvil verildiyi tarixə hesablanmış xərclər kimi ədalətli dəyərlə ölçülmüşdür.

Əmlak, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və investisiya mülkiyyətinin ədalətli dəyəri eyni zamanda əmlak, tikili və avadanlıqların ədalətli dəyərinə bərabər olan bənzər əmlak, tikili və avadanlıqların bazar satış qiymətlərinin təhlilini əhatə edən bazar yanaşması metodundan istifadə etməklə "Yeni Şəhər" Kompleksinin tikilməkdə olan əmlakları və "CİDC Baku"-nun əmlakları istisna olmaqla, 13 saylı MHBS üzrə müvafiq olaraq 489,287 min AZN və 133,974 min AZN məbləğlərində qiymətləndirilmişdir.

*Sonrakı ölçmə*

Qrup 31 dekabr 2022 və 2021-ci il tarixlərinə investisiya mülkiyyətinin ədalətli dəyərində dəyişiklik tanımamışdır.

**İnvestisiya və əməliyyat aktivlərinin təsnifatı**

Qrup əsas iş fəaliyyəti ilə yanaşı ofis binalarının, idman mərkəzlərinin və pərakəndə mağazaların kirayə verilməsi kimi müxtəlif iş fəaliyyəti ilə məşğuldur. Qrup bu cür fəaliyyətlərin əməliyyat və investisiya axınlarına bölünməsi ilə bağlı son qərarı verməzdən əvvəl şərhləri tətbiq edir. Qrupun korporativ strategiyası belə seqmentləşdirmənin müəyyənləşdirilməsində əsas amildir.

Qrup kirayə vermə fəaliyyətini əsas olmayan iş fəaliyyəti kimi, icarəçilərə göstərilən xidmətlər isə köməkçi xidmətlər olduğu və bir qayda olaraq razılaşma üçün əhəmiyyətsiz göründüyü üçün əməliyyat icarəsi müqavilələrinə əsasən ofis binalarını və digər əmlakları investisiya mülkiyyəti kimi təsnif edir və Qrup hazırda bu fəaliyyəti strateji planına daxil etmək niyyətində deyil.

**İnkişaf xərclərinin tanınması**

Qrup məhsulun inkişafı layihələri üçün xərcləri kapitallaşdırır. Adətən məhsulun inkişafı layihəsi müəyyən edilmiş layihə idarəetmə modelinə uyğun olaraq müəyyən bir mərhələyə çatdıqda, xərclərin ilkin kapitallaşdırılması rəhbərliyin texnoloji və iqtisadi əsaslandırmanın təsdiqləndiyi barədə mülahizələrinə əsaslanır. Kapitallaşdırılacaq məbləğləri müəyyən edərkən rəhbərlik layihənin ehtimal olunan gələcək pul vəsaitləri, tətbiq olunacaq diskont dərəcələri və ehtimal olunan faydalı istifadə müddəti ilə bağlı fərziyyələr edir. 31 dekabr 2022-ci il tarixində kapitallaşdırılmış inkişaf xərclərinin balans dəyəri 1,201 min AZN (2021-ci il: 622 min AZN) təşkil etmişdir.

**Mal-material mülkiyyətinin qiymətləndirilməsi**

Mal-material mülkiyyəti maya dəyəri və ya xalis satış dəyərindən daha az olan məbləğdə qiymətləndirilir. Qrup uyğun olduqda köhnəlmiş və azhərəkətli mal-material mülkiyyətinin balans dəyərini xalis satış dəyərinə qədər azaldaraq uçota alır. Mal-material mülkiyyətinin silinməsi üzrə yaranan faktiki dəyər xalis satış dəyərindən fərqli ola bilər; istənilən bu cür fərqin gələcək əməliyyat nəticələri üzərində əhəmiyyətli təsiri ola bilər. Azhərəkətli və köhnəlmiş mal-material ehtiyatları üzrə ehtiyat Qrup tərəfindən mal-material ehtiyatlarının qiymətləndirilməsi əsasında hesablanır. Mal-material ehtiyatlarının silinməsi Qrup Rəhbərliyi tərəfindən ilin sonunda ehtiyatların köhnəlməsi və faydalılığının qiymətləndirilməsi əsasında baş verir. 31 dekabr 2022-ci il tarixinə Qrup azhərəkətli mal-material ehtiyatları üçün 1,704 min AZN (2021-ci il: 133 min AZN) məbləğində ehtiyat tanımışdır. Bu ehtiyat əvvəlki illərdə alınmış mal-material ehtiyatlarının köhnəlməsi və itkisi əsasında uçota alınmışdır.

**Debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri**

Qrup debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərlərini hesablamaq üçün ehtiyat cədvəlindən istifadə edir. Ehtiyat dərəcələri oxşar zərər nümunələrinə malik olan müxtəlif müştəri seqmentlərinin qruplaşdırılması üçün vaxtı keçmiş günlərə əsaslanır (məsələn, coğrafiya, məhsul növü, müştəri növü və reytinqi, akkreditivlər və kredit sığortasının digər formaları ilə əhatə dairəsi).

Ehtiyat cədvəli, ilkin olaraq, Qrupun tarixən müşahidə edilmiş defolt dərəcələrinə əsaslanır. Qrup keçmiş kredit zərəri təcrübəsini gələcəyə hesablanmış məlumatlarla tənzimləmək üçün cədvəli kalibrləyəcək. Məsələn, proqnozlaşdırılan iqtisadi şərtlərin (yəni, ümumi daxili məhsulun) növbəti il ərzində pisləşməsi gözlənilirsə və bu, istehsal sektorunda defoltların sayının artmasına səbəb ola bilərsə, tarixi defolt dərəcələrinə düzəlişlər edilir. Hər hesabat tarixində tarixən müşahidə edilmiş defolt dərəcələri yenilənir və perspektiv təxminlərdəki dəyişikliklər təhlil edilir. Müvafiq hallarda, Qrup qarşı tərəflərin xarici tariflərindən əldə edilən defolt dərəcələrinə əsaslanır.

Tarixən müşahidə edilmiş defolt dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və EOKZ arasında korrelyasiyanın qiymətləndirilməsi əhəmiyyətli bir təxmindir. EOKZ-nin məbləği şəraitdəki dəyişikliklərə və proqnozlaşdırılan iqtisadi şəraitə həssasdır. Qrupun tarixi kredit zərəri təcrübəsi və iqtisadi şərtlərin proqnozu da müştərinin gələcəkdə faktiki defoltunu təmsil edə bilməz.

Qrupun rəhbərliyi debitor borcları və digər alınacaq vəsaitlər üzrə üzrə heç bir EOKZ-nin tanınmasının tələb olunmadığı barədə qərar qəbul etmişdir.

**Maliyyə alətlərinin ədalətli dəyərinin ölçülməsi**

Qrupun bir sıra mühasibat uçotu siyasəti və açıqlamaları, maliyyə və qeyri-maliyyə aktivləri və öhdəlikləri üçün ədalətli dəyərin ölçülməsini tələb edir.

Qrup ədalətli dəyərin ölçülməsi ilə əlaqədar olaraq müəyyən nəzarət çərçivəsinə malikdir.

Aktiv və ya öhdəliyin ədalətli dəyərini ölçərkən, Qrup mümkün qədər bazarda müşahidə edilə bilən məlumatlardan istifadə edir. Ədalətli dəyərlər aşağıdakı qiymətləndirmə üsullarında istifadə olunan giriş məlumatlarına əsaslanaraq ədalətli dəyər iyerarxiyasında müxtəlif səviyyələrdə təsnifləşdirilir:

- *1-ci Səviyyə* – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- *2-ci Səviyyə* – aktiv və ya öhdəlik üzrə birbaşa (yəni qiymətlər) və ya dolayı yolla (yəni qiymətlərdən əldə edilir) müqayisə edilə bilən 1-ci Səviyyədə daxil edilmiş qiymətlərdən başqa daxilolmalar;
- *3-cü Səviyyə* – müşahidə edilə bilən bazar məlumatlarına əsaslanmayan aktiv və ya öhdəlik üçün giriş məlumatları (müşahidə olunmayan giriş məlumatları).

Bir aktivin və ya öhdəliyin ədalətli dəyərini ölçmək üçün istifadə edilən giriş məlumatları, ədalətli dəyər iyerarxiyasının müxtəlif səviyyələrində təsnif edilə bilərsə, ədalətli dəyər iyerarxiyasının eyni dərəcəsi bütün ölçmə üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş kimi ədalətli dəyərin ölçülməsi bütünlükdə təsnif edilir.

**Cari vergilər**

Azərbaycanda vergi, valyuta və gömrük qanunvericiliyi tez-tez baş verən şərhlərə və dəyişiklərə məruz qalır. Bundan başqa, Qrupun əməliyyatlarına və fəaliyyətinə tətbiq olunan vergi qanunvericiliyinin vergi orqanları tərəfindən şərhi, Qrupun rəhbərliyinin şərhi ilə uyğun gəlməyə bilər. Nəticədə, vergi orqanları əməliyyatları yenidən təsnif edə bilər və Qrupun işçiləri əhəmiyyətli dərəcədə əlavə vergi, cərimə və faiz ödəmələrinə məruz qala bilərlər.

Vergi və gömrük qurumları müəssisənin fəaliyyətinin nəzərdən keçiriləcəyi ildən əvvəlki üç il ərzində vergi öhdəliklərini yoxlaya bilərlər. Qrupun fəaliyyətinin nəzərdən keçirilməsi müəyyən şərtlər çərçivəsində daha uzun müddətləri də əhatə edə bilər. 31 dekabr 2022-ci il tarixinə rəhbərlik hesab edir ki, onların müvafiq qanunvericiliklə bağlı şərhləri uyğundur və ehtimal olunur ki, Qrupun vergi, valyuta və gömrüklə bağlı cari vəziyyəti dəyişməyəcək.

**Təxirə salınmış vergi aktivlərinin bərpası**

Təxirə salınmış vergi aktivləri istifadə olunmayan vergi zərərləri üçün zərərlərin istifadə oluna biləcəyi vergiyə cəlb olunan mənfəətin olması ehtimalı daxilində tanınır. Gələcək vergi planlaşdırma strategiyaları ilə birlikdə ehtimal olunan vaxt və gələcək vergiyə cəlb olunan mənfəət səviyyəsinə əsaslanaraq, təxirə salınmış vergi aktivlərinin məbləğini müəyyənləşdirmək üçün əhəmiyyətli idarəetmə qərarı tələb olunur.
31 dekabr 2022-ci il tarixinə təxirə salınmış vergi aktivi, əsasən, investisiya mülkiyyəti və digər uzunmüddətli aktivlər üçün gələcək vergi zərərləri və ədalətli dəyər dəyişikliyi ilə əlaqədar olmuşdur.

**İcarə müddəti və artan borc üzrə faiz dərəcəsinin qiymətləndirilməsi**

Qrup icarə müddətini icarənin həyata keçirilməsinin məqsədəuyğun olduğu təqdirdə icarə müddətinin uzadılması variantının əhatə etdiyi bütün dövrlərlə və ya icarəyə xitam vermə opsiyasının əhatə olunduğu hər hansı bir müddətlə, əgər yerinə yetirilməməsinin əsaslı şəkildə müəyyənləşdirildiyi təqdirdə, icarə müddətinin ləğv olunmayan müddəti kimi təyin edir. Qrupun müddətinin uzadılması və ya ləğv edilməsi seçimlərini özündə əks etdirən bir neçə icarə müqaviləsi mövcuddur. Qrup icarəni yeniləmək və ya ləğv etmək seçimini həyata keçirib-keçirməyəcəyini məqbul çərçivə daxilində müəyyən olub-olmadığını qiymətləndirərkən təxminlərdən istifadə edir. Yəni həm yeniləməni, həm də ləğv etməni həyata keçirmək üçün iqtisadi stimul yaradan bütün müvafiq amilləri nəzərə alır. Başlama tarixindən sonra yeniləmə və ya ləğv etmə seçimini həyata keçirmək və ya istifadə etməmə qabiliyyətinə təsir edən əhəmiyyətli dərəcədə bir hadisə və ya onun nəzarəti altında olan şərtlərdə dəyişiklik baş verdikdə, Qrup icarə müddəti ilə bağlı ehtimallarını yenidən qiymətləndirir.

Qrup icarəyə aid birbaşa faiz dərəcəsini asanlıqla müəyyən edə bilmədiyi üçün icarə öhdəliklərini ölçmək üçün artan borc üzrə faiz dərəcəsindən (‘IBR’) istifadə edir. Bu, bənzər müddətdə borc almaq üçün Qrupun ödəməli olduğu faiz dərəcəsidir və bənzər təminatla, bənzər mühitdə aktivlərdən istifadə hüququ üzrə eyni dəyərə bərabər olan aktivin əldə edilməsi üçün tələb olunacaq vəsaitdir. Bu səbəbdən, IBR, müşahidə edilə bilən dərəcələr olmadıqda və ya icarə şərtlərini əks etdirmək üçün düzəliş edilməli olduqda qiymətləndirmə tələb edən şirkətin ‘ödəməli olduğunu’ əks etdirir. 31 dekabr 2022-ci il tarixinə rəhbərlik tərəfindən istifadə edilən IBR 6-9.25% (Dekabr, 2021-ci il: 6-9.25%) olmuşdur.

**Gəlirin tanınması**

Xidmətin satışı, göstəriləcək xidmətlərin ümumi sayının bir hissəsi olaraq göstərilən faktiki xidmət əsasında qiymətləndirilən xüsusi əməliyyatın başa çatma mərhələsinə əsasən xidmətlərin göstərildiyi hesabat dövründə tanınır.

Ümumi satışlar ƏDV xaric, lakin endirimlər daxil olmaqla göstərilir. Endirimlər kommersiya şərtlərindən asılı olaraq ixtiyari verilir.

Gəlir alınmış və ya alınacaq avansların ədalətli dəyəri ilə ölçülür. Barter əməliyyatında alınan malların ədalətli dəyəri etibarlı şəkildə ölçülə bilmədikdə, gəlir imtina edilən mal və ya xidmətin ədalətli dəyəri ilə ölçülür.

**Yenidən təsnifatlar**

Cari ilin təqdimatı Qrupun maliyyə vəziyyəti haqqında hesabatını, məcmu gəlir haqqında hesabatını və pul vəsaitlərinin hərəkəti haqqında hesabatını daha yaxşı təsvir etdiyinə görə 31 dekabr 2021-ci il tarixinə maliyyə hesabatlarında təqdimata uyğunlaşmaq üçün müəyyən yenidən təsnifatlar aparılmışdır.

## 4. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ

Cari ildə Qrup Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) və BMUSŞ-nin Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Qrupun fəaliyyəti üçün münasib olan və 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

**Maliyyə Uçotunun Konseptual Əsaslarına İstinad – 3 saylı MHBS-yə edilmiş Düzəliş** – 2020-ci ilin may ayında BMUSŞ tərəfindən “Müəssisələrin birləşməsi” adlı 3 saylı MHBS-yə düzəliş dərc edilmişdir. Düzəliş 2018-ci ilin mart ayında dərc edilmiş “Maliyyə Hesabatlılığının Konseptual Əsasları”na istinad ilə birlikdə, bu düzəlişin tələblərini əhəmiyyətli dərəcədə dəyişmədən, 1989-cu ildə dərc edilmiş “Maliyyə Hesabatlarının Hazırlanması və Təqdimatın Əsasları”na edilən istinadın əvəz olunmasını nəzərdə tutur. Şura eyni zamanda, 37 saylı BMUS və ya “Təminatlar” adlı 21 saylı BMHŞK çərçivəsində, ayrı olaraq yaranırsa, borclar və şərti öhdəliklər üçün yaranan potensial “2 gün” mənfəət və ya zərərlərindən yayınmaq üçün 3 saylı MHBS-nin tanınma prinsipinə istisna da əlavə etmişdir. Eyni zamanda, Şura “Maliyyə Hesabatlarının Hazırlanması və Təqdim Olunması Əsasları”na istinadın əvəz edilməsindən təsirlənməyəcək şərti aktivlər üçün 3 saylı MHBS-nin mövcud təlimatına dair izahlar verməyi qərarlaşdırmışdır.

**Əmlak, Tikili və Avadanlıqlar: Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar – 16 saylı BMUS-ə edilən düzəlişlər.** 2020-ci ilin may ayında, BMUSŞ müəssisələrin əmlak, tikili və avadanlıqların dəyərindən, rəhbərliyin nəzərdə tutduğu qaydada fəaliyyət göstərə bilməsi üçün həmin aktivləri lazımi yerə və şəraitə çatdırarkən istehsal olunan aktivlərin satışından əldə olunan gəlirləri çıxmağı qadağan edən "Əmlak, Tikili və Avadanlıqlar – Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar" düzəlişini dərc etmişdir. Bunun əvəzinə, müəssisə bu cür aktivlərin satışından əldə olunan gəlirləri və bu aktivlərin istehsal xərclərini mənfəət və zərər hesabında tanıyır.

**Ağır Şərtli Müqavilələr – Müqavilənin Yerinə Yetirilməsinə dair Xərclər – 37 saylı BMUS-ə edilən düzəlişlər.** 2020-ci ilin may ayında, BMUSŞ, 37 saylı BMUS-ə müqavilənin ağır şərtli və ya zərər yaradan olduğunu qiymətləndirərkən müəssisənin hansı xərcləri nəzərə alması barədə düzəlişlər etmişdir. Düzəlişlər "birbaşa əlaqəli xərc yanaşması"nı tətbiq edir. Mal və ya xidmətləri təmin etmək üçün birbaşa müqaviləyə aid olan xərclərə həm artan xərclər, həm də müqavilə fəaliyyətləri ilə birbaşa əlaqəli xərclərin bölüşdürülməsi daxildir. Ümumi və inzibati xərclər birbaşa müqavilə ilə əlaqəli deyil və müqavilə üzrə qarşı tərəf üçün açıq şəkildə ödənilməli olmadıqca istisna olunur.

**"Beynəlxalq Maliyyə Hesabatlılığı Standartlarının İlk dəfə Tətbiqi" adlı 1 saylı MHBS –** ilkin tətbiq edən törəmə olaraq. BMUSŞ 2018-2020-ci il üzrə illik təkmilləşdirmələr çərçivəsində "Beynəlxalq Maliyyə Hesabatı Standartlarının ilk dəfə qəbul edilməsi" adlı 1 saylı MHBS-də dəyişiklik etmişdir. Dəyişiklik ana müəssisənin MHBS-yə keçid tarixinə əsasən, ana müəssisə tərəfindən bildirilən məbləğlərdən istifadə etməklə, məcmu çevirmələr üzrə fərqlərini ölçmək üçün 1 saylı MHBS-nin D16 (a) bəndini tətbiq etməyi seçən bir törəmə müəssisəyə icazə verir. Bu düzəliş 1 saylı MHBS-nin D16 (a) bəndini tətbiq etməyi seçən bir asılı və ya birgə müəssisəyə də tətbiq edilir.

**"Maliyyə Alətləri" adlı 9 saylı MHBS – Maliyyə öhdəliklərinin silinməsi üzrə "10 faiz" dəyərində test üzrə iştirak haqqı.** MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ 9 saylı MHBS-yə düzəliş etmişdir. Düzəliş bir müəssisənin yeni və ya dəyişdirilmiş maliyyə öhdəliyinin şərtlərinin ilkin maliyyə öhdəliyinin şərtlərindən əhəmiyyətli dərəcədə fərqli olub-olmadığını qiymətləndirərkən əlavə etdiyi haqları aydınlaşdırır. Bu rüsumlara yalnız borcalan və ya borcverən tərəfindən başqasının adından ödədiyi və ya aldığı haqlar daxil olmaqla borcalanla borc verən arasında ödənilən və ya alınan ödənişlər daxildir. Müəssisə düzəlişi müəssisənin ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün əvvəlində və ya ondan sonra dəyişdirilmiş və ya mübadilə edilmiş maliyyə öhdəliklərinə tətbiq edir.

**"Kənd Təsərrüfatı" adlı 41 saylı BMUS – Ədalətli dəyər ölçmələrində vergitutma.** MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ "Kənd Təsərrüfatı Standartı" adlı 41 saylı BMUS-ə dəyişiklik etmişdir. Dəyişiklik 41 saylı BMUS-in 22-ci bəndində müəssisələrin, 41 saylı BMUS çərçivəsində aktivlərin ədalətli dəyərini ölçərkən vergitutma üçün pul axınlarını istisna etməsi tələbini aradan qaldırır.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

## 5. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Qrup tərəfindən, qüvvəyə minən tarixdən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir. Qrup hazırkı yeni və düzəliş edilmiş standartları və şərhləri (əgər varsa) qüvvəyə mindikdən sonra qəbul etmək niyyətindədir.

**"Sığorta müqavilələri" adlı 17 saylı MHBS** – 2017-ci ilin may ayında dərc olunmuşdur və "Sığorta müqavilələri" adlı 4 saylı MHBS-ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə "Sığorta müqavilələri" adlı 17 saylı MHBS-ni tətbiq etməlidir.

17 saylı MHBS, 1 yanvar 2023-cü il tarixində və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. "Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir" adlı 15 saylı MHBS və "Maliyyə Alətləri" adlı 9 saylı MHBS standartları ilə birlikdə tətbiq olunduqda erkən tətbiqinə icazə verilir. Bu standart Qrupa şamil edilmir.

**Uçot Siyasətinin Açıqlanması – 1 saylı BMUS və 2 saylı MHBS Metodik Sənədi** – 2021-ci ilin fevral ayında BMUSŞ 1 saylı BMUS və "Əhəmiyyətlilik haqqında mühakimələrin yürüdülməsi" adlı 2 saylı MHBS Metodik Sənədə düzəlişlər etmişdir. Bu düzəlişlər müəssisələrə uçot siyasəti haqqında açıqlamalar edərkən əhəmiyyətliliklə bağlı mühakimələrin tətbiq edilməsinə kömək edilməsi məqsədilə təlimat və nümunələri təqdim edir. Düzəlişlər müəssisələr üçün "əhəmiyyətli" uçot siyasətləri haqqında məlumatın açıqlanması tələbini onların "əhəmiyyətli" uçot siyasətinin açıqlanması tələbi ilə əvəz etməklə və mühasibat uçotu siyasəti ilə bağlı açıqlamalar barədə qərar qəbul edərkən müəssisələrin uçot siyasəti haqqında daha faydalı məlumatı açıqlamaqda kömək etmək məqsədi daşıyır.

1 saylı BMUS-ə edilən düzəlişlər 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün tətbiq edilir və düzəlişlərin daha erkən tətbiqinə icazə verilir. 2 saylı Metodik Sənədə edilən düzəlişlər əhəmiyyətlilik anlayışının mühasibat uçotu siyasəti məlumatlarına tətbiqi ilə bağlı məcburi olmayan təlimatları ehtiva etdiyi üçün, bu düzəlişlər üçün qüvvəyə minmə tarixinə ehtiyac yoxdur.

**Uçot təxminlərinin müəyyən edilməsi – 8 saylı BMUS-ə edilən Düzəlişlər** – 2021-ci ilin fevral ayında BMUSŞ "uçot təxminləri" anlayışını təqdim edən 8 saylı BMUS-ə düzəlişi dərc etmişdir. Düzəlişlər müəssisələrin uçot siyasətindəki dəyişiklikləri uçot təxminlərindəki dəyişikliklərdən necə fərqləndirməli olduğunu və xətaların aradan götürülməsini izah edir. Həmçinin, bu düzəlişlər mühasibat uçotu təxminlərini hazırlamaq üçün müəssisələrin ölçmə üsullarından və giriş məlumatlarından necə istifadə etdiyini aydınlaşdırır.

Düzəlişlər 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və həmin dövrün başlanğıcında və ya ondan sonra baş verəcək uçot siyasəti və uçot təxminlərindəki dəyişikliklərə tətbiq edilir. Bu tip faktlar açıqlanarsa, düzəlişlərin erkən tətbiqinə icazə verilir.

**Eyni əməliyyatdan yaranan aktiv və öhdəliklərə aid təxirə salınmış vergilər – 12 saylı BMUS-ə edilən Düzəlişlər** – 2021-ci ilin may ayında Şura 12 saylı MUBS-ə uyğun olaraq ilkin tanınma istisnasının əhatə dairəsini azaldan 12 saylı MUBS-ə düzəlişlər etdi, beləliklə, o, vergi bazasını artıran və azaldan bərabər məbləğdə müvəqqəti fərqlərə səbəb olan əməliyyatlara artıq tətbiq edilmir.

Düzəlişlər təqdim edilən ən erkən müqayisəli dövrün əvvəlində və ya ondan sonra baş verən əməliyyatlara tətbiq edilməlidir. Bundan əlavə, təqdim olunan ən erkən müqayisəli dövrün əvvəlində icarə və istismardan çıxarma öhdəlikləri ilə bağlı bütün gəlirdən çıxılan və vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün təxirə salınmış vergi aktivi (kifayət qədər vergi tutulan mənfəətin olması şərtilə) və təxirə salınmış vergi öhdəliyi də tanınmalıdır.

BMUSŞ, satış kimi uçota alınması nəzərdə tutulan 15 saylı MHBS-nin tələblərinə cavab verən satış və geri icarə əməliyyatlarını sonradan satıcı-icarədarın necə ölçməsini aydınlaşdırmaq üçün **"Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi"ni (16 saylı MHBS-yə edilən Düzəlişlər) düzəlişlərlə birgə dərc etmişdir. Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi (16 saylı MHBS-yə edilən Düzəlişlər)** satıcı-icarədardan istifadə hüququnu özündə saxlayan hər hansı gəlir və ya zərər məbləğini tanımamaq üçün geri icarədən irəli gələn icarə öhdəliyini sonradan ölçməsini tələb edir. Yeni tələblər satıcı-icarədarı icarənin qismən və ya tam xitam verilməsi ilə bağlı hər hansı gəlir və ya zərəri mənfəət və ya zərərdə tanınmasını qadağa etmir. Düzəlişlər 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Düzəlişlərin daha erkən tətbiqinə icazə verilir.

Müəssisənin hesabat dövründən sonra on iki ay ərzində riayət etməli olduğu şərtlərin, öhdəliklərin təsnifatına təsirini müəyyən etmək üçün 2022-ci ilin oktyabr ayında BMUSŞ **"Kovenantlar ilə bağlı uzunmüddətli öhdəliklər" (1 saylı BMUS-ə edilən Düzəlişlər)** adlı düzəlişi dərc etmişdir. Düzəlişə əsasən öhdəliyin cari və ya uzunmüddətli olaraq təsnifləşdirilməsinə yalnız müəssisənin hesabat tarixində və ya ondan əvvəl riayət etməli olduğu şərtlər təsir edir. Bundan əlavə, müəssisə maliyyə hesabatı üzrə qeydlərdə hesabatın istifadəçilərinə kovenantlar ilə uzunmüddətli öhdəliklərin on iki ay ərzində qaytarıla biləcəyi riskini nəzərdə tutacağı məlumatları açıqlamalıdır. Düzəlişlər 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üzrə qüvvəyə minir.

**"Konsolidasiya edilmiş Maliyyə Hesabatları" adlı 10 saylı MHBS və "İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi" adlı 28 saylı BMUS (düzəlişlər):** 10 saylı MHBS və 28 saylı BMUS-ə edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidasiya edilmiş əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya edilmiş assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi BMUSŞ tərəfindən hələ müəyyən edilməmişdir, lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

## 6. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ QALIQLAR VƏ ƏMƏLİYYATLAR

Əlaqəli tərəflər "Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması" adlı 24 saylı BMUS-da müəyyən edilmişdir. Ümumiyyətlə tərəflər bir tərəfin digər tərəfi idarə etmək qabiliyyəti varsa, ümumi nəzarət altındadırsa və ya maliyyə və əməliyyat qərarları verərkən digər tərəfə əhəmiyyətli təsir və ya birgə nəzarət edə bilərsə, əlaqəli hesab olunurlar. Hər bir əlaqəli tərəf ilə bağlı münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin məzmununa yönəldilir. Qrupun bilavasitə nəzarətçi tərəfi Azərbaycan Respublikası Hökumətidir.

Qrup dövlət ilə əlaqəli qurumlar üçün açıqlama tələbi ilə əlaqədar "Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması" adlı 24 saylı MUBS-un 25-ci bəndində qeyd olunmuş güzəştdən istifadə etmişdir.

Hesabatı təqdim edən müəssisə əlaqəli tərəf əməliyyatları və öhdəliklər də daxil olmaqla, qalıq borclarla əlaqəli "Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması" adlı 24 saylı BMUS-un 18-ci bəndinin açıqlama tələblərindən aşağıdakılar ilə birlikdə azaddır:

(a) hesabat təqdim edən müəssisə nəzarəti və ya birgə nəzarəti və ya üzərində əhəmiyyətli dərəcədə təsiri olan hökumət; və
(b) eyni hökumətin həm təqdim edən müəssisənin, həm də digər təşkilatın nəzarəti və ya birgə nəzarəti və ya üzərində əhəmiyyətli dərəcədə təsiri olduğu üçün əlaqəli tərəf olan başqa bir müəssisə.

Dövlətlə əlaqəli təşkilatlarla əməliyyatların xarakterinə elektrik enerjisi, qaz, benzin alınması və digər xidmətlərin alınması daxildir.

Bundan əlavə, Qrup müəyyən pul vəsaitlərini dövlət banklarında saxlamış və dövlət təşkilatlarından borclar, icarələr və qrantlar əldə etmişdir. Əhəmiyyətli qalıqlar və əlaqəli tərəflərlə əməliyyatlar aşağıdakı cədvəllərdə açıqlanmışdır.

31 dekabr 2022 və 2021-ci il tarixlərinə əlaqəli tərəflər arasında qalıqların təfərrüatları aşağıdakı cədvəldə açıqlanır:

| | Qeydlər | Əlaqəli tərəflərlə əməliyyatlar | Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatın hər bəndi üzrə ümumi kateqoriya | Əlaqəli tərəflərlə əməliyyatlar | Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatın hər bəndi üzrə ümumi kateqoriya |
|---|---|---|---|---|---|
| **Pul vəsaitləri və onların ekvivalentləri** | 14 | | **85,034** | | **104,051** |
| *- səhmdarlar və əhəmiyyətli payı Qrupun səhmdarlarına məxsus olan müəssisələr* | | 54,665 | | 70,142 | |
| **İcarə öhdəlikləri** | 17 | | **12,926** | | **15,861** |
| *- səhmdarlar və əhəmiyyətli payı Qrupun səhmdarlarına məxsus olan müəssisələr* | | 12,064 | | 15,456 | |
| **Borc öhdəlikləri** | 18 | | **204** | | **1,495** |
| *- səhmdarlar və əhəmiyyətli payı Qrupun səhmdarlarına məxsus olan müəssisələr* | | 204 | | 1,495 | |

31 dekabr 2022 və 2021-ci il tarixlərində başa çatmış illər üzrə konsolidasiya edilmiş məcmu gəlir haqqında hesabata əlaqəli tərəflərlə əməliyyatlarda tanınmış aşağıdakı məbləğlər daxildir:

| | Qeydlər | Əlaqəli tərəflərlə əməliyyatlar | Konsolidasiya edilmiş məcmu gəlir haqqında hesabatın hər bəndi üzrə ümumi kateqoriya | Əlaqəli tərəflərlə əməliyyatlar | Konsolidasiya edilmiş məcmu gəlir haqqında hesabatın hər bəndi üzrə ümumi kateqoriya |
|---|---|---|---|---|---|
| **Maliyyə xərcləri** | 26 | | **1,102** | | **2,300** |
| - *səhmdarlar və əhəmiyyətli payı Qrupun səhmdarlarına məxsus olan müəssisələr* | | 1,037 | | 1,308 | |

Əlaqəli tərəflərlə əməliyyatlara Hökümət tərəfindən Qrupa 31 dekabr 2022-ci il tarixində, müvafiq olaraq, 329 min AZN, 725 min AZN və 44 min AZN məbləğlərində əmlak, tikili və avadanlıqların, investisiya mülkiyyətinin və mal-material mülkiyyətinin digər kapitala ötürülməsi, müvafiq olaraq 10,896 min AZN, 10 min AZN, 23,403 min AZN və 458 min AZN məbləğlərində törəmə müəssisənin, əmlak, tikili və avadanlıqların, investisiya mülkiyyətinin və mal-material mülkiyyətinin digər kapitaldan silinməsi daxildir. Bundan əlavə, 2022-ci il ərzində Hökümət tərəfindən maşın, avadanlıq və nəqliyyat vasitələrinin əldə olunması ilə bağlı 1,546 min AZN məbləğində qrantlar verilmişdir.

Əlaqəli tərəflərlə əməliyyatlara Hökümət tərəfindən Qrupa 31 dekabr 2021-ci il tarixində, 65 min AZN məbləğində mal-material mülkiyyətinin digər kapitala ötürülməsi və müvafiq olaraq, 21,276 min AZN və 2,500 min AZN məbləğlərində törəmə müəssisələrin və investisiya mülkiyyətinin digər kapitaldan silinməsi daxildir.

31 dekabr 2022-ci il tarixində başa çatmış il ərzində əsas rəhbər heyətin mükafatlandırılmasına, ümumilikdə, 761 min AZN (2021-ci il: 489 min AZN) məbləğində əmək haqqı, ixtiyari mükafatlar və digər qısamüddətli mükafatlar daxildir.

## 7. ƏMLAK, TİKİLİ VƏ AVADANLIQLAR VƏ QEYRİ-MADDİ AKTİVLƏR

| | Maşınlar və avadanlıqlar | Binalar və bənzər tikililər | Elektroliza-torlar | Nəqliyyat vasitələri | Torpaq | Davam etməkdə olan tikililər | Digər | Cəmi | Qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Şərti dəyər olaraq ədalətli dəyər/ ilkin dəyər** | | | | | | | | | | |
| **1 yanvar 2021-ci il** | **219,038** | **132,149** | **70,904** | **19,364** | **15,704** | **5,455** | **2,787** | **465,401** | **745** | **466,146** |
| Əlavələr | 20,624 | 3,139 | 941 | 1,552 | 505 | 2,757 | 862 | 30,380 | 201 | 30,581 |
| Silinmələr* | (9,758) | (11,257) | - | (897) | (10) | - | (113) | (22,035) | - | (22,035) |
| Ötürülmələr | 1,416 | 1,019 | - | - | - | (2,435) | - | - | - | - |
| **31 dekabr 2021-ci il** | **231,320** | **125,050** | **71,845** | **20,019** | **16,199** | **5,777** | **3,536** | **473,746** | **946** | **474,692** |
| Əlavələr | 5,511 | 1,031 | 1,804 | 3,193 | - | 645 | 268 | 12,452 | 852 | 13,304 |
| Silinmələr* | (2,949) | (1,592) | - | (58) | (5,486) | - | (49) | (10,134) | (237) | (10,371) |
| Ötürülmələr | 981 | - | - | - | - | (1,607) | - | (626) | 626 | - |
| **31 dekabr 2022-ci il** | **234,863** | **124,489** | **73,649** | **23,154** | **10,713** | **4,815** | **3,755** | **475,438** | **2,187** | **477,625** |
| **Yığılmış köhnəlmə və amortizasiya** | | | | | | | | | | |
| **1 yanvar 2021-ci il** | **(25,413)** | **(7,889)** | **(8,540)** | **(1,970)** | **(167)** | **-** | **(349)** | **(44,328)** | **(44)** | **(44,372)** |
| İl üzrə köhnəlmə və amortizasiya xərcləri | (13,718) | (3,571) | (5,329) | (935) | - | - | (225) | (23,778) | (30) | (23,808) |
| Köhnəlmə xərcləri üzrə silinmələr* | 1,188 | 465 | - | 167 | - | - | 22 | 1,842 | - | 1,842 |
| **31 dekabr 2021-ci il** | **(37,943)** | **(10,995)** | **(13,869)** | **(2,738)** | **(167)** | **-** | **(552)** | **(66,264)** | **(74)** | **(66,338)** |
| İl üzrə köhnəlmə və amortizasiya xərcləri | (13,706) | (3,526) | (5,363) | (1,047) | - | - | (311) | (23,953) | (37) | (23,990) |
| Köhnəlmə xərcləri üzrə silinmələr* | 669 | 252 | - | 34 | - | - | 28 | 983 | - | 983 |
| **31 dekabr 2022-ci il** | **(50,980)** | **(14,269)** | **(19,232)** | **(3,751)** | **(167)** | **-** | **(835)** | **(89,234)** | **(111)** | **(89,345)** |
| **Xalis qalıq dəyəri** | | | | | | | | | | |
| **31 dekabr 2022-ci il** | **183,883** | **110,220** | **54,417** | **19,403** | **10,546** | **4,815** | **2,920** | **386,204** | **2,076** | **388,280** |
| **31 dekabr 2021-ci il** | **193,377** | **114,055** | **57,976** | **17,281** | **16,032** | **5,777** | **2,984** | **407,482** | **872** | **408,354** |

*2022-ci il ərzində “ASK Ayaqqabı Fabriki” MMC-nin (31 dekabr 2021-ci il: “Azərtütün Aqrar-Sənaye Kompleksi” MMC və “ASK Şəki Şərab” MMC) özəlləşdirilməsi prosesi başa çatdırılmış və 8,630 min AZN (31 dekabr 2021-ci il: müvafiq olaraq 15,987 min AZN və 4,206 min AZN) məbləğində uzunmüddətli aktivlər sonradan üçüncü şəxslərə satılması üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə köçürülmüşdür.

31 dekabr 2022 və 2021-ci il tarixlərinə əmlak, tikili və avadanlıqlara və qeyri-maddi aktivlərə daxil edilmiş, istifadəsinə məhdudiyyət qoyulmuş və ya öhdəliklərin təminatı olaraq girov qoyulmuş hər hansı bir aktiv mövcud olmamışdır.

Cəmiyyət özəlləşdirməyə açıq olduğu üçün Qrupun rəhbərliyi gələcək əməliyyat planlarında dəyişikliyə görə “ASK Şüşə” MMC-yə məxsus 24,455 min AZN məbləğində əmlaklar üzrə dəyərsizləşmə testi həyata keçirməmişdir.

31 dekabr 2022-ci il tarixinə əmlak, tikili və avadanlıqlar kateqoriyasının maşın və avadanlıqlar və nəqliyyat vasitələri kateqoriyasının balans dəyərinə kənd təsərrüfatında istifadə olunacaq maşın və avadanlıqlar və nəqliyyat vasitələri ilə bağlı istifadə hüququ olan aktivlər üzrə, müvafiq olaraq, 11,299 min AZN və 2,481 min AZN (2021-ci il: 11,818 min AZN və 2,673 min AZN) daxildir.

## 8. İNVESTİSİYA MÜLKİYYƏTİ

31 dekabr 2022 və 2021-ci il tarixlərinə investisiya mülkiyyətinə uzunmüddətli kapitalın artırılması və hazırda təyin olunmamış gələcək istifadəsi üçün nəzərdə tutulan torpaqlar və istismar icarəsi ilə icarəyə verilmiş binalar və gələcək dövrdə əməliyyat icarəsi formasında icarəyə veriləcək boş binalar daxildir.

İnvestisiya mülkiyyəti 31 dekabr 2022 və 2021-ci il tarixlərinə ədalətli dəyərlə ölçülmüş və uçota alınmışdır. 31 dekabr 2022-ci il tarixinə investisiya mülkiyyətinin dəyəri 730,577 min AZN təşkil etmişdir (2021-ci il: 753,570 min AZN).

Qrup həmçinin 489,287 min AZN məbləğində tikilməkdə olan aktivlərin və 113,191 min AZN məbləğində əmlakın ədalətli dəyərinin müəyyən edilməsində gələcək planlar və bu aktivlərin ədalətli dəyər təxminləri haqqında məlumatın çatışmazlığı səbəbindən “Ədalətli dəyərin ölçülməsi” 13 saylı MHBS-ni tətbiq etməmişdir.

| | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| Tikilməkdə olan aktivlər | 489,287 | 489,287 |
| Binalar və bənzər tikililər | 208,095 | 224,100 |
| Torpaq sahəsi | 33,195 | 40,183 |
| **Cəmi investisiya mülkiyyəti** | **730,577** | **753,570** |

Ədalətli dəyər, Beynəlxalq Qiymətləndirmə Standartları Komitəsi tərəfindən tövsiyə olunan qiymətləndirmə modelini tətbiq edən daxili qiymətləndirici tərəfindən həyata keçirilən illik qiymətləndirmə əsasında müəyyən edilir.

Qrup 31 dekabr 2022 və 2021-ci il tarixlərinə investisiya mülkiyyətinin ədalətli dəyərində dəyişiklik tanımamışdır.

## 9. ƏMLAK, TİKİLİ VƏ AVADANLIQLAR ÜZRƏ ƏVVƏLCƏDƏN ÖDƏNİLMİŞ VƏSAİTLƏR

31 dekabr 2022-ci il tarixinə əmlak, tikili və avadanlıqlar üzrə əvvəlcədən ödənilmiş vəsaitlər, əsasən kənd təsərrüfatında istifadə olunması üçün nəzərdə tutulmuş maşınlar və avadanlıqlar və nəqliyyat vasitələrinin alınması üçün əvvəlcədən ödənilmiş vəsaitlərdən ibarətdir və 821 min AZN təşkil etmişdir (2021-ci il: 1,077 min AZN).

## 10. TƏXİRƏ SALINMIŞ VERGİ

Qrup cari mənfəət vergisi öhdəliyini və vergi bazalarını Qrupun fəaliyyət göstərdiyi Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq aktiv və öhdəliklərdə dəyərləndirir və əks etdirir və bu hesablamalar MHBS-dən fərqlənir.

Bəzi xərclərin vergi bazasının hesablanması zamanı nəzərə alınmaması və bəzi gəlirlərin vergiyə tabe tutulmaması nəticəsində Qrupun daimi vergi fərqləri yaranır.

Təxirə salınmış vergilər maliyyə hesabatlarında göstərilən aktiv və öhdəliklərin qalıq dəyəri ilə onların vergi hesabatındakı balans dəyərləri arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir.

31 dekabr 2022 və 2021-ci il tarixlərinə olan müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınmasında müxtəlif üsulların istifadə edilməsinə, eləcə də bəzi aktivlər üzrə vergi uçotunda olan qalıqların maliyyə hesabatlarında olan qalıqlara nisbətən fərqli olması nəticəsində yaranır.

Azərbaycan Respublikasının vergi qanunvericiliyi, xüsusilə, fərqli şərhlərə və dəyişikliklərə səbəb ola bilər. Bundan əlavə, vergi qanunvericiliyinə dair rəhbərliyin şərhi vergi orqanlarının şərhindən fərqlənə biləcəyi üçün, sövdələşmələrə vergi orqanları tərəfindən etiraz edilə bilər və nəticədə Qrupun konsolidasiya edilmiş maliyyə hesabatları üçün əhəmiyyətli olacaq əlavə vergilər, cərimələr və faizlər təyin oluna bilər.

31 dekabr 2022 və 2021-ci il tarixlərinə təxirə salınmış vergi aktivi aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlər:** | | |
| Gələcək dövrlərə keçirilmiş vergi zərərləri | 57,699 | 43,619 |
| İnvestisiya mülkiyyəti | 1,490 | 1,490 |
| Mal-material ehtiyatları | 11,420 | 354 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 2,191 | 586 |
| Digər cari aktivlər | 380 | - |
| İcarə öhdəlikləri | 3,133 | - |
| Təxirə salınmış xərclər | 3,386 | 20,945 |
| Təxirə salınmış gəlir | 395 | - |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | - | 886 |
| **Cəmi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **80,094** | **67,880** |
| **Vergi bazasını artıran müvəqqəti fərqlər:** | | |
| Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər | (33,643) | (19,401) |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | (221) | - |
| **Cəmi vergi bazasını artıran müvəqqəti fərqlər:** | **(33,864)** | **(19,401)** |
| Xalis vergi bazasını azaldan müvəqqəti fərqlər | 46,230 | 48,479 |
| **Təxirə salınmış vergi aktivi (20%)** | **9,246** | **9,696** |
| Tanınmayan təxirə salınmış vergi aktivi* | (8,699) | (9,583) |
| **Xalis təxirə salınmış vergi aktivi** | **547** | **113** |

* 31 dekabr 2021-ci il tarixində başa çatmış il ərzində 465 min AZN məbləğində tanınmamış təxirə salınmış vergi aktivinin törəmə müəssisələrin xaricində tanınması dayandırılmışdır.

31 dekabr 2022 və 2021-ci il tarixlərinə təxirə salınmış vergi öhdəliyi aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlər:** | | |
| Gələcək dövrlərə keçirilmiş vergi zərərləri | - | 1,792 |
| Mal-material ehtiyatları | - | 4,764 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 7,338 | 8,804 |
| Digər cari aktivlər | 2,189 | - |
| İcarə öhdəlikləri | - | 2,088 |
| **Cəmi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **9,527** | **17,448** |
| **Vergi bazasını artıran müvəqqəti fərqlər:** | | |
| Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər | (50,319) | (57,795) |
| Mal-material ehtiyatları | (10,285) | - |
| Təxirə salınmış gəlirlər | - | (233) |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | (880) | (1,590) |
| **Cəmi vergi bazasını artıran müvəqqəti fərqlər:** | **(61,484)** | **(59,618)** |
| Xalis vergi bazasını artıran müvəqqəti fərqlər | (51,957) | (42,170) |
| **Xalis təxirə salınmış vergi öhdəliyi (20%)** | **(10,391)** | **(8,434)** |

| | **31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| **Mənfəət vergisindən əvvəlki mənfəət** | **54,904** | **57,927** |
| Qanunla müəyyən edilmiş 20% dərəcəsi ilə nəzəri vergi tutulması | (10,981) | (11,585) |
| Əvvəlki ilin qiymətləndirməsinə yenidən baxılması | 1,660 | - |
| Sabit fərq | (265) | (418) |
| Tanınmamış təxirə salınmış vergi aktivi | 884 | (1,825) |
| **Mənfəət vergisi xərci** | **(8,702)** | **(13,828)** |

| | **31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| Cari mənfəət vergisi xərci | (7,179) | (4,821) |
| Təxirə salınmış mənfəət vergisi aktiv və öhdəliyində dəyişiklik | (1,523) | (9,007) |
| **Mənfəət vergisi xərci** | **(8,702)** | **(13,828)** |

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| **Təxirə salınmış mənfəət vergisi aktivi** | | |
| **İlin əvvəli** | **113** | **1,600** |
| Təxirə salınmış vergi aktivindəki dəyişikliyin mənfəət və zərər hesablarına daxil olması/(tutulması) | 434 | (1,487) |
| **İlin sonu** | **547** | **113** |

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| **Təxirə salınmış mənfəət vergisi öhdəliyi** | | |
| **İlin əvvəli** | **(8,434)** | **(914)** |
| Mənfəət və zərər hesablarına daxil edilmiş il üzrə təxirə salınmış mənfəət vergisi öhdəliyində dəyişiklik | (1,957) | (7,520) |
| **İlin sonu** | **(10,391)** | **(8,434)** |

## 11. MAL-MATERİAL EHTİYATLARI

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Hazır məhsul | 105,378 | 72,813 |
| Xammal | 56,703 | 48,326 |
| Mal-material mülkiyyəti | 28,683 | 27,454 |
| Ehtiyat hissələri | 19,865 | 15,511 |
| Emalda olan məhsullar | 3,765 | 4,602 |
| Materiallar və təchizatlar | 3,214 | 2,990 |
| Tamamlanmamış istehsal | 998 | 1,107 |
| Digər | 4,348 | 3,408 |
| Çıxılsın: köhnəlmiş mal-material ehtiyatları üzrə yaradılmış ehtiyat | (1,921) | (217) |
| **Cəmi mal-material ehtiyatları** | **221,033** | **175,994** |

31 dekabr 2022-ci il tarixinə mal-material mülkiyyəti 28,683 min AZN təşkil etmişdir və gələcək dövrlərdə satış məqsədilə inşa edilmiş yaşayış binalarından ibarətdir (2021-ci il: 27,454 min AZN).

Köhnəlmiş və zədələnmiş mal-material ehtiyatları üzrə ehtiyatların hərəkəti aşağıdakı kimidir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| İlin əvvəlinə ehtiyat | (217) | (84) |
| İl üzrə zədələnmiş və köhnəlmiş mal-material ehtiyatları üzrə yaradılmış ehtiyat üzrə zərər | (1,704) | (133) |
| **İlin sonuna ehtiyat** | **(1,921)** | **(217)** |

## 12. DEBİTOR BORCLARI VƏ DİGƏR ALINACAQ VƏSAİTLƏR

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Debitor borcları | 34,787 | 28,363 |
| Digər alınacaq vəsaitlər | 9,768 | 6,444 |
| Debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri üzrə ehtiyat | (7,455) | (3,355) |
| **Cəmi debitor borcları və digər alınacaq vəsaitlər** | **37,100** | **31,452** |

Rəhbərlik hesab edir ki, debitor borcları və digər alınacaq vəsaitlərin balans dəyəri bərpa edilə bilər.

Maliyyə debitor borcları üzrə ehtimal olunan kredit zərərləri üzrə ehtiyatın hərəkəti aşağıdakı kimidir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Maliyyə debitor borcları üzrə ehtimal olunan kredit zərərləri üzrə ehtiyatın açılış balansı | (3,369) | (154) |
| Maliyyə alətlərinin dəyişməsi üzrə silinmə | 110 | - |
| Ehtimal olunan kredit zərərləri üzrə tutulma | (4,196) | (3,201) |
| **Maliyyə debitor borcları üzrə ehtimal olunan kredit zərərləri üzrə ehtiyatın yekun balansı** | **(7,455)** | **(3,355)** |

## 13. BANKLARDA OLAN DEPOZİTLƏR

31 dekabr 2022-ci il tarixinə Qrupun depoziti aşağıdakı bankda yerləşdirilmişdir:

| Bankın adı | Müqavilə tarixi | Ödəniş tarixi | Valyuta | İllik faiz dərəcəsi | 31 dekabr 2022-ci il |
|---|---|---|---|---|---|
| “Ziraatbank” ASC | 09.12.2022 | 09.03.2023 | EUR | 1.10% | 3,623 |
| **Cəmi banklarda olan depozitlər** | | | | | **3,623** |

EOKZ-nin ölçülməsi məqsədilə banklarda olan depozitlər 1-ci Mərhələyə daxildir. Bu qalıqlar üzrə EOKZ cüzi məbləği əks etdirir, ona görə də Qrup banklarda olan depozitlər üzrə kredit zərəri ehtiyatını tanımır.

## 14. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Banklarda yerləşdirilmiş nağd pul vəsaitləri | 85,029 | 103,992 |
| Nağd pul vəsaitləri | 5 | 59 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **85,034** | **104,051** |

## 15. DİGƏR CARİ AKTİVLƏR

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Təchizatçılara verilmiş avans ödənişləri | 30,293 | 28,112 |
| Vergilər üzrə alınacaq vəsaitlər | 1,676 | 208 |
| Əvəzləşdiriləcək ƏDV | 1,276 | 3,713 |
| ƏDV depozit hesabı | 464 | 424 |
| Digər | 64 | 60 |
| **Cəmi digər cari aktivlər** | **33,773** | **32,517** |

Əvəzləşdiriləcək ƏDV hesabat tarixində ödənilməmiş satınalmalara aiddir. Əvəzləşdiriləcək ƏDV, satın alınma üzrə ödəniş edildikdə satışdan yaranan ƏDV-nin geri alınmasıdır.

Təchizatçılara verilmiş avans ödənişlərinə mal və xidmətlərin satın alınması üçün təchizatçılara öncədən ödənilmiş vəsaitlər daxildir.

## 16. TƏXİRƏ SALINMIŞ GƏLİRLƏR

31 dekabr 2022-ci il tarixinə 6,653 min AZN məbləğində təxirə salınmış gəlirlər, əmlak, tikili və avadanlıqların alınması ilə əlaqədar hökumətdən alınmış subsidiyanın amortizasiya olunmamış hissəsini əhatə etmişdir (2021-ci il: 5,879 min AZN).

## 17. İCARƏ ÖHDƏLİKLƏRİ

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| İcarə öhdəlikləri (cari) | 3,507 | 3,668 |
| İcarə öhdəlikləri (uzun-müddətli) | 9,419 | 12,193 |
| **Cəmi icarə öhdəlikləri** | **12,926** | **15,861** |

31 dekabr 2022-ci il tarixinə gələcək minimal icarə ödənişləri aşağıdakı kimidir:

| | Bir il ərzində | Bir ildən beş ilə qədər | Cəmi |
|---|---|---|---|
| İcarə ödənişləri | 3,737 | 11,243 | 14,980 |
| Maliyyə xərcləri | (230) | (1,824) | (2,054) |
| **31 dekabr 2022-ci il tarixinə xalis cari dəyər** | **3,507** | **9,419** | **12,926** |

31 dekabr 2021-ci il tarixinə gələcək minimal icarə ödənişləri aşağıdakı kimidir:

| | **Bir il ərzində** | **Bir ildən beş ilə qədər** | **Cəmi** |
|---|---|---|---|
| İcarə ödənişləri | 4,654 | 14,149 | 18,803 |
| Maliyyə xərcləri | (986) | (1,956) | (2,942) |
| **31 dekabr 2021-ci il tarixinə xalis cari dəyər** | **3,668** | **12,193** | **15,861** |

İcarə öhdəliklərinin ilin əvvəlinə və sonuna olan məbləğləri ilə maliyyələşdirmə fəaliyyəti üzrə müvafiq nağd və nağdsız dəyişikliklərlə uyğunlaşdırılması aşağıdakı kimidir:

| | **1 yanvar 2022-ci il tarixinə** | **Əlavə** | **Pul vəsaitlərinin axını** *Əsas/ Ödənilmiş faiz* | **Yenidən təsnifat** | **Nağdsız dəyişikliklər** *Faiz xərci* | **31 dekabr 2022-ci il tarixinə** |
|---|---|---|---|---|---|---|
| Uzunmüddətli hissə | 12,193 | 708 | - | (3,482) | - | 9,419 |
| Cari hissə | 3,668 | - | (4,687) | 3,482 | 1,044 | 3,507 |
| | **15,861** | **708** | **(4,687)** | **-** | **1,044** | **12,926** |

| | **1 yanvar 2021-ci il tarixinə** | **Əlavə** | **Pul vəsaitlərinin axını** *Əsas/ Ödənilmiş faiz* | **Yenidən təsnifat** | **Nağdsız dəyişikliklər** *Faiz xərci* | **31 dekabr 2021-ci il tarixinə** |
|---|---|---|---|---|---|---|
| Uzunmüddətli hissə | 15,251 | - | - | (3,058) | - | 12,193 |
| Cari hissə | 687 | - | (1,117) | 3,058 | 1,040 | 3,668 |
COVİD-19 koronavirus pandemiyası 2020-ci ildə müəssisələrə əhəmiyyətli dərəcədə təsir göstərmişdir, lakin hökumətin uğurlu peyvənd kampaniyasından sonra müəssisələrin əksəriyyəti 2021-ci ildə və 2022-ci ilin birinci yarısında davamlı olaraq öz normal fəaliyyətinə qayıtmışdır. Qarabağ regionunda atəşkəs razılaşmasının davam etməsi biznes mühitinə də müsbət təsir göstərir, çünki investisiyaların cəlb edilməsi və işğaldan azad edilmiş ərazilərin inkişafı üçün hökumət tərəfindən həyata keçirilən bir sıra layihələr mövcuddur.

2022-ci il üzrə 2021-ci illə müqayisədə 4.6% artaraq 133.8 milyard AZN məbləğinə (78.7 milyard ABŞ dolları) çatmışdır. Dövlət Gömrük Komitəsinin statistikasına əsasən 2022-ci il ərzində Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi təqribən 52.69 milyard ABŞ dollarına çatmışdır. Bu məbləğin 38.15 milyard ABŞ dolları ixrac olunan məhsulların, 14.54 milyard ABŞ dolları isə idxal olunan məhsulların payına düşmüşdür.

Beynəlxalq kredit reytinq agentlikləri mütəmadi olaraq Azərbaycan Respublikasının kredit reytinqini qiymətləndirirlər. "Fitch" və "S&P" Azərbaycan Respublikasının reytinqini "BB+" olaraq qiymətləndirmişdir. "Moody's Investors Service", ölkə üçün "Ba1" kredit reytinqini təyin etmişdir.

## 2. ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTİNİN XÜLASƏSİ

### Təqdimatın əsasları

Hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi ("MHBSŞK") tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

### Fasiləsizlik prinsipi

Hazırkı maliyyə hesabatları Cəmiyyətin fasiləsizlik prinsipi əsasında yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik hesab edir ki, Cəmiyyət yaxın gələcəkdə fəaliyyətini davam etdirəcək və Cəmiyyətin ləğvinə nə istək, nə də ehtiyac olacaq, eləcə də fəaliyyəti dayandırmaq və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlardan qorunmaq üçün müdafiə axtarmaq üzrə nə niyyət, nə də zərurət mövcuddur.

Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyət gedişində Cəmiyyətin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olması fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Cəmiyyətin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Rəhbərliyin fasiləsizlik prinsipi üzrə ehtimalının qiymətləndirməsi müəyyən bir müddətdə hadisələrin və ya şərtlərin gələcək inkişafı ilə əlaqədar subyektiv qərarların qəbul edilməsini nəzərdə tutur.

**Cari və uzunmüddətli təsnifləşdirmələr**

Cəmiyyət aktiv və öhdəlikləri cari/uzunmüddətli təsnifləşdirmələr əsasında maliyyə hesabatlarında təqdim edir. Aktiv aşağıdakı hallarda cari aktiv sayılır:

- Adi əməliyyat dövründə satılması və ya istehlak edilməsi nəzərdə tutulduqda və ya satılması ehtimal edildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı on iki ay ərzində satılması ehtimal edildikdə; və ya
- Pul vəsaitləri və onların ekvivalentlərinin hesabat tarixindən sonra ən az on iki ay müddətində öhdəliyin ödənilməsi üzrə mübadilə edilməsi və ya istifadə edilməsi məhdudlaşdırılmadıqda.

Digər bütün aktivlər uzunmüddətli aktivlər sayılır.

Öhdəlik aşağıdakı hallarda cari öhdəlik sayılır:

- Adi əməliyyat dövrü ərzində ödənilməsi gözlənildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı on iki ay ərzində ödənilməsi ehtimal edildikdə; və ya
- Hesabat dövründən sonra ən az on iki ay müddətində öhdəliyin ödənilməsini təxirə salmaq üzrə qeyri-şərtsiz hüquq mövcud olmadıqda.

Cəmiyyət bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər olaraq təsnif edir.

Təxirə salınmış vergi aktiv və öhdəlikləri uzunmüddətli aktiv və öhdəliklər kimi təsnif edilir.

**Təqdimatın digər əsasları**

Maliyyə hesabatları, başqa cür qeyd edilmədiyi hallarda, Azərbaycan Manatı ("AZN") ilə ifadə edilir. Maliyyə hesabatları MHBS-yə keçid tarixinə ədalətli dəyərlə təxmin edilən şərti dəyər kimi ədalətli dəyərdə qeydə alınan əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər istisna olmaqla tarixi dəyər əsasında tərtib edilmişdir.

Cəmiyyət mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Hazırkı maliyyə hesabatlarını hazırlayarkən yerli mühasibat prinsiplərinə uyğun tərtib edilmiş mühasibat sistemindən istifadə edilmiş və MHBS-yə uyğunlaşdırılmaq məqsədilə hesabatlara düzəlişlər edilmişdir. Bu düzəlişlərə əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək üçün müəyyən təsnifləşdirilmələr, həmçinin müəyyən aktiv və öhdəliklərin, eləcə də gəlir və xərclərin maliyyə hesabatlarındakı maddələrə uyğunlaşdırılması məqsədilə edilən yenidən təsnifləşdirilmələr aiddir.

**Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər**

Əmlak, tikili və avadanlıqlar peşəkar müstəqil qiymətləndiricilərin apardığı qiymətləndirmə ilə bazara əsaslanan sübutlardan formalaşmış yenidən qiymətləndirmə tarixindəki ədalətli dəyərdən sonradan yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla, maliyyə hesabatlarında şərti dəyər olaraq ədalətli dəyərdə qeydə alınır.

Faydalı istifadə müddəti üzrə təxminləri, qalıq dəyərləri və köhnəlmə metodları hər bir hesabat tarixinin sonuna yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv əsasda tətbiq edilir.

Cəmiyyət hər bir hesabat tarixinin sonunda əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlərinin balans dəyərlərinin dəyərsizləşməsinə dair ehtimalın olmasını qiymətləndirir. Əgər hər hansı belə ehtimal mövcuddursa, dəyərsizləşmə zərərinin dərəcəsini (əgər varsa) müəyyən etmək məqsədilə aktivin bərpa edilə bilən dəyəri təxmin edilir. Fərdi aktivin bərpa edilə bilən dəyərini qiymətləndirmək mümkün olmadıqda, Cəmiyyət aktivin aid olduğu nağd pul yaradan vahidin bərpa edilə bilən dəyərini təxmin edir.

Əgər aktivin (və ya nağd pul yaradan vahidin) bərpa edilə bilən dəyəri onun balans dəyərindən azdırsa, aktivin (və ya nağd pul yaradan vahidin) balans dəyəri onun bərpa edilə bilən dəyərinə qədər azaldılmalıdır. Aktiv yenidən qiymətləndirilmiş məbləğdə uçota alınıbsa, aktivin dəyərsizləşməsi yenidən qiymətləndirmə rezervinin azalması kimi tanınır, əks halda dəyərsizləşmə zərəri dərhal mənfəət və ya zərər hesablarında tanınır.

Dəyərsizləşmə zərəri daha sonrakı dövrdə geri qaytarıldıqda, aktivin (və ya nağd pul yaradan vahidin) balans dəyəri onun bərpa edilə bilən dəyərinə qədər artırılmalıdır, lakin dəyərsizləşmə zərərinin gələn ləğvi ilə əlaqəli olan aktivin (və ya nağd pul yaradan vahidin) artmış balans dəyəri əvvəlki illərdə həmin aktiv (və ya nağd pul yaradan vahid) üçün heç bir dəyərsizləşmə zərərinin tanınmış olmadığı müəyyən edilmiş balans dəyərindən yuxarı olmamalıdır. Aktiv üçün dəyərsizləşmə zərərinin ləğvi, həmin aktiv yenidən qiymətləndirmə metoduna əsasən təkrar qiymətləndirilmiş məbləğlə əks etdirilmədikdə birbaşa mənfəət və ya zərər hesablarında tanınmalıdır, əks halda qiymətləndirilmiş aktivin dəyərsizləşməsindən irəli gələn zərərin ləğvi yenidən qiymətləndirmə artımı kimi tanınmalıdır.

Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər hesabdan silindikdə və ya onların davamlı istifadəsi artıq iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Əmlak, tikili və avadanlıq vasitələrinin satılaraq hesabdan silinməsi və ya istismardan çıxarılmasından irəli gələn hər hansı gəlir və ya zərər belə aktivlərin balans dəyəri ilə satışdan əldə olunmuş gəlirlər arasında fərq kimi müəyyən edilir və mənfəət və ya zərər hesablarında tanınır.

Əmlak, tikili və avadanlıqların bir hissəsinin faydalı istifadə müddəti fərqli olduqda, onlar əmlak, tikili və avadanlıqların ayrı-ayrı maddələri (əsas komponentləri) kimi uçota alınır.

Elektrolizatorların vaxtaşırı yenidən işlənməsinin dəyəri ehtimal olunan istehsal dövrü ərzində kapitallaşdırılır və amortizasiya edilir.

Əmlak, tikili və avadanlıqların bir hissəsinin dəyişdirilməsi ilə əlaqədar xərclər, bu hissədə əks olunan gələcək iqtisadi faydaların Cəmiyyətə daxil olacağı və dəyərinin etibarlı şəkildə ölçülə biləcəyi təqdirdə, balans dəyərində uçota alınır. Əvəz edilmiş hissənin balans dəyəri silinir. Əmlak, tikili və avadanlıqlara gündəlik xidmət xərcləri gəlir haqqında hesabatda yaranan kimi əks etdirilir.

Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər, bir qayda olaraq, aşağıdakı kimi təxmin edilən faydalı istifadə müddəti ərzində düz xətt metodu əsasında amortizasiya edilir. Torpaq amortizasiya olunmur:

| | |
|---|---|
| Maşın və avadanlıqlar | 7-20 il |
| Binalar və bənzər tikililər | 20-50 il |
| Elektrolizatorlar | 5-15 il |
| Nəqliyyat vasitələri | 5-7 il |
| Digər | 7-15 il |
| Qeyri-maddi aktivlər | 2-10 il |

Aktivin qalıq dəyəri dedikdə, aktivin artıq istifadə edilmiş olması və istifadə müddətinin sonunda olacağı vəziyyətində olması fərziyyəsi ilə, satışın təxmini xərcləri çıxılmaqla şirkətin həmin aktivin satışından əldə edə biləcəyi vəsaitlərin məbləği nəzərdə tutulur.

Aktivin qalıq dəyəri aktivin balans dəyərinə bərabər və ya ondan daha çox olan məbləğə qədər arta bilər. Belə olduğu halda, qalıq dəyəri sonradan aktivin balans dəyərindən aşağı məbləğə qədər azalanadək aktivin amortizasiya haqqı sıfırdır.

**Mal-material ehtiyatları**

Mal-material ehtiyatları maya dəyəri və ya xalis satış dəyərinin ən aşağı səviyyəsində uçota alınır. Mal-material ehtiyatlarının dəyəri orta çəkili dəyər prinsipinə əsaslanır və ehtiyatların əldə edilməsinə çəkilən xərcləri, eləcə də istehsal və ya emal xərclərini və bu aktivləri mövcud yerlərinə və vəziyyətinə gətirmək üçün çəkilən digər xərcləri əhatə edir. İstehsal edilmiş ehtiyatlar və tamamlanmamış istehsala münasibətdə isə maya dəyəri adi iş qabiliyyətinə əsaslanan istehsal xərclərinin müvafiq hissəsini əhatə edir.

Xalis satış dəyəri, təxmini tamamlama və satış xərcləri çıxılmaqla, adi fəaliyyət gedişində ehtimal olunan satış qiymətidir.

**Maliyyə alətləri**

Cəmiyyət maliyyə aləti üzrə müqavilə tərəflərindən biri olduqda, maliyyə alətləri və maliyyə öhdəlikləri onun maliyyə hesabatlarında tanınır. Maliyyə aktivləri və öhdəlikləri, ilkin olaraq, ədalətli dəyərlə ölçülür. Maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin alınması və ya yaranması ilə birbaşa əlaqəli olan əməliyyat xərcləri (mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülən maliyyə aktivləri və maliyyə öhdəliklərindən başqa) ilkin tanınmada maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin ədalətli dəyərinə müvafiq olaraq əlavə edilir və ya maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin ədalətli dəyərindən müvafiq olaraq çıxılır. Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə tanınan maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin alınmasına birbaşa aid olan əməliyyat xərcləri dərhal mənfəət və ya zərərdə tanınır.

**Maliyyə aktivləri**

Maliyyə aktivlərinin müntəzəm şəkildə satın alınması və ya satılması satış tarixi əsasında tanınır və ya xitam verilir. Bütün tanınmış maliyyə aktivləri sonradan, maliyyə aktivlərinin təsnifatına əsasən, amortizasiya edilmiş dəyərdə və ya ədalətli dəyərdə bütünlüklə ölçülür.

*Maliyyə aktivlərinin təsnifatı*

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan amortizasiya olunmuş dəyərlə ölçülür:

- maliyyə aktivi müqavilə ilə pul vəsaitləri axınını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli daxilində saxlanılır; və
- maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülür (DMGVƏD):

- maliyyə aktivi müqavilə şərtlərinə uyğun olaraq pul vəsaitləri axınının yığılması və maliyyə aktivlərinin satışı məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Adətən, bütün digər maliyyə aktivləri sonradan mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülür (MZVƏD).

Yuxarıda göstərilənlərə baxmayaraq, Cəmiyyət maliyyə aktivinin ilkin tanınmasında aşağıdakı qəti seçimi/təyinatı həyata keçirə bilər:

- müəyyən meyarlar qarşılanmadıqda, Cəmiyyət kapital investisiyası üzrə müvafiq ədalətli dəyərdə dəyişikliyin digər məcmu gəlirdə təqdimatı üçün qəti tədbirlər həyata keçirə bilər; və
- Cəmiyyət uçot sistemində uyğunsuzluğu aradan qaldırmaq və ya əhəmiyyətli dərəcədə azaltmaq məqsədilə, amortizasiya edilmiş maya dəyərində və ya DMGVƏD ölçülmə meyarlarına cavab verən borc investisiyasını əks keçid etməmək şərtilə MZVƏD-də təyin edə bilər.

*Amortizasiya olunmuş dəyər və effektiv faiz dərəcəsi metodu*

Effektiv faiz dərəcəsi metodu borc alətinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəlirinin müvafiq dövr üzrə bölgüsü üsuludur. Satın alınmış və ya əldə edilmiş kredit dəyərsizləşməsi üzrə maliyyə aktivlərindən (yəni ilkin tanınma zamanı dəyərsizləşmiş aktivlər) başqa maliyyə aktivləri üzrə effektiv faiz dərəcəsi, ehtimal olunan kredit zərərləri istisna olmaqla borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsini təşkil edən ödənilmiş, yaxud alınmış bütün haqlar, ödənişlər, əməliyyat xərcləri və ya mükafatlar) ilkin tanınma anında ümumi balans dəyərinədək diskontlaşdıran dəqiq dərəcədir.

Satın alınmış və ya əldə edilmiş kredit dəyərsizləşməsi üzrə maliyyə aktivləri üçün, kreditlə tənzimlənən effektiv faiz dərəcəsi, gözlənilən gələcək pul vəsaitlərinin hərəkətini, ehtimal olunan kredit zərərləri daxil olmaqla, ilkin tanınma zamanı borc alətinin amortizasiya olunmuş dəyərinə diskontlaşdırılmaqla hesablanır.

Maliyyə aktivinin amortizasiya olunmuş dəyəri ilkin tanımada maliyyə aktivinin əsas ödəniş çıxılmaqla, hər hansı zərər üzrə düzəliş edilməklə həmin ilkin dəyər ilə ümumi dəyər arasındakı fərq üzrə effektiv faiz dərəcəsini istifadə etməklə məcmu amortizasiya əlavə olunmaqla, maliyyə aktivinin ölçüldüyü dəyərdir. Maliyyə aktivinin ümumi balans dəyəri hər hansı bir zərər ehtiyatına düzəliş edilməzdən əvvəl maliyyə aktivinin amortizasiya olunmuş dəyəri hesab olunur.

Faiz gəliri daha sonra amortizasiya edilmiş dəyərdə və DMGVƏD ilə qiymətləndirilən borc alətlərinin effektiv faiz dərəcəsi metodundan istifadə edilməklə tanınır. Satın alınmış və ya əldə edilmiş kredit dəyərsizləşməsi üzrə maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivləri üçün, faiz gəliri sonradan kredit dəyərsizləşməsinə məruz qalmış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivinin ümumi balans dəyərinə effektiv faiz dərəcəsi metodunu tətbiq etməklə hesablanır. Sonradan kredit dəyərsizləşməsinə məruz qalmış maliyyə aktivləri üçün faiz gəlirləri effektiv faiz dərəcəsi metodunu maliyyə aktivinin amortizasiya olunmuş dəyərinə tətbiq etməklə tanınır. Əgər sonrakı hesabat dövrlərində kredit üzrə dəyərsizləşməyə məruz qalmış maliyyə aləti üzrə kredit riski maliyyə aktivinin artıq kredit üzrə dəyərsizləşməyə məruz qalmamasına səbəb olursa, faiz gəlirləri effektiv faiz dərəcəsi metodunu maliyyə aktivinin ümumi balans dəyərinə tətbiq etməklə tanınır.

Cəmiyyətin maliyyə aktivlərinin əksəriyyəti daha sonra amortizasiya edilmiş dəyərlə ölçülmüş maliyyə aktivləri kimi təsnif edilmişdir. Cəmiyyətin maliyyə öhdəlikləri daha sonra amortizasiya olunmuş dəyərlə ölçülmüş maliyyə öhdəlikləri kimi təsnif edilmişdir. Cəmiyyət mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə ölçülmüş hər hansı maliyyə öhdəliklərinin təsnifatını seçmir.

*Maliyyə aktivlərinin dəyərsizləşməsi*

Cəmiyyət ehtimal olunan kredit zərəri modelini amortizasiya edilmiş dəyərlə və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülmüş maliyyə aktivlərinə tətbiq edir.

İlkin tanınmadan sonra maliyyə aktivi üzrə kredit riski əhəmiyyətli dərəcədə artdıqda, bu maliyyə aktivi üçün ehtimal olunan kredit zərəri üzrə ehtiyat ömürlük ehtimal olunan kredit zərərinə bərabər dəyərdə ölçülür.

Əgər hesabat tarixində maliyyə aktivi üzrə kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmamışdırsa, bu maliyyə aktivi üçün ehtimal edilən kredit zərəri üzrə ehtiyat (sadələşdirilmiş yanaşmanın seçildiyi debitor borcları və digər alınacaq vəsaitlər istisna olmaqla) 12 aylıq ehtimal edilən kredit zərərlərinə bərabər dəyərdə ölçülür. Debitor borcları və digər alınacaq vəsaitlər üçün əhəmiyyətli bir maliyyələşdirmə komponentinin olub-olmamasından asılı olmayaraq, ömürlük ehtimal olunan kredit zərərləri əsasında ölçülmə tətbiq olunur.

Cəmiyyət ehtimal olunan kredit zərərlərini qiymətləndirmək üçün daxili modeldən istifadə edir. Model 9 saylı MHBS-yə uyğun olaraq tərtib edilmiş və qarşı tərəflərin kredit risklərinin qiymətləndirilməsi üçün maliyyə sisteminin xüsusiyyətlərini nəzərə alaraq, qarşı tərəflərə hesab sistemini təyin etməklə hazırlanmışdır. Təyin edilmiş bal (reytinq) fərdi şəkildə hesablanmış Defolt Ehtimalıdır (DE). Aktivin bir bal qrupundan daha aşağı bal qrupuna keçməsi digər meyarlar arasında kredit riskinin əhəmiyyətli artımı hesab olunur.

**Ədalətli dəyərin ölçülməsi**

Ədalətli dəyər ölçülmə tarixində bazar iştirakçıları arasında intizamlı əməliyyatda aktivi satmaq üçün qəbul edilmiş və ya öhdəliyi ötürmək üçün ödəniləcək qiymətdir. Ədalətli dəyərin ölçülməsinə əsasən, aktivin satılması və ya öhdəliyin ötürülməsi üzrə əməliyyat:

- aktiv və ya öhdəlik üçün əsas bazarda; və ya
- əsas bazarın yoxluğu şəraitində aktiv və ya öhdəlik üçün ən əlverişli bazarda baş verir.

Əsas bazar və ya ən əlverişli bazar Cəmiyyət tərəfindən əlçatan olmalıdır. Aktiv və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçılarının öz iqtisadi maraqlarına uyğun hərəkət etdiklərini nəzərə alaraq aktiv və ya öhdəliklərin ədalətli dəyərini müəyyənləşdirərkən bazar iştirakçılarının aktiv və ya öhdəliyin ölçülməsində istifadə etdikləri mülahizələrdən istifadə edilir.

Qeyri-maliyyə aktivlərinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının aktivin ən çox və ən yaxşı istifadə tətbiqindən yararlanmaqla ondan istifadə etmək və ya başqa bazar iştirakçısına satmaq yolu ilə iqtisadi mənfəəti artırmaq bacarığı nəzərə alınır.

Cəmiyyət həmin şəraitdə müvafiq olan və ədalətli dəyərin ölçülməsi üçün mövcud olan məlumatlar üzrə müvafiq müşahidə edilən gəlirlərin istifadəsini artıran və müşahidə edilə bilməyən gəlirlərin istifadəsini azaldan qiymətləndirmə üsullarından istifadə edir.

Ədalətli dəyəri ölçülən və maliyyə hesabatında açıqlanmış bütün aktiv və öhdəliklər aşağıda təsvir edilmiş və bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün mühüm olan ən aşağı səviyyədə məlumatlara əsaslanmış ədalətli dəyər iyerarxiyasında təsnifləşdirilir:

- 1-ci Səviyyə – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- 2-ci Səviyyə – ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli məlumatın birbaşa və ya dolayısı ilə müşahidə edilə biləcəyi qiymətləndirmə üsulları;
- 3-cü Səviyyə – ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli məlumatın müşahidə oluna bilmədiyi qiymətləndirmə üsulları.

Maliyyə hesabatlarında dövrü əsasda tanınmış aktivlər və öhdəliklər üzrə Cəmiyyət hər hesabat dövrünün sonunda yenidən təyin edilmiş təsnifatla (bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün zəruri olan ən aşağı səviyyəli məlumata əsaslanmış) iyerarxiyada səviyyələr arasında köçürmələrin olub-olmamasını müəyyən edir.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Cəmiyyət yalnız aktiv üzrə pul daxil olmaları ilə bağlı müqavilə hüquqlarının vaxtı bitdikdə, yaxud maliyyə aktivini və aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün risk və imtiyazları əsas etibarilə digər müəssisəyə ötürdükdə maliyyə aktivinin tanınmasını dayandırır.

**Maliyyə öhdəlikləri və kapital**

*Borc və ya kapital aləti olaraq təsnifləşdirmə*

Borc və kapital alətləri müqavilə razılaşmalarının məzmununa və maliyyə öhdəliyi ilə kapital alətinin təriflərinə uyğun olaraq ya maliyyə öhdəliyi, ya da kapital kimi təsnif edilir.

*Kapital alətləri*

Kapital aləti müəssisənin bütün öhdəlikləri çıxıldıqdan sonra qalan aktivlərində hər hansı bir pay əldə etmək hüququ verən istənilən bir müqavilədir. Cəmiyyət tərəfindən buraxılan kapital alətləri birbaşa buraxılma xərcləri çıxılmaqla əldə edilən vəsaitlərin cəmi məbləğində tanınır.

Cəmiyyətin öz kapital alətlərini satın alması, kapitalı azaldan bir əməliyyatdır və nəticəsi kapital bölümündə tanınır. Cəmiyyətin öz kapital alətlərini satın alması, satması, buraxması və ya ləğv etməsi ilə bağlı yaranmış mənfəət və zərər məbləğləri mənfəət və zərər hesablarında tanınmamalıdır.

*Maliyyə öhdəlikləri*

Bütün maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə və ya MZVƏD ilə ölçülür.

Maliyyə öhdəlikləri (i) biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olduqda, (ii) ticarət və ya (iii) MZVƏD üçün nəzərdə tutulduğu halda MZVƏD üzrə təsnif edilir.

(i) Biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olmayan, (ii) ticarət və ya (iii) MZVƏD üzrə təsnif edilməyən maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə edərək amortizasiya olunmuş dəyərdə ölçülür. Effektiv faiz dərəcəsi metodu maliyyə öhdəliyinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz xərcinin müvafiq dövr üzrə bölüşdürülməsi üsuludur. Effektiv faiz dərəcəsi borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsini təşkil edən məntəqələrdə ödənilmiş, yaxud alınmış bütün haqlar, əməliyyat xərcləri və digər mükafat yaxud endirimlər) maliyyə öhdəliyinin amortizasiya olunmuş dəyərinədək dəqiqliklə diskontlaşdıran dərəcədir.

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Cəmiyyət maliyyə öhdəliyini (və ya maliyyə öhdəliyinin bir hissəsini) maliyyə vəziyyəti haqqında hesabatlardan yalnız bu öhdəlik ləğv edildiyi halda, məsələn müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə və ya ləğv olunduqda və ya müddəti başa çatdığı zaman çıxarır.

Əsaslı şərtlərlə borc alətləri üzrə mövcud debitor və kreditor arasında mübadilə aparılması halları maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi nəzərə alınır. Eynilə, mövcud maliyyə öhdəliyinin və ya onun bir hissəsinin (debitorun maliyyə çətinlikləri ilə əlaqəli olmasından asılı olmayaraq) şərtlərinin əhəmiyyətli şəkildə dəyişdirilməsi maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi tanınır.

Yeni yaradılmış maliyyə öhdəliyinin şərtlərinə əsasən, o cümlədən alınmış hər hansı haqlar üzrə nağd ödənilmiş haqlar və ilkin effektiv faiz dərəcəsi ilə diskontlaşdırılmış ödənişlər də daxil olmaqla, pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyəri, maliyyə öhdəliyi üzrə qalan pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyərindən ən azı 10 faiz fərqləndikdə, yeni müddəaların əhəmiyyətli dərəcədə fərqli olması hesab edilir. Borc alətlərinin mübadiləsi və ya şərtlərin dəyişdirilməsi öhdəliyin ləğvi olaraq nəzərə alınırsa, çəkilmiş xərclər və ya haqlar ləğvetmə üzrə gəlir və ya zərərin bir hissəsi kimi tanınır. Mübadilə və ya dəyişdirmə öhdəliyin ləğvi olaraq nəzərə alınmırsa, hər hansı xərclər və ya haqlar öhdəliyin balans dəyərində düzəliş olaraq tanınır və dəyişdirilmiş öhdəliyin qalan müddəti ərzində amortizasiya olunur.

**Maliyyə alətlərinin əvəzləşdirilməsi**

Maliyyə aktivləri və öhdəlikləri yalnız aktiv və öhdəliklərin əvəzləşdirilməsi üçün müəyyən edilmiş hüququ olduqda, eləcə də müqavilə üzrə əvəzləşdirməni aparmaq və eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda əvəzləşdirilə bilər.

**Debitor borcları və digər alınacaq vəsaitlər**

Debitor borcları və digər alınacaq vəsaitlər effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya dəyərində uçota alınır. Cəmiyyət debitor borcları və digər alınacaq vəsaitlər üçün ehtimal olunan kredit zərərlərini hesablamaq üçün ehtiyat cədvəlindən istifadə edir. Ehtiyat dərəcələri oxşar zərər modellərinə malik olan müxtəlif müştəri seqmentləri üzrə (yəni, coğrafi, məhsul növü, müştəri növü və reytinqi, akkreditiv və kredit sığortasının digər növləri üzrə) qruplarda vaxtı keçmiş günlərə əsaslanır.

Ehtiyat cədvəli ilkin olaraq Cəmiyyətin tarixən müşahidə olunmuş faiz dərəcələrinə əsaslanır. Cəmiyyət tarixi kredit zərəri təcrübəsini perspektiv məlumatlarla uyğunlaşdırmaq üçün cədvələ düzəlişlər edir. Məsələn, əgər istehsal sektorunda defolt sayının artmasına gətirib çıxaran proqnozlaşdırılan iqtisadi şərtlər (yəni, ümumi daxili məhsul) gələn il ərzində pisləşəcəkdirsə, bu zaman tarixi faiz dərəcələrinə düzəliş edilir. Hər bir hesabat tarixində tarixən müşahidə olunmuş faiz dərəcələri yenilənir və gələcək perspektiv ehtimallar təhlil edilir. Tətbiq olunduğu hallarda Cəmiyyət qarşı tərəflərin xarici dərəcələrindən əldə edilmiş defolt dərəcələrinə əsaslanır.

Tarixən müşahidə olunmuş faiz dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və ehtimal olunan kredit zərərləri arasında korrelyasiyanın qiymətləndirilməsi əhəmiyyətli dərəcədə təxminlərdən ibarətdir. Ehtimal olunan kredit zərərlərinin məbləği şəraitlərdə və proqnozlaşdırılan iqtisadi şərtlərdə dəyişikliklərə həssasdır. Cəmiyyətin tarixi kredit zərəri üzrə təcrübəsi və iqtisadi şəraitin proqnozu da gələcəkdə müştərinin faktiki defolt vəziyyətini tam şəkildə əks etdirə bilməz.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə kassada olan pul vəsaitləri, banklarda saxlanılan depozitlər daxildir. Pul vəsaitləri və onların ekvivalentləri AD-də uçota alınır, çünki (i) onlar müqavilə üzrə pul vəsaitləri hərəkətinin yığılması üçün saxlanılır və həmin pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təmsil edir və (ii) MZVƏD-də təyin olunmur. Müəyyən ölkələrdə təminat qanunvericiliyi kimi yalnız qanunvericiliklə nəzərdə tutulmuş xüsusiyyətlər, qanunvericilik sonradan dəyişdirilsə belə, bu xüsusiyyətin tətbiq olunacağı müqavilə şərtlərinə daxil edilmədiyi halda, YƏMFÖ testinə təsir göstərmir.

**Təchizatçılara verilmiş avanslar**

Təchizatçılara verilmiş avanslar dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla ilkin dəyərlə tanınır. Avans ödənişləri ilə bağlı mal və ya xidmətlərin bir ildən sonra əldə ediləcəyi ehtimal olunduqda və ya ilkin tanınma zamanı aktivlə bağlı avans ödənişləri uzunmüddətli aktiv olaraq təsnif edildikdə hesabat tarixində bu avans ödənişləri uzunmüddətli aktiv olaraq təsnif edilir.

Aktivlərin əldə olunması üçün ödənilmiş avans ödənişləri Cəmiyyət aktivin nəzarətini ələ keçirdikdən sonra aktivin balans dəyərinə köçürülür və aktivlə bağlı gələcək iqtisadi səmərələrin Cəmiyyətə daxil olacağı ehtimal olunur. Avans ödənişlərinə aid olan mal və ya xidmətlər əldə olunan zaman digər əməliyyatlar üzrə avans ödənişləri mənfəət və zərər hesablarına silinir. Avans ödənişləri ilə bağlı aktivlər mal və ya xidmətlərin əldə olunmadığına dair göstərici olduqda, avans ödənişlərinin balans dəyəri müvafiq olaraq silinir və müvafiq dəyərsizləşmə zərəri məcmu gəlir haqqında hesabatda tanınır.

**Əlaqəli tərəfdən alınacaq vəsaitlər**

Əlaqəli tərəfdən alınacaq vəsaitlər effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərdə uçota alınır. Ehtimal olunan zərərlər üzrə ehtiyat, Cəmiyyətin əlaqəli tərəfdən alınacaq vəsaitlərinin ilkin şərtlərinə uyğun olaraq alınacaq bütün vəsaitləri ala bilməyəcəyinə dair obyektiv sübutlar olduqda müəyyən edilir.

**Ehtiyatlar**

Ehtiyatlar Cəmiyyətin keçmişdə baş vermiş hadisənin nəticəsi olaraq hazırda öhdəliyi (hüquqi yaxud konstruktiv) olduqda tanınır; bu zaman Cəmiyyətdən öhdəliyin yerinə yetirilməsinin tələb olunacağı ehtimal edilir və öhdəlik məbləği etibarlı şəkildə hesablana bilir.

Ehtiyatlar kimi tanınan məbləğ öhdəliklə bağlı risk və qeyri-müəyyənlikləri nəzərə almaqla hesabat dövrünün sonunda cari öhdəliyin yerinə yetirilməsi ilə əlaqədar tələb olunan məbləğlərin ən düzgün şəkildə hesablanmasıdır.

Ehtiyat hazırkı öhdəliyin yerinə yetirilməsi üçün hesablanmış pul vəsaitləri axınına istinad etməklə ölçülərsə, onun balans dəyəri (pulun zaman dəyərinin təsiri əhəmiyyətli olduqda) həmin pul vəsaitlərinin cari dəyərinə bərabər olur.

Ehtiyatın ödənilməsi üçün tələb olunan iqtisadi faydaların bir hissəsinin və ya hamısının üçüncü tərəfdən geri alınması gözlənildikdə, kompensasiyanın alınacağına faktiki olaraq əmin olduqda və debitor borcunun məbləği etibarlı şəkildə ölçülə bildikdə, debitor borc aktiv kimi tanınır.

**Vergilər**

**Təxirə salınmış vergilər**

Təxirə salınmış vergi, maliyyə hesabatlarındakı aktiv və öhdəliklərin balans dəyərləri ilə onların vergi uçotuna uyğun balans dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlərin əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəlikləri ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivləri isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq tanınır. Müvəqqəti fərqlərin qudvil və ya mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes birləşməsi istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

Təxirə salınmış vergi aktivlərinin balans dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə, bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Təxirə salınmış vergilər bilavasitə kapitala hesablanmış və ya kapitalda əks etdirilmiş maddələrə aid olduğu hallar istisna olmaqla, məcmu gəlir haqqında hesabatda əks etdirilir .

Aşağıdakı hallarda təxirə salınmış mənfəət vergisi aktivləri və öhdəlikləri əvəzləşdirilərək xalis şəkildə maliyyə hesabatlarında təqdim edilə bilər:

- Cəmiyyətin cari mənfəət vergisi aktivlərini mənfəət vergisi öhdəlikləri ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və
- Təxirə salınmış mənfəət vergisi aktiv və öhdəlikləri bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edildikdə və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olduqda.

**Əlavə Dəyər Vergisi**

Ödəniləcək ƏDV və iddia olunan əvəzləşdiriləcək ƏDV arasındakı fərq hesabat ayından sonra 20 gün ərzində dövlət büdcəsinə ödənilir. Satış ilə əlaqədar ödəniləcək əlavə dəyər vergisi vergi orqanlarına bu satışların qarşılığında ödəniş alındıqda ödənilir. Əvəzləşdiriləcək ƏDV bir qayda olaraq elektron ƏDV hesab-fakturası alındıqdan sonra ödəniləcək ƏDV ilə əvəzləşdirilir. Vergi orqanları ƏDV-nin xalis əsaslarla hesablanmasına icazə verir.

Satış və alış ilə əlaqədar olan ƏDV maliyyə vəziyyəti haqqında hesabatda ümumi məbləğdə uçota alınır və aktiv və öhdəlik kimi ayrıca olaraq açıqlanır. Alınacaq vəsaitlərin dəyərsizləşməsi ilə əlaqədar ehtiyat yaradıldıqda, dəyərsizləşmə zərəri ƏDV daxil olmaqla borcluya aid olan ümumi məbləğin tərkibində uçota alınır.

**ƏDV depozit hesabı**

Əlavə Dəyər Vergisi (“ƏDV”) depozit hesabı sistemi Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən ƏDV ilə bağlı neqativ halların qarşısını almaq məqsədilə 2008-ci ildən etibarən tətbiq olunan sistemdir. 1 yanvar 2008-ci il tarixindən Vergi Məcəlləsinə edilmiş düzəlişlərə əsasən, ƏDV ödənişinin məbləği təqdim olunmuş ƏDV hesab-fakturalarına uyğun olaraq vergi ödəyicisinin ƏDV depozit hesabında aparılan əməliyyatlar çərçivəsində bu hesaba ödənilmiş olan vergi məbləğidir.

Bu modulun köməkliyi ilə, vergi ödəyicisi ƏDV hesab-fakturasında qeyd olunmuş ƏDV məbləğini digər vergi ödəyicisinin ƏDV depozit hesabına ödəyir. Eyni zamanda Dövlət büdcəsi qarşısında bütün növ vergi öhdəlikləri və gömrük komitəsinə ödənilməli olan idxal əməliyyatları ilə bağlı ƏDV məbləğləri vergi ödəyicisi tərəfindən ƏDV depozit hesabı vasitəsilə ödənilə bilər. Ödənilmiş məbləğlər barəsində məlumat vergi orqanı tərəfindən Baş Dövlət Xəzinədarlığına və daha sonra Azərbaycan Respublikası Mərkəzi Bankına (“ARMB”) ötürülür. Mərkəzi Bank Baş Dövlət Xəzinədarlığı (“BDX”) tərəfindən təqdim olunmuş məlumat əsasında məbləğlərin müvafiq yerli xəzinədarlıq orqanlarına köçürülməsini təmin edir. Vergilər Nazirliyi təqdim olunmuş məlumatda qeyd edilən məbləğlərin vergi ödəyicisinin şəxsi faylına daxil edilməsini təmin edir. Cari sistem Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi Məlumatı Sisteminə qoşulmuşdur. Eyni zamanda BDX-də və ARMB-də elektron məlumat mübadiləsi təşkil olunmuşdur.

ƏDV depozit hesabının tətbiqi ödənişlərə və qaytarılan ƏDV məbləğlərinə vaxtlı-vaxtında nəzarət etmək imkanı verir. Vergi borcları olan vergi ödəyiciləri bu məbləğləri yalnız dövlət büdcəsinə köçürə bilər. Vergi ödəyiciləri banklara getmədən dövlət büdcəsinə, digər vergi ödəyicilərinin ƏDV depozit hesabına və gömrük komitəsinə depozit hesabı vasitəsilə ödəniş edə bilərlər. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti xüsusi proqram təminatından istifadə etməklə depozit hesabıyla aparılan bütün əməliyyatlara avtomatik şəkildə nəzarət edir.

ƏDV depozit hesabındakı vəsaitlərdən istifadə məhdudlaşdırılmışdır və yalnız ƏDV və digər müvafiq vergilərlə bağlı əməliyyatlar üçün istifadə edilə bilər.

**Kreditor borcları və digər ödəniləcək vəsaitlər**

Kreditor borcları və digər ödəniləcək vəsaitlər qarşı tərəf müqavilədə nəzərdə tutulmuş öhdəliklərini icra etdiyi zaman tanınır və effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərdə uçota alınır.

**Alınmış avanslar**

Müştərilərdən alınmış avanslar, ilkin olaraq, öhdəlik kimi qeydə alınacaq, lakin müəyyən müddətdən sonra və/yaxud biznesin normal fəaliyyəti nəticəsində aktivə çevrilmə ehtimal olunan maddəyə istinad edir. Müştərilərdən alınmış avanslar ilkin olaraq hər hansı birbaşa aid edilə bilən əməliyyat xərcləri daxil olmaqla, alınan kompensasiyanın ədalətli dəyəri ilə qeydə alınır və sonradan amortizasiya olunmuş maya dəyərində uçota alınır.

**Nizamnamə kapitalı**

Nizamnamə kapitalı Cəmiyyətin səhmdarının qoyduğu kapitalın məbləğidir. Cəmiyyət nizamnamə kapitalını səhmdarın təsdiqi çərçivəsində artıra və ya azalda bilər.

Təsisçilərin nizamnamə kapitalından başqa vəsait qoyması və ya geri çəkməsi digər kapitalda tanınır.

Adi səhmlər üzrə dividendlər onların elan edildiyi dövrdə azalma kimi kapitalda tanınır. Hesabat tarixindən sonra elan edilmiş dividendlər "Hesabat tarixindən sonrakı hadisələr" adlı 10 saylı BMUS-a uyğun olaraq sonrakı hadisə kimi nəzərə alınır və müvafiq olaraq açıqlanır.

**Müştərilərlə bağlanmış müqavilələr üzrə gəlirlər**

15 saylı MHBS, müəssisələrə müştərilər ilə bağlanmış müqavilələrdən gəlirlərin uçotu üzrə vahid məcmu modeli tətbiq edir.

15 saylı MHBS-nin əsas prinsipinə görə, Cəmiyyət vəd edilmiş malların və ya xidmətlərin müştərilərə köçürülməsini əks etdirmək üçün gəliri Cəmiyyətin həmin mal və ya xidmətlər müqabilində hüquq əldə etməyi gözlədiyini əks etdirən məbləğdə tanımalıdır. Standart, xüsusilə gəlirlərin tanınması üçün beş-addımlı bir yanaşma təqdim edir:

- 1-ci Addım: Müştərilərlə bağlanmış müqavilə və ya müqavilələri müəyyən etmək;
- 2-ci Addım: Müqavilə öhdəliklərini müəyyən etmək;
- 3-cü Addım: Əməliyyat qiymətini müəyyən etmək;
- 4-cü Addım: Müqavilə öhdəlikləri üzrə əməliyyat qiymətlərinin ayrılması;
- 5-ci Addım: Müəssisə müqavilə öhdəliklərini yerinə yetirirsə (yetirdiyi zaman) gəlirin tanınması.

15 saylı MHBS-yə əsasən, öhdəliyin icrası yerinə yetirildikdə, yəni müəyyən öhdəliyin icrası əsas götürülən mallara və ya xidmətlərə "nəzarət" müştəriyə ötürülərkən, müəssisə gəliri tanıyır.

*Malların satışı:* əsas alüminium, ərintilər, alüminium oksidi və digər məhsulların satışından ibarətdir.

Müştərilər, risklərin müqavilədə göstərilmiş "Incoterms" çatdırılma şərtləri əsasında, tədarük edilən mallar çatdırıldığı zaman onlar üzərində nəzarəti əldə edirlər. Hesab-fakturalar tərtib edilir və gəlirlər həmin vaxt uçota alınır. Hesab-fakturalar ümumiyyətlə 30 gün ərzində və ya əvvəlcədən ödənilir.

**İşçilərə sərf olunan xərclər**

Əmək haqları, məvaciblər, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

**Xarici valyuta əməliyyatları**

Cəmiyyətin funksional valyutası fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Cəmiyyətin funksional valyutası ABŞ dollarıdır.

Monetar aktiv və öhdəliklər ARMB-nin müvafiq hesabat tarixinə qüvvədə olan, rəsmi valyuta məzənnəsinə əsasən hər bir müəssisənin funksional valyutasına çevrilir. Xarici valyuta əməliyyatları əməliyyat tarixində mövcud olan məzənnə ilə uçota alınır.

İlin sonuna qüvvədə olan valyuta məzənnəsi ilə yerli valyutaya çevrilmə qeyri-monetar maddələrə, o cümlədən pay alətlərinə tətbiq edilmir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızlarının ədalətli dəyərinə təsiri ədalətli dəyər üzrə gəlir və ya xərclərin bir hissəsi kimi qeydə alınır.

Maliyyə hesabatlarının hazırlanması zamanı Cəmiyyət aşağıda göstərilən valyuta məzənnələrindən istifadə etmişdir:

| | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| ABŞ dolları/AZN | 1.7000 | 1.7000 |
| ABŞ dolları/Avro | 0.9385 | 0.8824 |

**Şərti öhdəliklər və aktivlər**

Şərti öhdəliklər maliyyə hesabatlarında tanınmır. Onlar iqtisadi cəhətdən səmərəli resursların məxarici ehtimalı olmayanadək maliyyə hesabatlarının qeydlərində açıqlanır.

Şərti aktivlər maliyyə hesabatlarında tanınmır, lakin iqtisadi mənfəət əldə edilməsi ehtimalı olduqda maliyyə hesabatlarında açıqlanır.

## 3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin verməsini tələb edir.

Biznes fəaliyyətlərinin qeyri-müəyyənliyi nəticəsində maliyyə hesabatlarında bir çox maddələrin dəqiq qiymətləndirilməsi mümkün olmur və yalnız müəyyən ehtimallar irəli sürülə bilər. Ehtimallar maliyyə hesabatları hazırlanarkən ən son məlumatlara əsaslanan mühakimələri nəzərdə tutur. Gələcək hadisələr haqqında mövcud vəziyyət və ehtimallar Cəmiyyətin nəzarətindən kənarda yaranan bazar dəyişiklikləri və ya şəraitə görə dəyişə bilər. Bu cür dəyişikliklər baş verdikləri zaman Cəmiyyət tərəfindən edilən təxminlərdə öz əksini tapır.

Ən əhəmiyyətli təxminlər əmlak, tikili və və avadanlıqların və qeyri-maddi aktivlərin ədalətli dəyəri, əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin faydalı istifadə müddəti, əmlak, tikili və avadanlıqların və digər qeyri-maliyyə aktivlərin dəyərsizləşməsi, mal-material ehtiyatlarının qiymətləndirilməsi, ƏDV-nin bərpası, maliyyə alətlərinin ədalətli dəyərinin ölçülməsi, debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri üzrə ehtiyat və cari vergilər ilə bağlıdır. Faktiki nəticələr həmin təxminlərdən fərqli ola bilər.

**Mülahizələr**

Cəmiyyətin mühasibat uçotu siyasətinin tətbiq edilməsi prosesində rəhbərlik maliyyə hesabatlarında tanınmış məbləğlər üzrə nəzərə alınmış əhəmiyyətli təsiri olan təxminlərdən başqa aşağıdakı mülahizələri edir.

**Əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin ədalətli dəyəri**

Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər Cəmiyyətə təhvil verildiyi tarixə hesablanmış şərti dəyər olaraq ədalətli dəyərlə ölçülmüşdür.

Əmlak, tikili və avadanlıqların ədalətli dəyəri, 13 saylı MHBS-yə əsasən əmlak, tikili və avadanlıqların ədalətli dəyərinə bərabər olan bənzər əmlak, tikili və avadanlıqlar üçün bazar satış qiymətlərinin təhlilini əhatə edən bazar yanaşması metodu ilə qiymətləndirilmişdir.

**Əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin faydalı istifadə müddəti**

Cəmiyyət hər maliyyə ilinin sonunda əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin qalan faydalı istifadə müddətini qiymətləndirir. Bu aktivlərin nəzərdə tutulan faydalı istifadə müddəti ötən ilin qiymətləndirilməsindən fərqli olduqda, dəyişikliklər “Uçot Siyasətləri, Uçot qiymətləndirmələrində Dəyişikliklər və Xətalar” adlı 8 saylı BMUS-a müvafiq olaraq uçot təxminlərində dəyişiklik olaraq uçota alınır. Belə təxminlərin əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin balans dəyərlərinin məbləğləri və mənfəət və zərər hesablarında tanınmış köhnəlmə və amortizasiya üzrə maddi təsiri olur.

**Əmlak, tikili və avadanlıqların və digər qeyri-maliyyə aktivlərin dəyərsizləşməsi**

Cəmiyyət hər bir hesabat tarixinə aktivlərin dəyərsizləşməsinə dair ehtimalın olmasını qiymətləndirir. Əgər hər hansı belə ehtimal mövcuddursa, Cəmiyyət aktivin bərpa edilə bilən dəyərini təxmin edir. Aktivin bərpa edilə bilən dəyərini onun digər aktivlərdən müstəqil şəkildə pul vəsaitləri yaratmaq qabiliyyətinin olduğu hallar istisna olmaqla, aktivin və ya pul vəsaiti yaradan vahidin ən yüksək ədalətli dəyərindən satış xərcləri və istifadə dəyəri çıxılması nəticəsində yaranan dəyərə bərabərdir. Aktivin balans dəyəri onun bərpa edilə bilən dəyərindən artıq olduqda, aktiv dəyərsizləşmiş hesab edilir və onun balans dəyəri bərpa edilə bilən dəyərə qədər azaldılır. İstifadə dəyərini qiymətləndirərkən, pulun zaman dəyəri və aktivə xas olan risklərin cari bazar qiymətləndirməsini əks etdirən vergidən öncə diskont dərəcəsi istifadə edilərək ehtimal olunan gələcək pul axınları mövcud dəyərinə diskontlaşdırılır. Satış xərcləri çıxılmaqla ədalətli dəyəri müəyyən edərkən, cari bazar əməliyyatları (mövcud olduqda) nəzərə alınır. Bu cür əməliyyatlar müəyyən edilə bilmədikdə, müvafiq qiymətləndirmə modeli istifadə olunur.

Cəmiyyət dəyərsizləşmə üzrə hesablamanı, fərdi aktivin ayrıldığı Cəmiyyətin hər bir nağd yaradan vahidi (CGU) üçün ayrı-ayrılıqda hazırlanan ətraflı büdcələrə və proqnoz hesablamalarına əsasən aparır. Bu büdcələr və proqnoz hesablamaları ümumilikdə 5 illik dövrü əhatə edir. Daha uzun dövrlər üçün, uzunmüddətli böyümə sürəti müəyyənləşdirilir və beşinci ildən sonra gələcək pul vəsaitlərinin hərəkəti üçün tətbiq olunur. 31 dekabr 2022-ci il tarixinə dəyərsizləşmə testi modelində istifadə edilən giriş məlumatlarında əhəmiyyətli dəyişikliklərə görə, Cəmiyyət dəyərsizləşmə hesablamasını həyata keçirə bilməmişdir.

**Mal-material ehtiyatlarının qiymətləndirilməsi**

Mal-material ehtiyatları maya dəyəri və ya xalis satış dəyərindən daha az olan məbləğdə qiymətləndirilir. Cəmiyyət uyğun olduqda köhnəlmiş və az istifadə edilən mal-material ehtiyatlarının balans dəyərini xalis satış dəyərinə qədər azaldaraq uçota alır. Mal-material ehtiyatlarının silinməsi üzrə yaranan faktiki dəyər xalis satış dəyərindən fərqli ola bilər; istənilən fərqin gələcək əməliyyat nəticələri üzərində əhəmiyyətli təsiri ola bilər.

**ƏDV-nin bərpası**

Hər hesabat tarixində Cəmiyyət mal və xidmətlərin alışından yaranan ƏDV-nin bərpasını qiymətləndirir. Cəmiyyət bu məbləğləri yalnız gələcəkdə yaranacaq ƏDV öhdəliyinin əvəzləşdirilməsi və ya vergi orqanlarından toplanması vasitəsilə ala bilər. ƏDV üzrə alınacaq vəsaitlərin bərpası qiymətləndirilərkən Cəmiyyət planlaşdırılmış ƏDV öhdəliyi, dövlət vergi orqanları ilə yazışmaları və tarixi bərpa təcrübəsi ilə bağlı daxili vergi departamentindən alınan məlumatları nəzərə alır.

ƏDV-nin bərpasının cari məbləği Cəmiyyətin təxminlərindən əhəmiyyətli dərəcədə fərqlənə bilər və bu da öz növbəsində əməliyyat nəticələrinə təsir göstərə bilər.

**Maliyyə alətlərinin ədalətli dəyərinin ölçülməsi**

Cəmiyyətin bir sıra mühasibat uçotu siyasəti və açıqlamaları, maliyyə və qeyri-maliyyə aktivləri və öhdəlikləri üçün ədalətli dəyərin ölçülməsini tələb edir.

Cəmiyyət ədalətli dəyərin ölçülməsi ilə əlaqədar olaraq müəyyən nəzarət çərçivəsinə malikdir.

Aktiv və ya öhdəliyin ədalətli dəyərini ölçərkən, Cəmiyyət mümkün qədər bazarda müşahidə edilə bilən məlumatlardan istifadə edir. Ədalətli dəyərlər aşağıdakı qiymətləndirmə üsullarında istifadə olunan giriş məlumatlarına əsaslanaraq ədalətli dəyər iyerarxiyasında müxtəlif səviyyələrdə təsnifləşdirilir:

- *1-ci Səviyyə* – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- *2-ci Səviyyə* – aktiv və ya öhdəlik üzrə birbaşa (yəni qiymətlər) və ya dolayı yolla (yəni qiymətlərdən əldə edilir) müqayisə edilə bilən 1-ci Səviyyədə daxil edilmiş qiymətlərdən başqa daxilolmalar;
- *3-cü Səviyyə* – müşahidə edilə bilən bazar məlumatlarına əsaslanmayan aktiv və ya öhdəlik üçün daxilolmalar (müşahidə olunmayan daxilolmalar).

Bir aktivin və ya öhdəliyin ədalətli dəyərini ölçmək üçün istifadə edilən giriş məlumatları, ədalətli dəyər iyerarxiyasının müxtəlif səviyyələrində təsnif edilə bilərsə, ədalətli dəyər iyerarxiyasının eyni dərəcəsi bütün ölçmə üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş kimi ədalətli dəyərin ölçülməsi bütünlükdə təsnifləşdirilir.

**Debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri üzrə ehtiyat**

Cəmiyyət debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərlərini hesablamaq üçün ehtiyat cədvəlindən istifadə edir. Ehtiyat dərəcələri oxşar zərər nümunələrinə malik olan müxtəlif müştəri seqmentlərinin qruplaşdırılması üçün vaxtı keçmiş günlərə əsaslanır (məsələn, coğrafiya, məhsul növü, müştəri növü və reytinqi, akkreditivlər və kredit sığortasının digər formaları ilə əhatə dairəsi).

Ehtiyat cədvəli, ilkin olaraq, Cəmiyyətin tarixən müşahidə edilmiş faiz dərəcələrinə əsaslanır. Cəmiyyət keçmiş kredit zərəri təcrübəsini gələcəyə hesablanmış məlumatlarla tənzimləmək üçün cədvəli kalibrləyəcək. Məsələn, proqnozlaşdırılan iqtisadi şərtlərin (yəni, ümumi daxili məhsulun) növbəti il ərzində pisləşməsi gözlənilirsə və bu, istehsal sektorunda defoltların sayının artmasına səbəb ola bilərsə, tarixi faiz dərəcələrinə düzəlişlər edilir. Hər hesabat tarixində tarixən müşahidə edilmiş faiz dərəcələri yenilənir və perspektiv təxminlərdəki dəyişikliklər təhlil edilir. Müvafiq hallarda, Cəmiyyət qarşı tərəflərin xarici tariflərindən əldə edilən faiz dərəcələrinə əsaslanır.

Tarixən müşahidə edilmiş faiz dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və ehtimal olunan kredit zərərləri arasında korrelyasiyanın qiymətləndirilməsi əhəmiyyətli bir təxmindir. Ehtimal olunan kredit zərərlərinin məbləği şəraitdəki dəyişikliklərə və proqnozlaşdırılan iqtisadi şəraitə həssasdır. Cəmiyyətin tarixi kredit zərəri təcrübəsi və iqtisadi şərtlərin proqnozu da müştərinin gələcəkdə faktiki defoltunu təmsil edə bilməz.

**Cari vergilər**

Azərbaycanda vergi, valyuta və gömrük qanunvericiliyi tez-tez baş verən şərhlərə və dəyişiklərə məruz qalır. Bundan başqa Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq olunan vergi qanunvericiliyinin vergi orqanları tərəfindən şərhi, Cəmiyyətin rəhbərliyinin şərhi ilə uyğun gəlməyə bilər. Nəticədə, vergi orqanları əməliyyatları yenidən təsnif edə bilər və Cəmiyyətin işçiləri əhəmiyyətli dərəcədə əlavə vergi, cərimə və faiz ödəmələrinə məruz qala bilərlər.

Vergi və gömrük qurumları müəssisənin fəaliyyətinin nəzərdən keçiriləcəyi ildən əvvəlki üç il ərzində vergi öhdəliklərini yoxlaya bilərlər. Cəmiyyətin fəaliyyətinin nəzərdən keçirilməsi müəyyən şərtlər çərçivəsində daha uzun müddətləri də əhatə edə bilər. 31 dekabr 2022-ci il tarixinə rəhbərlik hesab edir ki, onların müvafiq qanunvericiliklə bağlı şərhləri uyğundur və ehtimal olunur ki, Cəmiyyətin vergi, valyuta və gömrüklə bağlı cari vəziyyəti dəyişməyəcək.

## 4. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ

Cari ildə Cəmiyyət Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) və BMUSŞ-nin Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

**Maliyyə Uçotunun Konseptual Əsaslarına İstinad – 3 saylı MHBS-yə edilmiş Düzəliş** – 2020-ci ilin may ayında BMUSŞ tərəfindən “Müəssisələrin birləşməsi” adlı 3 saylı MHBS-yə düzəliş dərc edilmişdir. Düzəliş 2018-ci ilin mart ayında dərc edilmiş “Maliyyə Hesabatlılığının Konseptual Əsasları”na istinad ilə birlikdə, bu düzəlişin tələblərini əhəmiyyətli dərəcədə dəyişmədən, 1989-cu ildə dərc edilmiş “Maliyyə Hesabatlarının Hazırlanması və Təqdimatın Əsasları”na edilən istinadın əvəz olunmasını nəzərdə tutur. Şura eyni zamanda, 37 saylı BMUS və ya “Təminatlar” adlı 21 saylı BMHŞK çərçivəsində, ayrı olaraq yaranırsa, borclar və şərti öhdəliklər üçün yaranan potensial “2 gün” mənfəət və ya zərərlərindən yayınmaq üçün 3 saylı MHBS-nin tanınma prinsipinə istisna da əlavə etmişdir. Eyni zamanda, Şura “Maliyyə Hesabatlarının Hazırlanması və Təqdim Olunması Əsasları”na istinadın əvəz edilməsindən təsirlənməyəcək şərti aktivlər üçün 3 saylı MHBS-nin mövcud təlimatına dair izahlar verməyi qərarlaşdırmışdır.

**Əmlak, Tikili və Avadanlıqlar: Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar – 16 saylı BMUS-a edilən düzəlişlər.** 2020-ci ilin may ayında, BMUSŞ müəssisələrin əmlak, tikili və avadanlıqların dəyərindən, rəhbərliyin nəzərdə tutduğu qaydada fəaliyyət göstərə bilməsi üçün həmin aktivləri lazımi yerə və şəraitə çatdırarkən istehsal olunan aktivlərin satışından əldə olunan gəlirləri çıxmağı qadağan edən "Əmlak, Tikili və Avadanlıqlar – Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar" düzəlişini dərc etmişdir. Bunun əvəzinə, müəssisə bu cür aktivlərin satışından əldə olunan gəlirləri və bu aktivlərin istehsal xərclərini mənfəət və zərər hesabında tanıyır.

**Ağır Şərtli Müqavilələr – Müqavilənin Yerinə Yetirilməsinə dair Xərclər – 37 saylı BMUS-a edilən düzəlişlər.** 2020-ci ilin may ayında, BMUSŞ, 37 saylı BMUS-a müqavilənin ağır şərtli və ya zərər yaradan olduğunu qiymətləndirərkən müəssisənin hansı xərcləri nəzərə alması barədə düzəlişlər etmişdir. Düzəlişlər "birbaşa əlaqəli xərc yanaşması"nı tətbiq edir. Mal və ya xidmətləri təmin etmək üçün birbaşa müqaviləyə aid olan xərclərə həm artan xərclər, həm də müqavilə fəaliyyətləri ilə birbaşa əlaqəli xərclərin bölüşdürülməsi daxildir. Ümumi və inzibati xərclər birbaşa müqavilə ilə əlaqəli deyil və müqavilə üzrə qarşı tərəf üçün açıq şəkildə ödənilməli olmadıqca istisna olunur.

**"Beynəlxalq Maliyyə Hesabatlılığı Standarlarının İlk dəfə Tətbiqi" adlı 1 saylı MHBS – ilkin tətbiq edən törəmə olaraq.** BMUSŞ 2018-2020-ci il üzrə illik təkmilləşdirmələr çərçivəsində "Beynəlxalq Maliyyə Hesabatı Standartlarının ilk dəfə qəbul edilməsi" adlı 1 saylı MHBS-də dəyişiklik etmişdir. Dəyişiklik ana müəssisənin MHBS-yə keçid tarixinə əsasən, ana müəssisə tərəfindən bildirilən məbləğlərdən istifadə etməklə, məcmu çevirmələr üzrə fərqlərini ölçmək üçün 1 saylı MHBS-nin D16 (a) bəndini tətbiq etməyi seçən bir törəmə müəssisəyə icazə verir. Bu düzəliş 1 saylı MHBS-nin D16 (a) bəndini tətbiq etməyi seçən bir asılı və ya birgə müəssisəyə də tətbiq edilir.

**"Maliyyə Alətləri" adlı 9 saylı MHBS – Maliyyə öhdəliklərinin silinməsi üzrə "10 faiz" dəyərində test üzrə iştirak haqqı.** MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ 9 saylı MHBS-yə düzəliş etmişdir. Düzəliş bir müəssisənin yeni və ya dəyişdirilmiş maliyyə öhdəliyinin şərtlərinin ilkin maliyyə öhdəliyinin şərtlərindən əhəmiyyətli dərəcədə fərqli olub-olmadığını qiymətləndirərkən əlavə etdiyi haqları aydınlaşdırır. Bu rüsumlara yalnız borcalan və ya borcverən tərəfindən başqasının adından ödədiyi və ya aldığı haqlar daxil olmaqla borcalanla borc verən arasında ödənilən və ya alınan ödənişlər daxildir. Müəssisə düzəlişi müəssisənin ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün əvvəlində və ya ondan sonra dəyişdirilmiş və ya mübadilə edilmiş maliyyə öhdəliklərinə tətbiq edir.

**"Kənd Təsərrüfatı" adlı 41 saylı BMUS –** Ədalətli dəyər ölçmələrində vergi. MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ "Kənd Təsərrüfatı Standartı" adlı 41 saylı BMUS-a dəyişiklik etmişdir. Dəyişiklik 41 saylı BMUS-in 22-ci bəndində müəssisələrin, 41 saylı BMUS çərçivəsində aktivlərin ədalətli dəyərini ölçərkən vergitutma üçün pul axınlarını istisna etməsi tələbini aradan qaldırır.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

## 5. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Cəmiyyət tərəfindən, qüvvəyə minən tarixdən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir. Cəmiyyət hazırkı yeni və düzəliş edilmiş standartları və şərhləri (əgər varsa) qüvvəyə mindikdən sonra qəbul etmək niyyətindədir.

**"Sığorta müqavilələri" adlı 17 saylı MHBS** – 2017-ci ilin may ayında dərc olunmuşdur və "Sığorta müqavilələri" adlı 4 saylı MHBS-ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə "Sığorta müqavilələri" adlı 17 saylı MHBS-ni tətbiq etməlidir.

17 saylı MHBS, 1 yanvar 2023-cü il tarixində və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. "Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir" adlı 15 saylı MHBS və "Maliyyə Alətləri" adlı 9 saylı MHBS standartları ilə birlikdə tətbiq olunduqda erkən tətbiqinə icazə verilir. Bu standart Cəmiyyətə şamil edilmir.

**Uçot Siyasətinin Açıqlanması – 1 saylı BMUS və 2 saylı MHBS Metodik Sənədi** – 2021-ci ilin fevral ayında BMUSŞ 1 saylı BMUS və "Əhəmiyyətlilik haqqında mühakimələrin yürüdülməsi" adlı 2 saylı MHBS Metodik Sənədə düzəlişlər etmişdir. Bu düzəlişlər müəssisələrə uçot siyasəti haqqında açıqlamalar edərkən əhəmiyyətliliklə bağlı mühakimələrin tətbiq edilməsinə kömək edilməsi məqsədilə təlimat və nümunələri təqdim edir. Düzəlişlər müəssisələr üçün "əhəmiyyətli" uçot siyasətləri haqqında məlumatın açıqlanması tələbini onların "əhəmiyyətli" uçot siyasətinin açıqlanması tələbi ilə əvəz etməklə və mühasibat uçotu siyasəti ilə bağlı açıqlamalar barədə qərar qəbul edərkən müəssisələrin uçot siyasəti haqqında daha faydalı məlumatı açıqlamaqda kömək etmək məqsədi daşıyır.

1 saylı BMUS-a edilən düzəlişlər 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün tətbiq edilir və düzəlişlərin daha erkən tətbiqinə icazə verilir. 2 saylı Metodik Sənədə edilən düzəlişlər əhəmiyyətlilik anlayışının mühasibat uçotu siyasəti məlumatlarına tətbiqi ilə bağlı məcburi olmayan təlimatları ehtiva etdiyi üçün, bu düzəlişlər üçün qüvvəyə minmə tarixinə ehtiyac yoxdur.

**Uçot təxminlərinin müəyyən edilməsi – 8 saylı BMUS-a edilən Düzəlişlər** – 2021-ci ilin fevral ayında BMUSŞ "uçot təxminləri" anlayışını təqdim edən 8 saylı BMUS-a düzəlişi dərc etmişdir. Düzəlişlər müəssisələrin uçot siyasətindəki dəyişiklikləri uçot təxminlərindəki dəyişikliklərdən necə fərqləndirməli olduğunu və xətaların aradan götürülməsini izah edir. Həmçinin, bu düzəlişlər mühasibat uçotu təxminlərini hazırlamaq üçün müəssisələrin ölçmə üsullarından və giriş məlumatlarından necə istifadə etdiyini aydınlaşdırır.

Düzəlişlər 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və həmin dövrün başlanğıcında və ya ondan sonra baş verəcək uçot siyasəti və uçot təxminlərindəki dəyişikliklərə tətbiq edilir. Bu tip faktlar açıqlanarsa, düzəlişlərin erkən tətbiqinə icazə verilir.

**Eyni əməliyyatdan yaranan aktiv və öhdəliklərə aid təxirə salınmış vergilər – 12 saylı BMUS-a edilən Düzəlişlər** – 2021-ci ilin may ayında Şura 12 saylı BMUS-a uyğun olaraq ilkin tanınma istisnasının əhatə dairəsini azaldan 12 saylı BMUS-a düzəlişlər etdi, beləliklə, o, vergi bazasını artıran və azaldan bərabər məbləğdə müvəqqəti fərqlərə səbəb olan əməliyyatlara artıq tətbiq edilmir.

Düzəlişlər təqdim edilən ən erkən müqayisəli dövrün əvvəlində və ya ondan sonra baş verən əməliyyatlara tətbiq edilməlidir. Bundan əlavə, təqdim olunan ən erkən müqayisəli dövrün əvvəlində icarə və istismardan çıxarma öhdəlikləri ilə bağlı bütün gəlirdən çıxılan və vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün təxirə salınmış vergi aktivi (kifayət qədər vergi tutulan mənfəətin olması şərtilə) və təxirə salınmış vergi öhdəliyi də tanınmalıdır.

BMUSŞ, satış kimi uçota alınması nəzərdə tutulan 15 saylı MHBS-nin tələblərinə cavab verən satış və geri icarə əməliyyatlarını sonradan satıcı-icarədarın necə ölçməsini aydınlaşdırmaq üçün **"Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi"ni (16 saylı MHBS-yə edilən Düzəlişlər) düzəlişlərlə birgə dərc etmişdir. Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi (16 saylı MHBS-yə edilən Düzəlişlər)** satıcı-icarədardan istifadə hüququnu özündə saxlayan hər hansı gəlir və ya zərər məbləğini tanımamaq üçün geri icarədən irəli gələn icarə öhdəliyini sonradan ölçməsini tələb edir. Yeni tələblər satıcı-icarədarı icarənin qismən və ya tam xitam verilməsi ilə bağlı hər hansı gəlir və ya zərəri mənfəət və ya zərərdə tanınmasını qadağa etmir. Düzəlişlər 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Düzəlişlərin daha erkən tətbiqinə icazə verilir.

Müəssisənin hesabat dövründən sonra on iki ay ərzində riayət etməli olduğu şərtlərin, öhdəliklərin təsnifatına təsirini müəyyən etmək üçün 2022-ci ilin oktyabr ayında BMUSŞ **"Kovenantlar ilə bağlı uzunmüddətli öhdəliklər" (1 saylı BMUS-a edilən Düzəlişlər)** adlı düzəlişi dərc etmişdir. Düzəlişə əsasən öhdəliyin cari və ya uzunmüddətli olaraq təsnifləşdirilməsinə yalnız müəssisənin hesabat tarixində və ya ondan əvvəl riayət etməli olduğu şərtlər təsir edir. Bundan əlavə, müəssisə maliyyə hesabatı üzrə qeydlərdə hesabatın istifadəçilərinə kovenantlar ilə uzunmüddətli öhdəliklərin on iki ay ərzində qaytarıla biləcəyi riskini nəzərdə tutacağı məlumatları açıqlamalıdır. Düzəlişlər 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üzrə qüvvəyə minir.

**"Konsolidasiya olunmuş Maliyyə Hesabatları" adlı 10 saylı MHBS və "İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi" adlı 28 saylı BMUS (düzəlişlər):** 10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidasiya olunmuş əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya olunmuş assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi BMUSŞ tərəfindən hələ müəyyən edilməmişdir, lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

## 6. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ QALIQLAR VƏ ƏMƏLİYYATLAR

Əlaqəli tərəflər "Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması" adlı 24 saylı BMUS-da müəyyən edilmişdir. Ümumiyyətlə tərəflər bir tərəfin digər tərəfi idarə etmək qabiliyyəti varsa, ümumi nəzarət altındadırsa və ya maliyyə və əməliyyat qərarları verərkən digər tərəfə əhəmiyyətli təsir və ya birgə nəzarət edə bilərsə, əlaqəli hesab olunurlar. Hər bir əlaqəli tərəf ilə bağlı münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin məzmununa yönəldilir. Cəmiyyətin bilavasitə nəzarətçi tərəfi Azərbaycan Respublikası Hökumətinə məxsus olan "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətidir.

Cəmiyyət dövlət ilə əlaqəli qurumlar üçün açıqlama tələbi ilə əlaqədar "Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması" adlı 24 saylı BMUS-un 25-ci bəndində qeyd olunmuş güzəştdən istifadə etmişdir.

Hesabat təqdim edən müəssisə əlaqəli tərəf əməliyyatları və öhdəliklər də daxil olmaqla, qalıq borclarla əlaqəli "Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması" adlı 24 saylı BMUS-un 18-ci bəndinin açıqlama tələblərindən aşağıdakılar ilə birlikdə azaddır:

(a) hesabat təqdim edən müəssisə nəzarəti və ya birgə nəzarəti və ya üzərində əhəmiyyətli dərəcədə təsiri olan hökumət; və
(b) eyni hökumətin həm təqdim edən müəssisənin, həm də digər təşkilatın nəzarəti və ya birgə nəzarəti və ya üzərində əhəmiyyətli dərəcədə təsiri olduğu üçün əlaqəli tərəf olan başqa bir müəssisə.

Dövlətlə əlaqəli təşkilatlarla əməliyyatlara elektrik enerjisi, qaz, benzin alınması və digər xidmətlərin alınması daxildir.

31 dekabr 2022-ci il tarixində başa çatmış il ərzində rəhbər işçilərin mükafatlandırılmasına 75,787 AZN məbləğində (2021-ci il: 78,412 AZN) əmək haqqı, ixtiyari mükafatlar və digər qısamüddətli faydalar daxildir.

## 7. ƏMLAK, TİKİLİ VƏ AVADANLIQLAR VƏ QEYRİ-MADDİ AKTİVLƏR

| | Maşın və avadanlıqlar | Binalar və bənzər tikililər | Elektrolizatorlar | Nəqliyyat vasitələri | Quraşdırılacaq avadanlıq | Digər | Cəmi | Qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Şərti dəyər olaraq ədalətli dəyər/ilkin dəyər** | | | | | | | | | |
| **1 yanvar 2021-ci il** | **104,485,726** | **69,359,134** | **70,903,321** | **556,136** | **1,557,679** | **1,142,063** | **248,004,059** | **44,275** | **248,048,334** |
| Əlavələr | 1,177,281 | 439,151 | 940,772 | 149,600 | 111,687 | 528,030 | 3,346,521 | 45,261 | 3,391,782 |
| **31 dekabr 2021-ci il** | **105,663,007** | **69,798,285** | **71,844,093** | **705,736** | **1,669,366** | **1,670,093** | **251,350,580** | **89,536** | **251,440,116** |
| Əlavələr | 2,395,389 | 1,002,413 | 1,804,248 | 837,909 | 444,730 | 220,216 | 6,704,905 | 124,402 | 6,829,307 |
| Silinmələr | - | (130,348) | - | - | - | (13,533) | (143,881) | - | (143,881) |
| Ötürülmələr | 226,059 | - | - | - | (226,059) | - | - | - | - |
| **31 dekabr 2022-ci il** | **108,284,455** | **70,670,350** | **73,648,341** | **1,543,645** | **1,888,037** | **1,876,776** | **257,911,604** | **213,938** | **258,125,542** |
| **Yığılmış köhnəlmə və amortizasiya** | | | | | | | | | |
| **1 yanvar 2021-ci il** | **(12,309,210)** | **(4,613,503)** | **(8,540,488)** | **(128,003)** | **-** | **(77,785)** | **(25,668,989)** | **(32,177)** | **(25,701,166)** |
| İl üzrə köhnəlmə və amortizasiya xərcləri | (8,221,863) | (1,729,171) | (5,328,568) | (80,044) | - | (68,002) | (15,427,648) | (23,462) | (15,451,110) |
| **31 dekabr 2021-ci il** | **(20,531,073)** | **(6,342,674)** | **(13,869,056)** | **(208,047)** | **-** | **(145,787)** | **(41,096,637)** | **(55,639)** | **(41,152,276)** |
| İl üzrə köhnəlmə və amortizasiya xərcləri | (8,222,136) | (1,721,160) | (5,362,965) | (115,547) | - | (143,441) | (15,565,249) | (33,676) | (15,598,925) |
| Köhnəlmə xərcləri üzrə silinmələr | - | 22,835 | - | - | - | 9,154 | 31,989 | - | 31,989 |
| **31 dekabr 2022-ci il** | **(28,753,209)** | **(8,040,999)** | **(19,232,021)** | **(323,594)** | **-** | **(280,074)** | **(56,629,897)** | **(89,315)** | **(56,719,212)** |
| **Xalis qalıq dəyəri** | | | | | | | | | |
| **31 dekabr 2022-ci il** | **79,531,246** | **62,629,351** | **54,416,320** | **1,220,051** | **1,888,037** | **1,596,702** | **201,281,707** | **124,623** | **201,406,330** |
| **31 dekabr 2021-ci il** | **85,131,934** | **63,455,611** | **57,975,037** | **497,689** | **1,669,366** | **1,524,306** | **210,253,943** | **33,897** | **210,287,840** |

31 dekabr 2022 və 2021-ci il tarixlərinə əmlak, tikili və avadanlıqlar kateqoriyasına aid, istifadəsinə məhdudiyyət qoyulmuş və ya öhdəliklərin təminatı olaraq girov qoyulmuş hər hansı bir aktiv mövcud olmamışdır.

## 8. ƏMLAK, TİKİLİ VƏ AVADANLIQLAR ÜZRƏ AVANS ÖDƏNİŞLƏRİ

31 dekabr 2022-ci il tarixinə, əmlak, tikili və avadanlıqlar üzrə avans ödənişlərinə, təchizatçıya nəqliyyat vasitələrinin alınması üçün 226,222 AZN (2021-ci il: nəqliyyat vasitələrinin satın alınması üçün 245,633 AZN) məbləğində verilmiş avanslar daxildir.

## 9. MAL-MATERİAL EHTİYATLARI

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Hazır məhsul | 57,157,087 | 45,635,743 |
| Xammal | 22,012,754 | 13,089,143 |
| Ehtiyat hissələri | 10,325,195 | 7,088,635 |
| Tamamlanmamış istehsal | 1,566,576 | 2,606,812 |
| Digər | 3,605,924 | 2,277,558 |
| **Cəmi mal-material ehtiyatları** | **94,667,536** | **70,697,891** |

## 10. DEBİTOR BORCLARI VƏ DİGƏR ALINACAQ VƏSAİTLƏR

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Debitor borcları | 33,093,569 | 26,791,116 |
| Digər alınacaq vəsaitlər | 971,059 | 366,705 |
| Çıxılsın: ehtimal olunan kredit zərərləri üzrə ehtiyat | (5,576,112) | (2,754,000) |
| **Cəmi debitor borcları və digər alınacaq vəsaitlər** | **28,488,516** | **24,403,821** |

Debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri üzrə ehtiyatın hərəkətlərinə aşağıdakılar daxildir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| İlin əvvəlinə ehtiyat | (2,754,000) | - |
| İl üzrə ehtimal olunan kredit zərərləri | (2,822,112) | (2,754,000) |
| **İlin sonuna ehtiyat** | **(5,576,112)** | **(2,754,000)** |

## 11. BANKDA OLAN DEPOZİTLƏR

| Bankın adı | Müqavilə tarixi | Gözlənilən ödəniş tarixi | Valyuta | İllik faiz dərəcəsi | 31 dekabr 2022-ci il |
|---|---|---|---|---|---|
| “Ziraatbank” ASC | 09.12.2022 | 09.03.2023 | EUR | 1.10% | 3,622,745 |
| **Cəmi bankda olan depozitlər** | | | | | **3,622,745** |

EOKZ-nin ölçülməsi məqsədilə bankda olan depozitlər 1-ci Mərhələyə daxildir. Bu qalıqlar üzrə EOKZ cüzi məbləği əks etdirir, ona görə də Cəmiyyət bankda olan depozitlər üzrə kredit zərəri ehtiyatını tanımır.

## 12. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Banklarda yerləşdirilmiş pul vəsaitləri | 7,095,194 | 19,760,347 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **7,095,194** | **19,760,347** |

## 13. DİGƏR CARİ AKTİVLƏR

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Təchizatçılara verilmiş avanslar | 27,628,559 | 25,169,823 |
| Vergilər üzrə alınacaq vəsaitlər | 862,187 | - |
| Əvəzləşdirilən ƏDV | 717,868 | 3,244,159 |
| Əlaqəli tərəfdən alınacaq vəsaitlər | 500,000 | - |
| ƏDV depozit hesabı | 261,855 | - |
| **Cəmi digər cari aktivlər** | **29,970,469** | **28,413,982** |

31 dekabr 2022-ci il tarixinə 500,000 AZN məbləğində əlaqəli tərəfdən alınacaq vəsaitlər “ASK Şüşə” MMC-yə verilmiş qısamüddətli faizsiz və tələb oluna bilən kreditləri əks etdirir. Rəhbərlik hesab edir ki, bu qalıqların balans dəyəri bərpa edilə bilər.

## 14. TƏXİRƏ SALINMIŞ VERGİ ÖHDƏLİYİ

Cəmiyyət cari mənfəət vergisi öhdəliyini, eləcə də aktiv və öhdəliklər ilə əlaqəli vergi əsaslarını, Cəmiyyətin fəaliyyət göstərdiyi Azərbaycan Respublikasının MHBS-dən fərqli olan qanuni vergi qaydalarına uyğun olaraq ölçür və uçota alır.

Cəmiyyət müəyyən xərclərdən vergi çıxılmaması və müəyyən gəlirlərin vergi məqsədləri üçün vergiyə cəlb edilməməsi kimi qəbul edilməsi səbəbindən müəyyən qalıcı vergi fərqlərinə məruz qalır.

Təxirə salınmış vergilər maliyyə hesabatı məqsədləri üçün aktiv və öhdəliklərin balans dəyərləri ilə vergi məqsədləri üçün istifadə olunan məbləğlər arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirlərini əks etdirir.

31 dekabr 2022 və 2021-ci il tarixlərinə olan müvəqqəti fərqlər, əsasən, gəlir və xərclərin tanınma metodları/müddəti ilə yanaşı, müəyyən aktivlər üçün vergi bazalarının fərqlərindən yaranmış müvəqqəti fərqlər ilə əlaqədardır.

Azərbaycan Respublikasının vergi qanunvericiliyi xüsusilə müxtəlif şərhlərə və dəyişikliklərə səbəb ola bilər. Bundan əlavə, rəhbərlik tərəfindən vergi qanunvericiliyinin şərhi vergi orqanlarının şərhindən fərqli ola biləcəyi üçün, əməliyyatlar vergi orqanları tərəfindən yenidən yoxlanıla bilər və nəticədə Cəmiyyətə bu maliyyə vəziyyəti haqqında hesabat üçün əhəmiyyətli ola biləcək əlavə vergilər, cərimələr və faizlər hesablana bilər.

31 dekabr 2022 və 2021-ci il tarixlərinə müvəqqəti fərqlər aşağıdakı kimidir:

| | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlər:** | | |
| Növbəti ilə keçirilmiş vergi zərəri | - | 1,595,980 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 7,338,140 | 9,195,687 |
| Digər cari aktivlər | 2,189,435 | - |
| **Cəmi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **9,527,575** | **10,791,667** |
| **Vergi tutulan müvəqqəti fərqlər** | | |
| Əmlak, tikili və avadanlıqlar | (50,285,458) | (40,734,477) |
| Mal-material ehtiyatları | (10,285,173) | (1,386,119) |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | (898,082) | (2,576,394) |
| **Cəmi vergi tutulan müvəqqəti fərqlər** | **(61,468,713)** | **(44,696,990)** |
| **Xalis vergi tutulan müvəqqəti fərqlər** | **(51,941,138)** | **(33,905,323)** |
| **20% ilə təxirə salınmış xalis vergi öhdəliyi** | **(10,388,228)** | **(6,781,065)** |

31 dekabr 2022 və 2021-ci il tarixlərində başa çatmış illər üzrə vergi xərcləri ilə mühasibat mənfəəti arasındakı əlaqə aşağıdakı kimidir:

| | **31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| Mənfəət vergisindən əvvəlki mənfəət | 34,750,125 | 37,594,806 |
| Qanunla müəyyən olunmuş 20% vergi dərəcəsində nəzəri vergi | (6,950,025) | (7,518,961) |
| Daimi fərqlərin vergi təsiri | (254,323) | - |
| Əvvəlki ilin qiymətləndirməsinə yenidən baxılması | 168,797 | - |
| **Mənfəət vergisi xərci** | **(7,035,551)** | **(7,518,961)** |
| Cari mənfəət vergisi xərci | (3,428,388) | (1,652,102) |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyində dəyişiklik | (3,607,163) | (5,866,859) |
| **Mənfəət vergisi xərci** | **(7,035,551)** | **(7,518,961)** |

| | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| **Təxirə salınmış vergi öhdəliyi** | | |
| **İlin əvvəlinə** | **(6,781,065)** | **(914,206)** |
| Mənfəət və zərər hesablarında daxil edilmiş dövr üzrə təxirə salınmış vergi öhdəliyində dəyişiklik | (3,607,163) | (5,866,859) |
| **İlin sonuna** | **(10,388,228)** | **(6,781,065)** |

## 15. KREDİTOR BORCLARI VƏ DİGƏR ÖDƏNİLƏCƏK VƏSAİTLƏR

| | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| Mal-material ehtiyatları və digər xidmətlər üzrə kreditor borcları | 11,847,971 | 22,587,809 |
| **Cəmi maliyyə borcları** | **11,847,971** | **22,587,809** |
| Alınmış avanslar | 753,348 | 6,889,967 |
| İşçi heyəti ilə bağlı ödəniləcək vəsaitlər | 454,754 | 1,116,962 |
| Vergilər üzrə ödəniləcək vəsaitlər | - | 1,380,974 |
| **Cəmi kreditor borcları və digər ödəniləcək vəsaitlər** | **13,056,073** | **31,975,712** |

## 16. ÖDƏNİLƏCƏK DİVİDENDLƏR

2021-ci maliyyə ili ilə bağlı 1,503,792 AZN məbləğində təklif olunan dividend Ümumi Yığıncaqda qəbul edilmiş qərara əsasən, 27 sentyabr 2022-ci il tarixində təsisçilər tərəfindən təsdiq edilmişdir.

| | |
|---|---|
| **1 yanvar 2022-ci il tarixinə ödəniləcək dividendlər** | - |
| İl ərzində elan edilmiş dividendlər | 1,503,792 |
| İl ərzində ödənilmiş dividendlər | (1,000,000) |
| **31 dekabr 2022-ci il tarixinə ödəniləcək dividendlər** | **503,792** |

## 17. NİZAMNAMƏ KAPİTALI

31 dekabr 2022-ci il tarixinə nizamnamə kapitalı 282,243,699 AZN təşkil etmiş və bir səhm üzrə nominal dəyəri 282,243,699 AZN olan 1 ədəd səhmdən ibarət olmuşdur (31 dekabr 2021-ci il: nizamnamə kapitalı 282,243,699 AZN təşkil etmiş və bir səhm üzrə nominal dəyəri 2,822,436.99 AZN olan 100 ədəd səhmdən ibarət olmuşdur).

## 18. GƏLİR

| | **31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| Folqa və digər alüminium məhsullarının satışı | 167,498,059 | 179,601,037 |
| İlkin alüminiumun satışı | 112,157,613 | 49,420,568 |
| Digər gəlirlər | 7,064,450 | 5,363,563 |
| **Cəmi gəlir** | **286,720,122** | **234,385,168** |

## 19. SATIŞIN MAYA DƏYƏRİ

| | **31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| Material xərcləri | 178,308,302 | 130,938,735 |
| Kommunal xərcləri | 34,238,645 | 31,186,247 |
| Köhnəlmə xərcləri | 15,375,647 | 15,316,678 |
| Əməkhaqqı və digər hesablamalar | 13,187,330 | 11,895,869 |
| Mənfəət vergisindən başqa digər vergilər | 1,609,169 | 1,818,358 |
| Hazır məhsul və tamamlanmamış istehsal üzrə dəyişiklik | (10,481,109) | (20,497,057) |
| **Cəmi satışın maya dəyəri** | **232,237,984** | **170,658,830** |

## 20. ÜMUMİ VƏ İNZİBATİ XƏRCLƏR

| | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Əməkhaqqı və digər hesablamalar | 1,940,574 | 2,295,797 |
| Peşəkar xidmət haqları | 641,906 | 199,628 |
| Yemək xərcləri | 579,919 | 536,923 |
| Sığorta xərcləri | 370,993 | 213,131 |
| Təhlükəsizlik xərcləri | 364,802 | 344,869 |
| İcarə xərcləri | 256,379 | 249,269 |
| Köhnəlmə və amortizasiya xərcləri | 223,278 | 134,432 |
| Təmir və texniki xidmət xərcləri | 205,134 | 148,969 |
| Ezamiyyə xərcləri | 194,768 | 190,217 |
| Bank komissiyaları | 137,388 | 142,320 |
| Rabitə xərcləri | 129,217 | 88,779 |
| Ofis ləvazimatları | 58,759 | 109,904 |
| Nəqliyyat xərcləri | 47,844 | 53,921 |
| Nümayəndəlik xərcləri | 42,854 | 32,011 |
| İanə xərcləri | 30,492 | 143,311 |
| Reklam xərcləri | 28,632 | 26,951 |
| Digər xərclər | 279,317 | 297,159 |
| **Cəmi ümumi və inzibati xərclər** | **5,532,256** | **5,207,591** |

## 21. SATIŞ VƏ PAYLAMA XƏRCLƏRİ

| | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Nəqliyyat xərcləri | 10,283,440 | 11,981,524 |
| Gömrük haqları | 1,617,655 | 1,767,386 |
| Broker xərcləri | 478,764 | 1,540,024 |
| Digər xərclər | 85,732 | 253,123 |
| **Cəmi satış və paylanma xərcləri** | **12,465,591** | **15,542,057** |

## 22. MALİYYƏ XƏRCLƏRİ

31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə mal-material ehtiyatları üzrə "Noble Resources Limited" şirkətinə faiz gətirən kreditor borcları ilə bağlı maliyyə xərcləri sıfır təşkil etmişdir (2021-ci il: 907,119 AZN).

## 23. DİGƏR GƏLİRLƏR/(XƏRCLƏR), XALİS

| | **31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| Öhdəliklərin silinməsi üzrə gəlir | 1,368,299 | - |
| Vergi cəriməsi | - | (1,615,420) |
| Digər | (168,461) | (105,345) |
| **Cəmi digər gəlirlər/(xərclər), xalis** | **1,199,838** | **(1,720,765)** |

## 24. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

### Məhkəmə prosedurları

Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Cəmiyyətə qarşı iddialar irəli sürülə bilər. Rəhbərlik hesab edir ki, heç bir əhəmiyyətli hesablanmamış zərər baş verməyəcək və buna uyğun olaraq hazırkı maliyyə hesabatlarında heç bir ehtiyat yaradılmamışdır.

### Vergi qanunvericiliyi

Azərbaycan Respublikasının kommersiya və vergi qanunvericiliyi müxtəlif şərhlərə və dəyişikliklərə səbəb ola bilər. Bundan əlavə, rəhbərlik tərəfindən vergi qanunvericiliyinin şərhi vergi orqanlarının şərhindən fərqli ola biləcəyi üçün, əməliyyatlar vergi orqanları tərəfindən yenidən yoxlanıla bilər və nəticədə Cəmiyyətə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər.

Cəmiyyət bütün vergi ödəmələrini artıq həyata keçirdiyinə inanır və bu səbəbdən maliyyə hesabatlarında heç bir vergi öhdəliyi yaratmamışdır. Vergi dövrləri üç il ərzində vergi orqanları tərəfindən təhlil olunması üçün açıq olaraq qalır.

## 25. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Risklərin idarə edilməsi Cəmiyyətin fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir və Cəmiyyətin əməliyyatlarının əsas elementini təşkil edir.

Cəmiyyətin əməliyyatlarına aid olan əsas risklər aşağıdakılarla əlaqəlidir:

- Kredit riski;
- Likvidlik riski;
- Bazar riski.

Cəmiyyət effektiv və səmərəli riskin idarə edilməsi prosesinin tətbiqinin önəmli olduğunu qəbul edir. Belə prosesin tətbiqinə imkan yaratmaq üçün Cəmiyyət Risklərin idarə edilməsi şöbəsini yaratmışdır ki, bunun da əsas məqsədi Cəmiyyəti risklərdən qorumaq və Cəmiyyətin qarşıda qoyulmuş fəaliyyət məqsədlərinə nail olması üçün imkan yaratmaqdır. Risklərin idarə edilməsi çərçivəsində Cəmiyyət aşağıdakı riskləri idarə edir:

**Kredit riski**

Bir tərəfin maliyyə aləti üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi zaman və bununla əlaqədar digər tərəfin maliyyə zərərləri ilə üzləşməsi ilə nəticələnə bilən hallarda Cəmiyyət kredit riskinə məruz qalır.

**Maksimal riskə məruz qalma**

Cəmiyyətin kredit riskinə maksimal məruz qalması əhəmiyyətli dərəcədə dəyişir və bu həm fərdi risklərdən, həm də ümumi bazar iqtisadiyyatı ilə bağlı risklərdən asılıdır.

**Coğrafi risk konsentrasiyası**

Aktivlər, öhdəliklər və kreditlə bağlı öhdəliklər qarşı tərəfin yerləşdiyi ölkəyə əsaslanır. Bu ölkələrin faktiki olaraq Azərbaycan Respublikasında yerləşən təmsilçilərinə münasibətdə mövcud olan debitor və kreditor borcları üzrə qalıqlar isə "Azərbaycan Respublikası" başlığı altında təqdim edilir.

31 dekabr 2022-ci il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin coğrafi konsentrasiyası aşağıdakı kimidir:

| | **Azərbaycan Respublikası** | **İƏİT ölkələri** | **Digər qeyri-İƏİT ölkələri** | **31 dekabr 2022-ci il Cəmi** |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 1,205,041 | 26,525,208 | 758,267 | 28,488,516 |
| Bankda olan depozitlər | 3,622,745 | - | - | 3,622,745 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7,095,194 | - | - | 7,095,194 |
| Digər cari aktivlər | 500,000 | - | - | 500,000 |
| Digər uzunmüddətli aktivlər | 31,838 | - | - | 31,838 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **12,454,818** | **26,525,208** | **758,267** | **39,738,293** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 9,275,646 | 186,034 | 2,386,291 | 11,847,971 |
| Ödəniləcək dividendlər | 503,792 | - | - | 503,792 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **9,779,438** | **186,034** | **2,386,291** | **12,351,763** |
| **XALİS MÖVQE** | **2,675,380** | **26,339,174** | **(1,628,024)** | **27,386,530** |

31 dekabr 2021-ci il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin coğrafi konsentrasiyası aşağıdakı kimidir:

| | Azərbaycan Respublikası | İƏİT ölkələri | Digər qeyri-İƏİT ölkələri | 31 dekabr 2021-ci il Cəmi |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 460,389 | 12,134,576 | 11,808,856 | 24,403,821 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 19,760,347 | - | - | 19,760,347 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **20,220,736** | **12,134,576** | **11,808,856** | **44,164,168** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 10,899,483 | 913,123 | 10,775,203 | 22,587,809 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **10,899,483** | **913,123** | **10,775,203** | **22,587,809** |
| **XALİS MÖVQE** | **9,321,253** | **11,221,453** | **1,033,653** | **21,576,359** |

## Likvidlik riski

Likvidlik riski Cəmiyyətin ödəmə vaxtı çatmış maliyyə öhdəliklərini yerinə yetirə bilməyəcəyi riskidir. Likvidlik riski Cəmiyyətin Maliyyə departamenti tərəfindən idarə olunur. Cəmiyyətin likvidlik mövqeyinin idarə olunması fəaliyyəti öhdəliklərin vaxtı gəldikcə ödənilməsi üçün zəruri likvid aktivlərin səviyyəsinin nəzərə alınmasını, bir sıra maliyyə mənbələrinə çıxışın təmin olunmasını, maliyyələşdirmə üzrə ehtiyat planlarının işlənib hazırlanmasını və maliyyə vəziyyəti üzrə likvidlik nisbətinin izlənməsini tələb edir.

31 dekabr 2022-ci il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin likvidlik riski aşağıdakı kimidir:

| | 1 aya qədər | 1 aydan 3 aya | 3 aydan 1 ilə | Ödəniş müddəti olmayan | 31 dekabr 2022-ci il Cəmi |
|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 27,661,339 | 272,443 | 554,734 | - | 28,488,516 |
| Bankda olan depozitlər | - | 3,622,745 | - | - | 3,622,745 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7,095,194 | - | - | - | 7,095,194 |
| Digər cari aktivlər | - | - | 500,000 | - | 500,000 |
| Digər uzunmüddətli aktivlər | - | - | - | 31,838 | 31,838 |
| **Cəmi maliyyə aktivləri** | **34,756,533** | **3,895,188** | **1,054,734** | **31,838** | **39,738,293** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 11,847,971 | - | - | - | 11,847,971 |
| Ödəniləcək dividendlər | 503,792 | - | - | - | 503,792 |
| **Cəmi maliyyə öhdəlikləri** | **12,351,763** | - | - | - | **12,351,763** |
| Likvidlik boşluğu | 22,404,770 | 3,895,188 | 1,054,734 | 31,838 | 27,386,530 |
| **Məcmu likvidlik boşluğu** | **22,404,770** | **26,299,958** | **27,354,692** | **27,386,530** | |

31 dekabr 2021-ci il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin likvidlik riski aşağıdakı kimidir:

| | **1 aya qədər** | **1 aydan 3 aya** | **3 aydan 1 ilə** | **Ödəniş müddəti olmayan** | **31 dekabr 2021-ci il Cəmi** |
|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 20,830,301 | 3,470,514 | 103,006 | - | 24,403,821 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 19,760,347 | - | - | - | 19,760,347 |
| **Cəmi maliyyə aktivləri** | **40,590,648** | **3,470,514** | **103,006** | **-** | **44,164,168** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 20,037,809 | 340,000 | 2,210,000 | - | 22,587,809 |
| **Cəmi maliyyə öhdəlikləri** | **20,037,809** | **340,000** | **2,210,000** | **-** | **22,587,809** |
| Likvidlik boşluğu | 20,552,839 | 3,130,514 | (2,106,994) | - | 21,576,359 |
| **Məcmu likvidlik boşluğu** | **20,552,839** | **23,683,353** | **21,576,359** | **21,576,359** | |

## Valyuta riski

Valyuta riski xarici valyuta mübadiləsi məzənnələrindəki dəyişikliklərin baş verməsi səbəbindən maliyyə alətlərinin dəyərində dəyişikliyin yaranması ilə bağlı riskdir.

31 dekabr 2022-ci il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin valyuta riski aşağıdakı kimidir:

| | **ABŞ dolları** | **AZN** | **Avro** | **Digər** | **31 dekabr 2022-ci il Cəmi** |
|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 27,489,820 | 998,132 | 564 | - | 28,488,516 |
| Bankda olan depozitlər | - | - | 3,622,745 | - | 3,622,745 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 4,126,174 | 2,601,568 | 367,204 | 248 | 7,095,194 |
| Digər cari aktivlər | - | 500,000 | - | - | 500,000 |
| Digər uzunmüddətli aktivlər | - | - | 31,838 | - | 31,838 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **31,615,994** | **4,099,700** | **4,022,351** | **248** | **39,738,293** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 3,062,254 | 8,785,717 | - | - | 11,847,971 |
| Ödəniləcək dividendlər | - | 503,792 | - | - | 503,792 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **3,062,254** | **9,289,509** | **-** | **-** | **12,351,763** |
| **AÇIQ VALYUTA MÖVQEYİ** | **28,553,740** | **(5,189,809)** | **4,022,351** | **248** | **27,386,530** |

31 dekabr 2021-ci il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin valyuta riski aşağıdakı kimidir:

| | ABŞ dolları | AZN | Avro | Digər | 31 dekabr 2021-ci il Cəmi |
|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 24,124,332 | 279,489 | - | - | 24,403,821 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 16,871,596 | 1,073,604 | 1,811,419 | 3,728 | 19,760,347 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **40,995,928** | **1,353,093** | **1,811,419** | **3,728** | **44,164,168** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 17,416,663 | 5,168,973 | 2,173 | - | 22,587,809 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **17,416,663** | **5,168,973** | **2,173** | **-** | **22,587,809** |
| **AÇIQ VALYUTA MÖVQEYİ** | **23,579,265** | **(3,815,880)** | **1,809,246** | **3,728** | **21,576,359** |

## 26. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

Ədalətli dəyər məcburi satış və ya ləğvetmə xaricində arzu edən tərəflər arasındakı cari əməliyyatda maliyyə alətinin dəyişdirilə biləcəyi və ən yaxşı şəkildə aktiv bazar qiyməti ilə təsdiqlənən məbləğidir.

Maliyyə alətlərinin ehtimal olunan ədalətli dəyəri mövcud bazar məlumatlarını və mövcud qiymətləndirmə metodologiyalarını istifadə edərək Cəmiyyət tərəfindən müəyyən edilmişdir. Habelə ehtimal olunan ədalətli dəyəri təyin etmək məqsədi ilə bazar məlumatlarını şərh etmək üçün mütləq qərar verilməlidir. Azərbaycan Respublikası inkişaf etməkdə olan bazarın bəzi xüsusiyyətlərini nümayiş etdirməyə davam edir və iqtisadi şərtlər maliyyə bazarlarındakı fəaliyyət həcmini məhdudlaşdırmağa davam edir. Bazar qiymətləri köhnəlmiş ola və ya satış əməliyyatları zamanı olan çətinliyi əks etdirə bildiyindən, maliyyə alətlərinin ədalətli dəyərlərini təmsil etməyə bilər. Rəhbərlik maliyyə alətlərinin ədalətli dəyərini qiymətləndirərkən mövcud olan bütün bazar məlumatlarını istifadə etmişdir.

31 dekabr 2022-ci il tarixinə maliyyə hesabatlarında maya və ya amortizasiya dəyəri ilə uçota alınmış maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyəri aşağıda təqdim olunur:

| | 31 dekabr 2022-ci il | |
|---|---|---|
| | **Balans dəyəri** | **Ədalətli dəyər** |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 28,488,516 | 28,488,516 |
| Bankda olan depozitlər | 3,622,745 | 3,622,745 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7,095,194 | 7,095,194 |
| Digər cari aktivlər | 500,000 | 500,000 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 11,847,971 | 11,847,971 |
| Ödəniləcək dividendlər | 503,792 | 503,792 |

31 dekabr 2021-ci il tarixinə maliyyə hesabatlarında maya və ya amortizasiya dəyəri ilə uçota alınmış maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyəri aşağıda təqdim olunur:

| | **31 dekabr 2021-ci il** | |
|---|---|---|
| | **Balans dəyəri** | **Ədalətli dəyər** |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 24,403,821 | 24,403,821 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 19,760,347 | 19,760,347 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 22,587,809 | 22,587,809 |

Aşağıdakı cədvəl 31 dekabr 2022-ci il tarixinə ədalətli dəyər prinsipi ilə ölçülməmiş maliyyə alətlərinin ədalətli dəyərlərini müəyyənləşdirir və onların hər birinin ədalətli dəyər ölçüsünü aşağıda təsnif edilmiş ədalətli dəyər iyerarxiyası səviyyəsi üzrə təhlil edir.

| | | | **Aşağıdakılardan istifadə edərək ədalətli dəyərin ölçülməsi** | | | |
|---|---|---|---|---|---|---|
| | **Maliyyə aləti üzrə təsnifat** | **Qiymətləndirmə tarixi** | **Fəal bazarlardakı kotirovka qiymətləri (1-ci Səviyyə)** | **Əhəmiyyətli müşahidə edilən giriş məlumatları (2-ci Səviyyə)** | **Əhəmiyyətli müşahidə olunmayan giriş məlumatları (3-cü Səviyyə)** | **Cəmi** |
| **Ədalətli dəyərləri açıqlanan aktivlər** | | | | | | |
| Debitor borcları və digər alınacaq vəsaitlər | Amortizasiya olunmuş dəyər | 31 dekabr 2022-ci il | - | - | 28,488,516 | 28,488,516 |
| Bankda olan depozitlər | Amortizasiya olunmuş dəyər | 31 dekabr 2022-ci il | 3,622,745 | - | - | 3,622,745 |
| Pul vəsaitləri və onların ekvivalentləri | Amortizasiya olunmuş dəyər | 31 dekabr 2022-ci il | 7,095,194 | - | - | 7,095,194 |
| Digər cari aktivlər | Amortizasiya olunmuş dəyər | 31 dekabr 2022-ci il | - | - | 500,000 | 500,000 |
| **Ədalətli dəyərləri açıqlanan öhdəliklər** | | | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | Amortizasiya olunmuş dəyər | 31 dekabr 2022-ci il | - | - | 11,847,971 | 11,847,971 |
| Ödəniləcək dividendlər | Amortizasiya olunmuş dəyər | 31 dekabr 2022-ci il | - | - | 503,792 | 503,792 |

Aşağıdakı cədvəl 31 dekabr 2021-ci il tarixinə ədalətli dəyər prinsipi ilə ölçülməmiş maliyyə alətlərinin ədalətli dəyərlərini müəyyənləşdirir və onların hər birinin ədalətli dəyər ölçüsünü aşağıda təsnif edilmiş ədalətli dəyər iyerarxiyası səviyyəsi üzrə təhlil edir.

| | | | Aşağıdakılardan istifadə edərək ədalətli dəyərin ölçülməsi | | | |
|---|---|---|---|---|---|---|
| | **Maliyyə aləti üzrə təsnifat** | **Qiymətləndirmə tarixi** | **Fəal bazarlardakı kotirovka qiymətləri (1-ci Səviyyə)** | **Əhəmiyyətli müşahidə edilən giriş məlumatları (2-ci Səviyyə)** | **Əhəmiyyətli müşahidə olunmayan giriş məlumatları (3-cü Səviyyə)** | **Cəmi** |
| **Ədalətli dəyərləri açıqlanan aktivlər** | | | | | | |
| Debitor borcları və digər alınacaq vəsaitlər | Amortizasiya olunmuş dəyər | 31 dekabr 2021-ci il | - | - | 24,403,821 | 24,403,821 |
| Pul vəsaitləri və onların ekvivalentləri | Amortizasiya olunmuş dəyər | 31 dekabr 2021-ci il | 19,760,347 | - | - | 19,760,347 |
| **Ədalətli dəyərləri açıqlanan öhdəliklər** | | | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | Amortizasiya olunmuş dəyər | 31 dekabr 2021-ci il | - | - | 22,587,809 | 22,587,809 |

# “AZƏRPAMBIQ AQRAR SƏNAYE KOMPLEKSİ” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartları əsasında Hazırlanmış Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi**

31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə

# “AZƏRPAMBIQ AQRAR SƏNAYE KOMPLEKSİ” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ | 1 |
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 2-3 |
| 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARI : | |
| Maliyyə vəziyyəti haqqında hesabat | 4 |
| Məcmu gəlir haqqında hesabat | 5 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 6 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 7-8 |
| Maliyyə hesabatları üzrə qeydlər | 9-47 |

## MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Bu bəyannamə "Azərpambıq Aqrar Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") əsasında hazırlanmış maliyyə hesabatları ilə bağlı rəhbərliyin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik 31 dekabr 2022-ci il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə əməliyyat nəticələrini, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini əks etdirən maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun şəkildə hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS-yə müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa, onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı; və
- Yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi ;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə hesabatlarını istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi ;
- Yerli mühasibat sisteminin Cəmiyyətin fəaliyyət göstərdiyi ölkələrin qanunvericilik və mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi ;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Fırıldaqçılıq, xətalar və digər qanunauyğunsuzluq halların müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə maliyyə hesabatları 15 sentyabr 2023-cü il tarixində Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**İdarə Heyəti adından:**

AZƏRBAYCAN RESPUBLİKASI AZƏRPAMBIQ AQRAR SƏNAYE KOMPLEKSİ MMC azərpambıq ask AZERPAMBIQ AQRAR SƏNAYE KOMPLEKSİ LLC AZERBAIJAN REPUBLIC

**Fəxri Mehdiyev**
**Direktor**

15 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Rüfət Hacıyev**
**Maliyyə və uçot şöbəsinin müdiri**

15 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Azərpambıq Aqrar Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Səhmdarı və Rəhbərliyinə:

*Şərti Müsbət Rəy*

Biz "Azərpambıq Aqrar Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2022-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, Şərti Müsbət Rəy üçün Əsas paraqrafında təsvir edilən məsələ istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

*Şərti Müsbət Rəy üçün Əsas*

Cəmiyyət 31 dekabr 2022-ci il tarixinə dəyərsizləşmə testi modelində istifadə edilən giriş məlumatlarındakı əhəmiyyətli dəyişikliklər səbəbindən əmlak, tikili və avadanlıqların dəyərsizləşməsi testini həyata keçirə bilməmişdir. Rəhbərlik, belə dəyərsizləşmə testinin nəticəsinin Cəmiyyətin real vəziyyətini əks etdirməyəcəyini hesab edir. Nəticə etibarı ilə, 31 dekabr 2022-ci il tarixinə Cəmiyyətin əlavə edilmiş maliyyə vəziyyəti haqqında hesabat və həmin tarixdə başa çatmış il üzrə məcmu gəlir haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabatla bağlı hər hansı düzəlişlərin zəruri olub-olmadığını müəyyən edə bilməmişik.

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları şərti müsbət rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

*Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti*

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

bakertilly

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud alternativi olmadığı halda, Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanma prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti***

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

Baker Tilly Azerbaijan

15 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

## "AZƏRPAMBIQ AQRAR SƏNAYE KOMPLEKSİ" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2022-Cİ İL TARİXİNƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər:** | | | |
| Əmlak, tikili və avadanlıqlar | 7 | 101,575,292 | 100,657,193 |
| Əmlak, tikili və avadanlıqlar üzrə avans ödənişləri | 8 | 594,582 | 831,227 |
| Təxirə salınmış vergi aktivi | 9 | 358,251 | - |
| **Cəmi uzunmüddətli aktivlər** | | **102,528,125** | **101,488,420** |
| **Cari aktivlər:** | | | |
| Mal-material ehtiyatları | 10 | 88,728,951 | 59,253,339 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 11 | 7,128,530 | 5,952,534 |
| Verilmiş qısamüddətli borclar | 12 | 30,000 | 1,550,000 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 13 | 26,527,487 | 34,651,425 |
| Digər cari aktivlər | 14 | 3,148,457 | 2,141,174 |
| **Cəmi cari aktivlər** | | **125,563,425** | **103,548,472** |
| **CƏMİ AKTİVLƏR** | | **228,091,550** | **205,036,892** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| **Uzunmüddətli öhdəliklər:** | | | |
| Təxirə salınmış gəlir | 15 | 6,257,345 | 5,138,089 |
| İcarə öhdəlikləri | 16 | 9,418,880 | 12,192,820 |
| Təxirə salınmış vergi öhdəliyi | 9 | - | 1,644,162 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **15,676,225** | **18,975,071** |
| **Cari öhdəliklər:** | | | |
| Təxirə salınmış gəlir | 15 | 395,826 | 318,549 |
| İcarə öhdəlikləri | 16 | 3,506,524 | 3,668,138 |
| Təsisçiyə ödəniləcək vəsaitlər | 17 | 4,200,000 | 4,500,000 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 18 | 22,052,134 | 21,060,361 |
| **Cəmi cari öhdəliklər** | | **30,154,484** | **29,547,048** |
| **Cəmi öhdəliklər** | | **45,830,709** | **48,522,119** |
| KAPİTAL: | | | |
| Nizamnamə kapitalı | 19 | 133,173,644 | 132,475,688 |
| Digər capital | 20 | 188,890 | 697,956 |
| Bölüşdürülməmiş mənfəət | | 48,898,307 | 23,341,129 |
| **Cəmi kapital** | | **182,260,841** | **156,514,773** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **228,091,550** | **205,036,892** |

**İdarə Heyəti adından:**

**Fəxri Mehdiyev**
**Direktor**

15 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Rüfət Hacıyev**
**Maliyyə və uçot şöbəsinin müdiri**

15 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

9-47-ci səhifələrdə təqdim edilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

**"AZƏRPAMBIQ AQRAR SƏNAYE KOMPLEKSİ" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**

**MƏCMU GƏLİR HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Gəlir | 21 | 120,364,891 | 168,697,264 |
| Satışın maya dəyəri | 22 | (81,389,537) | (131,719,422) |
| **Ümumi mənfəət** | | **38,975,354** | **36,977,842** |
| Ümumi və inzibati xərclər | 23 | (7,904,075) | (6,392,472) |
| **Əməliyyat mənfəəti** | | **31,071,279** | **30,585,370** |
| Digər gəlirlər | 24 | 1,512,965 | 459,811 |
| Mal-material ehtiyatları üzrə yaradılmış ehtiyat | 10 | (1,704,870) | - |
| Debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri | 11 | (1,373,464) | - |
| Maliyyə xərcləri | 25 | (1,044,111) | (1,191,330) |
| **Mənfəət vergisindən əvvəlki mənfəət** | | **28,461,799** | **29,853,851** |
| Mənfəət vergisi xərci | 9 | (1,723,044) | (6,222,286) |
| **İl üzrə xalis mənfəət** | | **26,738,755** | **23,631,565** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | | **26,738,755** | **23,631,565** |

**İdarə Heyəti adından:**

**Fəxri Mehdiyev**
**Direktor**

15 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Rüfət Hacıyev**
**Maliyyə və uçot şöbəsinin müdiri**

15 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

9-47-ci səhifələrdə təqdim edilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## "AZƏRPAMBIQ AQRAR SƏNAYE KOMPLEKSİ" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
### 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Digər kapital | Bölüşdürülməmiş mənfəət/ (Yığılmış zərərlər) | Cəmi kapital |
|---|---|---|---|---|
| **1 yanvar 2021-ci il** | **132,475,688** | **-** | **(290,436)** | **132,185,252** |
| Təsisçi tərəfindən kapital qoyuluşu | - | 697,956 | - | 697,956 |
| İl üzrə cəmi məcmu gəlir | - | - | 23,631,565 | 23,631,565 |
| **31 dekabr 2021-ci il** | **132,475,688** | **697,956** | **23,341,129** | **156,514,773** |
| Ötürülmə (nizamnamə kapitalının dövlət qeydiyyatına alınması) | 697,956 | (697,956) | - | - |
| Təsisçi tərəfindən kapital qoyuluşu | - | 188,890 | - | 188,890 |
| İl üzrə cəmi məcmu gəlir | - | - | 26,738,755 | 26,738,755 |
| Elan edilmiş dividendlər | - | - | (1,181,577) | (1,181,577) |
| **31 dekabr 2022-ci il** | **133,173,644** | **188,890** | **48,898,307** | **182,260,841** |

**İdarə Heyəti adından:**

**Fəxri Mehdiyev**
**Direktor**

15 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Rüfət Hacıyev**
**Maliyyə və uçot şöbəsinin müdiri**

15 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

9-47-ci səhifələrdə təqdim edilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# "AZƏRPAMBIQ AQRAR SƏNAYE KOMPLEKSİ" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | | |
| Mənfəət vergisindən əvvəlki mənfəət | | 28,461,799 | 29,853,851 |
| Mənfəət vergisindən əvvəlki mənfəətin xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirilməsi üzrə düzəlişlər: | | | |
| Köhnəlmə xərcləri | 7 | 4,575,719 | 4,335,395 |
| Müddətli depositlər üzrə faiz gəliri | 24 | (86,806) | - |
| Aktivlərin əldə edilməsi ilə bağlı subsidiya gəlirləri | 24 | (349,002) | (318,549) |
| Mal-material ehtiyatları üzrə yaradılmış ehtiyat | 10 | 1,704,870 | - |
| Debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri | 11 | 1,373,464 | - |
| Maliyyə xərcləri | 25 | 1,044,111 | 1,191,330 |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəlki əməliyyat fəaliyyətləri üzrə daxil olan pul vəsaitləri** | | **36,724,155** | **35,062,027** |
| Əməliyyat aktivləri və öhdəlikləri üzrə dəyişikliklər: | | | |
| Mal-material ehtiyatlarında dəyişiklik | | (31,180,482) | 28,040,051 |
| Debitor borcları və digər alınacaq vəsaitlərdə dəyişiklik | | (2,549,460) | (3,099,778) |
| Digər cari aktivlərdə dəyişiklik | | 55,327 | (504,248) |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlərdə dəyişiklik | | 912,181 | 2,985,241 |
| **Əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitləri** | | **3,961,721** | **62,483,293** |
| Ödənilmiş mənfəət vergisi | | (4,788,067) | (256,805) |
| **Əməliyyat fəaliyyətlərində (istifadə olunan)/yaranan xalis pul vəsaitləri** | | **(826,346)** | **62,226,488** |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | | |
| Əmlak, tikili və avadanlıqların satın alınması | | (2,734,819) | (3,098,435) |
| Bank depozitlərinin yerləşdirilməsi | | (15,000,000) | - |
| Bank depozitlərinin geri çəkilməsi üzrə daxilolmalar | | 15,000,000 | - |
| Əlaqəli tərəflərdən borcun ödənilməsi üzrə daxilolmalar | | 1,770,000 | 3,340,204 |
| Müddətli depozitlər üzrə alınmış faizlər | | 86,806 | - |
| Əlaqəli tərəflərə verilmiş borclar | | (250,000) | (1,690,000) |
| **İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | | **(1,128,013)** | **(1,448,231)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTLƏRİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Ödənilmiş dividendlər | | (1,181,577) | - |
| Borc alınmış vəsaitlərin qaytarılması | | - | (19,890,000) |
| Borc alınmış vəsaitlər üzrə ödənilmiş faizlər | | - | (150,393) |
| İcarə ödənişləri | 16 | (4,688,002) | (1,117,137) |
| Təsisçidən alınmış borcun ödənilməsi | 17 | (300,000) | (6,300,000) |
| **Maliyyələşdirmə fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | | **(6,169,579)** | **(27,457,530)** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS (AZALMA)/ARTIM | | (8,123,938) | 33,320,727 |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ,** *ilin əvvəlinə* | 13 | **34,651,425** | **1,330,698** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ,** *ilin sonuna* | 13 | **26,527,487** | **34,651,425** |

*Nağdsız əməliyyatlar*

31 dekabr 2022-ci il tarixində başa çatmış il ərzində pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan çıxarılan və pul vəsaitlərinin və onların ekvivalentlərinin istifadəsini tələb etməyən əməliyyat və investisiya fəaliyyətinə 188,890 AZN məbləğində digər kapitalın artması yolu ilə əlaqədar ümumi nəzarət altında olan şirkətlərdən avadanlıqların ötürülməsi (2021-ci il: 697,956 AZN məbləğində avadanlıq və mal-material ehtiyatlarının ötürülməsi), 1,545,534 AZN məbləğində maşın və avadanlıqların və nəqliyyat vasitələrinin alınması ilə bağlı dövlət subsidiyaları (2021-ci il: sıfır) və 708,337 AZN məbləğində (2021-ci il: sıfır) nəqliyyat vasitələri ilə bağlı istifadə hüququ olan aktivlər daxildir.

**İdarə Heyəti adından:**

**Fəxri Mehdiyev**
**Direktor**

15 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Rüfət Hacıyev**
**Maliyyə və uçot şöbəsinin müdiri**

15 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

9-47-ci səhifələrdə təqdim edilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## 1. GİRİŞ

“Azərpambıq Aqrar Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti (“Cəmiyyət”) 2018-ci ildə təsis edilmiş və 25 may 2018-ci il tarixində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən 1305532271 saylı vergi eyniləşdirmə nömrəsi ilə məhdud məsuliyyətli cəmiyyəti olaraq qeydiyyata alınmışdır.

31 dekabr 2022 və 2021-ci il tarixlərinə Cəmiyyətin səhmdar strukturu aşağıdakı kimidir:

| | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| | **Mülkiyyət, %** | **Mülkiyyət, %** |
| “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyəti | 100 | 100 |
| **Cəmi** | **100** | **100** |

Cəmiyyətin ən üst nəzarət subyekti Azərbaycan Respublikasının Hökumətidir.

**Cəmiyyətin əsas fəaliyyəti**

Cəmiyyət xam pambığın toplanması və emalı üzrə ixtisaslaşmışdır. Gəlir əsasən pambıq lifi, pambıq toxumu, linter, kimyəvi maddələr və təmizlənmiş yağın satışından əldə edilir. Pambıq öz torpaq sahələrində pambıq əkinlərindən məhsul götürən fermerlərdən alınır. Aran iqtisadi rayonunun iqlimi pambıqçılıq üçün olduqca əlverişli olduğundan, pambıq əkinləri ölkənin bu iqtisadi rayonunda cəmləşmişdir. Cəmiyyətin əsas ticarət tərəfdaşlarına Rusiya, Türkiyə, Birləşmiş Krallıq və s. aiddir.

**Qeydiyyat ünvanı və fəaliyyət yeri:**

Cəmiyyət Azərbaycan Respublikasında təsis edilmişdir. Cəmiyyətin qeydə alınmış hüquqi ünvanı Yasamal rayonu, Tbilisi prospekti, mənzil 35, Bakı, Azərbaycan Respublikasıdır. Cəmiyyətin əsas fəaliyyət yeri Azərbaycan Respublikası, Aran iqtisadi rayonudur.

**Cəmiyyətin əməliyyat mühiti**

Cəmiyyətin fəaliyyəti Azərbaycan Respublikasında həyata keçirilir. Cəmiyyət inkişaf etməkdə olan bazarın xüsusiyyətlərini əks etdirən Azərbaycanın iqtisadi və maliyyə bazarları ilə qarşılıqlı fəaliyyət göstərir. Hüquq, vergi və tənzimləyici strukturlar daimi inkişafdadır, bununla belə mütəmadi olaraq yeni şərhlərə, dəyişikliklərə məruz qalırlar, bu isə öz növbəsində digər hüquqi və maliyyə çətinlikləri ilə birlikdə Azərbaycanda fəaliyyət göstərən müəssisələrin üzləşdiyi problemləri daha da gücləndirir.

Azərbaycan iqtisadiyyatı həmçinin beynəlxalq enerji qiymətləri səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Xam neftin qiyməti ilin birinci yarısında təchizat ilə bağlı çətinliklər səbəbindən artmış, lakin ilin ikinci yarısından etibarən mümkün iqtisadi tənəzzüllə bağlı çətinliklər tələbi azaltdığından neft qiymətləri ümumilikdə azalmışdır. “Brent” markalı neftin spot qiyməti 2022-ci ildə 1 barel üçün orta hesabla 100 ABŞ dolları təşkil etmişdir. Yüksək neft qiymətləri ölkənin iqtisadi inkişafını dəstəkləmişdir.

2015-2016-cı illərdə Azərbaycan manatının dəyərdən düşməsi biznes mühitində ciddi qeyri-müəyyənliklərə səbəb olmuşdur. Bu səbəbdən hökumət son 5 ildə sabit məzənnəni qorumaq üçün bütün lazımi tədbirləri həyata keçirmişdir. Nəticədə, neftin dünya bazarındakı qeyri-sabit qiyməti yerli valyutaya təsir göstərməmiş, eləcə də biznes mühitində qeyri-müəyyənlik artmamışdır. COVİD-19 koronavirus pandemiyası 2020-ci ildə müəssisələrə əhəmiyyətli dərəcədə təsir göstərmişdir, lakin hökumətin uğurlu peyvənd kampaniyasından sonra müəssisələrin əksəriyyəti 2021-ci ildə və 2022-ci ilin birinci yarısında davamlı olaraq öz normal fəaliyyətinə qayıtmışdır. Qarabağ regionunda atəşkəs razılaşmasının davam etməsi biznes mühitinə də müsbət təsir göstərir, çünki investisiyaların cəlb edilməsi və işğaldan azad edilmiş ərazilərin inkişafı üçün hökumət tərəfindən həyata keçirilən bir sıra layihələr mövcuddur.

ÜDM 2022-ci ildə 2021-ci illə müqayisədə 4.6% artaraq 133.8 milyard AZN-ə (78.7 milyard ABŞ dolları) çatmışdır. Dövlət Gömrük Komitəsinin statistikasına əsasən 2022-ci il ərzində Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi təqribən 52.69 milyard ABŞ dollarına çatmışdır. Bu məbləğin 38.15 milyard ABŞ dolları ixrac olunan məhsulların, 14.54 milyard ABŞ dolları isə idxal olunan məhsulların payına düşmüşdür.

Beynəlxalq kredit reytinq agentlikləri mütəmadi olaraq Azərbaycan Respublikasının kredit reytinqini qiymətləndirirlər. “Fitch” və “S&P” Azərbaycan Respublikasının reytinqini “BB+” olaraq qiymətləndirmişdir. “Moody’s Investors Service”, ölkə üçün “Ba1” kredit reytinqini təyin etmişdir.

## 2. ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTLƏRİNİN XÜLASƏSİ

### Təqdimatın əsasları

Hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (“MHBS”) və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi (“MHBSŞK”) tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

### Fasiləsizlik prinsipi

Hazırkı maliyyə hesabatları Cəmiyyətin fasiləsizlik prinsipi əsasında yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik hesab edir ki, Cəmiyyət yaxın gələcəkdə fəaliyyətini davam etdirəcək və Cəmiyyətin ləğvinə nə istək, nə də ehtiyac olacaq, eləcə də fəaliyyəti dayandırmaq və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlardan qorunmaq üçün müdafiə axtarmaq üzrə nə niyyət, nə də zərurət mövcuddur.

Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyət gedişində Cəmiyyətin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olması fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Cəmiyyətin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Rəhbərliyin fasiləsizlik prinsipi üzrə ehtimalının qiymətləndirməsi müəyyən bir müddətdə hadisələrin və ya şərtlərin gələcək inkişafı ilə əlaqədar subyektiv qərarların qəbul edilməsini nəzərdə tutur.

**Cari və uzunmüddətli təsnifləşdirmələr**

Cəmiyyət aktiv və öhdəlikləri cari/uzunmüddətli təsnifləşdirmələr əsasında maliyyə hesabatlarında təqdim edir. Aktiv aşağıdakı hallarda cari aktiv sayılır:

- Adi əməliyyat dövründə satılması və ya istehlak edilməsi nəzərdə tutulduqda və ya satılması ehtimal edildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı 12 ay ərzində satılması ehtimal edildikdə; və ya
- Pul vəsaitləri və onların ekvivalentlərinin hesabat tarixindən sonra ən az on iki ay müddətində öhdəliyin ödənilməsi üzrə mübadilə edilməsi və ya istifadə edilməsi məhdudlaşdırılmadıqda.

Digər bütün aktivlər uzunmüddətli aktivlər sayılır.

Öhdəlik aşağıdakı hallarda cari öhdəlik sayılır:

- Adi əməliyyat dövrü ərzində ödənilməsi gözlənildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı 12 ay ərzində ödənilməsi ehtimal edildikdə; və ya
- Hesabat dövründən sonra ən az on iki ay müddətində öhdəliyin ödənilməsini təxirə salmaq üzrə qeyri-şərtsiz hüquq mövcud olmadıqda.

Cəmiyyət bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər olaraq təsnif edir.

Təxirə salınmış vergi aktiv və öhdəlikləri uzunmüddətli aktiv və öhdəliklər kimi təsnif edilir.

**Təqdimatın digər əsasları**

Hazırkı maliyyə hesabatları, başqa cür qeyd edilmədiyi hallarda, Azərbaycan Manatı ("AZN") ilə ifadə edilir.

Maliyyə hesabatları şərti dəyər kimi ədalətli dəyərdə qeydə alınan əmlak, tikili və avadanlıqlar istisna olmaqla tarixi dəyər əsasında tərtib edilmişdir.

Cəmiyyət mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Hazırkı maliyyə hesabatlarını hazırlayarkən yerli mühasibat prinsiplərinə uyğun tərtib edilmiş mühasibat sistemindən istifadə edilmiş və MHBS-yə uyğunlaşdırılmaq məqsədilə hesabatlara düzəlişlər edilmişdir. Bu düzəlişlərə əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək üçün müəyyən təsnifləşdirilmələr, həmçinin müəyyən aktiv və öhdəliklərin, eləcə də gəlir və xərclərin maliyyə hesabatlarındakı maddələrə uyğunlaşdırılması məqsədilə edilən yenidən təsnifləşdirilmələr aiddir.

**Əmlak, tikili və avadanlıqlar**

Əmlak, tikili və avadanlıqlar sonrakı yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla maliyyə vəziyyəti haqqında hesabatda göstərilir.

Faydalı istifadə müddəti üzrə təxminlər, qalıq dəyərləri və amortizasiya metodları hər bir hesabat tarixinin sonunda yenidən təhlil ediləcək və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv əsasda tətbiq ediləcəkdir.

Cəmiyyət hər bir hesabat tarixinin sonunda əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlərinin balans dəyərlərinin dəyərsizləşməsinə dair ehtimalın olmasını qiymətləndirir. Əgər hər hansı belə ehtimal mövcuddursa, dəyərsizləşmə zərərinin dərəcəsini (əgər varsa) müəyyən etmək məqsədilə aktivin bərpa edilə bilən məbləği təxmin edilir. Fərdi aktivin bərpa edilə bilən məbləğini qiymətləndirmək mümkün olmadıqda, Cəmiyyət aktivin aid olduğu nağd pul yaradan vahidin bərpa edilə bilən məbləğini təxmin edir.

Əgər aktivin (və ya nağd pul yaradan vahidin) bərpa edilə bilən məbləği onun balans dəyərindən azdırsa, aktivin (və ya nağd pul yaradan vahidin) balans dəyəri onun bərpa edilə bilən məbləğinə qədər azaldılmalıdır. Aktiv yenidən qiymətləndirilmiş məbləğdə uçota alınıbsa aktivin dəyərsizləşməsi yenidən qiymətləndirmə rezervinin azalması kimi tanınır, əks halda dəyərsizləşmə zərəri dərhal gəlir və ya zərər hesabatlarında tanınır.

Dəyərsizləşmə zərəri daha sonrakı dövrdə geri qaytarıldıqda, aktivin (və ya nağd pul yaradan vahidin) balans dəyəri onun bərpa edilə bilən məbləğinə qədər qaldırılmalıdır, lakin dəyərsizləşmə zərərinin ləğvi ilə əlaqəli olan aktivin (və ya nağd pul yaradan vahidin) artmış qalıq dəyəri əvvəlki illərdə həmin aktiv (və ya nağd pul yaradan vahid) üçün heç bir dəyərsizləşmə zərərinin tanınmış olmadığı müəyyən edilmiş qalıq dəyərindən yuxarı olmamalıdır. Aktiv üçün dəyərsizləşmə zərərinin ləğvi, həmin aktiv yenidən qiymətləndirmə metoduna əsasən təkrar qiymətləndirilmiş məbləğlə əks etdirilmədikdə birbaşa mənfəət və ya zərərdə tanınmalıdır, əks halda qiymətləndirilmiş aktivin dəyərsizləşmə zərərinin ləğvi yenidən qiymətləndirmə artımı kimi tanınmalıdır.

Əmlak, tikili və avadanlıqlar hesabdan silindikdə və ya onların davamlı istifadəsi artıq iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Əmlak, tikili və avadanlıq vasitələrinin satılaraq hesabdan silinməsi və ya istismardan çıxarılmasından irəli gələn hər hansı gəlir və ya zərər belə aktivlərin balans dəyəri ilə satışdan əldə olunmuş gəlirlər arasında fərq kimi müəyyən edilir və mənfəət və ya zərər hesabında tanınır.

**Köhnəlmə**

Əmlak, tikili və avadanlıqlar, bir qayda olaraq, aşağıdakı kimi təxmin edilən faydalı istifadə müddəti ərzində düz xətt metodu əsasında amortizasiya edilir. Torpaq amortizasiya olunmur:

| | |
|---|---|
| Maşın və avadanlıqlar | 7-20 il |
| Binalar və bənzər tikililər | 20-50 il |
| Nəqliyyat vasitələri | 7-20 il |
| Digər | 7-20 il |
| İstifadə hüququ olan aktivlər | icarə müddətindən asılıdır |

Aktivin qalıq dəyəri dedikdə, aktivin artıq istifadə edilmiş olması və istifadə müddətinin sonunda olacağı vəziyyətində olması fərziyyəsi ilə, satışın təxmini xərcləri çıxılmaqla Cəmiyyətin həmin aktivin satışından əldə edə biləcəyi vəsaitlərin məbləği nəzərdə tutulur.

Aktivin qalıq dəyəri aktivin balans dəyərinə bərabər və ya ondan daha çox olan məbləğə qədər arta bilər. Belə olduğu halda, qalıq dəyəri sonradan aktivin balans dəyərindən aşağı məbləğə qədər azalanadək aktivin amortizasiya haqqı sıfırdır.

**Vergilər**

**Təxirə salınmış vergi**

Təxirə salınmış vergi, maliyyə hesabatlarındakı aktiv və öhdəliklərin balans dəyərləri ilə onların vergi uçotuna uyğun balans dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlər əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq tanınır.

Müvəqqəti fərqlərin qudvildən və mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

Təxirə salınmış vergi aktivinin balans dəyəri hər hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə, bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Təxirə salınmış vergilər bilavasitə kapitala hesablanmış və ya kapitalda əks etdirilmiş maddələrə aid olduğu hallar istisna olmaqla, məcmu gəlir haqqında hesabatda əks etdirilir .

Aşağıdakı hallarda təxirə salınmış vergi aktivi və vergi öhdəliyi əvəzləşdirilərək xalis şəkildə təqdim edilə bilər:

- Cəmiyyətin cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və
- Təxirə salınmış aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edildikdə və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olduqda.

**Mal-material ehtiyatları**

Mal-material ehtiyatları maya dəyəri və xalis satış dəyərinin ən aşağı səviyyəsində uçota alınır. Mal-material ehtiyatlarının dəyəri orta çəkili dəyər prinsipinə əsaslanır və ehtiyatların əldə edilməsinə çəkilən xərcləri, eləcə də istehsal və ya emal xərclərini və bu aktivləri mövcud yerlərinə və vəziyyətinə gətirmək üçün çəkilən digər xərcləri əhatə edir. İstehsal edilmiş ehtiyatlar və tamamlanmamış istehsala münasibətdə isə maya dəyəri adi iş qabiliyyətinə əsaslanan istehsal xərclərinin müvafiq hissəsini əhatə edir.

Xalis satış dəyəri, təxmini tamamlama və satış xərcləri çıxılmaqla, adi fəaliyyət gedişində ehtimal olunan satış qiymətidir.

**Maliyyə alətləri**

Cəmiyyət maliyyə aləti üzrə müqavilə tərəflərindən biri olduqda, maliyyə alətləri və maliyyə öhdəlikləri onun maliyyə hesabatlarında tanınır. Maliyyə aktivləri və öhdəlikləri, ilkin olaraq, ədalətli dəyərlə ölçülür.

Maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin alınması və ya yaranması ilə birbaşa ələqəli olan əməliyyat xərcləri (mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülən maliyyə aktivləri və maliyyə öhdəliklərindən başqa) ilkin tanınmada maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin ədalətli dəyərinə müvafiq olaraq əlavə edilir və ya maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin ədalətli dəyərindən müvafiq olaraq çıxılır. Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə tanınan maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin alınmasına birbaşa aid olan əməliyyat xərcləri dərhal mənfəət və ya zərərdə tanınır.

**Maliyyə aktivləri**

Maliyyə aktivlərinin müntəzəm şəkildə satın alınması və ya satılması satış tarixi əsasında tanınır və ya xitam verilir. Bütün tanınmış maliyyə aktivləri sonradan, maliyyə aktivlərinin təsnifatına əsasən, amortizasiya edilmiş dəyərdə və ya ədalətli dəyərdə bütünlüklə ölçülür.

*Maliyyə aktivlərinin təsnifatı*

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan amortizasiya olunmuş dəyərlə ölçülür:

- maliyyə aktivi müqavilə ilə pul vəsaitləri axınını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli daxilində saxlanılır; və
- maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülür (DMGVƏD):

- maliyyə aktivi müqavilə şərtlərinə uyğun olaraq pul vəsaitləri axınının yığılması və maliyyə aktivlərinin satışı məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Adətən, bütün digər maliyyə aktivləri sonradan mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülür (MZVƏD).

Yuxarıda göstərilənlərə baxmayaraq, Cəmiyyət maliyyə aktivinin ilkin tanınmasında aşağıdakı qəti seçimi/təyinatı həyata keçirə bilər:

- müəyyən meyarlar qarşılandıqda, Cəmiyyət kapital investisiyası üzrə müvafiq ədalətli dəyərdə dəyişikliyin digər məcmu gəlirdə təqdimatı üçün qəti tədbirlər həyata keçirə bilər; və
- Cəmiyyət uçot sistemində uyğunsuzluğu aradan qaldırmaq və ya əhəmiyyətli dərəcədə azaltmaq məqsədilə, amortizasiya edilmiş maya dəyərində və ya DMGVƏD ölçülmə meyarlarına cavab verən borc investisiyasını əks keçid etməmək şərtilə MZVƏD-də təyin edə bilər.

*Amortizasiya olunmuş dəyər və effektiv faiz dərəcəsi metodu*

Effektiv faiz dərəcəsi metodu borc alətinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəlirinin müvafiq dövr üzrə bölgüsü üsuludur. Satın alınan və ya əldə edilmiş kredit zərərinə məruz qalmış maliyyə aktivlərindən (yəni ilkin tanınma zamanı dəyərsizləşmiş aktivlər) başqa maliyyə aktivləri üzrə effektiv faiz dərəcəsi, ehtimal olunan kredit zərərləri istisna olmaqla borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsini təşkil edən ödənilmiş, yaxud alınmış bütün haqlar, ödənişlər, əməliyyat xərcləri və ya mükafatlar) ilkin tanınma anında xalis balans məbləğinədək diskontlaşdıran dəqiq dərəcədir.

Satın alınmış və ya əldə edilmiş kredit dəyərsizləşməsi üzrə maliyyə aktivləri üçün, kreditlə tənzimlənən effektiv faiz dərəcəsi, gözlənilən gələcək pul vəsaitlərinin hərəkətini, ehtimal olunan kredit zərərləri daxil olmaqla, ilkin tanınma zamanı borc alətinin amortizasiya olunmuş dəyərinə diskontlaşdırılmaqla hesablanır.

Maliyyə aktivinin amortizasiya olunmuş dəyəri ilkin tanımada maliyyə aktivinin əsas ödəniş çıxılmaqla, hər hansı zərər üzrə düzəliş edilməklə həmin ilkin dəyər ilə ümumi dəyər arasındakı fərq üzrə effektiv faiz dərəcəsini istifadə etməklə məcmu amortizasiya əlavə olunmaqla, maliyyə aktivinin ölçüldüyü dəyərdir. Maliyyə aktivinin ümumi balans dəyəri hər hansı bir zərər ehtiyatına düzəliş edilməzdən əvvəl maliyyə aktivinin amortizasiya olunmuş dəyəri hesab olunur.

Faiz gəliri daha sonra amortizasiya edilmiş dəyərdə və DMGVƏD ilə qiymətləndirilən borc alətlərinin effektiv faiz metodundan istifadə edilməklə tanınır. Satın alınmış və ya əldə edilmiş kredit dəyərsizləşməsi üzrə yaranmış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivləri üçün, faiz gəliri sonradan kredit itkisinə məruz qalmış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivinin ümumi balans dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır. Sonradan kredit dəyərsizləşməsi üzrə yaranmış maliyyə aktivləri üçün faiz gəlirləri effektiv faiz dərəcəsini maliyyə aktivinin amortizasiya olunmuş dəyərinə tətbiq etməklə tanınır. Əgər sonrakı hesabat dövrlərində kredit dəyərsizləşməyə məruz qalmış maliyyə aləti üzrə kredit riski maliyyə aktivinin artıq kredit dəyərsizləşməyə məruz qalmamasına səbəb olursa, faiz gəlirləri effektiv faiz dərəcəsini maliyyə aktivinin ümumi balans dəyərinə tətbiq etməklə tanınır.

Cəmiyyətin maliyyə aktivlərinin əksəriyyəti daha sonra amortizasiya edilmiş dəyərlə ölçülmüş maliyyə aktivləri kimi təsnif edilmişdir. Cəmiyyətin maliyyə öhdəlikləri daha sonra amortizasiya olunmuş dəyərlə ölçülmüş maliyyə öhdəlikləri kimi təsnif edilmişdir. Cəmiyyət mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə ölçülmüş hər hansı maliyyə öhdəliklərinin təsnifatını seçmir.

*Maliyyə aktivlərinin dəyərsizləşməsi*

Cəmiyyət ehtimal olunan kredit zərəri modelini amortizasiya edilmiş dəyərlə və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülmüş maliyyə aktivlərinə tətbiq edir.

İlkin tanınmadan sonra maliyyə aktivi üzrə kredit riski əhəmiyyətli dərəcədə artdıqda, bu maliyyə aktivi üçün ehtimal olunan kredit zərəri üzrə ehtiyat ömürlük ehtimal olunan kredit zərərinə bərabər dəyərdə ölçülür.

Əgər hesabat tarixində maliyyə aktivi üzrə kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmamışdırsa, bu maliyyə aktivi üçün ehtimal olunan kredit zərəri (sadələşdirilmiş yanaşmanın seçildiyi debitor borcları və digər alınacaq vəsaitlər istisna olmaqla) 12 aylıq ehtimal olunan kredit zərərlərinə bərabər dəyərdə ölçülür. Debitor borcları və digər alınacaq vəsaitlər üçün əhəmiyyətli bir maliyyələşdirmə komponentinin olub-olmamasından asılı olmayaraq, ömürlük ehtimal olunan kredit zərəri əsasında ölçmə tətbiq olunur.

Cəmiyyət ehtimal olunan kredit zərərlərini qiymətləndirmək üçün daxili modeldən istifadə edir. Model 9 saylı MHBS-yə uyğun olaraq tərtib edilmiş və qarşı tərəflərin kredit risklərinin qiymətləndirilməsi üçün maliyyə sisteminin xüsusiyyətlərini nəzərə alaraq, qarşı tərəflərə hesab sistemini təyin etməklə hazırlanmışdır. Təyin edilmiş bal (reytinq) fərdi şəkildə hesablanmış Defolt Ehtimalıdır (DE). Aktivin bir bal qrupundan daha aşağı bal qrupuna keçməsi digər meyarlar arasında kredit riskinin əhəmiyyətli artımı hesab olunur.

**Ədalətli dəyərin ölçülməsi**

Ədalətli dəyər ölçülmə tarixində bazar iştirakçıları arasında intizamlı əməliyyatda aktivi satmaq üçün qəbul edilmiş və ya öhdəliyi ötürmək üçün ödəniləcək qiymətdir. Ədalətli dəyərin ölçülməsinə əsasən, aktivin satılması və ya öhdəliyin ötürülməsi üzrə əməliyyat:

- aktiv və ya öhdəlik üçün əsas bazarda; və ya
- əsas bazarın yoxluğu şəraitində aktiv və ya öhdəlik üçün ən əlverişli bazarda baş verir.

Əsas bazar və ya ən əlverişli bazar Cəmiyyət tərəfindən əlçatan olmalıdır. Aktiv və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçılarının öz iqtisadi maraqlarına uyğun hərəkət etdiklərini nəzərə alaraq aktiv və ya öhdəliklərin ədalətli dəyərini müəyyənləşdirərkən bazar iştirakçılarının aktiv və ya öhdəliyin ölçülməsində istifadə etdikləri mülahizələrdən istifadə edilir. Qeyri-maliyyə aktivlərinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının aktivin ən çox və ən yaxşı istifadə tətbiqindən yararlanmaqla ondan istifadə etmək və ya aktivin ən çox və ən yaxşı istifadə tətbiqindən yararlanmaqla ondan istifadə edəcək başqa bazar iştirakçısına satmaq yolu ilə iqtisadi mənfəəti artırmaq bacarığı nəzərə alınır.

Cəmiyyət həmin şəraitdə müvafiq olan və ədalətli dəyərin ölçülməsi üçün mövcud olan məlumatlar üzrə müvafiq müşahidə edilən gəlirlərin istifadəsini artıran və müşahidə edilə bilməyən gəlirlərin istifadəsini azaldan qiymətləndirmə üsullarından istifadə edir.

Ədalətli dəyəri ölçülən və maliyyə hesabatında açıqlanmış bütün aktiv və öhdəliklər aşağıda təsvir edilmiş və bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün mühüm olan ən aşağı səviyyədə məlumatlara əsaslanmış ədalətli dəyər iyerarxiyasında təsnifləşdirilir:

- 1-ci Səviyyə – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- 2-ci Səviyyə – ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli məlumatın birbaşa və ya dolayısı ilə müşahidə edilə biləcəyi qiymətləndirmə üsulları;
- 3-cü Səviyyə – ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli məlumatın müşahidə oluna bilmədiyi qiymətləndirmə üsulları.

Maliyyə hesabatında dövrü əsasda tanınmış aktivlər və öhdəliklər üzrə Cəmiyyət hər hesabat dövrünün sonunda yenidən təyin edilmiş təsnifatla (bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün zəruri olan ən aşağı səviyyəli məlumata əsaslanmış) iyerarxiyada səviyyələr arasında köçürmələrin olub-olmamasını müəyyən edir.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Cəmiyyət yalnız aktiv üzrə pul daxil olmaları ilə bağlı müqavilə hüquqlarının vaxtı bitdikdə, yaxud maliyyə aktivini və aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün risk və imtiyazları əsas etibarilə digər müəssisəyə ötürdükdə maliyyə aktivinin tanınmasını dayandırır.

**Maliyyə öhdəlikləri və kapital**

*Borc və ya kapital aləti olaraq təsnifləşdirmə*

Borc və kapital alətləri müqavilə razılaşmalarının məzmununa və maliyyə öhdəliyi ilə kapital alətinin təriflərinə uyğun olaraq ya maliyyə öhdəliyi, ya da kapital kimi təsnif edilir.

*Kapital alətləri*

Kapital aləti müəssisənin bütün öhdəlikləri çıxıldıqdan sonra onun aktivlərində qalan payı göstərən istənilən bir müqavilədir. Cəmiyyət tərəfindən buraxılan kapital alətləri birbaşa buraxılma xərcləri çıxılmaqla əldə edilən vəsaitlərin cəmi məbləğində tanınır.

Cəmiyyətin öz kapital alətlərini satın alması, birbaşa kapitalda tanınır və çıxılır. Cəmiyyətin öz kapital alətlərini satın alması, satması, buraxması və ya ləğv etməsi ilə bağlı yaranmış mənfəət və zərər məbləğləri mənfəət və zərər hesablarında tanınmamalıdır.

*Maliyyə öhdəlikləri*

Bütün maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə etməklə və MZVƏD əsasında tanınmaqla amortizasiya olunmuş dəyərlə ölçülür.

Maliyyə öhdəlikləri (i) biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olduqda, (ii) ticarət və ya (iii) MZVƏD üçün nəzərdə tutulduğu halda MZVƏD üzrə təsnif edilir.

(i) Biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olmayan, (ii) ticarət və ya (iii) MZVƏD üzrə təsnif edilməyən maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə edərək amortizasiya olunmuş dəyərdə ölçülür. Effektiv faiz metodu maliyyə öhdəliyinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz xərcinin müvafiq dövr üzrə bölüşdürülməsi üsuludur.

Effektiv faiz dərəcəsi borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul ödənişlərini (effektiv faiz dərəcəsinin, əməliyyat xərclərinin və digər mükafatlar və ya endirimlərin tərkib hissəsini təşkil edən ödənilmiş və ya alınmış bütün haqlar daxil olmaqla) amortizasiya olunmuş məbləğinədək dəqiqliklə diskontlaşdıran dərəcədir.

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Cəmiyyət maliyyə öhdəliyini maliyyə hesabatlarından (və ya maliyyə öhdəliyinin bir hissəsini) yalnız bu öhdəlik ləğv edildiyi halda, məsələn müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə və ya ləğv olunduqda və ya müddəti başa çatdığı zaman çıxarır.

Əsaslı şərtlərlə borc alətləri üzrə mövcud debitor və kreditor arasında mübadilə aparılması halları maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi nəzərə alınır. Eynilə, mövcud maliyyə öhdəliyinin və ya onun bir hissəsinin (debitorun maliyyə çətinlikləri ilə əlaqəli olmasından asılı olmayaraq) şərtlərinin əhəmiyyətli şəkildə dəyişdirilməsi, maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi tanınır.

Yeni yaradılmış maliyyə öhdəliyinin şərtlərinə əsasən, o cümlədən alınmış hər hansı haqlar üzrə nağd ödənilmiş haqlar və ilkin effektiv faiz dərəcəsi ilə diskontlaşdırılmış ödənişlər də daxil olmaqla, pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyəri, maliyyə öhdəliyi üzrə qalan pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyərindən ən azı 10 faiz fərqləndikdə, yeni müddəaların əhəmiyyətli dərəcədə fərqli olması hesab edilir. Borc alətlərinin mübadiləsi və ya şərtlərin dəyişdirilməsi öhdəliyin ləğvi olaraq nəzərə alınırsa, çəkilmiş xərclər və ya haqlar ləğvetmə üzrə gəlir və ya zərərin bir hissəsi kimi tanınır. Mübadilə və ya dəyişdirmə öhdəliyin ləğvi olaraq nəzərə alınmırsa, hər hansı xərclər və ya haqlar öhdəliyin balans dəyərində düzəliş olaraq tanınır və dəyişdirilmiş öhdəliyin qalan müddəti ərzində amortizasiya olunur.

**Maliyyə alətlərinin əvəzləşdirilməsi**

Maliyyə aktivləri və öhdəlikləri yalnız aktiv və öhdəliklərin əvəzləşdirilməsi üçün müəyyən edilmiş hüququ olduqda, eləcə də müqavilə üzrə əvəzləşdirməni aparmaq və eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda əvəzləşdirilə bilər.

**Debitor borcları və digər alınacaq vəsaitlər**

Debitor borcları və digər alınacaq vəsaitlər effektiv faiz dərəcəsi üsulundan istifadə etməklə amortizasiya dəyərində uçota alınır. Cəmiyyət debitor borcları və digər alınacaq vəsaitlər və müqavilə üzrə aktivlər üçün ehtimal olunan kredit zərərlərini hesablamaq üçün ehtiyat cədvəlindən istifadə edir.

Ehtiyat dərəcələri oxşar zərər modellərinə malik olan müxtəlif müştəri seqmentləri üzrə (yəni, coğrafi, məhsul növü, müştəri növü və reytinqi, akkreditiv və digər kredit sığortası növləri üzrə) qruplarda vaxtı keçmiş günlərə əsaslanır.

Ehtiyat cədvəli ilkin olaraq Cəmiyyətin tarixən müşahidə olunmuş faiz dərəcələrinə əsaslanır. Cəmiyyət tarixi kredit zərəri üzrə təcrübəsini perspektiv məlumatlarla uyğunlaşdırmaq üçün cədvələ düzəlişlər edir. Məsələn, əgər istehsal sektorunda defolt sayının artmasına gətirib çıxaran proqnozlaşdırılan iqtisadi şərtlər (yəni, ümumi daxili məhsul) gələn il ərzində pisləşəcəkdirsə, bu zaman tarixi faiz dərəcələrinə düzəliş edilir. Hər bir hesabat tarixində tarixi müşahidə olunmuş faiz dərəcələri yenilənir və gələcək perspektiv ehtimallar təhlil edilir. Tətbiq olunduğu hallarda Cəmiyyət qarşı tərəflərin xarici dərəcələrindən əldə edilmiş defolt dərəcələrinə əsaslanır.

Tarixi müşahidə olunmuş faiz dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və ehtimal olunan kredit zərərləri arasında korrelyasiyanın qiymətləndirilməsi əhəmiyyətli dərəcədə təxminlərdən ibarətdir. Ehtimal olunan kredit zərərinin məbləği şərait və proqnozlaşdırılan iqtisadi şərtlərdəki dəyişikliklərə həssasdır.

Cəmiyyətin tarixi kredit zərəri üzrə təcrübəsi və iqtisadi şəraitin proqnozu da gələcəkdə müştərinin faktiki defolt vəziyyətini tam şəkildə əks etdirə bilməz.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə kassada olan pul vəsaitləri və banklarda saxlanılan depozitlər daxildir. Pul vəsaitləri və onların ekvivalentləri AD-də uçota alınır, çünki (i) onlar müqavilə üzrə pul vəsaitləri hərəkətinin yığılması üçün saxlanılır və həmin pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təmsil edir və (ii) MZVƏD-də təyin olunmur. Müəyyən ölkələrdə təminat qanunvericiliyi kimi yalnız qanunvericiliklə nəzərdə tutulmuş xüsusiyyətlər, qanunvericilik sonradan dəyişdirilsə belə, bu xüsusiyyətin tətbiq olunacağı müqavilə şərtlərinə daxil edilmədiyi halda, YƏMFÖ testinə təsir göstərmir.

**Təchizatçılara verilmiş avanslar**

Təchizatçılara verilmiş avanslar dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla ilkin dəyərlə tanınır. Avans ödənişləri ilə bağlı mal və ya xidmətlərin bir ildən sonra əldə ediləcəyi ehtimal olunduqda və ya ilkin tanınma zamanı aktivlə bağlı avans ödənişləri uzunmüddətli aktiv olaraq təsnif edildikdə hesabat tarixində bu avans ödənişləri uzunmüddətli aktiv olaraq təsnif edilir.

Aktivlərin əldə olunması üçün ödənilmiş avanslar Cəmiyyət aktivin nəzarətini ələ keçirdikdən sonra aktivin balans dəyərinə köçürülür və aktivlə bağlı gələcək iqtisadi səmərələrin Cəmiyyətə daxil olacağı ehtimal olunur. Avans ödənişlərinə aid olan mal və ya xidmətlər əldə olunan zaman digər əməliyyatlar üzrə avans ödənişləri mənfəət və zərər hesablarına silinir. Avans ödənişləri ilə bağlı aktivlər mal və ya xidmətlərin əldə olunmadığına dair göstərici olduqda, avans ödənişlərinin balans dəyəri müvafiq olaraq silinir və müvafiq dəyərsizləşmə zərəri məcmu gəlir haqqında hesabatda qeydə alınır.

**Kreditor borcları və digər ödəniləcək vəsaitlər**

Kreditor borcları və digər ödəniləcək vəsaitlər qarşı tərəf müqavilədə nəzərdə tutulmuş öhdəliklərini icra etdiyi zaman tanınır və effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərdə uçota alınır.

**Alınmış avanslar**

Müştərilərdən alınmış avanslar, ilkin olaraq, öhdəlik kimi qeydə alınacaq, lakin müəyyən müddətdən sonra və/yaxud biznesin normal fəaliyyəti nəticəsində aktivə çevrilmə ehtimal olunan maddəyə istinad edir. Müştərilərdən alınmış avanslar ilkin olaraq hər hansı birbaşa aid edilə bilən əməliyyat xərcləri daxil olmaqla, alınan kompensasiyanın ədalətli dəyəri ilə qeydə alınır və sonradan amortizasiya olunmuş maya dəyərində uçota alınır.

**Əlavə dəyər vergisi**

Ödəniləcək ƏDV və iddia olunan əvəzləşdiriləcək ƏDV arasındakı fərq hesabat ayından sonra 20 gün ərzində dövlət büdcəsinə ödənilir. Satış ilə əlaqədar ödəniləcək əlavə dəyər vergisi vergi orqanlarına bu satışların qarşılığında ödəniş alındıqda ödənilir. Əvəzləşdiriləcək ƏDV bir qayda olaraq elektron ƏDV hesab fakturası alındıqdan sonra ödəniləcək ƏDV ilə əvəzləşdirilir. Vergi orqanları ƏDV-nin xalis əsaslarla hesablanmasına icazə verir.

Satış və alış ilə əlaqədar olan ƏDV maliyyə hesabatında ümumi məbləğdə uçota alınır və aktiv və öhdəlik kimi ayrıca olaraq açıqlanır. Alınacaq vəsaitlərin dəyərsizləşməsi ilə əlaqədar ehtiyat yaradıldıqda, dəyərsizləşmə zərəri ƏDV daxil olmaqla borcluya aid olan ümumi məbləğin tərkibində uçota alınır.

**ƏDV depozit hesabı**

Əlavə Dəyər Vergisi (“ƏDV”) depozit hesabı sistemi Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən ƏDV ilə bağlı neqativ halların qarşısını almaq məqsədilə 2008-ci ildən etibarən tətbiq olunan sistemdir. 1 yanvar 2008-ci il tarixindən Vergilər Məcəlləsinə edilmiş düzəlişlərə əsasən, ƏDV ödənişinin məbləği təqdim olunmuş ƏDV hesab-fakturalarına uyğun olaraq vergi ödəyicisinin ƏDV depozit hesabında aparılan əməliyyatlar çərçivəsində bu hesaba ödənilmiş olan vergi məbləğidir.

Bu modulun köməkliyi ilə, vergi ödəyicisi ƏDV hesab fakturasında qeyd olunmuş ƏDV məbləğini digər vergi ödəyicisinin ƏDV depozit hesabına ödəyir. Eyni zamanda Dövlət büdcəsi qarşısında bütün növ vergi öhdəlikləri və gömrük komitəsinə ödənilməli olan idxal əməliyyatları ilə bağlı ƏDV məbləğləri vergi ödəyicisi tərəfindən ƏDV depozit hesabı vasitəsilə ödənilə bilər. Ödənilmiş məbləğlər barəsində məlumat vergi orqanı tərəfindən Baş Dövlət Xəzinədarlığına və daha sonra Azərbaycan Respublikası Mərkəzi Bankına ("ARMB") ötürülür. Mərkəzi Bank Baş Dövlət Xəzinədarlığı ("BDX") tərəfindən təqdim olunmuş məlumat əsasında məbləğlərin müvafiq yerli xəzinədarlıq orqanlarına köçürülməsini təmin edir. Vergilər Nazirliyi təqdim olunmuş məlumatda qeyd edilən məbləğlərin vergi ödəyicisinin şəxsi faylına daxil edilməsini təmin edir. Cari sistem Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi Məlumatı Sisteminə qoşulmuşdur. Eyni zamanda BDX-də və ARMB-də elektron məlumat mübadiləsi təşkil olunmuşdur.

ƏDV depozit hesabının tətbiqi ödənişlərə və qaytarılan ƏDV məbləğlərinə vaxtlı-vaxtında nəzarət etmək imkanı verir. Vergi borcları olan vergi ödəyiciləri bu məbləğləri yalnız dövlət büdcəsinə köçürə bilər. Vergi ödəyiciləri banklara getmədən dövlət büdcəsinə, digər vergi ödəyicilərinin ƏDV depozit hesabına və gömrük komitəsinə depozit hesabı vasitəsilə ödəniş edə bilərlər. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti xüsusi proqram təminatından istifadə etməklə depozit hesabıyla aparılan bütün əməliyyatlara avtomatik şəkildə nəzarət edir.

ƏDV depozit hesabındakı vəsaitlərdən istifadə məhdudlaşdırılmışdır və yalnız ƏDV və digər müvafiq vergilərlə bağlı əməliyyatlar üçün istifadə edilə bilər.

**İcarələr**

İcarə nəzərdən keçirildiyi müddət ərzində aktivdən (əsas aktivdən) istifadə hüququ üzrə müqavilə və ya müqavilnin bir hissəsidir. Müştərinin müəyyən edilməmiş aktivin istifadəsi nəticəsində yaranan iqtisadi mənfəəti əldə etmək hüququ və həmin aktivin istifadəsinə rəhbərlik etmək hüququ varsa, nəzarətin davam etdiyi hesab edilir.

İcarə öhdəliyi başladıqda Cəmiyyət qısamüddətli, eləcə də aşağı dəyərli icarə öhdəliyindən başqa bütün icarələr üçün aktiv və icarə öhdəliyinin istifadə hüququnu tanıyır.

Aktivlərdən istifadə hüququ əvvəlcə maya dəyəri ilə ölçülür və sonradan yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə ölçülür.

İcarə öhdəliyi əvvəlcə gələcək icarə ödənişlərinin cari dəyəri ilə ölçülür. Sonradan icarə öhdəlikləri faiz və icarə ödənişləri üçün düzəldilir.

Cəmiyyətin rəhbərliyi keçmiş dövrlərə aid məlumatlara əsaslanaraq icarə şərtlərinin müəyyənləşdirilməsində müəyyən təxminlərdən istifadə etmişdir.

**Nizamnamə kapitalı**

Nizamnamə kapitalı Cəmiyyətin səhmdarının qoyduğu kapitalın məbləğidir. Cəmiyyət nizamnamə kapitalını səhmdarın təsdiqi çərçivəsində artıra və ya azalda bilər.

Təsisçilərin nizamnamə kapitalından başqa vəsait qoyması və ya geri çəkməsi digər kapitalda tanınır.

Adi səhmlər üzrə dividendlər onların elan edildiyi dövrdə azalma kimi kapitalda tanınır. Hesabat tarixindən sonra elan edilmiş dividendlər "Hesabat tarixindən sonrakı hadisələr" adlı 10 saylı BMUS-a uyğun olaraq sonrakı hadisə kimi nəzərə alınır və müvafiq olaraq açıqlanır.

**Müştərilərlə bağlanmış müqavilələr üzrə gəlirlər**

15 saylı MHBS, müəssisələrə müştərilər ilə bağlanmış müqavilələrdən gəlirlərin uçotu üzrə vahid məcmu modeli tətbiq edir.

15 saylı MHBS-nin əsas prinsipinə görə, Cəmiyyət vəd edilmiş malların və ya xidmətlərin müştərilərə köçürülməsini əks etdirmək üçün gəliri Cəmiyyətin həmin mal və ya xidmətlər müqabilində hüquq əldə etməyi gözlədiyini əks etdirən məbləğdə tanımalıdır. Standart, xüsusilə gəlirlərin tanınması üçün beş-addımlı bir yanaşma təqdim edir:

- 1-ci Addım: Müştərilərlə bağlanmış müqavilə və ya müqavilələri müəyyən etmək;
- 2-ci Addım: Müqavilə öhdəliklərini müəyyən etmək;
- 3-cü Addım: Əməliyyat qiymətini müəyyən etmək;
- 4-cü Addım: Müqavilə öhdəlikləri üzrə əməliyyat qiymətlərinin ayrılması;
- 5-ci Addım: Müəssisə müqavilə öhdəliklərini yerinə yetirirsə (yetirdiyi zaman) gəlirin tanınması.

15 saylı MHBS-yə əsasən, öhdəliyin icrası yerinə yetirildiyi halda, yəni müəyyən öhdəliyin icrası əsas götürülən mallara və ya xidmətlərə “nəzarət” müştəriyə ötürülərkən, müəssisə gəliri tanıyır.

Gəlir əsasən xarici müştərilərə pambıq məhsullarının satışından ibarətdir. Gəlir, dövr ərzində satışla əlaqədar rüsum, aksiz və digər vergiləri istisna edir və birbaşa və dolayı müştərilərə güzəştlər, gəlirlər və digər oxşar endirimlər və ödənişlər çıxıldıqdan sonra ifadə edilir. Gəlir, mallara nəzarət müştəriyə verildikdə tanınır; bu, adətən, vaxt baxımından göndərilmə tarixindən əhəmiyyətli dərəcədə fərqlənməyən, müştəriyə çatdırıldıqda mülkiyyətin əhəmiyyətli risk və mükafatlarının köçürülməsi ilə sübut edilir.

**İşçilərə sərf olunan xərclər**

Əmək haqları, məvaciblər, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

**Subsidiya gəliri**

Hökumətdən alınan subsidiyalar, subsidiyanın alınacağına və ona əlavə edilmiş bütün şərtlərə riayət olunacağına dair əsaslı zəmanət olduqda tanınır. Subsidiya xərclərlə əlaqədar olduqda, kompensasiya edilməsi nəzərdə tutulan müvafiq xərclərin xərcləndiyi dövrlərdə sistematik olaraq gəlir kimi tanınır. Subsidiya bir aktivə aid olduqda, əlaqədar aktivin gözlənilən faydalı ömrü boyunca bərabər miqdarda gəlir kimi tanınır.

Cəmiyyət qeyri-monetar aktivlərə subsidiya aldıqda, aktiv və subsidiya nominal məbləğdə uçota alınır və əsas aktivin faydalarının illik bərabər hissələrlə istehlak modelinə əsaslanaraq aktivin gözlənilən faydalı ömrü ərzində mənfəət və ya zərərə buraxılır.

**Xarici valyuta əməliyyatları**

Cəmiyyətin funksional valyutası fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Cəmiyyətin funksional valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır (“AZN”).

Monetar aktiv və öhdəliklər ARMB-nin müvafiq hesabat tarixinə qüvvədə olan, rəsmi valyuta məzənnəsinə əsasən hər bir müəssisənin funksional valyutasına çevrilir. Xarici valyuta əməliyyatları əməliyyat tarixində mövcud olan məzənnə ilə uçota alınır.

İlin sonuna qüvvədə olan valyuta məzənnəsi ilə yerli valyutaya çevrilmə qeyri-monetar maddələrə, o cümlədən pay alətlərinə tətbiq edilmir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızlarının ədalətli dəyərinə təsiri ədalətli dəyər üzrə gəlir və ya xərclərin bir hissəsi kimi qeydə alınır.

Maliyyə hesabatlarının hazırlanması zamanı Cəmiyyət aşağıda göstərilən valyuta məzənnələrindən istifadə etmişdir:

| | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| 1 ABŞ dolları | 1.7000 AZN | 1.7000 AZN |
| 1 Rubl | 0.0230 AZN | 0.0229 AZN |
| 1 Avro | 1.8114 AZN | 1.9265 AZN |

## Ehtiyatlar

Ehtiyatlar Cəmiyyətin keçmişdə baş vermiş hadisənin nəticəsi olaraq hazırda öhdəliyi (hüquqi yaxud konstruktiv) olduqda tanınır; bu zaman Cəmiyyətdən öhdəliyin yerinə yetirilməsinin tələb olunacağı ehtimal edilir və öhdəlik məbləği etibarlı şəkildə hesablana bilir.

Ehtiyat kimi tanınan məbləğ öhdəliklə bağlı risk və qeyri-müəyyənlikləri nəzərə almaqla hesabat dövrünün sonunda cari öhdəliyin yerinə yetirilməsi ilə əlaqədar tələb olunan məbləğlərin ən düzgün şəkildə hesablanmasıdır.

Ehtiyat hazırkı öhdəliyin yerinə yetirilməsi üçün hesablanmış pul vəsaitlərinə istinad etməklə ölçülərsə, onun balans dəyəri (pulun zaman dəyərinin təsiri əhəmiyyətli olduqda) həmin pul vəsaitlərinin cari dəyərinə bərabər olur.

Ehtiyatların ödənilməsi üçün tələb olunan iqtisadi faydaların bir hissəsinin və ya hamısının üçüncü tərəfdən geri alınması gözlənildikdə, kompensasiyanın alınacağına faktiki olaraq əmin olduqda və debitor borcunun məbləği etibarlı şəkildə ölçülə bildikdə, debitor borc aktiv kimi tanınır.

### Şərti öhdəliklər və aktivlər

Şərti öhdəliklər maliyyə hesabatlarında tanınmır. Onlar iqtisadi cəhətdən səmərəli resursların məxarici ehtimalı olmayanadək maliyyə hesabatlarının qeydlərində açıqlanır.

Şərti aktivlər maliyyə hesabatlarında qeyd olunmur, lakin iqtisadi mənfəət əldə edilməsi ehtimalı olduqda maliyyə hesabatında açıqlanır.

## 3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin verməsini tələb edir.

Biznes fəaliyyətlərinin qeyri-müəyyənliyi nəticəsində maliyyə hesabatlarında bir çox maddələrin dəqiq qiymətləndirilməsi mümkün olmur və yalnız müəyyən ehtimallar irəli sürülə bilər. Ehtimallar maliyyə hesabatları hazırlanarkən ən son məlumatlara əsaslanan mühakimələri nəzərdə tutur. Gələcək hadisələr haqqında mövcud vəziyyət və ehtimallar Cəmiyyətin nəzarətindən kənarda yaranan bazar dəyişiklikləri və ya şəraitə görə dəyişə bilər. Bu cür dəyişikliklər baş verdikləri zaman Cəmiyyət tərəfindən edilən təxminlərdə öz əksini tapır.

Ən əhəmiyyətli təxminlər əmlak, tikili və avadanlıqların ədalətli dəyəri, əmlak, tikili və avadanlıqların amortizasiya olunmuş faydalı istifadə müddəti, əmlak, tikili və avadanlıqlar və digər qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi, mal-material ehtiyatlarının qiymətləndirilməsi, əvəzləşdirilən ƏDV, maliyyə alətlərinin ədalətli dəyərinin ölçülməsi, vergi və hüquqi şərti öhdəliklər və təxirə salınmış vergiqoyma üzrə ehtiyat, icarə müddəti və artan borc faizinin təxmin edilməsi, gəlirin tanınması və debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri üzrə ehtiyat ilə bağlıdır. Faktiki nəticələr həmin təxminlərdən fərqli ola bilər.

**Mülahizələr**

Cəmiyyətin mühasibat uçotu siyasətinin tətbiq edilməsi prosesində rəhbərlik maliyyə hesabatlarında tanınmış məbləğlər üzrə nəzərə alınmış əhəmiyyətli təsiri olan təxminlərdən başqa aşağıdakı mülahizələri edir.

**Əmlak, tikili və avadanlıqlar üzrə ədalətli dəyər**

Əmlak, tikili və avadanlıqlar Cəmiyyətə təhvil verildiyi tarixə hesablanmış şərti dəyər olaraq ədalətli dəyərlə ölçülmüşdür.

Əmlak, tikili və avadanlıqların bazar dəyəri, 13 saylı MHBS-yə əsasən əmlakın, tikili və avadanlıqların ədalətli dəyərinə bərabər olan bənzər əmlak, tikili və avadanlıqlar üçün bazar satış qiymətlərinin təhlilini əhatə edən bazar yanaşması metodu ilə qiymətləndirilmişdir.

**Əmlak, tikili və avadanlıqların faydalı istifadə müddəti**

Cəmiyyət hər maliyyə ilinin sonunda əmlak, tikili və avadanlıqların qalan faydalı istifadə müddətini qiymətləndirir. Bu aktivlərin nəzərdə tutulan faydalı istifadə müddəti ötən ilin qiymətləndirilməsindən fərqli olduqda, "Uçot Siyasətləri, Uçot Qiymətləndirmələrində Dəyişikliklər və Xətalar" adlı 8 saylı BMUS-a müvafiq olaraq uçot təxminlərində dəyişiklik olaraq uçota alınır. Belə təxminlərin əmlak, tikili və avadanlıqların balans dəyərlərinin məbləğləri və mənfəət və zərərdə tanınmış amortizasiya üzrə əhəmiyyətli təsirləri olur.

**Əmlak, tikili və avadanlıqların və digər qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi**

Cəmiyyət hər bir hesabat tarixinə aktivlərin dəyərsizləşməsinə dair ehtimalın olmasını qiymətləndirir. Əgər hər hansı belə ehtimal mövcuddursa və ya fərdi aktiv üçün illik dəyərsizləşmə üzrə təhlil tələb edilirsə Cəmiyyət aktivin bərpa oluna bilən məbləğini təxmin edir. Aktivin bərpa oluna bilən məbləği onun digər aktivlərdən müstəqil şəkildə pul vəsaitləri yaratmaq qabiliyyətinin olduğu hallar istisna olmaqla, aktivin və ya pul vəsaiti yaradan vahidin ən yüksək ədalətli dəyərindən satış xərcləri və istifadə dəyəri çıxılması nəticəsində yaranan dəyərə bərabərdir. Aktivin balans dəyəri onun bərpa oluna bilən məbləğindən artıq olduqda aktiv dəyərsizləşmiş hesab edilir və o bərpa oluna bilən məbləğinə qədər azaldılır. İstifadə dəyərini qiymətləndirərkən, pulun zaman dəyəri və aktivə xas olan risklərin cari bazar qiymətləndirməsini əks etdirən vergidən öncə diskont dərəcəsi istifadə edilərək ehtimal olunan gələcək pul axınları mövcud dəyərinə diskontlaşdırılır. Satış xərcləri çıxılmaqla ədalətli dəyəri müəyyən edərkən, cari bazar əməliyyatları (mövcud olduqda) nəzərə alınır. Bu cür əməliyyatlar müəyyən edilə bilmədikdə, müvafiq qiymətləndirmə modeli istifadə olunur.

Cəmiyyət dəyərsizləşmə üzrə hesablamanı, fərdi aktivin ayrıldığı Cəmiyyətin hər bir nağd yaradan vahidi (CGU) üçün ayrı-ayrılıqda hazırlanan ətraflı büdcələrə və proqnoz hesablamalarına əsasən aparır. Bu büdcələr və proqnoz hesablamaları ümumilikdə 5 illik dövrü əhatə edir. Daha uzun dövrlər üçün, uzunmüddətli böyümə sürəti müəyyənləşdirilir və beşinci ildən sonra gələcək pul vəsaitlərinin hərəkəti üçün tətbiq olunur. Rəhbərlik ehtimal olunan əmtəə qiymətləri üçün, gələcəkdə bazar ilə uyğunlaşdırılan qiymət artımı da nəzərə alınmaqla, normal biznes şərtləri ilə dəyişən qiymətləri də daxil edən artan qiymət metodundan istifadə edir. 31 dekabr 2022-ci il tarixinə dəyərsizləşmə testi modelində istifadə edilən məlumatlarda əhəmiyyətli dəyişikliklərə görə Cəmiyyət dəyərsizləşmə hesablamasını həyata keçirə bilməmişdir.

**Mal-material ehtiyatlarının qiymətləndirilməsi**

Mal-material ehtiyatları maya dəyər və ya xalis satış dəyərindən daha az olan məbləğdə qiymətləndirilir. Cəmiyyət uyğun olduqda köhnəlmiş və az istifadə edilən mal-material ehtiyatlarının balans dəyərini xalis satış dəyərinə qədər azaltmaq üçün ehtiyat uçota alır. Mal-material ehtiyatlarının silinməsi üzrə yaranan faktiki dəyər xalis satış dəyərindən fərqli ola bilər; istənilən fərqin gələcək əməliyyat nəticələri üzərində əhəmiyyətli təsiri ola bilər.

Az istifadə edilən və köhnəlmiş mal-materiallar üzrə ehtiyatlar Cəmiyyət tərəfindən mal-material ehtiyatlarının qiymətləndirilməsi əsasında hesablanır. Ehtiyatların silinməsi Cəmiyyətin rəhbərliyi tərəfindən il sonunda ehtiyatların köhnəlməsi və faydalı iqtisadi müddətinin qiymətləndirilməsi əsasında baş verir. 31 dekabr 2022-ci il tarixinə Cəmiyyət köhnəlmiş xammal və material ehtiyatları üzrə 1,704,870 AZN məbləğində ehtiyat tanımışdır. Bu ehtiyat əvvəlki illərdə satın alınmış mal-material ehtiyatları üzrə köhnəlmə və zərər əsasında uçota alınmışdır.

**Əvəzləşdirilən ƏDV**

Hər hesabat tarixində Cəmiyyət mal və xidmətlərin alışından yaranan əvəzləşdirilən ƏDV-ni qiymətləndirir. Cəmiyyət bu məbləğləri yalnız gələcəkdə yaranacaq ƏDV öhdəliyinin əvəzləşdirilməsi və ya vergi orqanlarından toplanması vasitəsilə ala bilər. ƏDV üzrə alınacaq vəsaitlərin bərpası qiymətləndirilərkən Cəmiyyət planlaşdırılmış ƏDV öhdəliyi, dövlət vergi orqanları ilə yazışmaları və tarixi bərpa təcrübəsi ilə bağlı daxili vergi departamentindən alınan məlumatları nəzərə alır.

Əvəzləşdirilən ƏDV-nin cari məbləği Cəmiyyətin təxminlərindən əhəmiyyətli dərəcədə fərqlənə bilər və bu da öz növbəsində əməliyyat nəticələrinə təsir göstərə bilər.

**Maliyyə alətlərinin ədalətli dəyərinin ölçülməsi**

Cəmiyyətin bir sıra mühasibat uçotu siyasəti və açıqlamaları, maliyyə və qeyri-maliyyə aktivləri və öhdəlikləri üçün ədalətli dəyərin ölçülməsini tələb edir.

Cəmiyyət ədalətli dəyərin ölçülməsi ilə əlaqədar olaraq müəyyən nəzarət çərçivəsinə malikdir.

Aktiv və ya öhdəliyin ədalətli dəyərini ölçərkən, Cəmiyyət mümkün qədər bazarda müşahidə edilə bilən məlumatlardan istifadə edir. Ədalətli dəyərlər aşağıdakı qiymətləndirmə üsullarında istifadə olunan məlumatlara əsaslanaraq ədalətli dəyər iyerarxiyasında müxtəlif səviyyələrdə təsnifləşdirilir:

- *1-ci Səviyyə* – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- *2-ci Səviyyə* – aktiv və ya öhdəlik üzrə birbaşa (yəni qiymətlər) və ya dolayı yolla (yəni qiymətlərdən əldə edilir) müqayisə edilə bilən 1-ci Səviyyədə daxil edilmiş qiymətlərdən başqa daxilolmalar;
- *3-cü Səviyyə* – müşahidə edilə bilən bazar məlumatlarına əsaslanmayan aktiv və ya öhdəlik üçün daxilolmalar (müşahidə olunmayan daxilolmalar).

Bir aktivin və ya öhdəliyin ədalətli dəyərini ölçmək üçün istifadə edilən məlumatlar, ədalətli dəyər iyerarxiyasının müxtəlif səviyyələrində təsnif edilə bilərsə, ədalətli dəyər iyerarxiyasının eyni dərəcəsi bütün ölçmə üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş kimi ədalətli dəyərin ölçülməsi bütünlükdə təsnif edilir.

**Cari vergilər**

Azərbaycanda vergi, valyuta və gömrük qanunvericiliyi tez-tez baş verən şərhlərə və dəyişiklərə məruz qalır. Bundan başqa Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq olunan vergi qanunvericiliyinin vergi orqanları tərəfindən şərhi, Cəmiyyətin rəhbərliyinin şərhi ilə uyğun gəlməyə bilər. Nəticədə, vergi orqanları əməliyyatları yenidən təsnif edə bilər və Cəmiyyətin işçiləri əhəmiyyətli dərəcədə əlavə vergi, cərimə və faiz ödəmələrinə məruz qala bilərlər.

Vergi və gömrük qurumları müəssisənin fəaliyyətinin nəzərdən keçiriləcəyi ildən əvvəlki üç il ərzində vergi öhdəliklərini yoxlaya bilərlər. Cəmiyyətin fəaliyyətinin nəzərdən keçirilməsi müəyyən şərtlər çərçivəsində daha uzun müddətləri də əhatə edə bilər. 31 dekabr 2022-ci il tarixinə rəhbərlik hesab edir ki, onların müvafiq qanunvericiliklə bağlı şərhləri uyğundur və ehtimal olunur ki, Cəmiyyətin vergi, valyuta və gömrüklə bağlı cari vəziyyəti dəyişməyəcək.

**Təxirə salınmış vergilər**

Təxirə salınmış vergi aktivləri istifadə olunmamış vergi zərərləri üçün zərərlərin istifadə oluna biləcəyi vergiyə cəlb olunan mənfəətin olması ehtimalı daxilində tanınır. Gələcək vergi planlaşdırma strategiyaları ilə birlikdə ehtimal olunan vaxt və gələcək vergiyə cəlb olunan mənfəət səviyyəsinə əsaslanaraq, təxirə salınmış vergi aktivlərinin məbləğini müəyyənləşdirmək üçün əhəmiyyətli idarəetmə mülahizələri tələb olunur.

**İcarə müddəti və artan borc dərəcəsinin qiymətləndirilməsi**

Cəmiyyət icarə müddətini icarənin həyata keçirilməsinin məqsədəuyğun olduğu təqdirdə icarə müddətinin uzadılması variantının əhatə etdiyi bütün dövrlərlə və ya icarəyə xitam vermə opsiyasının əhatə olunduğu hər hansı bir müddətlə, əgər yerinə yetirilməməsinin əsaslı şəkildə müəyyənləşdirildiyi təqdirdə, icarə müddətinin ləğv olunmayan müddəti kimi təyin edir. Cəmiyyətin müddətinin uzadılması və ya ləğv edilməsi seçimlərini özündə əks etdirən bir neçə icarə müqaviləsi mövcuddur. Cəmiyyət icarəni yeniləmək və ya ləğv etmək seçimini həyata keçirib-keçirməyəcəyini məqbul çərçivə daxilində müəyyən olub-olmadığını qiymətləndirərkən təxminlərdən istifadə edir. Yəni həm yeniləməni, həm də ləğv etməni həyata keçirmək üçün iqtisadi stimul yaradan bütün müvafiq amilləri nəzərə alır. Başlama tarixindən sonra yeniləmə və ya ləğv etmə seçimini həyata keçirmək və ya istifadə etməmə qabiliyyətinə təsir edən əhəmiyyətli dərəcədə bir hadisə və ya onun nəzarəti altında olan şərtlərdə dəyişiklik baş verdikdə, Cəmiyyət icarə müddəti ilə bağlı ehtimallarını yenidən qiymətləndirir.

Cəmiyyət icarəyə aid birbaşa faiz dərəcəsini asanlıqla müəyyən edə bilmədiyi üçün icarə öhdəliklərini ölçmək üçün artan borc üzrə faiz dərəcəsindən (IBR) istifadə edir. Bu, bənzər müddətdə borc almaq üçün Cəmiyyətin ödəməli olduğu faiz dərəcəsidir və bənzər təminatla, bənzər mühitdə aktivlərdən istifadə hüququ üzrə eyni dəyərə bərabər olan aktivin əldə edilməsi üçün tələb olacaq vəsaitdir. Bu səbəbdən IBR, müşahidə edilə bilən dərəcələr olmadıqda və ya icarə şərtlərini əks etdirmək üçün düzəliş edilməli olduqda qiymətləndirmə tələb edən şirkətin 'ödəməli olduğunu' əks etdirir. 31 dekabr 2022-ci il tarixinə rəhbərlik tərəfindən istifadə edilən IBR 6%-7% (2021-ci il: 6%-7%) olmuşdur.

**Gəlirin tanınması**

Malların satışından əldə edilən gəlirlər, adətən mallar göndərildikdə, malların mülkiyyət hüquqlarının risk və mükafatlarının köçürülməsi nöqtəsində tanınır. Cəmiyyət malları müəyyən bir yerə daşımağa razılıq verərsə, gəlir təyinat nöqtəsində müştəriyə təhvil verildikdə tanınır.

Xidmətlərin satışı, göstəriləcək xidmətlərin ümumi sayının bir hissəsi olaraq göstərilən faktiki xidmət əsasında qiymətləndirilən xüsusi əməliyyatın başa çatma mərhələsinə əsasən xidmətlərin göstərildiyi hesabat dövründə tanınır.

Ümumi satışlar ƏDV xaric, lakin endirimlər daxil olmaqla göstərilir. Endirimlər kommersiya şərtlərindən asılı olaraq ixtiyari verilir.

Gəlirlər alınmış və ya alınacaq avansların ədalətli dəyəri ilə ölçülür. Barter əməliyyatında alınan malların ədalətli dəyəri etibarlı şəkildə ölçülə bilmədikdə, gəlir imtina edilən mal və ya xidmətin ədalətli dəyəri ilə ölçülür.

**Debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri üzrə**

Cəmiyyət, debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərlərini hesablamaq üçün ehtiyat cədvəlindən istifadə edir. Ehtiyat dərəcələri, oxşar zərər modellərinə malik olan müxtəlif müştəri seqmentləri üzrə (yəni, coğrafiya, məhsul növü, müştəri növü və reytinqi, akkreditiv və kredit sığortasının digər növləri üzrə) qruplarda vaxtı keçmiş günlərə əsaslanır.

Ehtiyat cədvəli ilkin olaraq Cəmiyyətin tarixən müşahidə olunmuş faiz dərəcələrinə əsaslanır. Cəmiyyət, tarixi kredit zərəri təcrübəsini perspektiv məlumatlarla uyğunlaşdırmaq üçün cədvələ düzəlişlər edir. Məsələn, əgər istehsal sektorunda defolt sayının artmasına gətirib çıxaran proqnozlaşdırılan iqtisadi şərtlər (yəni, ümumi daxili məhsul) gələn il ərzində pisləşəcəkdirsə, bu zaman tarixi faiz dərəcələrinə düzəliş edilir. Hər bir hesabat tarixində, tarixi müşahidə olunmuş faiz dərəcələri yenilənir və gələcək perspektiv ehtimallar təhlil edilir. Tətbiq olunduğu hallarda, Cəmiyyət qarşı tərəflərin xarici dərəclərindən əldə edilmiş faiz dərəcələrinə əsaslanır.

Tarixi müşahidə olunmuş faiz dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və ehtimal olunan kredit zərəri arasında korrelyasiyanın qiymətləndirilməsi əhəmiyyətli dərəcədə təxminlərdən ibarətdir. Ehtimal olunan kredit zərərinin məbləği şərait və proqnozlaşdırılan iqtisadi şərtlərdəki dəyişikliklərə həssasdır. Cəmiyyətin tarixi kredit zərəri üzrə təcrübəsi və iqtisadi şəraitin proqnozu da gələcəkdə müştərinin faktiki defolt vəziyyətini tam şəkildə əks etdirə bilməz. Cəmiyyət 31 dekabr 2022-ci il tarixinə 1,373,464 AZN məbləğində debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərlərini tanımışdır.

**Yenidən təsnifatlar**

31 dekabr 2021-ci il tarixinə maliyyə hesabatlarında təqdimata uyğunlaşmaq üçün müəyyən yenidən təsnifatlar aparılmışdır, çünki cari ilin təqdimatı Cəmiyyətin maliyyə vəziyyəti haqqında hesabat, məcmu gəlir haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabatın daha yaxşı görünüşünü təmin edir.

## 4. YENİ VƏ YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ

Cari ildə Cəmiyyət Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) və BMUSŞ-nin Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2022-ci il tarixində başa çatmış hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

**Maliyyə Uçotunun Konseptual Əsaslarına İstinad – 3 saylı MHBS-yə edilmiş Düzəliş –** 2020-ci ilin may ayında BMUSŞ tərəfindən “Müəssisələrin birləşməsi” adlı 3 saylı MHBS-yə düzəliş dərc edilmişdir. Düzəliş 2018-ci ilin mart ayında dərc edilmiş “Maliyyə Hesabatlılığının Konseptual Əsasları”na istinad ilə birlikdə, bu düzəlişin tələblərini əhəmiyyətli dərəcədə dəyişmədən, 1989-cu ildə dərc edilmiş “Maliyyə Hesabatlarının Hazırlanması və Təqdimatın Əsasları”na edilən istinadın əvəz olunmasını nəzərdə tutur. Şura eyni zamanda, 37 saylı BMUS və ya “Təminatlar” adlı 21 saylı BMHŞK çərçivəsində, ayrı olaraq yaranırsa, borclar və şərti öhdəliklər üçün yaranan potensial “2 gün” mənfəət və ya zərərlərindən yayınmaq üçün 3 saylı MHBS-nin tanınma prinsipinə istisna da əlavə etmişdir. Eyni zamanda, Şura “Maliyyə Hesabatlarının Hazırlanması və Təqdim Olunması Əsasları”na istinadın əvəz edilməsindən təsirlənməyəcək şərti aktivlər üçün 3 saylı MHBS-nin mövcud təlimatına dair izahlar verməyi qərarlaşdırmışdır.

**Əmlak, Tikili və Avadanlıqlar: Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar – 16 saylı BMUS-a edilən düzəlişlər.** 2020-ci ilin may ayında, BMUSŞ müəssisələrin əmlak, tikili və avadanlıqların dəyərindən, rəhbərliyin nəzərdə tutduğu qaydada fəaliyyət göstərə bilməsi üçün həmin aktivləri lazımi yerə və şəraitə çatdırarkən istehsal olunan aktivlərin satışından əldə olunan gəlirləri çıxmağı qadağan edən “Əmlak, Tikili və Avadanlıqlar – Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar” düzəlişini dərc etmişdir. Bunun əvəzinə, müəssisə bu cür aktivlərin satışından əldə olunan gəlirləri və bu aktivlərin istehsal xərclərini mənfəət və zərər hesabında tanıyır.

**Ağır Şərtli Müqavilələr – Müqavilənin Yerinə Yetirilməsinə dair Xərclər – 37 saylı BMUS-a edilən düzəlişlər.** 2020-ci ilin may ayında, BMUSŞ, 37 saylı BMUS-a müqavilənin ağır şərtli və ya zərər yaradan olduğunu qiymətləndirərkən müəssisənin hansı xərcləri nəzərə alması barədə düzəlişlər etmişdir. Düzəlişlər “birbaşa əlaqəli xərc yanaşması”nı tətbiq edir. Mal və ya xidmətləri təmin etmək üçün birbaşa müqaviləyə aid olan xərclərə həm artan xərclər, həm də müqavilə fəaliyyətləri ilə birbaşa əlaqəli xərclərin bölüşdürülməsi daxildir. Ümumi və inzibati xərclər birbaşa müqavilə ilə əlaqəli deyil və müqavilə üzrə qarşı tərəf üçün açıq şəkildə ödənilməli olmadıqca istisna olunur.

**"Beynəlxalq Maliyyə Hesabatlılığı Standarlarının İlk dəfə Tətbiqi" adlı 1 saylı MHBS – ilkin tətbiq edən törəmə olaraq.** BMUSŞ 2018-2020-ci il üzrə illik təkmilləşdirmələr çərçivəsində "Beynəlxalq Maliyyə Hesabatı Standartlarının ilk dəfə qəbul edilməsi" adlı 1 saylı MHBS-də dəyişiklik etmişdir. Dəyişiklik ana müəssisənin MHBS-yə keçid tarixinə əsasən, ana müəssisə tərəfindən bildirilən məbləğlərdən istifadə etməklə, məcmu çevirmələr üzrə fərqlərini ölçmək üçün 1 saylı MHBS-nin D16 (a) bəndini tətbiq etməyi seçən bir törəmə müəssisəyə icazə verir. Bu düzəliş 1 saylı MHBS-nin D16 (a) bəndini tətbiq etməyi seçən bir asılı və ya birgə müəssisəyə də tətbiq edilir.

**"Maliyyə Alətləri" adlı 9 saylı MHBS – Maliyyə öhdəliklərinin silinməsi üzrə "10 faiz" dəyərində test üzrə iştirak haqqı.** MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ 9 saylı MHBS-yə düzəliş etmişdir. Düzəliş bir müəssisənin yeni və ya dəyişdirilmiş maliyyə öhdəliyinin şərtlərinin ilkin maliyyə öhdəliyinin şərtlərindən əhəmiyyətli dərəcədə fərqli olub-olmadığını qiymətləndirərkən əlavə etdiyi haqları aydınlaşdırır. Bu rüsumlara yalnız borcalan və ya borcverən tərəfindən başqasının adından ödədiyi və ya aldığı haqlar daxil olmaqla borcalanla borc verən arasında ödənilən və ya alınan ödənişlər daxildir. Müəssisə düzəlişi müəssisənin ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün əvvəlində və ya ondan sonra dəyişdirilmiş və ya mübadilə edilmiş maliyyə öhdəliklərinə tətbiq edir.

**"Kənd Təsərrüfatı" adlı 41 saylı BMUS –** Ədalətli dəyər ölçmələrində vergi. MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ "Kənd Təsərrüfatı Standartı" adlı 41 saylı BMUS-a dəyişiklik etmişdir. Dəyişiklik 41 saylı BMUS-un 22-ci bəndində müəssisələrin, 41 saylı BMUS çərçivəsində aktivlərin ədalətli dəyərini ölçərkən vergitutma üçün pul axınlarını istisna etməsi tələbini aradan qaldırır.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

## 5. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Cəmiyyət tərəfindən, qüvvəyə minən tarixdən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir. Cəmiyyət hazırkı yeni və düzəliş edilmiş standartları və şərhləri (əgər varsa) qüvvəyə mindikdən sonra qəbul etmək niyyətindədir.

**"Sığorta müqavilələri" adlı 17 saylı MHBS** 2017-ci ilin may ayında dərc olunmuşdur və "Sığorta müqavilələri" adlı 4 saylı MHBS-i əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə "Sığorta müqavilələri" adlı 17 saylı MHBS-i tətbiq etməlidir.

17 saylı MHBS, 1 yanvar 2023-cü il tarixində və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. "Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir" adlı 15 saylı MHBS və "Maliyyə Alətləri" adlı 9 saylı MHBS standartları ilə birlikdə tətbiq olunduqda erkən tətbiqinə icazə verilir. Bu standart Cəmiyyətə şamil edilmir.

**Uçot Siyasətinin Açıqlanması – 1 saylı BMUS və 2 saylı MHBS Metodik Sənədi –** 2021-ci ilin fevral ayında BMUSŞ 1 saylı BMUS və “Əhəmiyyətlilik haqqında mühakimələrin yürüdülməsi” adlı 2 saylı MHBS Metodik Sənədə düzəlişlər etmişdir. Bu düzəlişlər müəssisələrə uçot siyasəti haqqında açıqlamalar edərkən əhəmiyyətliliklə bağlı mühakimələrin tətbiq edilməsinə kömək edilməsi məqsədilə təlimat və nümunələri təqdim edir. Düzəlişlər müəssisələr üçün “əhəmiyyətli” uçot siyasətləri haqqında məlumatın açıqlanması tələbini onların “əhəmiyyətli” uçot siyasətinin açıqlanması tələbi ilə əvəz etməklə və mühasibat uçotu siyasəti ilə bağlı açıqlamalar barədə qərar qəbul edərkən müəssisələrin uçot siyasəti haqqında daha faydalı məlumatı açıqlamaqda kömək etmək məqsədi daşıyır.

1 saylı BMUS-a edilən düzəlişlər 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün tətbiq edilir və düzəlişlərin daha erkən tətbiqinə icazə verilir. 2 saylı Metodik Sənədə edilən düzəlişlər əhəmiyyətlilik anlayışının mühasibat uçotu siyasəti məlumatlarına tətbiqi ilə bağlı məcburi olmayan təlimatları ehtiva etdiyi üçün, bu düzəlişlər üçün qüvvəyə minmə tarixinə ehtiyac yoxdur.

**Uçot təxminlərinin müəyyən edilməsi – 8 saylı BMUS-a edilən Düzəlişlər –** 2021-ci ilin fevral ayında BMUSŞ “uçot təxminləri” anlayışını təqdim edən 8 saylı BMUS-a düzəlişi dərc etmişdir. Düzəlişlər müəssisələrin uçot siyasətindəki dəyişiklikləri uçot təxminlərindəki dəyişikliklərdən necə fərqləndirməli olduğunu və xətaların aradan götürülməsini izah edir. Həmçinin, bu düzəlişlər mühasibat uçotu təxminlərini hazırlamaq üçün müəssisələrin ölçmə üsullarından və giriş məlumatlarından necə istifadə etdiyini aydınlaşdırır.

Düzəlişlər 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və həmin dövrün başlanğıcında və ya ondan sonra baş verəcək uçot siyasəti və uçot təxminlərindəki dəyişikliklərə tətbiq edilir. Bu tip faktlar açıqlanarsa, düzəlişlərin erkən tətbiqinə icazə verilir.

**Eyni əməliyyatdan yaranan aktiv və öhdəliklərə aid təxirə salınmış vergilər – 12 saylı BMUS-a edilən Düzəlişlər** – 2021-ci ilin may ayında Şura 12 saylı BMUS-a uyğun olaraq ilkin tanınma istisnasının əhatə dairəsini azaldan 12 saylı BMUS-a düzəlişlər etdi, beləliklə, o, vergi bazasını artıran və azaldan bərabər məbləğdə müvəqqəti fərqlərə səbəb olan əməliyyatlara artıq tətbiq edilmir.

Düzəlişlər təqdim edilən ən erkən müqayisəli dövrün əvvəlində və ya ondan sonra baş verən əməliyyatlara tətbiq edilməlidir. Bundan əlavə, təqdim olunan ən erkən müqayisəli dövrün əvvəlində icarə və istismardan çıxarma öhdəlikləri ilə bağlı bütün gəlirdən çıxılan və vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün təxirə salınmış vergi aktivi (kifayət qədər vergi tutulan mənfəətin olması şərtilə) və təxirə salınmış vergi öhdəliyi də tanınmalıdır.

BMUSŞ, satış kimi uçota alınması nəzərdə tutulan 15 saylı MHBS-nin tələblərinə cavab verən satış və geri icarə əməliyyatlarını sonradan satıcı-icarədarın necə ölçməsini aydınlaşdırmaq üçün **“Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi”ni (16 saylı MHBS-yə edilən Düzəlişlər) düzəlişlərlə birgə dərc etmişdir. Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi (16 saylı MHBS-yə edilən Düzəlişlər)** satıcı-icarədardan istifadə hüququnu özündə saxlayan hər hansı gəlir və ya zərər məbləğini tanımamaq üçün geri icarədən irəli gələn icarə öhdəliyini sonradan ölçməsini tələb edir. Yeni tələblər satıcı-icarədarı icarənin qismən və ya tam xitam verilməsi ilə bağlı hər hansı gəlir və ya zərəri mənfəət və ya zərərdə tanınmasını qadağa etmir. Düzəlişlər 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Düzəlişlərin daha erkən tətbiqinə icazə verilir.

Müəssisənin hesabat dövründən sonra on iki ay ərzində riayət etməli olduğu şərtlərin, öhdəliklərin təsnifatına təsirini müəyyən etmək üçün 2022-ci ilin oktyabr ayında BMUSŞ **“Kovenantlar ilə bağlı uzunmüddətli öhdəliklər” (1 saylı BMUS-a edilən Düzəlişlər)** adlı düzəlişi dərc etmişdir. Düzəlişə əsasən öhdəliyin cari və ya uzunmüddətli olaraq təsnifləşdirilməsinə yalnız müəssisənin hesabat tarixində və ya ondan əvvəl riayət etməli olduğu şərtlər təsir edir. Bundan əlavə, müəssisə maliyyə hesabatı üzrə qeydlərdə hesabatın istifadəçilərinə kovenantlar ilə uzunmüddətli öhdəliklərin on iki ay ərzində qaytarıla biləcəyi riskini nəzərdə tutacağı məlumatları açıqlamalıdır. Düzəlişlər 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üzrə qüvvəyə minir.

**“Konsolidasiya olunmuş Maliyyə Hesabatları” adlı 10 saylı MHBS və “İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi” adlı 28 saylı BMUS (düzəlişlər):** 10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidasiya olunmuş əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya olunmuş assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi BMUSŞ tərəfindən hələ müəyyən edilməmişdir, lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

## 6. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ QALIQLAR VƏ ƏMƏLİYYATLAR

Əlaqəli tərəflər “Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması” adlı 24 saylı BMUS-da müəyyən edilmişdir. Ümumiyyətlə tərəflər bir tərəfin digər tərəfi idarə etmək qabiliyyəti varsa, ümumi nəzarət altındadırsa və ya maliyyə və əməliyyat qərarları verərkən digər tərəfə əhəmiyyətli təsir və ya birgə nəzarət edə bilərsə, əlaqəli hesab olunurlar.

Hər bir əlaqəli tərəf ilə bağlı münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin məzmununa yönəldilir. Cəmiyyətin bilavasitə nəzarətçi tərəfi Azərbaycan Respublikası Hökumətinə məxsus olan “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətidir. Cəmiyyət dövlət ilə əlaqəli qurumlar üçün açıqlama tələbi ilə əlaqədar “Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması” adlı 24 saylı BMUS-un 25-ci bəndində qeyd olunmuş güzəştdən istifadə etmişdir. Hesabat təqdim edən müəssisə əlaqəli tərəf əməliyyatları və öhdəliklər də daxil olmaqla, qalıq borclarla əlaqəli “Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması” adlı 24 saylı BMUS-un 18-ci bəndinin açıqlama tələblərindən aşağıdakılar ilə birlikdə azaddır:

(a) hesabat təqdim edən müəssisə nəzarəti və ya birgə nəzarəti və ya üzərində əhəmiyyətli dərəcədə təsiri olan hökumət; və
(b) eyni hökumətin həm təqdim edən müəssisənin, həm də digər təşkilatın nəzarəti və ya birgə nəzarəti və ya üzərində əhəmiyyətli dərəcədə təsiri olduğu üçün əlaqəli tərəf olan başqa bir müəssisə.

Dövlətlə əlaqəli təşkilatlarla əməliyyatlara elektrik enerjisi, qaz, benzin alınması və digər xidmətlərin alınması daxildir. Bundan əlavə, Cəmiyyət əlaqəli tərəflərə borc (12 saylı Qeyd) vermiş və onlardan borc almışdır (17 saylı Qeyd).

31 dekabr 2022 və 2021-ci il tarixlərində başa çatmış illər üzrə rəhbər işçilərin mükafatlandırılmasına, müvafiq olaraq, 78,844 AZN və 101,007 AZN məbləğlərində əmək haqqı, ixtiyari mükafatlar və digər qısamüddətli faydalar daxildir.

## 7. ƏMLAK, TİKİLİ VƏ AVADANLIQLAR

| | Maşın və avadanlıqlar | Binalar və bənzər tikililər | Nəqliyyat vasitələri | Digər | Davam edən tikililər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Şərti dəyər olaraq ədalətli dəyər/ilkin dəyər** | | | | | | |
| **1 yanvar 2021-ci il** | **59,918,561** | **30,222,425** | **16,863,046** | **664,432** | **1,050,143** | **108,718,607** |
| Əlavələr | 209,972 | 497,985 | 87,171 | 154,284 | 2,019,238 | 2,968,650 |
| Ötürülmələr | 1,295,930 | 1,018,721 | - | - | (2,314,651) | - |
| **31 dekabr 2021-ci il** | **61,424,463** | **31,739,131** | **16,950,217** | **818,716** | **754,730** | **111,687,257** |
| Əlavələr | 3,130,766 | - | 2,325,984 | 25,818 | 11,250 | 5,493,818 |
| Ötürülmələr | 754,730 | - | - | - | (754,730) | - |
| **31 dekabr 2022-ci il** | **65,309,959** | **31,739,131** | **19,276,201** | **844,534** | **11,250** | **117,181,075** |
| **Yığılmış köhnəlmə** | | | | | | |
| **1 yanvar 2021-ci il** | **(3,761,931)** | **(1,471,975)** | **(1,401,548)** | **(59,215)** | **-** | **(6,694,669)** |
| İl üzrə köhnəlmə xərcləri | (2,835,103) | (807,272) | (645,131) | (47,889) | - | (4,335,395) |
| **31 dekabr 2021-ci il** | **(6,597,034)** | **(2,279,247)** | **(2,046,679)** | **(107,104)** | **-** | **(11,030,064)** |
| İl üzrə köhnəlmə xərcləri | (2,986,644) | (807,273) | (733,198) | (48,604) | - | (4,575,719) |
| **31 dekabr 2022-ci il** | **(9,583,678)** | **(3,086,520)** | **(2,779,877)** | **(155,708)** | **-** | **(15,605,783)** |
| **Xalis qalıq dəyəri** | | | | | | |
| **31 dekabr 2022-ci il** | **55,726,281** | **28,652,611** | **16,496,324** | **688,826** | **11,250** | **101,575,292** |
| **31 dekabr 2021-ci il** | **54,827,429** | **29,459,884** | **14,903,538** | **711,612** | **754,730** | **100,657,193** |

31 dekabr 2022 və 2021-ci il tarixlərinə əmlak, tikili və avadanlıqlar kateqoriyasına aid, istifadəsinə məhdudiyyət qoyulmuş və ya öhdəliklərin təminatı olaraq girov qoyulmuş hər hansı bir aktiv mövcud olmamışdır.

31 dekabr 2022-ci il tarixinə əmlak, tikili və avadanlıqların kateqoriyaları üzrə maşın və avadanlıqlar və nəqliyyat vasitələrinin balans dəyərinə, əkinçilikdə istifadə ediləcək maşın və nəqliyyat vasitələri ilə əlaqədar, müvafiq olaraq 11,298,679 AZN və 2,480,595 AZN (2021-ci il: 11,817,542 AZN və 2,673,262 AZN) dəyərində istifadə hüququ olan aktivlər daxildir.

## 8. ƏMLAK, TİKİLİ VƏ AVADANLIQLAR ÜZRƏ AVANS ÖDƏNİŞLƏRİ

31 dekabr 2022-ci il tarixinə, əmlak, tikili və avadanlıqlar üzrə avans ödənişləri 594,582 AZN təşkil etmişdir (31 dekabr 2021-ci il: 831,227 AZN). Bu aktivlər maşın və avadanlıqlar kateqoriyası kimi təsnifləşdirilir.

## 9. TƏXİRƏ SALINMIŞ VERGİ AKTİVİ

Cəmiyyət cari mənfəət vergisi borcunu, eləcə də aktiv və öhdəliklər ilə əlaqəli vergi əsaslarını, Cəmiyyətin fəaliyyət göstərdiyi Azərbaycan Respublikasının MHBS-dən fərqli olan qanuni vergi qaydalarına uyğun olaraq ölçür və uçota alır. Cəmiyyət müəyyən xərclərdən vergi çıxılmaması və müəyyən gəlirlərin vergi məqsədləri üçün vergiyə cəlb edilməməsi kimi qəbul edilməsi səbəbindən müəyyən qalıcı vergi fərqlərinə məruz qalır.

Təxirə salınmış vergilər maliyyə hesabatı məqsədləri üçün aktiv və öhdəliklərin balans dəyəri ilə vergi məqsədləri üçün istifadə olunan məbləğlər arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirlərini əks etdirir. 31 dekabr 2022 və 2021-ci il tarixlərinə olan müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınma metodları/müddəti ilə yanaşı, müəyyən aktivlər üçün vergi bazalarının fərqlərindən yaranmış müvəqqəti fərqlər ilə əlaqədardır.

Azərbaycan Respublikasının vergi qanunvericiliyi, xüsusilə, müxtəlif təfsir və dəyişikliklərə səbəb ola bilər. Bundan əlavə, rəhbərliyin vergi qanunvericiliyinin şərhi vergi orqanlarının şərhlərindən fərqli ola bildiyindən, əməliyyatlara vergi orqanları tərəfindən etiraz edilə bilər və nəticədə Cəmiyyətə hazırkı maliyyə hesabatları üçün əhəmiyyətli ola biləcək əlavə vergilər, cərimələr və faizlər hesablana bilər.

31 dekabr 2022 və 2021-ci tarixlərinə müvəqqəti fərqlər aşağıdakı kimidir:

| | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlər** | | |
| Mal-material ehiyatları | 10,155,891 | 6,150,160 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 1,144,452 | - |
| Təxirə salınmış gəlir | 394,891 | - |
| İcarə öhdəlikləri | 3,132,519 | 2,088,408 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 417,953 | 917,799 |
| Təxirə salınmış xərclər | 3,385,974 | 20,944,751 |
| **Cəmi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **18,631,680** | **30,101,118** |
| **Vergi tutulan müvəqqəti fərqlər** | | |
| Əmlak, tikili və avadanlıqlar | (8,334,862) | (16,752,381) |
| Debitor borcları və digər alınacaq vəsaitlər | - | (392,091) |
| Təxirə salınmış gəlir | - | (232,707) |
| **İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | | **(1,808,633)** | **(126,913)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTLƏRİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Təsisçi tərəfindən kapital qoyuluşu | | - | 3,730,000 |
| Təsisçidən alınmış borcun ödənilməsi | | - | (3,438,447) |
| **Maliyyələşdirmə fəaliyyətlərindən yaranan xalis pul vəsaitləri** | | **-** | **291,553** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS (AZALMA)/ARTIM | | (2,240,669) | 3,170,520 |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə*** | 11 | **3,777,247** | **606,727** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna*** | 11 | **1,536,578** | **3,777,247** |

**İdarə Heyəti adından:**

**Səməd Nəbiyev**
**Direktor**

18 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Müzəffər Umarov**
**Baş mühasib**

18 sentyabr 2023-cü il
Bakı, Azərbaycan Respublikası

8-37-ci səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## 1. GİRİŞ

"Azəripək" Məhdud Məsuliyyətli Cəmiyyəti ("Cəmiyyət") 16 aprel 2018-ci il tarixində təsis edilmiş və Azərbaycan Respublikası İqdisadiyyat Nazirliyi tərəfindən 1305481631 saylı vergi eyniləşdirmə nömrəsi ilə məhdud məsuliyyətli cəmiyyət olaraq qeydiyyata alınmışdır.

31 dekabr 2022 və 2021-ci il tarixlərinə Cəmiyyətin səhmdar strukturu aşağıdakı kimidir:

| | **31 dekabr 2022-ci il Mülkiyyət, %** | **31 dekabr 2021-ci il Mülkiyyət, %** |
|---|---|---|
| "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyəti | 100 | 100 |
| **Cəmi** | **100** | **100** |

Cəmiyyətin ən üst nəzarət subyekti Azərbaycan Respublikasının Hökumətidir.

### Cəmiyyətin əsas fəaliyyəti

Cəmiyyətin əsas fəaliyyət istiqamətləri fermerlərdən baramanın yığılması, ipək və ipək məhsullarının emalı, istehsalı və satışı və bu sahənin inkişafı ilə bağlı digər vəzifələrin həyata keçirilməsidir.

### Qeydiyyat ünvanı və fəaliyyət yeri:

Cəmiyyət Azərbaycan Respublikasında təsis edilmişdir. Cəmiyyətin qeydə alınmış hüquqi ünvanı Yasamal rayonu, Tbilisi prospekti, mənzil 35, Bakı, Azərbaycan Respublikasıdır. Cəmiyyətin əsas fəaliyyət yeri Şəki şəhəri, Azərbaycan Respublikasıdır.

### Cəmiyyətin əməliyyat mühiti

Cəmiyyətin fəaliyyəti Azərbaycan Respublikasında həyata keçirilir. Cəmiyyət inkişaf etməkdə olan bazarın xüsusiyyətlərini əks etdirən Azərbaycanın iqtisadi və maliyyə bazarları ilə qarşılıqlı fəaliyyət göstərir. Hüquq, vergi və tənzimləyici strukturlar daimi inkişafdadır, bununla belə mütəmadi olaraq yeni şərhlərə, dəyişikliklərə məruz qalırlar, bu isə öz növbəsində digər hüquqi və maliyyə çətinlikləri ilə birlikdə Azərbaycanda fəaliyyət göstərən müəssisələrin üzləşdiyi problemləri daha da gücləndirir.

Azərbaycan iqtisadiyyatı həmçinin beynəlxalq enerji qiymətləri səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Xam neftin qiyməti ilin birinci yarısında təchizat ilə bağlı çətinliklər səbəbindən artmış, lakin ilin ikinci yarısından etibarən mümkün iqtisadi tənəzzüllə bağlı çətinliklər tələbi azaltdığından neft qiymətləri ümumilikdə azalmışdır. "Brent" markalı neftin spot qiyməti 2022-ci ildə 1 barel üçün orta hesabla 100 ABŞ dolları təşkil etmişdir. Yüksək neft qiymətləri ölkənin iqtisadi inkişafını dəstəkləmişdir.

2015-2016-cı illərdə Azərbaycan manatının dəyərdən düşməsi biznes mühitində ciddi qeyri-müəyyənliklərə səbəb olmuşdur. Bu səbəbdən hökumət son 5 ildə sabit məzənnəni qorumaq üçün bütün lazımi tədbirləri həyata keçirmişdir. Nəticədə, neftin dünya bazarındakı qeyri-sabit qiyməti yerli valyutaya təsir göstərməmiş, eləcə də biznes mühitində qeyri-müəyyənlik artmamışdır. COVİD-19 koronavirus pandemiyası 2020-ci ildə müəssisələrə əhəmiyyətli dərəcədə təsir göstərmişdir, lakin hökumətin uğurlu peyvənd kampaniyasından sonra müəssisələrin əksəriyyəti 2021-ci ildə və 2022-ci ilin birinci yarısında davamlı olaraq öz normal fəaliyyətinə qayıtmışdır. Qarabağ regionunda atəşkəs razılaşmasının davam etməsi biznes mühitinə də müsbət təsir göstərir, çünki investisiyaların cəlb edilməsi və işğaldan azad edilmiş ərazilərin inkişafı üçün hökumət tərəfindən həyata keçirilən bir sıra layihələr mövcuddur.

2022-ci il üzrə ÜDM 2021-ci illə müqayisədə 4.6% artaraq 133.8 milyard AZN məbləğinə (78.7 milyard ABŞ dolları) çatmışdır. Dövlət Gömrük Komitəsinin statistikasına əsasən 2022-ci il ərzində Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi təqribən 52.69 milyard ABŞ dollarına çatmışdır. Bu məbləğin 38.15 milyard ABŞ dolları ixrac olunan məhsulların, 14.54 milyard ABŞ dolları isə idxal olunan məhsulların payına düşmüşdür.

Beynəlxalq kredit reytinq agentlikləri mütəmadi olaraq Azərbaycan Respublikasının kredit reytinqini qiymətləndirirlər. "Fitch" və "S&P" Azərbaycan Respublikasının reytinqini "BB+" olaraq qiymətləndirmişdir. "Moody's Investors Service", ölkə üçün "Ba1" kredit reytinqini təyin etmişdir.

## 2. ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTİNİN XÜLASƏSİ

### Təqdimatın əsasları

Hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi ("MHBSŞK") tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

### Fasiləsizlik prinsipi

Hazırkı maliyyə hesabatları Cəmiyyətin fasiləsizlik prinsipi əsasında yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik hesab edir ki, Cəmiyyət yaxın gələcəkdə fəaliyyətini davam etdirəcək və Cəmiyyətin ləğvinə nə istək, nə də ehtiyac olacaq, eləcə də fəaliyyəti dayandırmaq və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlardan qorunmaq üçün müdafiə axtarmaq üzrə nə niyyət, nə də zərurət mövcuddur.

Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyət gedişində Cəmiyyətin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olması fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Cəmiyyətin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Rəhbərliyin fasiləsizlik prinsipi üzrə ehtimalının qiymətləndirməsi müəyyən bir müddətdə hadisələrin və ya şərtlərin gələcək inkişafı ilə əlaqədar subyektiv qərarların qəbul edilməsini nəzərdə tutur.

### Cari və uzunmüddətli təsnifləşdirmələr

Cəmiyyət aktiv və öhdəlikləri cari/uzunmüddətli təsnifləşdirmələr əsasında maliyyə hesabatlarında təqdim edir. Aktiv aşağıdakı hallarda cari aktiv sayılır:

- Adi əməliyyat dövründə satılması və ya istehlak edilməsi nəzərdə tutulduqda və ya satılması ehtimal edildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı 12 ay ərzində satılması ehtimal edildikdə; və ya
- Pul vəsaitləri və onların ekvivalentlərinin hesabat tarixindən sonra ən azı on iki ay müddətində mübadilə edilməsi və ya öhdəliyin ödənilməsi üzrə istifadə edilməsi məhdudlaşdırılmadıqda.

Digər bütün aktivlər uzunmüddətli aktivlər sayılır.

Öhdəlik aşağıdakı hallarda cari öhdəlik sayılır:

- Adi əməliyyat dövrü ərzində ödənilməsi gözlənildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı 12 ay ərzində ödənilməsi ehtimal edildikdə; və ya
- Hesabat dövründən sonra ən azı on iki ay müddətində öhdəliyin ödənilməsini təxirə salmaq üzrə qeyri-şərtsiz hüquq mövcud olmadıqda.

Cəmiyyət bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər olaraq təsnif edir. Təxirə salınmış vergi aktiv və öhdəlikləri uzunmüddətli aktiv və öhdəliklər kimi təsnif edilir.

**Təqdimatın digər əsasları**

Hazırkı maliyyə hesabatları, başqa cür qeyd edilmədiyi hallarda, Azərbaycan Manatı ("AZN") ilə ifadə edilir.

Maliyyə hesabatları şərti dəyər kimi ədalətli dəyərdə qeydə alınan əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər istisna olmaqla tarixi dəyər əsasında tərtib edilmişdir.

Cəmiyyət mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Hazırkı maliyyə hesabatlarını hazırlayarkən yerli mühasibat prinsiplərinə uyğun tərtib edilmiş mühasibat sistemindən istifadə edilmiş və MHBS-yə uyğunlaşdırılmaq məqsədilə hesabatlara düzəlişlər edilmişdir. Bu düzəlişlərə əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək üçün müəyyən təsnifləşdirilmələr, həmçinin müəyyən aktiv və öhdəliklərin, eləcə də gəlir və xərclərin maliyyə hesabatlarındakı maddələrə uyğunlaşdırılması məqsədilə edilən yenidən təsnifləşdirilmələr aiddir.

**Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər**

Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər peşəkar müstəqil qiymətləndiricilərin apardığı qiymətləndirmə ilə bazara əsaslanan sübutlardan formalaşmış yenidən qiymətləndirmə tarixindəki ədalətli dəyərdən sonradan yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla, maliyyə hesabatlarında şərti dəyər olaraq ədalətli dəyərdə qeydə alınır.

Faydalı istifadə müddəti üzrə təxminləri, qalıq dəyərləri və köhnəlmə metodları hər bir hesabat tarixinin sonunda yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv əsasda tətbiq edilir.

Cəmiyyət hər bir hesabat tarixinin sonunda əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlərinin balans dəyərlərinin dəyərsizləşməsinə dair ehtimalın olmasını qiymətləndirir. Əgər hər hansı belə ehtimal mövcuddursa dəyərsizləşmə zərərinin (əgər varsa) dərəcəsini müəyyən etmək üçün aktivin bərpa edilə bilən məbləği təxmin edilir. Fərdi aktivin bərpa edilə bilən məbləğini qiymətləndirmək mümkün olmadıqda, Cəmiyyət aktivin aid olduğu pul vəsaitlərini yaradan vahidin bərpa edilə bilən məbləğini təxmin edir.

Əgər aktivin (və ya nağd pul yaradan vahidin) bərpa edilə bilən məbləği onun balans dəyərindən azdırsa, aktivin (və ya nağd pul yaradan vahidin) balans dəyəri onun bərpa edilə bilən məbləğinə qədər azaldılmalıdır. Müvafiq aktiv yenidən qiymətləndirilmiş dəyərlə qeydə alınmazsa, dəyərsizləşmə zərəri dərhal mənfəət və zərər hesablarında tanınır və bu halda dəyərsizləşmə zərəri yenidən qiymətləndirmənin azalması kimi nəzərə alınır.

Dəyərsizləşmə zərəri daha sonrakı dövrdə geri qaytarıldıqda, aktivin (və ya nağd pul yaradan vahidin) balans dəyəri onun bərpa edilə bilən məbləğinə qədər qaldırılmalıdır, lakin dəyərsizləşmə zərərinin ləğvi ilə əlaqəli olan aktivin (və ya nağd pul yaradan vahidin) artmış balans dəyəri əvvəlki illərdə həmin aktiv (və ya nağd pul yaradan vahid) üçün heç bir dəyərsizləşmə zərərinin tanınmış olmadığı müəyyən edilmiş balans dəyərindən yuxarı olmamalıdır. Müvafiq aktiv yenidən qiymətləndirilmiş dəyərlə qeydə alınmazsa, dəyərsizləşmə zərərinin ləğvi dərhal mənfəət və zərər hesablarında tanınır, bu halda dəyərsizləşmə zərərinin bərpası yenidən qiymətləndirmə artımı kimi nəzərə alınır.

Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər hesabdan silindikdə və ya onların davamlı istifadəsi artıq iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Əmlak, tikili və avadanlıq vasitələrinin satılaraq hesabdan silinməsi və ya istismardan çıxarılmasından irəli gələn hər hansı gəlir və ya zərər belə aktivlərin balans dəyəri ilə satışdan əldə olunmuş gəlirlər arasında fərq kimi müəyyən edilir və mənfəət və ya zərər hesabında tanınır.

Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər, bir qayda olaraq, aşağıdakı kimi təxmin edilən faydalı istifadə müddəti ərzində düz xətt metodu əsasında amortizasiya edilir. Torpaq amortizasiya olunmur:

| | |
|---|---|
| Binalar və bənzər tikililər | 5-50 il |
| Maşın və avadanlıqlar | 5-15 il |
| Nəqliyyat vasitələri | 5-10 il |
| Digər | 5-20 il |
| Qeyri-maddi aktivlər | qeyri-müəyyən |

Aktivin qalıq dəyəri dedikdə, aktivin artıq istifadə edilmiş olması və istifadə müddətinin sonunda olacağı vəziyyətində olması fərziyyəsi ilə, satışın təxmini xərcləri çıxılmaqla şirkətin həmin aktivin satışından əldə edə biləcəyi vəsaitlərin məbləği nəzərdə tutulur.

Aktivin qalıq dəyəri aktivin balans dəyərinə bərabər və ya daha çox ola bilər. Belə olduğu halda, qalıq dəyəri sonradan aktivin balans dəyərinin altına düşənə qədər aktivin amortizasiya haqqı sıfırdır.

**Mal-material ehtiyatları**

Mal-material ehtiyatları maya dəyəri və ya xalis satış dəyərinin ən aşağı səviyyəsində uçota alınır. Mal-material ehtiyatlarının dəyəri orta çəkili dəyər prinsipinə əsaslanır və ehtiyatların əldə edilməsinə çəkilən xərcləri, eləcə də istehsal və ya emal xərclərini və bu aktivləri mövcud yerlərinə və vəziyyətinə gətirmək üçün çəkilən digər xərcləri əhatə edir. İstehsal edilmiş ehtiyatlar və tamamlanmamış istehsala münasibətdə isə maya dəyəri adi iş qabiliyyətinə əsaslanan istehsal xərclərinin müvafiq hissəsini əhatə edir.

Xalis satış dəyəri, təxmini tamamlama və satış xərcləri çıxılmaqla, adi iş müddətində ehtimal olunan satış qiymətidir.

**Maliyyə alətləri**

Cəmiyyət maliyyə aləti üzrə müqavilə tərəflərindən biri olduqda, maliyyə alətləri və maliyyə öhdəlikləri onun maliyyə hesabatlarında tanınır. Maliyyə aktivləri və öhdəlikləri, ilkin olaraq, ədalətli dəyərlə ölçülür.

Maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin alınması və ya yaranması ilə birbaşa əlaqəli olan əməliyyat xərcləri (mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülən maliyyə aktivləri və maliyyə öhdəliklərindən başqa) əlavə edilir və ya ilkin tanınmada maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin ədalətli dəyərinə müvafiq olaraq əlavə edilir və ya maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin ədalətli dəyərindən müvafiq olaraq çıxılır. Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə tanınan maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin alınmasına birbaşa aid olan əməliyyat xərcləri dərhal mənfəət və ya zərərdə tanınır.

**Maliyyə aktivləri**

Maliyyə aktivlərinin müntəzəm şəkildə satın alınması və ya satılması satış tarixi əsasında tanınır və ya xitam verilir. Bütün tanınmış maliyyə aktivləri sonradan, maliyyə aktivlərinin təsnifatına əsasən, amortizasiya edilmiş dəyərdə və ya ədalətli dəyərdə bütünlüklə ölçülür.

*Maliyyə aktivlərinin təsnifatı*

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan amortizasiya olunmuş dəyərlə ölçülür:

- maliyyə aktivi müqavilə ilə pul vəsaitlərini toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli daxilində saxlanılır; və
- maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülür (DMGVƏD):

- maliyyə aktivi həm müqavilə üzrə pul vəsaitlərini toplamaq, həm də maliyyə aktivlərini satmaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Adətən, bütün digər maliyyə aktivləri sonradan mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülür (MZVƏD).

Yuxarıda göstərilənlərə baxmayaraq, Cəmiyyət maliyyə aktivinin ilkin tanınmasında aşağıdakı qəti seçimi/təyinatı həyata keçirə bilər:

- müəyyən meyarlar qarşılanmadıqda, Cəmiyyət kapital investisiyası üzrə müvafiq ədalətli dəyərdə dəyişikliyin digər məcmu gəlirdə təqdimatı üçün qəti tədbirlər həyata keçirə bilər; və
- Cəmiyyət uçot sistemində uyğunsuzluğu aradan qaldırmaq və ya əhəmiyyətli dərəcədə azaltmaq məqsədilə, amortizasiya edilmiş maya dəyərində və ya DMGVƏD ölçülmə meyarlarına cavab verən borc investisiyasını əks keçid etməmək şərtilə MZVƏD-də təyin edə bilər.

*Amortizasiya olunmuş dəyər və effektiv faiz dərəcəsi metodu*

Effektiv faiz dərəcəsi metodu borc alətinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəlirinin müvafiq dövr üzrə bölgüsü üsuludur. Satın alınmış və ya əldə edilmiş kredit zərərinə məruz qalmış maliyyə aktivlərindən (yəni ilkin tanınma zamanı dəyərsizləşmiş aktivlər) başqa maliyyə aktivləri üzrə effektiv faiz dərəcəsi, ehtimal edilən kredit zərərləri istisna olmaqla borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsini təşkil edən ödənilmiş, yaxud alınmış bütün haqlar, ödənişlər, əməliyyat xərcləri və ya mükafatlar) ilkin tanınma anında ümumi balans dəyərinədək diskontlaşdıran dəqiq dərəcədir.

Satın alınmış və ya əldə edilmiş kredit dəyərsizləşməsi üzrə maliyyə aktivləri üçün, kreditlə tənzimlənən effektiv faiz dərəcəsi, gözlənilən gələcək pul vəsaitlərinin hərəkətini, ehtimal olunan kredit zərərləri daxil olmaqla, ilkin tanınma zamanı borc alətinin amortizasiya olunmuş dəyərinə diskontlaşdırılmaqla hesablanır.

Maliyyə aktivinin amortizasiya olunmuş dəyəri ilkin tanımada maliyyə aktivinin əsas ödəniş çıxılmaqla, hər hansı zərər üzrə düzəliş edilməklə həmin ilkin dəyər ilə ümumi dəyər arasındakı fərq üzrə effektiv faiz dərəcəsini istifadə etməklə məcmu amortizasiya əlavə olunmaqla, maliyyə aktivinin ölçüldüyü dəyərdir. Maliyyə aktivinin ümumi balans dəyəri hər hansı bir zərər öhdəliyinə düzəliş edilməzdən əvvəl maliyyə aktivinin amortizasiya olunmuş dəyəri hesab olunur.

Faiz gəliri daha sonra amortizasiya edilmiş dəyərdə və DMGVƏD ilə qiymətləndirilən borc alətlərinin effektiv faiz metodundan istifadə edilməklə tanınır. Satın alınmış və ya əldə edilmiş kredit dəyərsizləşməsi üzrə yaranmış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivləri üçün, faiz gəliri sonradan kredit dəyərsizləşməsinə məruz qalmış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivinin ümumi balans dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır. Sonradan kredit dəyərsizləşməsinə məruz qalmış maliyyə aktivləri üçün faiz gəlirləri effektiv faiz dərəcəsini maliyyə aktivinin amortizasiya olunmuş dəyərinə tətbiq etməklə tanınır. Əgər sonrakı hesabat dövrlərində kredit dəyərsizləşməsinə məruz qalmış maliyyə aləti üzrə kredit riski maliyyə aktivinin artıq kredit dəyərsizləşməsinə məruz qalmamasına səbəb olursa, faiz gəlirləri effektiv faiz dərəcəsini maliyyə aktivinin ümumi balans dəyərinə tətbiq etməklə tanınır.

Cəmiyyətin maliyyə aktivlərinin əksəriyyəti daha sonra amortizasiya edilmiş dəyərlə ölçülmüş maliyyə aktivləri kimi təsnif edilmişdir. Cəmiyyətin maliyyə öhdəlikləri daha sonra amortizasiya olunmuş dəyərlə ölçülmüş maliyyə öhdəlikləri kimi təsnif edilmişdir. Cəmiyyət mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə ölçülmüş hər hansı maliyyə öhdəliklərinin təsnifatını seçmir.

*Maliyyə aktivlərinin dəyərsizləşməsi*

Cəmiyyət ehtimal olunan kredit zərəri modelini amortizasiya edilmiş dəyərlə və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülmüş maliyyə aktivlərinə tətbiq edir.

İlkin tanınmadan sonra maliyyə aktivi üzrə kredit riski əhəmiyyətli dərəcədə artdıqda, bu maliyyə aktivi üçün ehtimal olunan kredit zərəri üzrə ehtiyat ömürlük ehtimal olunan kredit zərərinə bərabər dəyərdə ölçülür.

Əgər hesabat tarixində maliyyə aktivi üzrə kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmamışdırsa, bu maliyyə aktivi üçün ehtimal edilən kredit zərəri üzrə ehtiyat (sadələşdirilmiş yanaşmanın seçildiyi debitor borcları istisna olmaqla) 12 aylıq ehtimal edilən kredit zərərlərinə bərabər dəyərdə ölçülür. Debitor borcları və alınacaq digər vəsaitlər üçün əhəmiyyətli bir maliyyələşdirmə komponentinin olub-olmamasından asılı olmayaraq, ömürlük ehtimal olunan kredit zərəri əsasında ölçmə tətbiq olunur.

Cəmiyyət ehtimal olunan kredit zərərini qiymətləndirmək üçün daxili modeldən istifadə edir. Model 9 saylı MHBS-yə uyğun olaraq tərtib edilmiş və qarşı tərəflərin kredit risklərinin qiymətləndirilməsi üçün maliyyə sisteminin xüsusiyyətlərini nəzərə alaraq, qarşı tərəflərə hesab sistemini təyin etməklə hazırlanmışdır. Təyin edilmiş bal (reytinq) fərdi şəkildə hesablanmış Defolt Ehtimalıdır (DE). Aktivin bir bal qrupundan daha aşağı bal qrupuna keçməsi digər meyarlar arasında kredit riskinin əhəmiyyətli dərəcədə artması hesab olunur.

**Ədalətli dəyərin ölçülməsi**

Ədalətli dəyər ölçülmə tarixində bazar iştirakçıları arasında intizamlı əməliyyatda aktivi satmaq üçün qəbul edilmiş və ya öhdəliyi ötürmək üçün ödəniləcək qiymətdir. Ədalətli dəyərin ölçülməsinə əsasən, aktivin satılması və ya öhdəliyin ötürülməsi üzrə əməliyyat:

- aktiv və ya öhdəlik üçün əsas bazarda; və ya
- əsas bazarın yoxluğu şəraitində aktiv və ya öhdəlik üçün ən əlverişli bazarda baş verir.

Əsas bazar və ya ən əlverişli bazar Cəmiyyət tərəfindən əlçatan olmalıdır. Aktiv və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçılarının öz iqtisadi maraqlarına uyğun hərəkət etdiklərini nəzərə alaraq aktiv və ya öhdəliklərin ədalətli dəyərini müəyyənləşdirərkən bazar iştirakçılarının aktiv və ya öhdəliyin ölçülməsində istifadə etdikləri mülahizələrdən istifadə edilir. Qeyri-maliyyə aktivlərinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının aktivin ən çox və ən yaxşı istifadə tətbiqindən yararlanmaqla ondan istifadə etmək və ya başqa bazar iştirakçısına satmaq yolu ilə iqtisadi mənfəəti artırmaq bacarığı nəzərə alınır.

Cəmiyyət həmin şəraitdə müvafiq olan və ədalətli dəyərin ölçülməsi üçün mövcud olan məlumatlar üzrə müvafiq müşahidə edilən gəlirlərin istifadəsini artıran və müşahidə edilə bilməyən gəlirlərin istifadəsini azaldan qiymətləndirmə üsullarından istifadə edir.

Ədalətli dəyəri ölçülən və maliyyə hesabatında açıqlanmış bütün aktiv və öhdəliklər aşağıda təsvir edilmiş və bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün mühüm olan ən aşağı səviyyədə məlumatlara əsaslanmış ədalətli dəyər iyerarxiyasında təsnifləşdirilir:

- 1-ci Səviyyə – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- 2-ci Səviyyə – ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli məlumatın birbaşa və ya dolayısı ilə müşahidə edilə biləcəyi qiymətləndirmə üsulları;
- 3-cü Səviyyə – ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli məlumatın müşahidə oluna bilmədiyi qiymətləndirmə üsulları.

Maliyyə hesabatında dövrü əsasda tanınmış aktivlər və öhdəliklər üzrə Cəmiyyət hər hesabat dövrünün sonunda yenidən təyin edilmiş təsnifatla (bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün zəruri olan ən aşağı səviyyəli məlumata əsaslanmış) iyerarxiyada səviyyələr arasında köçürmələrin olub-olmamasını müəyyən edir.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Cəmiyyət yalnız aktiv üzrə pul daxil olmaları ilə bağlı müqavilə hüquqlarının vaxtı bitdikdə, yaxud maliyyə aktivini və aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün risk və imtiyazları əsas etibarilə digər müəssisəyə ötürdükdə maliyyə aktivinin tanınmasını dayandırır.

**Maliyyə öhdəlikləri və kapital**

*Borc və ya kapital aləti olaraq təsnifləşdirmə*

Borc və kapital alətləri müqavilə razılaşmalarının məzmununa və maliyyə öhdəliyi ilə kapital alətinin təriflərinə uyğun olaraq ya maliyyə öhdəliyi, ya da kapital kimi təsnif edilir.

*Kapital alətləri*

Kapital aləti müəssisənin bütün öhdəlikləri çıxıldıqdan sonra qalan aktivlərində hər hansı bir pay əldə etmək hüququ verən istənilən bir müqavilədir. Cəmiyyət tərəfindən buraxılan kapital alətləri birbaşa buraxılma xərcləri çıxılmaqla əldə edilən vəsaitlərin cəmi məbləğində tanınır.

Cəmiyyətin öz kapital alətlərini satın alması, kapital bölümündə tanınır və çıxılır. Cəmiyyətin öz kapital alətlərini satın alması, satması, buraxması və ya ləğv etməsi ilə bağlı yaranmış mənfəət və zərər məbləğləri mənfəət və zərər hesablarında tanınmamalıdır.

*Maliyyə öhdəlikləri*

Bütün maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə və ya MZVƏD ilə ölçülür.

Maliyyə öhdəlikləri (i) biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olduqda, (ii) ticarət və ya (iii) MZVƏD üçün nəzərdə tutlduğu halda MZVƏD üzrə təsnif edilir.

(i) Biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olmayan, (ii) ticarət və ya (iii) MZVƏD üzrə təsnif edilməyən maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə edərək amortizasiya olunmuş dəyərdə ölçülür. Effektiv faiz metodu maliyyə öhdəliyinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz xərcinin müvafiq dövr üzrə bölüşdürülməsi üsuludur.

Effektiv faiz dərəcəsi borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsini təşkil edən məntəqələrdə ödənilmiş, yaxud alınmış bütün haqqlar, əməliyyat xərcləri və digər mükafat yaxud endirimlər) ilkin tanınma anında xalis balans məbləğinədək dəqiqliklə diskontlaşdıran dərəcədir.

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Cəmiyyət maliyyə öhdəliyini maliyyə hesabatlarından (və ya maliyyə öhdəliyinin bir hissəsini) yalnız bu öhdəlik ləğv edildiyi halda, məsələn müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə və ya ləğv olunduqda və ya müddəti başa çatdığı zaman çıxarır.

Əsaslı şərtlərlə borc alətləri üzrə mövcud debitor və kreditor arasında mübadilə aparılması halları ilkin maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi nəzərə alınır. Eynilə, mövcud maliyyə öhdəliyinin və ya onun bir hissəsinin (debitorun maliyyə çətinlikləri ilə əlaqəli olmasından asılı olmayaraq) şərtlərinin əhəmiyyətli şəkildə dəyişdirilməsi, ilkin maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi tanınır.

Yeni yaradılmış maliyyə öhdəliyinin şərtlərinə əsasən, o cümlədən alınmış hər hansı haqlar üzrə nağd ödənilmiş haqlar və ilkin effektiv faiz dərəcəsi ilə diskontlaşdırılmış ödənişlər də daxil olmaqla, pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyəri, ilkin maliyyə öhdəliyi üzrə qalan pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyərindən ən azı 10 faiz fərqləndikdə, yeni müddəaların əhəmiyyətli dərəcədə fərqli olması hesab edilir. Borc alətlərinin mübadiləsi və ya şərtlərin dəyişdirilməsi öhdəliyin ləğvi olaraq nəzərə alınırsa, çəkilmiş xərclər və ya haqlar ləğvetmə üzrə gəlir və ya zərərin bir hissəsi kimi tanınır. Mübadilə və ya dəyişdirmə öhdəliyin ləğvi olaraq nəzərə alınmırsa, hər hansı xərclər və ya haqlar öhdəliyin balans dəyərində düzəliş olaraq tanınır və dəyişdirilmiş öhdəliyin qalan müddəti ərzində amortizasiya olunur.

**Maliyyə alətlərinin əvəzləşdirilməsi**

Maliyyə aktivləri və öhdəlikləri yalnız Cəmiyyətin aktiv və öhdəliklərin əvəzləşdirilməsi üçün müəyyən edilmiş hüququ olduqda, eləcə də Cəmiyyətin müqavilə üzrə əvəzləşdirməni aparmaq və eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda əvəzləşdirilə bilər.

**Əlaqəli tərəfdən alınacaq vəsait**

Əlaqəli tərəfdən alınacaq vəsait effektiv faiz dərəcəsi üsulundan istifadə etməklə amortizasiya dəyərində uçota alınır. Ehtimal olunan zərərlər üzrə ehtiyat, Cəmiyyətin əlaqəli tərəfdən alınacaq vəsaitin ilkin şərtlərinə uyğun olaraq alınacaq bütün vəsaiti ala bilməyəcəyinə dair obyektiv sübutlar olduqda müəyyən edilir.

**Debitor borcları**

Debitor borclar effektiv faiz dərəcəsi üsulundan istifadə etməklə amortizasiya dəyərində uçota alınır. Cəmiyyət debitor borcları üçün ehtimal olunan kredit zərərlərini hesablamaq üçün ehtiyat cədvəlindən istifadə edir.

Ehtiyat dərəcələri oxşar zərər modellərinə malik olan müxtəlif müştəri seqmentləri üzrə (yəni, coğrafi, məhsul növü, müştəri növü və reytinqi, akkreditiv və kredit sığortasının digər növləri üzrə) qruplarda vaxtı keçmiş günlərə əsaslanır.

Ehtiyat cədvəli ilkin olaraq Cəmiyyətin tarixən müşahidə olunmuş defolt dərəcələrinə əsaslanır. Cəmiyyət tarixi kredit zərəri təcrübəsini perspektiv məlumatlarla uyğunlaşdırmaq üçün cədvələ düzəlişlər edir. Məsələn, əgər istehsal sektorunda defolt sayının artmasına gətirib çıxaran proqnozlaşdırılan iqtisadi şərtlər (yəni, ümumi daxili məhsul) gələn il ərzində pisləşəcəkdirsə, bu zaman tarixi defolt dərəcələrinə düzəliş edilir. Hər bir hesabat tarixində tarixi müşahidə olunmuş defolt dərəcələri yenilənir və gələcək perspektiv ehtimallar təhlil edilir. Tətbiq olunduğu hallarda Cəmiyyət qarşı tərəflərin xarici dərəcələrindən əldə edilmiş defolt dərəcələrinə əsaslanır.

Tarixi müşahidə olunmuş defolt dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və ehtimal olunan kredit zərəri arasında korrelyasiyanın qiymətləndirilməsi əhəmiyyətli dərəcədə təxminlərdən ibarətdir. Ehtimal olunan kredit zərərinin məbləği şəraitdə və proqnozlaşdırılan iqtisadi şərtlərdə dəyişikliklərə həssasdır.

Cəmiyyətin tarixi kredit zərəri üzrə təcrübəsi və iqtisadi şəraitin proqnozu da gələcəkdə müştərinin faktiki defolt vəziyyətini tam şəkildə əks etdirə bilməz.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə kassada olan pul vəsaitləri və banklarda saxlanılan depozitlər daxildir. Pul vəsaitləri və onların ekvivalentləri AD-də uçota alınır, çünki (i) onlar müqavilə üzrə pul vəsaitləri hərəkətinin yığılması üçün saxlanılır və həmin pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təmsil edir və (ii) MZVƏD-də təyin olunmur. Müəyyən ölkələrdə təminat qanunvericiliyi kimi yalnız qanunvericiliklə nəzərdə tutulmuş xüsusiyyətlər, qanunvericilik sonradan dəyişdirilsə belə, bu xüsusiyyətin tətbiq olunacağı müqavilə şərtlərinə daxil edilmədiyi halda, YƏMFÖ testinə təsir göstərmir.

**Təchizatçılara verilmiş avanslar**

Təchizatçılara verilmiş avanslar dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla ilkin dəyərlə tanınır. Avans ödənişləri ilə bağlı mal və ya xidmətlərin bir ildən sonra əldə ediləcəyi ehtimal olunduqda və ya ilkin tanınma zamanı aktivlə bağlı avans ödənişləri uzunmüddətli aktiv olaraq təsnif edildikdə hesabat tarixində bu avans ödənişləri uzunmüddətli aktiv olaraq təsnif edilir.

Aktivlərin əldə olunması üçün ödənilmiş avanslar Cəmiyyət aktivin nəzarətini ələ keçirdikdən sonra aktivin balans dəyərinə köçürülür və aktivlə bağlı gələcək iqtisadi səmərələrin Cəmiyyətə daxil olacağı ehtimal olunur. Avans ödənişlərinə aid olan mal və ya xidmətlər əldə olunan zaman digər əməliyyatlar üzrə avans ödənişləri mənfəət və zərər hesablarına silinir. Avans ödənişləri ilə bağlı aktivlər mal və ya xidmətlərin əldə olunmadığına dair göstərici olduqda, avans ödənişlərinin balans dəyəri müvafiq olaraq silinir və müvafiq dəyərsizləşmə zərəri mənfəət və zərər hesablarında qeydə alınır.

***Ehtiyatlar***

Ehtiyatlar Cəmiyyətin keçmişdə baş vermiş hadisənin nəticəsi olaraq hazırda öhdəliyi (hüquqi yaxud konstruktiv) olduqda tanınır; bu zaman Cəmiyyətdən öhdəliyin yerinə yetirilməsinin tələb olunacağı ehtimal edilir və öhdəlik məbləği etibarlı şəkildə hesablana bilir.

Ehtiyat kimi tanınan məbləğ öhdəliklə bağlı risk və qeyri-müəyyənlikləri nəzərə almaqla hesabat dövrünün sonunda cari öhdəliyin yerinə yetirilməsi ilə əlaqədar tələb olunan məbləğlərin ən düzgün şəkildə hesablanmasıdır.

Ehtiyat hazırkı öhdəliyin yerinə yetirilməsi üçün hesablanmış pul vəsaitlərinə istinad etməklə ölçülərsə, onun balans dəyəri (pulun zaman dəyərinin təsiri əhəmiyyətli olduqda) həmin pul vəsaitlərinin cari dəyərinə bərabər olur.

Ehtiyatların ödənilməsi üçün tələb olunan iqtisadi faydaların bir hissəsinin və ya hamısının üçüncü tərəfdən geri alınması gözlənildikdə, kompensasiyanın alınacağına faktiki olaraq əmin olduqda və debitor borcunun məbləği etibarlı şəkildə ölçülə bildikdə, debitor borc aktiv kimi tanınır.

**ƏDV depozit hesabı**

Əlavə Dəyər Vergisi ("ƏDV") depozit hesabı sistemi Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən ƏDV ilə bağlı neqativ halların qarşısını almaq məqsədilə 2008-ci ildən tətbiq olunan sistemdir. 1 yanvar 2008-ci il tarixindən Vergilər Məcəlləsinə edilmiş düzəlişlərə əsasən, ƏDV ödənişinin məbləği təqdim olunmuş ƏDV hesab-fakturalarına uyğun olaraq vergi ödəyicisinin ƏDV depozit hesabında aparılan əməliyyatlar çərçivəsində bu hesaba ödənilmiş olduğu vergi məbləğidir.

Bu modulun köməkliyi ilə, vergi ödəyicisi ƏDV hesab-fakturasında qeyd olunmuş ƏDV məbləğini digər vergi ödəyicisinin ƏDV depozit hesabına ödəyir. Eyni zamanda Dövlət büdcəsi qarşısında bütün növ vergi öhdəlikləri və gömrük komitəsinə ödənilməli olan idxal əməliyyatları ilə bağlı ƏDV məbləğləri vergi ödəyicisi tərəfindən ƏDV depozit hesabı vasitəsilə ödənilə bilər. Ödənilmiş məbləğlər barəsində məlumat vergi orqanı tərəfindən Baş Dövlət Xəzinədarlığına və daha sonra Azərbaycan Respublikası Mərkəzi Bankına ("ARMB") ötürülür. Mərkəzi Bank Baş Dövlət Xəzinədarlığı ("BDX") tərəfindən təqdim olunmuş məlumat əsasında məbləğlərin müvafiq yerli xəzinədarlıq orqanlarına köçürülməsini təmin edir. Vergilər Nazirliyi təqdim olunmuş məlumatda qeyd edilən məbləğlərin vergi ödəyicisinin şəxsi faylına daxil edilməsini təmin edir. Cari sistem Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi Məlumatı Sisteminə qoşulmuşdur. Eyni zamanda BDX-də və ARMB-də elektron məlumat mübadiləsi təşkil olunmuşdur.

ƏDV depozit hesabının tətbiqi ödənişlərə və qaytarılan ƏDV məbləğlərinə vaxtlı-vaxtında nəzarət etmək imkanı verir. Vergi borcları olan vergi ödəyiciləri bu məbləğləri yalnız Dövlət Büdcəsinə köçürə bilər. Vergi ödəyiciləri banklara getmədən dövlət büdcəsinə, digər vergi ödəyicilərinin ƏDV depozit hesabına və gömrük komitəsinə depozit hesabı vasitəsilə ödəniş edə bilərlər. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti xüsusi proqram təminatından istifadə etməklə depozit hesabıyla aparılan bütün əməliyyatlara avtomatik şəkildə nəzarət edir.

ƏDV depozit hesabındakı vəsaitlərdən istifadə məhdudlaşdırılmışdır və yalnız ƏDV və digər müvafiq vergilərlə bağlı əməliyyatlar üçün istifadə edilə bilər.

**Kreditor borcları və digər ödəniləcək vəsaitlər**

Kreditor borcları və digər ödəniləcək vəsaitlər qarşı tərəf müqavilədə nəzərdə tutulmuş öhdəliklərini icra etdiyi zaman tanınır və effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərdə uçota alınır.

**Alınmış avanslar**

Müştərilərdən alınmış avanslar, ilkin olaraq, öhdəlik kimi qeydə alınacaq, lakin müəyyən müddətdən sonra və/yaxud biznesin normal fəaliyyəti nəticəsində aktivə çevrilmə ehtimal olunan maddəyə istinad edir. Müştərilərdən alınmış avanslar ilkin olaraq hər hansı birbaşa aid edilə bilən əməliyyat xərcləri daxil olmaqla, alınan kompensasiyanın ədalətli dəyəri ilə qeydə alınır və sonradan amortizasiya olunmuş maya dəyərində uçota alınır.

**Nizamnamə kapitalı**

Nizamnamə kapitalı Cəmiyyətin səhmdarının qoyduğu kapitalın məbləğidir. Cəmiyyət nizamnamə kapitalını səhmdarın təsdiqi çərçivəsində artıra və ya azalda bilər.

Təsisçilərin nizamnamə kapitalından başqa vəsait qoyması və ya geri çəkməsi digər kapitalda tanınır.

Adi səhmlər üzrə dividendlər onların elan edildiyi dövrdə azalma kimi kapitalda tanınır. Hesabat tarixindən sonra elan edilmiş dividendlər "Hesabat tarixindən sonrakı hadisələr" adlı 10 saylı BMUS-a uyğun olaraq sonrakı hadisə kimi nəzərə alınır və müvafiq olaraq açıqlanır.

**Müştərilərlə bağlanmış müqavilələr üzrə gəlirlər**

15 saylı MHBS, müəssisələrə müştərilər ilə bağlanmış müqavilələrdən gəlirlərin uçotu üzrə vahid məcmu modeli tətbiq edir.

15 saylı MHBS-nin əsas prinsipinə görə, Cəmiyyət vəd edilmiş malların və ya xidmətlərin müştərilərə köçürülməsini əks etdirmək üçün gəliri Cəmiyyətin həmin mal və ya xidmətlər müqabilində hüquq əldə etməyi gözlədiyini əks etdirən məbləğdə tanımalıdır. Standart, xüsusilə gəlirlərin tanınması üçün beşaddımlı bir yanaşma təqdim edir:

- 1-ci Addım: Müştərilərlə bağlanmış müqavilə və ya müqavilələri müəyyən etmək;
- 2-ci Addım: Müqavilə öhdəliklərini müəyyən etmək;
- 3-cü Addım: Əməliyyat qiymətini müəyyən etmək;
- 4-cü Addım: Müqavilə öhdəlikləri üzrə əməliyyat qiymətlərinin ayrılması;
- 5-ci Addım: Müəssisə müqavilə öhdəliklərini yerinə yetirirsə (yetirdiyi zaman) gəlirin tanınması.

15 saylı MHBS-yə əsasən, öhdəliyin icrası yerinə yetirilirsə və ya yerinə yetirildikdə, yəni müəyyən öhdəliyin icrası əsas götürülən mallara və ya xidmətlərə "nəzarət" müştəriyə ötürülərkən, müəssisə gəliri tanıyır.

**İşçilərə sərf olunan xərclər**

Əmək haqları, məvaciblər, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

**Vergilər**

**Təxirə salınmış vergilər**

Təxirə salınmış vergi, maliyyə hesabatlarındakı aktiv və öhdəliklərin balans dəyərləri ilə onların vergi uçotuna uyğun balans dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlərin əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəlikləri ümumiyyətlə bütün vergi bazasını artıran müvəqqəti fərqlər üçün tanınır və təxirə salınmış vergi aktivləri çıxılan müvəqqəti fərqlərdən istifadə edilə bilən vergi tutulan mənfəətin mövcud olacağı ehtimal olunan dərəcədə tanınır.

Müvəqqəti fərqlərin qudvil və mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

Təxirə salınmış vergi aktivinin balans dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergi, vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməklə hesablanır. Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa məcmu gəlir hesabında əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər də səhmdar kapitalında öz əksini tapır.

Aşağıdakı hallarda təxirə salınmış mənfəət vergisi aktivi və mənfəət vergisi öhdəliyi əvəzləşdirilərək xalis şəkildə maliyyə hesabatlarında təqdim edilə bilər:

- Cəmiyyətin cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və
- Təxirə salınmış aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edildikdə və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olduqda.

Cəmiyyət cari mənfəət vergisi borcunu, eləcə də aktiv və öhdəliklər ilə əlaqəli vergi əsaslarını, Cəmiyyətin fəaliyyət göstərdiyi Azərbaycan Respublikasının MHBS-dən fərqli olan qanuni vergi qaydalarına uyğun olaraq ölçür və uçota alır.

31 dekabr 2022 və 2021-ci il tarixlərinə Cəmiyyət xalis çıxılan müvəqqəti fərqlərlə bağlı hər hansı təxirə salınmış vergi aktivini tanımamışdır. Cəmiyyət hesab edir ki, çıxılan müvəqqəti fərqlərin istifadə oluna biləcəyi gələcək vergiyə cəlb olunan mənfəətin olması ehtimalı yoxdur.

**Əlavə Dəyər Vergisi**

Ödəniləcək ƏDV və iddia olunan əvəzləşdiriləcək ƏDV arasındakı fərq hesabat ayından sonra 20 gün ərzində dövlət büdcəsinə ödənilir. Satış ilə əlaqədar ödəniləcək əlavə dəyər vergisi vergi orqanlarına bu satışların qarşılığında ödəniş alındıqda ödənilir. Əvəzləşdiriləcək ƏDV bir qayda olaraq elektron ƏDV hesab fakturası alındıqdan sonra ödəniləcək ƏDV ilə əvəzləşdirilir. Vergi orqanları ƏDV-nin xalis əsaslarla hesablanmasına icazə verir.

Satış və alış ilə əlaqədar olan ƏDV maliyyə hesabatında ümumi məbləğdə uçota alınır və aktiv və öhdəlik kimi ayrıca olaraq açıqlanır. Alınacaq vəsaitlərin dəyərsizləşməsi ilə əlaqədar ehtiyat yaradıldıqda, dəyərsizləşmə zərəri ƏDV daxil olmaqla borcluya aid olan ümumi məbləğin tərkibində uçota alınır.

**Xarici valyuta əməliyyatları**

Cəmiyyətin funksional valyutası fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Cəmiyyətin funksional valyutası Azərbaycan Manatıdır ("AZN").

Xarici valyutada ifadə edilmiş monetar aktiv və öhdəliklər ARMB-nin hesabat tarixinin sonuna olan müvafiq spot məzənnələri ilə AZN-ə çevrilir. Xarici valyuta əməliyyatları əməliyyat tarixində mövcud olan məzənnə ilə uçota alınır.

İlin sonuna qüvvədə olan valyuta məzənnəsi ilə yerli valyutaya çevrilmə qeyri-monetar maddələrə, o cümlədən pay alətlərinə tətbiq edilmir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızlarının ədalətli dəyərinə təsiri ədalətli dəyər üzrə gəlir və ya xərclərin bir hissəsi kimi qeydə alınır.

Maliyyə hesabatlarının hazırlanması zamanı Cəmiyyət aşağıda göstərilən valyuta məzənnələrindən istifadə etmişdir:

| | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| 1 ABŞ dolları | 1.7000 AZN | 1.7000 AZN |
| 1 Avro | 1.8114 AZN | 1.9265 AZN |

**Şərti öhdəliklər və aktivlər**

Şərti öhdəliklər maliyyə hesabatlarında tanınmır. Onlar iqtisadi cəhətdən səmərəli resursların məxarici ehtimalı olmadığı halda, maliyyə hesabatlarının qeydlərində açıqlanır.

Şərti aktivlər maliyyə hesabatlarında qeyd olunmur, lakin iqtisadi mənfəət əldə edilməsi ehtimalı olduqda maliyyə hesabatlarında açıqlanır.

## 3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin verməsini tələb edir.

Nəticədə biznes fəaliyyətlərinin qeyri-müəyyənliyi nəticəsində maliyyə hesabatlarında bir çox maddələrin dəqiq qiymətləndirilməsi mümkün olmur və yalnız müəyyən ehtimallar irəli sürülə bilər. Ehtimallar maliyyə hesabatları hazırlanarkən ən son məlumatlara əsaslanan mühakimələri nəzərdə tutur. Gələcək hadisələr haqqında mövcud vəziyyət və ehtimallar Cəmiyyətin nəzarətindən kənarda yaranan bazar dəyişiklikləri və ya şəraitə görə dəyişə bilər. Bu cür dəyişikliklər baş verdikləri zaman Cəmiyyət tərəfindən edilən təxminlərdə öz əksini tapır.

Ən əhəmiyyətli təxminlər əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlərin ədalətli dəyəri və amortizasiya dövrü, maliyyə və qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi, mal-material ehtiyyatlarının qiymətləndirilməsi qaytarıla bilən ƏDV, maliyyə alətlərinin ədalətli dəyəri, vergi və hüquqi təəhhüdlər üzrə ehtiyat, təxirə salınmış vergitutma və əlaqəli tərəfdən alınacaq vəsait üzrə ehtimal olunan kredit zərərləri ilə bağlıdır. Faktiki nəticələr həmin təxminlərdən fərqli ola bilər.

**Mülahizələr**

Cəmiyyətin mühasibat uçotu siyasətinin tətbiq edilməsi prosesində rəhbərlik maliyyə hesabatlarında tanınmış məbləğlər üzrə nəzərə alınmış əhəmiyyətli təsiri olan təxminlərdən başqa aşağıdakı mülahizələri edir.

***Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər üzrə ədalətli dəyər***

Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər Cəmiyyətə təhvil verildiyi tarixə hesablanmış şərti dəyər olaraq ədalətli dəyərlə ölçülmüşdür.

Əmlak, tikili və avadanlıqların bazar dəyəri, 13 saylı MHBS-yə əsasən əmlak, tikili və avadanlıqların ədalətli dəyərinə bərabər olan bənzər əmlak, tikili və avadanlıqlar üçün bazar satış qiymətlərinin təhlilini əhatə edən bazar yanaşması metodu ilə qiymətləndirilmişdir.

***Əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin faydalı istifadə müddəti***

Cəmiyyət hər maliyyə ilinin sonunda əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin qalan faydalı istifadə müddətini qiymətləndirir. Bu aktivlərin nəzərdə tutulan faydalı istifadə müddəti ötən ilin qiymətləndirilməsindən fərqli olduqda, dəyişikliklər "Uçot Siyasətləri, Uçot qiymətləndirmələrində Dəyişikliklər və Xətalar" adlı 8 saylı BMUS-a müvafiq olaraq uçot təxminlərində dəyişiklik olaraq uçota alınır. Belə təxminlərin əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin balans dəyərlərinin məbləğləri və mənfəət və zərərdə tanınmış amortizasiya üzrə əhəmiyyətli təsirləri olur.

***Əmlak, tikili və avadanlıqların və digər qeyri-maliyyə aktivlərin dəyərsizləşməsi***

Cəmiyyət hər bir hesabat tarixinə aktivlərin dəyərsizləşməsinə dair ehtimalın olmasını qiymətləndirir. Əgər hər hansı belə ehtimal mövcuddursa, Cəmiyyət aktivin bərpa edilə bilən məbləğini təxmin edir. Aktivin bərpa edilə bilən məbləği onun digər aktivlərdən müstəqil şəkildə pul vəsaitləri yaratmaq qabiliyyətinin olduğu hallar istisna olmaqla, aktivin və ya pul vəsaiti yaradan vahidin ən yüksək ədalətli dəyərindən satış xərcləri və istifadə dəyəri çıxılması nəticəsində yaranan dəyərə bərabərdir. Aktivin balans dəyəri onun bərpa edilə bilən dəyərindən artıq olduqda aktiv dəyərsizləşmiş hesab edilir və onun balans dəyəri bərpa edilə bilən dəyərə qədər azaldılır. İstifadə dəyərini qiymətləndirərkən, pulun zaman dəyəri və aktivə xas olan risklərin cari bazar qiymətləndirməsini əks etdirən vergidən öncə diskont dərəcəsi istifadə edilərək ehtimal olunan gələcək pul axınları mövcud dəyərinə diskontlaşdırılır. Satış xərcləri çıxılmaqla ədalətli dəyəri müəyyən edərkən, cari bazar əməliyyatları (mövcud olduqda) nəzərə alınır. Bu cür əməliyyatlar müəyyən edilə bilmədikdə, müvafiq qiymətləndirmə modeli istifadə olunur.

31 dekabr 2022 və 31 dekabr 2021-ci il tarixlərinə Cəmiyyət dəyərsizləşməni tanımamışdır.

***Mal-material ehtiyatlarının qiymətləndirilməsi***

Mal-material ehtiyatları maya dəyər və ya xalis satış dəyərindən daha az olan məbləğdə qiymətləndirilir. Cəmiyyət uyğun olduqda köhnəlmiş və az istifadə edilən mal-material ehtiyatlarının balans dəyərini xalis satış dəyərinə qədər azaldaraq uçota alır. Mal-material ehtiyatlarının silinməsi üzrə yaranan faktiki dəyər xalis satış dəyərindən fərqli ola bilər; istənilən fərqin gələcək əməliyyat nəticələri üzərində əhəmiyyətli təsiri ola bilər.

***ƏDV-nin bərpası***

Hər hesabat tarixində Cəmiyyət mal və xidmətlərin alışından yaranan ƏDV-nin bərpasını qiymətləndirir. Cəmiyyət bu məbləğləri yalnız gələcəkdə yaranacaq ƏDV öhdəliyinin əvəzləşdirilməsi və ya vergi orqanlarından toplanması vasitəsilə ala bilər. ƏDV üzrə alınacaq vəsaitlərin bərpası qiymətləndirilərkən Cəmiyyət planlaşdırılmış ƏDV öhdəliyi, dövlət vergi orqanları ilə yazışmaları və tarixi bərpa təcrübəsi ilə bağlı daxili vergi departamentindən alınan məlumatları nəzərə alır.

ƏDV-nin bərpasının cari məbləği Cəmiyyətin təxminlərindən əhəmiyyətli dərəcədə fərqlənə bilər və bu da öz növbəsində əməliyyat nəticələrinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər.

**Maliyyə alətlərinin ədalətli dəyərinin ölçülməsi**

Cəmiyyətin bir sıra mühasibat uçotu siyasəti və açıqlamaları, maliyyə və qeyri-maliyyə aktivləri və öhdəlikləri üçün ədalətli dəyərin ölçülməsini tələb edir.

Cəmiyyət ədalətli dəyərin ölçülməsi ilə əlaqədar olaraq müəyyən nəzarət çərçivəsinə malikdir.

Aktiv və ya öhdəliyin ədalətli dəyərini ölçərkən, Cəmiyyət mümkün qədər bazarda müşahidə edilə bilən məlumatlardan istifadə edir. Ədalətli dəyərlər aşağıdakı qiymətləndirmə üsullarında istifadə olunan məlumatlara əsaslanaraq ədalətli dəyər iyerarxiyasında müxtəlif səviyyələrdə təsnifləşdirilir:

- *1-ci Səviyyə* – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- *2-ci Səviyyə* – aktiv və ya öhdəlik üzrə birbaşa (yəni qiymətlər) və ya dolayı yolla (yəni qiymətlərdən əldə edilir) müqayisə edilə bilən 1-ci Səviyyədə daxil edilmiş qiymətlərdən başqa daxilolmalar;
- *3-cü Səviyyə* – müşahidə edilə bilən bazar məlumatlarına əsaslanmayan aktiv və ya öhdəlik üçün daxilolmalar (müşahidə olunmayan daxilolmalar).

Bir aktivin və ya öhdəliyin ədalətli dəyərini ölçmək üçün istifadə edilən məlumatlar, ədalətli dəyər iyerarxiyasının müxtəlif səviyyələrində təsnif edilə bilərsə, ədalətli dəyər iyerarxiyasının eyni dərəcəsi bütün ölçmə üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş kimi ədalətli dəyərin ölçülməsi bütünlükdə təsnif edilir.

***Cari vergilər***

Azərbaycanda vergi, valyuta və gömrük qanunvericiliyi tez-tez baş verən şərhlərə və dəyişiklərə məruz qalır. Bundan başqa Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq olunan vergi qanunvericiliyinin vergi orqanları tərəfindən şərhi, Cəmiyyətin rəhbərliyinin şərhi ilə uyğun gəlməyə bilər. Nəticədə, vergi orqanları əməliyyatları yenidən təsnif edə bilər və Cəmiyyətin işçiləri əhəmiyyətli dərəcədə əlavə vergi, cərimə və faiz ödəmələrinə məruz qala bilərlər.

Vergi və gömrük qurumları müəssisənin fəaliyyətinin nəzərdən keçiriləcəyi ildən əvvəlki üç il ərzində vergi öhdəliklərini yoxlaya bilərlər. Cəmiyyətin fəaliyyətinin nəzərdən keçirilməsi müəyyən şərtlər çərçivəsində daha uzun müddətləri də əhatə edə bilər. 31 dekabr 2022-ci il tarixinə rəhbərlik hesab edir ki, onların müvafiq qanunvericiliklə bağlı şərhləri uyğundur və ehtimal olunur ki, Cəmiyyətin vergi, valyuta və gömrüklə bağlı cari vəziyyəti dəyişməyəcək.

***Təxirə salınmış vergilər***

Təxirə salınmış vergi aktivləri istifadə olunmayan vergi zərərləri üçün zərərlərin istifadə oluna biləcəyi vergiyə cəlb olunan mənfəətin olması ehtimalı daxilində tanınır. Gələcək vergi planlaşdırma strategiyaları ilə birlikdə ehtimal olunan vaxt və gələcək vergiyə cəlb olunan mənfəət səviyyəsinə əsaslanaraq, təxirə salınmış vergi aktivlərinin məbləğini müəyyənləşdirmək üçün əhəmiyyətli idarəetmə qərarı tələb olunur.

31 dekabr 2022-ci il tarixinə təxirə salınmış vergi aktivi əsasən gələcək vergi zərərləri hesabına olmuşdur. Cəmiyyət güman edir ki, gələcəkdə vergiyə cəlb olunan mənfəət zərərlərdən istifadə oluna bilməyəcək. Cəmiyyət 31 dekabr 2022-ci il tarixinə təxirə salınmış vergi aktivini tanımır.

**Əlaqəli tərəfdən alınacaq vəsait üzrə EOKZ**

Cəmiyyət, əlaqəli tərəfdən alınacaq vəsait üzrə ehtimal olunan kredit zərərlərini hesablamaq üçün ehtiyat cədvəlindən istifadə edir. Ehtiyat dərəcələri, oxşar zərər modellərinə malik olan müxtəlif müştəri seqmentləri üzrə (yəni, coğrafiya, məhsul növü, müştəri növü və reytinqi, akkreditiv və kredit sığortasının digər növləri üzrə) qruplarda vaxtı keçmiş günlərə əsaslanır.

Ehtiyat cədvəli ilkin olaraq Cəmiyyətin tarixən müşahidə olunmuş defolt dərəcələrinə əsaslanır. Cəmiyyət, tarixi kredit zərəri təcrübəsini perspektiv məlumatlarla uyğunlaşdırmaq üçün cədvələ düzəlişlər edir. Məsələn, əgər istehsal sektorunda defolt sayının artmasına gətirib çıxaran proqnozlaşdırılan iqtisadi şərtlər (yəni, ümumi daxili məhsul) gələn il ərzində pisləşəcəkdirsə, bu zaman tarixi defolt dərəcələrinə düzəliş edilir. Hər bir hesabat tarixində, tarixi müşahidə olunmuş defolt dərəcələri yenilənir və gələcək perspektiv ehtimallar təhlil edilir. Tətbiq olunduğu hallarda, Cəmiyyət qarşı tərəflərin xarici dərəclərindən əldə edilmiş defolt dərəcələrinə əsaslanır.

Tarixi müşahidə olunmuş defolt dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və ehtimal olunan kredit zərəri arasında korrelyasiyanın qiymətləndirilməsi əhəmiyyətli dərəcədə təxminlərdən ibarətdir. Ehtimal olunan kredit zərərinin məbləği şəraitdə və proqnozlaşdırılan iqtisadi şərtlərdə dəyişikliklərə həssasdır. Cəmiyyətin tarixi kredit zərəri üzrə təcrübəsi və iqtisadi şəraitin proqnozu da gələcəkdə müştərinin faktiki defolt vəziyyətini tam şəkildə əks etdirə bilməz.

Cəmiyyətin rəhbərliyi əlaqəli tərəfdən alınacaq vəsaitin tanınması üçün EOKZ-nin tələb olunmadığını hesab edir.

## 4. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ

Cari ildə Cəmiyyət Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) və BMUSŞ-nin Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2022-ci il tarixində başa çatmış hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

**Maliyyə Uçotunun Konseptual Əsaslarına İstinad – 3 saylı MHBS-yə edilmiş Düzəliş –** 2020-ci ilin may ayında BMUSŞ tərəfindən “Müəssisələrin birləşməsi” adlı 3 saylı MHBS-yə düzəliş dərc edilmişdir. Düzəliş 2018-ci ilin mart ayında dərc edilmiş “Maliyyə Hesabatlılığının Konseptual Əsasları”na istinad ilə birlikdə, bu düzəlişin tələblərini əhəmiyyətli dərəcədə dəyişmədən, 1989-cu ildə dərc edilmiş “Maliyyə Hesabatlarının Hazırlanması və Təqdimatın Əsasları”na edilən istinadın əvəz olunmasını nəzərdə tutur. Şura eyni zamanda, 37 saylı BMUS və ya “Təminatlar” adlı 21 saylı BMHŞK çərçivəsində, ayrı olaraq yaranırsa, borclar və şərti öhdəliklər üçün yaranan potensial “2 gün” mənfəət və ya zərərlərindən yayınmaq üçün 3 saylı MHBS-nin tanınma prinsipinə istisna da əlavə etmişdir. Eyni zamanda, Şura “Maliyyə Hesabatlarının Hazırlanması və Təqdim Olunması Əsasları”na istinadın əvəz edilməsindən təsirlənməyəcək şərti aktivlər üçün 3 saylı MHBS-nin mövcud təlimatına dair izahlar verməyi qərarlaşdırmışdır.

**Əmlak, Tikili və Avadanlıqlar: Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar – 16 saylı BMUS-a edilən düzəlişlər.** 2020-ci ilin may ayında, BMUSŞ müəssisələrin əmlak, tikili və avadanlıqların dəyərindən, rəhbərliyin nəzərdə tutduğu qaydada fəaliyyət göstərə bilməsi üçün həmin aktivləri lazımi yerə və şəraitə çatdırarkən istehsal olunan aktivlərin satışından əldə olunan gəlirləri çıxmağı qadağan edən “Əmlak, Tikili və Avadanlıqlar – Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar” düzəlişini dərc etmişdir. Bunun əvəzinə, müəssisə bu cür aktivlərin satışından əldə olunan gəlirləri və bu aktivlərin istehsal xərclərini mənfəət və zərər hesabında tanıyır.

**Ağır Şərtli Müqavilələr – Müqavilənin Yerinə Yetirilməsinə dair Xərclər – 37 saylı BMUS-a edilən düzəlişlər.** 2020-ci ilin may ayında, BMUSŞ, 37 saylı BMUS-a müqavilənin ağır şərtli və ya zərər yaradan olduğunu qiymətləndirərkən müəssisənin hansı xərcləri nəzərə alması barədə düzəlişlər etmişdir. Düzəlişlər “birbaşa əlaqəli xərc yanaşması”nı tətbiq edir. Mal və ya xidmətləri təmin etmək üçün birbaşa müqaviləyə aid olan xərclərə həm artan xərclər, həm də müqavilə fəaliyyətləri ilə birbaşa əlaqəli xərclərin bölüşdürülməsi daxildir. Ümumi və inzibati xərclər birbaşa müqavilə ilə əlaqəli deyil və müqavilə üzrə qarşı tərəf üçün açıq şəkildə ödənilməli olmadıqca istisna olunur.

**“Beynəlxalq Maliyyə Hesabatlılığı Standarlarının İlk dəfə Tətbiqi” adlı 1 saylı MHBS – ilkin tətbiq edən törəmə olaraq.** BMUSŞ 2018-2020-ci il üzrə illik təkmilləşdirmələr çərçivəsində “Beynəlxalq Maliyyə Hesabatı Standartlarının ilk dəfə qəbul edilməsi” adlı 1 saylı MHBS-də dəyişiklik etmişdir. Dəyişiklik ana müəssisənin MHBS-yə keçid tarixinə əsasən, ana müəssisə tərəfindən bildirilən məbləğlərdən istifadə etməklə, məcmu çevirmələr üzrə fərqlərini ölçmək üçün 1 saylı MHBS-nin D16 (a) bəndini tətbiq etməyi seçən bir törəmə müəssisəyə icazə verir. Bu düzəliş 1 saylı MHBS-nin D16 (a) bəndini tətbiq etməyi seçən bir asılı və ya birgə müəssisəyə də tətbiq edilir.

**“Maliyyə Alətləri” adlı 9 saylı MHBS – Maliyyə öhdəliklərinin silinməsi üzrə “10 faiz” dəyərində test üzrə iştirak haqqı.** MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ 9 saylı MHBS-yə düzəliş etmişdir. Düzəliş bir müəssisənin yeni və ya dəyişdirilmiş maliyyə öhdəliyinin şərtlərinin ilkin maliyyə öhdəliyinin şərtlərindən əhəmiyyətli dərəcədə fərqli olub-olmadığını qiymətləndirərkən əlavə etdiyi haqları aydınlaşdırır. Bu rüsumlara yalnız borcalan və ya borcverən tərəfindən başqasının adından ödədiyi və ya aldığı haqlar daxil olmaqla borcalanla borc verən arasında ödənilən və ya alınan ödənişlər daxildir. Müəssisə düzəlişi müəssisənin ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün əvvəlində və ya ondan sonra dəyişdirilmiş və ya mübadilə edilmiş maliyyə öhdəliklərinə tətbiq edir.

**“Kənd Təsərrüfatı” adlı 41 saylı BMUS –** Ədalətli dəyər ölçmələrində vergi. MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ “Kənd Təsərrüfatı Standartı” adlı 41 saylı BMUS-a dəyişiklik etmişdir. Dəyişiklik 41 saylı BMUS-in 22-ci bəndində müəssisələrin, 41 saylı BMUS çərçivəsində aktivlərin ədalətli dəyərini ölçərkən vergitutma üçün pul axınlarını istisna etməsi tələbini aradan qaldırır.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartlar Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməmişdir.

## 5. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Cəmiyyət tərəfindən, qüvvəyə minən tarixdən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir. Cəmiyyət hazırkı yeni və düzəliş edilmiş standartları və şərhləri (əgər varsa) qüvvəyə mindikdən sonra qəbul etmək niyyətindədir.

**“Sığorta müqavilələri” adlı 17 saylı MHBS** 2017-ci ilin may ayında dərc olunmuşdur və “Sığorta müqavilələri” adlı 4 saylı MHBS-ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə “Sığorta müqavilələri” adlı 17 saylı MHBS-ni tətbiq etməlidir.

17 saylı MHBS, 1 yanvar 2023-cü il tarixində və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. “Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir” adlı 15 saylı MHBS və “Maliyyə Alətləri” adlı 9 saylı MHBS standartları ilə birlikdə tətbiq olunduqda erkən tətbiqinə icazə verilir. Bu standart Cəmiyyətə şamil edilmir.

**Uçot Siyasətinin Açıqlanması – 1 saylı BMUS və 2 saylı MHBS Metodik Sənədi** – 2021-ci ilin fevral ayında BMUSŞ 1 saylı BMUS və “Əhəmiyyətlilik haqqında mühakimələrin yürüdülməsi” adlı 2 saylı MHBS Metodik Sənədə düzəlişlər etmişdir. Bu düzəlişlər müəssisələrə uçot siyasəti haqqında açıqlamalar edərkən əhəmiyyətliliklə bağlı mühakimələrin tətbiq edilməsinə kömək edilməsi məqsədilə təlimat və nümunələri təqdim edir. Düzəlişlər müəssisələr üçün “əhəmiyyətli” uçot siyasətləri haqqında məlumatın açıqlanması tələbini onların “əhəmiyyətli” uçot siyasətinin açıqlanması tələbi ilə əvəz etməklə və mühasibat uçotu siyasəti ilə bağlı açıqlamalar barədə qərar qəbul edərkən müəssisələrin uçot siyasəti haqqında daha faydalı məlumatı açıqlamaqda kömək etmək məqsədi daşıyır.

1 saylı BMUS-a edilən düzəlişlər 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün tətbiq edilir və düzəlişlərin daha erkən tətbiqinə icazə verilir. 2 saylı Metodik Sənədə edilən düzəlişlər əhəmiyyətlilik anlayışının mühasibat uçotu siyasəti məlumatlarına tətbiqi ilə bağlı məcburi olmayan təlimatları ehtiva etdiyi üçün, bu düzəlişlər üçün qüvvəyə minmə tarixinə ehtiyac yoxdur.

**Uçot təxminlərinin müəyyən edilməsi – 8 saylı BMUS-a edilən Düzəlişlər** – 2021-ci ilin fevral ayında BMUSŞ “uçot təxminləri” anlayışını təqdim edən 8 saylı BMUS-a düzəlişi dərc etmişdir. Düzəlişlər müəssisələrin uçot siyasətindəki dəyişiklikləri uçot təxminlərindəki dəyişikliklərdən necə fərqləndirməli olduğunu və xətaların aradan götürülməsini izah edir. Həmçinin, bu düzəlişlər mühasibat uçotu təxminlərini hazırlamaq üçün müəssisələrin ölçmə üsullarından və giriş məlumatlarından necə istifadə etdiyini aydınlaşdırır.

Düzəlişlər 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və həmin dövrün başlanğıcında və ya ondan sonra baş verəcək uçot siyasəti və uçot təxminlərindəki dəyişikliklərə tətbiq edilir. Bu tip faktlar açıqlanarsa, düzəlişlərin erkən tətbiqinə icazə verilir.

**Eyni əməliyyatdan yaranan aktiv və öhdəliklərə aid təxirə salınmış vergilər – 12 saylı BMUS-a edilən Düzəlişlər** – 2021-ci ilin may ayında Şura 12 saylı BMUS-a uyğun olaraq ilkin tanınma istisnasının əhatə dairəsini azaldan 12 saylı BMUS-a düzəlişlər etdi, beləliklə, o, vergi bazasını artıran və azaldan bərabər məbləğdə müvəqqəti fərqlərə səbəb olan əməliyyatlara artıq tətbiq edilmir.

Düzəlişlər təqdim edilən ən erkən müqayisəli dövrün əvvəlində və ya ondan sonra baş verən əməliyyatlara tətbiq edilməlidir. Bundan əlavə, təqdim olunan ən erkən müqayisəli dövrün əvvəlində icarə və istismardan çıxarma öhdəlikləri ilə bağlı bütün gəlirdən çıxılan və vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün təxirə salınmış vergi aktivi (kifayət qədər vergi tutulan mənfəətin olması şərtilə) və təxirə salınmış vergi öhdəliyi də tanınmalıdır.

BMUSŞ, satış kimi uçota alınması nəzərdə tutulan 15 saylı MHBS-nin tələblərinə cavab verən satış və geri icarə əməliyyatlarını sonradan satıcı-icarədarın necə ölçməsini aydınlaşdırmaq üçün **“Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi”ni (16 saylı MHBS-yə edilən Düzəlişlər) düzəlişlərlə birgə dərc etmişdir. Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi (16 saylı MHBS-yə edilən Düzəlişlər)** satıcı-icarədardan istifadə hüququnu özündə saxlayan hər hansı gəlir və ya zərər məbləğini tanımamaq üçün geri icarədən irəli gələn icarə öhdəliyini sonradan ölçməsini tələb edir. Yeni tələblər satıcı-icarədarı icarənin qismən və ya tam xitam verilməsi ilə bağlı hər hansı gəlir və ya zərəri mənfəət və ya zərərdə tanınmasını qadağa etmir. Düzəlişlər 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Düzəlişlərin daha erkən tətbiqinə icazə verilir.

Müəssisənin hesabat dövründən sonra on iki ay ərzində riayət etməli olduğu şərtlərin, öhdəliklərin təsnifatına təsirini müəyyən etmək üçün 2022-ci ilin oktyabr ayında BMUSŞ **“Kovenantlar ilə bağlı uzunmüddətli öhdəliklər” (1 saylı BMUS-a edilən Düzəlişlər)** adlı düzəlişi dərc etmişdir. Düzəlişə əsasən öhdəliyin cari və ya uzunmüddətli olaraq təsnifləşdirilməsinə yalnız müəssisənin hesabat tarixində və ya ondan əvvəl riayət etməli olduğu şərtlər təsir edir. Bundan əlavə, müəssisə maliyyə hesabatı üzrə qeydlərdə hesabatın istifadəçilərinə kovenantlar ilə uzunmüddətli öhdəliklərin on iki ay ərzində qaytarıla biləcəyi riskini nəzərdə tutacağı məlumatları açıqlamalıdır. Düzəlişlər 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üzrə qüvvəyə minir.

**"Konsolidasiya edilmiş Maliyyə Hesabatları" adlı 10 saylı MHBS və "İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi" adlı 28 saylı BMUS (düzəlişlər):** 10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidasiya edilmiş əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya edilmiş assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi BMUSŞ tərəfindən hələ müəyyən edilməmişdir, lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

## 6. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ QALIQLAR VƏ ƏMƏLİYYATLAR

Əlaqəli tərəflər "Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması" adlı 24 saylı BMUS-da müəyyən edilmişdir. Ümumiyyətlə tərəflər bir tərəfin digər tərəfi idarə etmək qabiliyyəti varsa, ümumi nəzarət altındadırsa və ya maliyyə və əməliyyat qərarları verərkən digər tərəfə əhəmiyyətli təsir və ya birgə nəzarət edə bilərsə, əlaqəli hesab olunurlar. Hər bir əlaqəli tərəf ilə bağlı münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin məzmununa yönəldilir. Cəmiyyətin bilavasitə nəzarətçi tərəfi Azərbaycan Respublikası Hökumətinə məxsus olan "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətidir.

Cəmiyyət dövlət ilə əlaqəli qurumlar üçün açıqlama tələbi ilə əlaqədar "Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması" adlı 24 saylı BMUS-un 25-ci bəndində qeyd olunmuş güzəştdən istifadə etmişdir.

Hesabat təqdim edən müəssisə əlaqəli tərəf əməliyyatları və öhdəliklər də daxil olmaqla, qalıq borclarla əlaqəli "Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması" adlı 24 saylı BMUS-un 18-ci bəndinin açıqlama tələblərindən aşağıdakılar ilə birlikdə azaddır:

(a) hesabat təqdim edən müəssisə nəzarəti və ya birgə nəzarəti və ya üzərində əhəmiyyətli dərəcədə təsiri olan hökumət; və
(b) eyni hökumətin həm təqdim edən müəssisənin, həm də digər təşkilatın nəzarəti və ya birgə nəzarəti və ya üzərində əhəmiyyətli dərəcədə təsiri olduğu üçün əlaqəli tərəf olan başqa bir müəssisə.

Dövlətlə əlaqəli təşkilatlarla əməliyyatlara elektrik enerjisi, qaz, benzin alınması və digər xidmətlərin alınması daxildir.

31 dekabr 2022 və 2021-ci il tarixlərində başa çatmış illər ərzində rəhbər işçilərin mükafatlandırılmasına, müvafiq olaraq, 75,084 AZN və 67,157 AZN məbləğlərində əmək haqqı, ixtiyari mükafatlar və digər qısamüddətli faydalar daxildir.

## 7. ƏMLAK, TİKİLİ VƏ AVADANLIQLAR VƏ QEYRİ-MADDİ AKTİVLƏR

| | Binalar və bənzər tikililər | Maşınlar və avadanlıqlar | Nəqliyyat vasitələri | Digər | Cəmi | Qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **Şərti dəyər olaraq ədalətli dəyər/ilkin dəyər** | | | | | | | |
| **1 yanvar 2021-ci il** | **1,939,662** | **1,448,129** | **91,414** | **27,165** | **3,506,370** | **-** | **3,506,370** |
| Əlavələr | - | 22,986 | 1,798 | 11,337 | 36,121 | 100,792 | 136,913 |
| Silinmələr | - | (174,415) | (7,720) | (221) | (182,356) | - | (182,356) |
| **31 dekabr 2021-ci il** | **1,939,662** | **1,296,700** | **85,492** | **38,281** | **3,360,135** | **100,792** | **3,460,927** |
| Əlavələr | 25,046 | 40,814 | 269,350 | 19,567 | 354,777 | 219,056 | 573,833 |
| **31 dekabr 2022-ci il** | **1,964,708** | **1,337,514** | **354,842** | **57,848** | **3,714,912** | **319,848** | **4,034,760** |
| **Yığılmış köhnəlmə və amortizasiya** | | | | | | | |
| **1 yanvar 2021-ci il** | **(148,744)** | **(186,593)** | **(29,260)** | **(9,105)** | **(373,702)** | **-** | **(373,702)** |
| İl üzrə köhnəlmə xərcləri | (109,556) | (78,917) | (8,721) | (3,951) | (201,145) | - | (201,145) |
| Köhnəlmə xərcləri üzrə silinmələr | - | 35,844 | 2,894 | 95 | 38,833 | - | 38,833 |
| **31 dekabr 2021-ci il** | **(258,300)** | **(229,666)** | **(35,087)** | **(12,961)** | **(536,014)** | **-** | **(536,014)** |
| İl üzrə köhnəlmə xərcləri | (110,142) | (75,369) | (18,755) | (4,165) | (208,431) | - | (208,431) |
| **31 dekabr 2022-ci il** | **(368,442)** | **(305,035)** | **(53,842)** | **(17,126)** | **(744,445)** | **-** | **(744,445)** |
| **Xalis qalıq dəyəri** | | | | | | | |
| **31 dekabr 2022-ci il** | **1,596,266** | **1,032,479** | **301,000** | **40,722** | **2,970,467** | **319,848** | **3,290,315** |
| **31 dekabr 2021-ci il** | **1,681,362** | **1,067,034** | **50,405** | **25,320** | **2,824,121** | **100,792** | **2,924,913** |

31 dekabr 2022 və 2021-ci il tarixlərinə əmlak, tikili və avadanlıqlar kateqoriyasına aid, istifadəsinə məhdudiyyət qoyulmuş və ya öhdəliklərin təminatı olaraq girov qoyulmuş hər hansı bir aktiv mövcud olmamışdır.

## 8. MAL-MATERİAL EHTİYATLARI

| | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| Emalda olan məhsullar | 1,861,894 | 1,658,388 |
| Tamamlanmamış istehsal | 997,590 | 1,106,646 |
| Hazır məhsul | 1,535,926 | 1,132,334 |
| Digər | 233,501 | 250,950 |
| **Cəmi mal-material ehtiyatları** | **4,628,911** | **4,148,318** |

## 9. ƏLAQƏLİ TƏRƏFDƏN ALINACAQ VƏSAİT

31 dekabr 2022-ci il tarixinə əlaqəli tərəfdən alınacaq 1,500,000 AZN məbləğində vəsait “ASK Şüşə” MMC-yə verilmiş qısamüddətli faizsiz və tələb əsasında geri qaytarılan krediti əks etdirir. Rəhbərlik hesab edir ki, bu qalığın balans dəyəri bərpa edilə bilər.

28 fevral 2023-cü il tarixində “ASK Şüşə” MMC özəlləşdirməyə çıxarılmış və Cəmiyyətin xalis aktivləri (4,558,287 AZN məbləğində avadanlıq istisna olmaqla) üçüncü tərəfə satılmaq üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə ötürülmüşdür.

## 10. DEBİTOR BORCLARI

31 dekabr 2022-ci il tarixinə debitor borcları müştərilərdən alınmış 467,260 AZN (2021-ci il: 191,625 AZN) məbləğində debitor borcları təşkil etmişdir.

## 11. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| Banklarda yerləşdirilmiş pul vəsaitləri (ABŞ dolları ilə) | 1,423,857 | 3,769,200 |
| Banklarda yerləşdirilmiş pul vəsaitləri (AZN ilə) | 112,008 | 7,229 |
| Nağd pul vəsaitləri | 713 | 818 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **1,536,578** | **3,777,247** |

## 12. DİGƏR CARİ AKTİVLƏR

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Təchizatçılara verilmiş avanslar | 4,000 | 18,229 |
| Əvəzləşdirilən ƏDV | 4,838 | 5,269 |
| ƏDV depozit hesabı | 1,710 | 57 |
| **Cəmi digər cari aktivlər** | **10,548** | **23,555** |

## 13. KREDİTOR BORCLARI VƏ DİGƏR ÖDƏNİLƏCƏK VƏSAİTLƏR

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Kreditor borcları | 135,036 | 110,395 |
| **Cəmi maliyyə borcları** | **135,036** | **110,395** |
| Alınmış avanslar | 315,778 | 95,528 |
| İşçi heyəti ilə bağlı ödəniləcək vəsaitlər | 129,957 | 88,486 |
| Vergilər üzrə ödəniləcək vəsaitlər | 31,331 | 12,340 |
| **Cəmi maliyyə borcları və digər ödəniləcək vəsaitlər** | **612,102** | **306,749** |

## 14. NİZAMNAMƏ KAPİTALI

31 dekabr 2022-ci il tarixinə nizamnamə kapitalı 11,546,479 AZN təşkil etmiş və bir səhm üzrə nominal dəyəri 115,464.79 AZN olan 100 ədəd səhmdən ibarət olmuşdur (31 dekabr 2021-ci il: nizamnamə kapitalı 11,849,579 AZN təşkil etmiş və bir səhm üzrə nominal dəyəri 118,495.79 AZN olan 100 ədəd səhmdən ibarət olmuşdur). 31 dekabr 2022-ci il tarixində başa çatmış il ərzində nizamnamə kapitalı 303,100 AZN məbləğində azaldılmışdır.

## 15. DİGƏR KAPİTAL

31 dekabr 2022-ci il tarixində başa çatmış il ərzində səhmdar tərəfindən 265,200 AZN məbləğində əsas vəsaitlər Cəmiyyətə köçürülmüşdür (2021-ci il: 303,100 AZN məbləğində əsas vəsaitlər və mal-material ehtiyatları ümumi nəzarətdə olan müəssisəyə ötürülmüşdür).

## 16. GƏLİR

| | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| İpək məmulatlarının satışından əldə olunan gəlir | 4,042,679 | 7,713,922 |
| **Cəmi gəlir** | **4,042,679** | **7,713,922** |

## 17. SATIŞIN MAYA DƏYƏRİ

| | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Material xərcləri | 1,798,413 | 2,146,490 |
| Əməkhaqqı və digər hesablamalar | 1,571,362 | 1,107,710 |
| Kommunal xərclər | 306,220 | 223,472 |
| Köhnəlmə xərcləri | 202,892 | 196,400 |
| Yanacaq xərcləri | 41,996 | 12,621 |
| Hazır məhsul, tamamlanmamış istehsal və emalda olan məhsullar üzrə dəyişiklik | (498,042) | 3,528,888 |
| Digər xərclər | 39,871 | 38,958 |
| **Cəmi satışın maya dəyəri** | **3,462,712** | **7,254,539** |

## 18. ÜMUMİ VƏ İNZİBATİ XƏRCLƏR

| | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Əməkhaqqı və digər hesablamalar | 479,580 | 392,917 |
| Təhlükəsizlik xərcləri | 84,423 | 88,417 |
| Bank komissiyaları | 53,669 | 54,988 |
| Vergi xərcləri | 39,351 | 40,074 |
| Ezamiyyə xərcləri | 37,971 | - |
| Peşəkar xidmət haqları | 30,405 | 25,548 |
| Sığorta xərcləri | 14,027 | 13,534 |
| Gömrük haqları | 13,047 | 11,592 |
| Köhnəlmə xərcləri | 5,539 | 4,745 |
| Rabitə xərcləri | 4,044 | 3,375 |
| Digər xərclər | 33,298 | 31,688 |
| **Cəmi ümumi və inzibati xərclər** | **795,354** | **666,878** |

## 19. DİGƏR GƏLİRLƏR

| | **31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| İcarə gəliri | 10,127 | - |
| Metal qırıntılarının satışından əldə edilən gəlir | 2,661 | 3,119 |
| Müddətli depozit üzrə faiz gəliri | - | 10,000 |
| **Cəmi digər gəlirlər** | **12,788** | **13,119** |

## 20. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

### Məhkəmə prosedurları

Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Cəmiyyətə qarşı iddialar irəli sürülə bilər. Rəhbərlik hesab edir ki, heç bir əhəmiyyətli hesablanmamış zərər baş verməyəcək və buna uyğun olaraq maliyyə hesabatlarında heç bir ehtiyat yaradılmamışdır.

### Vergi qanunvericiliyi

Azərbaycan Respublikasının kommersiya qanunvericiliyi və vergi qanunvericiliyi müxtəlif şərhlərə və dəyişikliklərə səbəb ola bilər. Bundan əlavə, rəhbərlik tərərfindən vergi qanunvericiliyinin şərhi vergi orqanlarının şərhindən fərqli ola biləcəyi üçün, əməliyyatlar vergi orqanları tərəfindən yoxlanıla bilər və nəticədə Cəmiyyətə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Cəmiyyət bütün vergi ödəmələrini artıq həyata keçirdiyinə inanır və bu səbəbdən maliyyə hesabatlarında heç bir vergi öhdəliyi yaratmamışdır. Vergi dövrləri üç il ərzində vergi orqanları tərəfindən təftiş olunması üçün açıq olaraq qalır.

## 21. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Risklərin idarə edilməsi Cəmiyyətin fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir və Cəmiyyətin əməliyyatlarının əsas elementini təşkil edir. Cəmiyyətin əməliyyatlarına aid olan əsas risklər aşağıdakılarla əlaqəlidir:

- Kredit riski;
- Likvidlik riski;
- Bazar riski.

Cəmiyyət effektiv və səmərəli riskin idarə edilməsi prosesinin tətbiqinin önəmli olduğunu qəbul edir. Belə prosesin tətbiqinə imkan yaratmaq üçün Cəmiyyət Risklərin idarə edilməsi şöbəsini yaratmışdır ki, bunun da əsas məqsədi Cəmiyyəti risklərdən qorumaq və Cəmiyyətin qarşıda qoyulmuş fəaliyyət məqsədlərinə nail olması üçün imkan yaratmaqdır. Risklərin idarə edilməsi çərçivəsində Cəmiyyət aşağıdakı riskləri idarə edir:

**Kredit riski**

Bir tərəfin maliyyə aləti üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi zaman və bununla əlaqədar digər tərəfin maliyyə zərərləri ilə üzləşməsi ilə nəticələnə bilən hallarda Cəmiyyət kredit riskinə məruz qalır.

**Maksimal riskə məruz qalma**

Cəmiyyətin kredit riskinə maksimal məruz qalması əhəmiyyətli dərəcədə dəyişir və bu həm fərdi risklərdən, həm də ümumi bazar iqtisadiyyatı ilə bağlı risklərdən asılıdır.

**Coğrafi risk konsentrasiyası**

Aktivlər, öhdəliklər və kreditlə bağlı öhdəliklər qarşı tərəfin yerləşdiyi ölkəyə əsaslanır. Bu ölkələrin faktiki olaraq Azərbaycan Respublikasında yerləşən təmsilçilərinə münasibətdə mövcud olan debitor və kreditor borcları üzrə qalıqlar isə “Azərbaycan Respublikası” başlığı altında təqdim edilir. Nağd pul, qiymətli metal, əmlak və avadanlıqlar fiziki olaraq məxsus olduğu ölkəyə görə ayrılmışdır.

31 dekabr 2022-ci il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin coğrafi risk konsentrasiyası aşağıda göstərilmişdir:

| | Azərbaycan Respublikası | Digər qeyri-İƏİT ölkələri | 31 dekabr 2022-ci il Cəmi |
|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | |
| Əlaqəli tərəfdən alınacaq vəsait | 1,500,000 | - | 1,500,000 |
| Debitor borcları | 25,265 | 441,995 | 467,260 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,536,578 | - | 1,536,578 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **3,061,843** | **441,995** | **3,503,838** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | |
| Kreditor borcları | 135,036 | - | 135,036 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **135,036** | **-** | **135,036** |
| **XALİS MÖVQE** | **2,926,807** | **441,995** | **3,368,802** |

31 dekabr 2021-ci il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin coğrafi risk konsentrasiyası aşağıda göstərilmişdir:

| | Azərbaycan Respublikası | Digər qeyri-İƏİT ölkələri | 31 dekabr 2021-ci il Cəmi |
|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | |
| Debitor borcları | 35,232 | 156,393 | 191,625 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 3,777,247 | - | 3,777,247 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **3,812,479** | **156,393** | **3,968,872** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | |
| Kreditor borcları | 110,395 | - | 110,395 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **110,395** | **-** | **110,395** |
| **XALİS MÖVQE** | **3,702,084** | **156,393** | **3,858,477** |

## Likvidlik riski

Likvidlik riski Cəmiyyətin ödəmə vaxtı çatmış maliyyə öhdəliklərini yerinə yetirə bilməyəcəyi riskidir. Likvidlik riski Cəmiyyətin Maliyyə departamenti tərəfindən idarə olunur. Cəmiyyətin likvidlik mövqeyinin idarə olunması fəaliyyəti öhdəliklərin vaxtı gəldikcə ödənilməsi üçün zəruri likvid aktivlərin səviyyəsinin nəzərə alınmasını, bir sıra maliyyə mənbələrinə çıxışın təmin olunmasını, maliyyələşdirmə üzrə ehtiyat planlarının işlənib hazırlanmasını və maliyyə vəziyyəti üzrə likvidlik nisbətinin izlənməsini tələb edir.

31 dekabr 2022-ci il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin likvidlik riski aşağıda göstərilmişdir:

| | **1 ayadək** | **1 aydan 3 ayadək** | **3 aydan 1 ilədək** | **31 dekabr 2022-ci il Cəmi** |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Əlaqəli tərəfdən alınacaq vəsait | 500,000 | - | 1,000,000 | 1,500,000 |
| Debitor borcları | 22,832 | 444,428 | - | 467,260 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,536,578 | - | - | 1,536,578 |
| **Cəmi maliyyə aktivləri** | **2,059,410** | **444,428** | **1,000,000** | **3,503,838** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Kreditor borcları | 135,036 | - | - | 135,036 |
| **Cəmi maliyyə öhdəlikləri** | **135,036** | **-** | **-** | **135,036** |
| Likvidlik boşluğu | 1,924,374 | 444,428 | 1,000,000 | 3,368,802 |
| **Məcmu likvidlik boşluğu** | **1,924,374** | **2,368,802** | **3,368,802** | |

31 dekabr 2021-ci il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin likvidlik riski aşağıda göstərilmişdir:

| | **1 ayadək** | **1 aydan 3 ayadək** | **3 aydan 1 ilədək** | **31 dekabr 2021-ci il Cəmi** |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Debitor borcları | 35,232 | 156,393 | - | 191,625 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 3,777,247 | - | - | 3,777,247 |
| **Cəmi maliyyə aktivləri** | **3,812,479** | **156,393** | **-** | **3,968,872** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Kreditor borcları | 110,395 | - | - | 110,395 |
| **Cəmi maliyyə öhdəlikləri** | **110,395** | **-** | **-** | **110,395** |
| Likvidlik boşluğu | 3,702,084 | 156,393 | - | 3,858,477 |
| **Məcmu likvidlik boşluğu** | **3,702,084** | **3,858,477** | **3,858,477** | |

### Valyuta riski

Valyuta riski xarici valyuta mübadiləsi məzənnələrindəki dəyişikliklərin baş verməsi səbəbindən maliyyə alətlərinin dəyərində dəyişikliyin yaranması ilə bağlı riskdir.

31 dekabr 2022-ci il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin valyuta riski aşağıda göstərilmişdir:

| | AZN | ABŞ dolları | Avro | 31 dekabr 2022-ci il Cəmi |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Əlaqəli tərəfdən alınacaq vəsait | 1,500,000 | - | - | 1,500,000 |
| Debitor borcları | 25,265 | 441,995 | - | 467,260 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 112,716 | 1,423,857 | 5 | 1,536,578 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **1,637,981** | **1,865,852** | **5** | **3,503,838** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Kreditor borcları | 135,036 | - | - | 135,036 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **135,036** | **-** | **-** | **135,036** |
| **AÇIQ VALYUTA MÖVQEYİ** | **1,502,945** | **1,865,852** | **5** | **3,368,802** |

31 dekabr 2021-ci il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin valyuta riski aşağıda göstərilmişdir:

| | AZN | ABŞ dolları | Avro | 31 dekabr 2021-ci il Cəmi |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Debitor borcları | 35,232 | 156,393 | - | 191,625 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 8,047 | 3,769,200 | - | 3,777,247 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **43,279** | **3,925,593** | **-** | **3,968,872** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Kreditor borcları | 110,395 | - | - | 110,395 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **110,395** | **-** | **-** | **110,395** |
| **AÇIQ VALYUTA MÖVQEYİ** | **(67,116)** | **3,925,593** | **-** | **3,858,477** |

## 22. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

Ədalətli dəyər, məcburi satış və ya ləğvetmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və ən yaxşı olaraq aktiv bazar qiyməti ilə təsdiqlənir.

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Cəmiyyət tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin ehtimal olunan ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir.

Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər müşahidə olunmaqdadır, lakin iqtisadi şərtlər maliyyə bazarlarında aktivliyin həcmini məhdudlaşdırmaqda davam edir. Bazar qiymətləri köhnəlmiş ola bilər və ya aşağı qiymətlərlə satışın dəyərini əks etdirə bilər və bu səbəbdən maliyyə alətlərinin ədalətli dəyərini əks etdirməyə bilər. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən Rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

31 dekabr 2022-ci il tarixinə maliyyə hesabatlarında ilkin dəyəri və ya amortizasiya olunmuş dəyərində tanınan maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyəri aşağıda təqdim olunur:

| | **31 dekabr 2022-ci il** | |
|---|---|---|
| | **Balans dəyəri** | **Ədalətli dəyər** |
| Əlaqəli tərəfdən alınacaq vəsait | 1,500,000 | 1,500,000 |
| Debitor borcları | 467,260 | 467,260 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,536,578 | 1,536,578 |
| Kreditor borcları | 135,036 | 135,036 |

31 dekabr 2021-ci il tarixinə maliyyə hesabatlarında ilkin dəyəri və ya amortizasiya olunmuş dəyərində tanınan maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyəri aşağıda təqdim olunur:

| | **31 dekabr 2021-ci il** | |
|---|---|---|
| | **Balans dəyəri** | **Ədalətli dəyər** |
| Debitor borcları | 191,625 | 191,625 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 3,777,247 | 3,777,247 |
| Kreditor borcları | 110,395 | 110,395 |

Aşağıdakı cədvəl 31 dekabr 2022-ci il tarixinə ədalətli dəyər prinsipi ilə ölçülməmiş maliyyə alətlərinin ədalətli dəyərlərini müəyyənləşdirir və onların hər birinin ədalətli dəyər ölçüsünü aşağıda təsnif edilmiş ədalətli dəyər iyerarxiyası səviyyəsi ilə təhlil edir.

| | | | **Aşağıdakılardan istifadə edərək ədalətli dəyərin ölçülməsi** | | | |
|---|---|---|---|---|---|---|
| | **Maliyyə aləti üzrə təsnifat** | **Qiymətləndirmə tarixi** | **Fəal bazarlardakı kotirovka qiymətləri (1-ci Səviyyə)** | **Əhəmiyyətli müşahidə edilən giriş məlumatları (2-ci Səviyyə)** | **Əhəmiyyətli müşahidə olunmayan giriş məlumatları (3-cü Səviyyə)** | **Cəmi** |
| **Ədalətli dəyərləri açıqlanan aktivlər** | | | | | | |
| Əlaqəli tərəfdən alınacaq vəsait | Amortizasiya olunmuş dəyər | 31 dekabr 2022-ci il | - | - | 1,500,000 | 1,500,000 |
| Debitor borcları | Amortizasiya olunmuş dəyər | 31 dekabr 2022-ci il | - | - | 467,260 | 467,260 |
| Pul vəsaitləri və onların ekvivalentləri | Amortizasiya olunmuş dəyər | 31 dekabr 2022-ci il | 1,536,578 | - | - | 1,536,578 |
| **Ədalətli dəyərləri açıqlanan öhdəliklər** | | | | | | |
| Kreditor borcları | Amortizasiya olunmuş dəyər | 31 dekabr 2022-ci il | - | - | 135,036 | 135,036 |

Aşağıdakı cədvəl 31 dekabr 2021-ci il tarixinə ədalətli dəyər prinsipi ilə ölçülməmiş maliyyə alətlərinin ədalətli dəyərlərini müəyyənləşdirir və onların hər birinin ədalətli dəyər ölçüsünü aşağıda təsnif edilmiş ədalətli dəyər iyerarxiyası səviyyəsi ilə təhlil edir.

| | | | **Aşağıdakılardan istifadə edərək ədalətli dəyərin ölçülməsi** | | | |
|---|---|---|---|---|---|---|
| | **Maliyyə aləti üzrə təsnifat** | **Qiymətləndirmə tarixi** | **Fəal bazarlardakı kotirovka qiymətləri (1-ci Səviyyə)** | **Əhəmiyyətli müşahidə edilən giriş məlumatları (2-ci Səviyyə)** | **Əhəmiyyətli müşahidə olunmayan giriş məlumatları (3-cü Səviyyə)** | **Cəmi** |
| **Ədalətli dəyərləri açıqlanan aktivlər** | | | | | | |
| Debitor borcları | Amortizasiya olunmuş dəyər | 31 dekabr 2021-ci il | - | - | 191,625 | 191,625 |
| Pul vəsaitləri və onların ekvivalentləri | Amortizasiya olunmuş dəyər | 31 dekabr 2021-ci il | 3,777,247 | - | - | 3,777,247 |
| **Ədalətli dəyərləri açıqlanan öhdəliklər** | | | | | | |
| Kreditor borcları | Amortizasiya olunmuş dəyər | 31 dekabr 2021-ci il | - | - | 110,395 | 110,395 |